**A.N.Abbasbəyli, S.Z.Yusifzadə**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

**(ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər)**

**D Ə R S L İ K**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 27.10.2009-cu il tarixli 1196 saylı əmri ilə dərslik kimi təsdiq edilmişdir.

**Bakı 2009**

Elmi məsləhətçi: AMEA-nın müxbir üzvü Y.Mahmudov

Redaktoru: Q.H.Məmmədov

Rəyçilər: H.C.Əlibəyli
tarix elmləri doktoru, professor
P.Q.Darabadi
tarix elmləri doktoru, professor

**Abbasbəyli A.N., Yusifzadə S.Z.** Beynəlxalq münasibətlər tarixi (ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Dərslik. Bakı, BDU nəşriyyatı, 2009, 309 səh.

Dərs vəsaiti beynəlxalq münasibətlər tarixinin ən qədim zamanlardan (şərq, yunan və Roma diplomatiyası) Vyana konqresi, Krım müharibəsi və Almaniyanın birləşdirilməsi də daxil olmaqla XIX yüzilliyin 70-ci illərinin sonuna qədərki dövrünü əhatə edir.

Dərslik beynəlxalq münasibətlər, beynəlxalq hüquq, gömrük hüququ, iqtisadi mədəni əlaqələr sahələri üzrə ixtisaslaşan ali məktəb tələbələri, mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$\mathbf{A}\frac{0033179}{700122}-2009$

©A.N.Abbasbəyli, S.Z.Yusifzadə

**MÜNDƏRİCAT**

**Giriş**
**I Mövzu:**
Qədim Şərqdə dövlətlərarası münasibətlər və diplomatiya işi
**II Mövzu:**
Misir və Mesopotamiyanın beynəlxalq əlaqələri.
2.1. Yeni şahlıq dövründə Misirin yüksəlişi. Misir fironlarının işğalçı yürüşləri
2.2. Misir-Babilistan münasibətləri yeni şahlıq dövründə
**III Mövzu:**
Mesopotamiya şəhər-dövlətlərinin qədim Misirlə diplomatik -siyasi əlaqələrinin spesifik xüsusiyyətləri
3.1. Babilistan-Misir diplomatik-siyasi əlaqələri
3.2. Misirin Mitanni dövləti ilə əlaqələri
3.3. Misir-Assuriya əlaqələri
**VI Mövzu:**
Misirin Xet dövləti ilə diplomatik əlaqələri
**V Mövzu:**
Qədim Yunanıstanda diplomatiya və səfirlik işi
5.1**.** Qədim Yunan polisləri arasında münasibətlər və səfirlik işi
5.2.Makedoniyanın beynəlxalq əlaqələri
5.3. Makedoniyalı İsgəndərin Şərq yürüşü və nəticələri
**VI Mövzu:**
Qədim Roma diplomatiyası.
6.1. Qədim Romada diplomatiya və səfir işi
6.2. Romanın respublika və imperiya dövrü diplomatiyası
**VII Mövzu:**
Erkən orta əsrlərdə beynəlxalq münasibətlər
7.1. Avropanın siyasi xəritəsi
7.2. Bizans imperiyasının xarici siyasəti
7.3. Frank dövlətinin yaranması və xarici siyasəti
**VIII Mövzu.**
Ərəb xilafəti diplomatiyası
**IX Mövzu:**
Teymurilərin hakimiyyəti dövründə beynəlxalq münasibətlər
9.1. Əmir Teymurun işgalları ərəfəsində Cənubi Qafqazda beynəlxalq vəziyyət
9.2. Əmir Teymurun Azərbaycanda möhkəmlənmək uğrunda hərbi-siyasi mübarizəsi
9.3. Cənubi Qafqaz ugrunda hərbi-siyasi mübarizənin beynəlxalq nəticələri
**X Mövzu:**
Ağqoyunlu dövlətinin xarici siyasəti və beynəlxalq əlaqələri
**XI Mövzu:**
Son orta əsrlər və yeni dövrün əvvəllərində beynəlxalq münasibətlər
**XII Mövzu:**

Avropa diplomatiyası XVII əsrdə
**XIII Mövzu:**
İngiltərə burjua inqilabı dövrü diplomatiyası
**XIV Mövzu:**
1775-1783-cü illər burjua inqilabı dövründə ABŞ diplomatiyası və beynəlxalq münasibətlər
14.1.Kolonilayarda müstəqillik uğrunda mübarizəni şərtləndirən amillər
14.2.Istiqlaliyyət müharibəsinə Avropa dövlətlərinin münasibəti
14.3. İngiltərənin beyməlxalq aləmdən təcrid olunması
**XV Mövzu.**
Böyük Fransa burjua inqilabı ərəfəsi və dövründə Avropada beynəlxalq münasibətlər
**XVI Mövzu:**
Fransada konsulluq və I İmperiya dövründə beynəlxalq münasibətlər
**XVII Mövzu:**
«Vyana sistemi» və Müqəddəs ittifaqın yaradılmasının beynəlxalq şəraitə təsiri
**XVII Mövzu:**
Xanlıqların yaranması və Quba xanlığınln xarici siyasəti
20.1. Azərbaycanda xanlıqların meydana çıxması.Quba xanlığı
20.2. Quba xanlığının xarici siyasəti
**XIX Mövzu:**
Azərbaycanın Rusiya tərəfindən işğalı və beynəlxalq nəticələri
**XX Mövzu:**
Krım müharibəsi ərəfəsi və dövründə beynəlxalq münasibətlər
**XXI Mövzu:**
Almaniyanın birləşdirlməsi ətrafında diplomatik mübarizə və beynəlxalq nəticələri
**Nəticə**

## Giriş

Müasir beynəlxalq münasibətlər çoxminillik tarixi inkişaf yolunun sonucudur, desək səhv etmərik. Dünyanın siyasi xəritəsi hələ ən qədim zamanlardan öz rəngarəngliyi ilə seçilmişdir. Tarix boyu meydana çıxmış dövlətlər konkret zaman kəsiyində mövcud olmuş, müharibələr aparmış, cahangirlik etmiş, bəzən isə meydana çıxdığı kimi də izsiz-sədasız yox olmuşdur. Mövcud tədqiqatlarda dövlətlərin yaranması bir qayda olaraq e.ə. IV minilliyin ikinci yarısı və ya sonlarına aid edilir. Ən qədim dövlətlər Misirdə, Mesopotamiyada, Çində, Hindistanda və Avropanın cənubunda-Yunanıstanda təşəkkül tapmışdır.

Dövlətlərin tarix səhnəsinə qədəm qoyması ilə dövlətlərarası münasibətlərdə əməkdaşlıq və müharibə problemləri ön plana keçir və dövlətlərin «olum və ya ölüm» məsələsinə çevrilir. Tarixi inkişafın müxtəlif dövrlərində dövlətlərarası ticarət-iqtisadi əlaqələrin mütəmadi davam etdiyini müşahidə edirik, eyni zamanda müxtəlif dövlətlərin bir koalisiyada birləşərək apardıqları müharibələrin də şahidi oluruq. «Ən qədim müqavilə», «ultimatum», «barışıq», «iki dövlətin ittifaqı» anlayışları hələ quldarlıq münasibətlərinin mövcud olduğu dövrlərdən bizə məlumdur. E.ə. 616-612-ci illərdə Midiya və Babilin ittifaqı qədim Şərqin ən cəngavər dövlətlərindən olan Assuriyanın varlığına son qoyulması ilə nəticələndi. Qədim Romanın yeritdiyi «parçala və ağalıq et» strategiyası Aralıq dənizi hövzəsində nəhəng quldarlıq imperiyasının yaradılmasına gətirib çıxardı.

Roma hüququ əsasında müasir beynəlxalq hüququn əsaslarından sayılan «xalqlar hüququ» meydana gəldi. Yunan və Roma diplomatiyasının yüksəlişində ritarik-diplomatiya məktəblərinin yetirmələri mühüm rol oynamışdı. Romanın barbarlarla müttəfiqlik müqavilələri, Sasanilər və hunlarla imzaladığı sazişlər «Xalqlar hüququnu» olduqca zənginləşdirirdi. Roma diplomatiyasının ənənələri Bizans imperiyasında, Frank dövlətində yaşadı və inkişaf etdirildi.

Avropada feodal pərakəndəliyi dövrünün diplomatiyası senyorluq – vassallıq münasibətləri üzərində qurulmuşdu. 756-cı ildə yaradılmış Papa dövləti saxta «Konstantin bəxşişinə» əsasən öz hakimiyyətini bütün Avropaya yaymağa başladı. Müqəddəs Roma imperiyası Roma imperiyası ənənələrinin yaşanmasında mühüm rol oynamışdı. Yaranmaqda olan milli dövlətlərdə diplomatiya və səfir işi bu ənənələrdən bəhrələnirdi.

Şərqdə yaranan və genişlənən ərəb xilafəti dövlətlər-arası münasibətlərə və diplomatiyaya özünəməxsus yeniliklər gətirdi. 630-cu ildə ərəb xilafətinin yaradılması Məhəmməd peyğəmbərin onilliklər boyu apardığı mübarizənin nəticəsi idi. Xudeybə və Məkkə müqavilələri peyğəmbər diplomatiyasının uğurları sırasında mühüm yer tuturdu. Əməvilər, Abbasilər və Kordova xilafətində xarici dövlətlərlə diplomatik əlaqələrin saxlanılmasına xüsusi fikir verilirdi. Abbasi xəlifəsi Harun-Ər Rəşid (786-809) Frank imperatoru Böyük Karlla (768-814) diplomatik əlaqələr saxlayır, İtaliyanın dəniz respublikalarına ticarət karvanları göndərirdi.

Ərəb istilaları nəticəsində bir vaxtlar qüdrətli olan Sasani dövlətinin varlığına son qoyulmuş, Bizans imperiyası Asiya və Afrikadakı geniş ərazilərini itirmiş, Ərəbistan yarımadasından Cənubi Qafqaza, Mərkəzi Asiyadan Hindistana qədər nəhəng ərazilər ərəb xilafətinin tərkibinə daxil edilmişdi. Lakin Qərbdə Frank dövlətinin, Şərqdə isə Ərəb xilafətinin parçalanması nəticəsində dünyanın siyasi xəritəsi dəyişilmiş və olduqca rəngarəng xarakter almışdı. Frank imperiyasının süqutu nəticəsində Qərbdə Fransa, Almaniya və İtaliyanın simasında milli dövlətlər yaranmış, Şərqdə isə Səlcuq istilalarından sonra nəhəng Səlcuq imperiyası təşəkkül tapmışdı. Tədricən adət-ənənələr, yazılmış və yazılmamış qanunlar üzərində diplomatiya hüququ formalaşır və mərasimləşirdi. Otuz ildən çox səlcuq sultanlarından Alp Arslan və Məlikşahın vəziri olmuş Xacə Nizamülmülk dövlətlərarası münasibətlərdə elçinin rolundan danışaraq «Siyasətnamə» əsərinin 21-ci fəslində yazırdı: «Elçiliyə o adam yarayar ki, şahlara xidmət etmiş olsun, hafizəli, uzaqgörən olsun və hər bir elmdən xəbəri olsun, dilli-dilavər olsun, artıq söz söyləməsin, çox səfər etmiş, qədd-qamətli, yaraşıqlı olsun, alim və qoca olsa daha yaxşı olar... Elçi şahın xasiyyətinə dələlət edər».[1]

Azərbaycan dövlətçilik ənənələrinin yaşanmasında ərəb xilafəti dağıldıqdan sonra meydana gələn Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər dövlətlərinin, Səlcuq imperiyası parçalandıqdan sonra yaranmış Eldənizlər dövlətinin rolu və əhəmiyyəti böyük olmuşdur. İslam dininin dövlət səviyyəsinə yüksəlişindən sonra Hulakülər, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri də xalqın mədəni dövlətçilik tarixində mühüm rol oynamışlar. Orta əsrlərə dair çoxsaylı qaynaqlarda adları qeyd edilən Azərbaycan dövlətlərinin siyasi həyatı beynəlxalq əlaqələri haqqında maraqlı məlumatlara rast gəlinir.

Ağqoyunlu və Səfəvi dövlətlərinin tacir diplomatları Osmanlı dövlətinə qarşı mübarizə aparmaq üçün çoxtərəfli danışıqlar aparır, Cənubi Avropa dövlətlərinin bir qrupunun iştirakı ilə antiosmanlı Liqasının yaradılmasına nail olurlar. Iki yüz ildən yuxarı davam edən Ağqoyunlu-Osmanlı və Səfəvi-Osmanlı müharibələri ümumtürk dünyasının əsl faciəsi idi.

Avropa diplomatiyası bu türk dövlətlərini bir-birilə vuruşdurmaqla Avropanı Osmanlı yürüşlərinin hədəfi olmaqdan xilas etmişdilər. Ağqoyunlu, Səfəvi və Osmanlı dövlətlərinin başçıları, sərkərdələri və diplomatları Qərb ölkələrinin məkrli siyasətlərinin uzağa gedən nəticələrini dərk etməmiş deyildilər, lakin aralarındakı ziddiyyətlər və mənafe ayrılığı ümumi düşmənə qarşı birləşməyə imkan vermirdi. Türk dünyası

---

[1] Nizamülmlük. Siyasətnamə. B., Elm, 1989, s. 96

daxilindəki didişmələr bütün XV-XVIII əsrlər boyu davam etmiş və türk dünyasının ümumi hərbi, siyasi, iqtisadi və mənəvi qüdrətinə ağır zərbə vurmuşdu.

Ağqoyunlu Uzun Həsənin, I Şah İsmayılın, I Təhmasibin və I Şah Abbasın elçiləri Avropa dövlətlərindən bir çoxunun saraylarında olmuş, Roma papası ilə danışıqlar aparmış, Azərbaycan ipəyi, xalçası, ədviyyatı ilə yüklənmiş ticarət karvanları Böyük İpək yolu ilə Qərbə yollanmış, əvəzində Avropa texnologiyası, silahları və s. Şərqə daşınmışdı. Dövrün qadın siyasətçilərindən Qara Yusifin arvadı Əliyyə Könüldaş, Uzun Həsənin anası Sara Xatın, Sultan Muradın anası Gövhər Sultan dövlət idarəçiliyində, danışıqların aparılmasında, tayfalararası düşmənçiliyin aradan qaldırılmasında mühüm rol oynamışdılar. Şah Məhəmməd Xudabəndənin arvadı Məhdi Ülya ali divanın vəkili səviyyəsinə qədər yüksəlmiş və Səfəvilər dövlətinin xarici siyasətinə ciddi təsir göstərmişdi.

Avropada milli dövlətlərin meydana gəlməsi və inkişafı dövlətlərarası münasibətləri məzmunca zənginləşdirmiş, adət-ənənələr və mərasimlər üzərində formalaşan Avropa dövlətlərarası hüququ-beynəlxalq hüquq elmi təşəkkül tapmışdı. XIII-XVIII əsrlər boyu formalaşmaqda olan milli dövlətlərdə mükəmməl diplomatiya orqanları yaradılmış, səfirlik işi daimi peşəyə çevrilmiş, hətta səfir ironik şəkildə «fəxri casus» statusunu qazanmışdı. Dövlətlərarası münasibətlərdə xristian dini faktorunu isə Roma papalıq dövləti və Müqəddəs Roma imperiyası yaşatmışdı. F.Engels obrazlı şəkildə yazırdı ki, antik dövrdən orta əsrlərə uçub-dağılmış şəkildə - şəhərlər, bütöv şəkildə isə xristian kilsəsi miras qalmışdı. Din amili dövlətlərarası münasibətlərdə müasir dövrdə də mühüm rol oynamaqda davam edir. Roma kilsəsinin elçiləri – nuntsilər bütün Avropa dövlətlərinə papanın fərmanlarını yayır, Avropada baş verməkdə olan ictimai-siyasi dəyişikliklərə ciddi nəzarət edirdilər.

XIII əsrin sonlarından etibarən beynəlxalq münasibətlər meydanında görünməyə başlayan Osmanlı dövləti XV əsrin ortalarında Avropa ilə Asiya arasında «qızıl körpünü» ələ keçirməklə dünya siyasətinin inkişafına ciddi şəkildə təsir göstərməyə başladı. Bizans imperiyasının süqutu və Avropanın cənubunun Osmanlı dövləti tərəfindən işğalı Avropa diplomatiyasının Türkiyə ilə bağlı məkrli planlar qurmağa müttəfiqlər axtarmağa və səlib yürüşünün təşkili üçün müxtəlif tədbirlərə əl atmağa vadar etmişdi. Həm Səfəvi-Osmanlı, həm də Rusiya-Türkiyə müharibələri Qərb diplomatiyasının Türkiyəyə qarşı yeritdiyi mənfur siyasətin nəticəsi idi.

Son orta əsrlər və yeni dövrün əvvəllərində beynəlxalq münasibətlər ciddi dəyişikliklərə məruz qaldı. Belə ki, böyük coğrafi kəşflər, Hindistana və Amerikaya gedən yolun açılması, müstəmləkə işğallarının başlanması, dünya ticarətinin yaranması, ticarət marağının mühüm əhəmiyyət kəsb etməyə başlaması, konfissional sistemə əsaslanan cəmiyyətlərin meydana gəlməsi, sülalə müqavilələrinə əsaslanan koalisiyaların yaranması, beynəlxalq ticarət karvan yollarının dənizlərdən okeanlara keçməsi bütün bunlar dünya siyasətində qlobal dəyişikliklərin təməlini qoydu. XVI əsrin əvvəlləri üçün milli inkişafda Qərb ölkələrindən-İngiltərə, Fransa, İspaniya, Danimarka, İsveçrə, Rusiya, Şərq ölkələrindən – Azərbaycan, Türkiyə, Çin, Hindistan, Misir və s. ölkələr mühüm nailiyyətlər qazanmışdılar. Elə bu dövrdən etibarən dünya siyasətində Qərb ölkələri aparıcı rol oynamağa başlamışdı.

XV əsrin ortaları və ikinci yarısı beynəlxalq münasibətlər sistemində radikal dəyişikliklərlə səciyyələnir ki, bu baxımdan iki hadisənin xüsusi qeyd edilməsi vacibdir. Birincisi, dünya siyasət meydanına Rusiyanın çıxması hesab edilə bilər. Rusiya – Böyük Moskva knyazlığı haqqında Avropaya ilk geniş məlumatı Sileziya taciri Nikolay Peppel vermişdi. 1486 və 1489-cu illərdə onun Rusiya haqqında Qərbdə verdiyi məlumatlar xüsusi sensasiya yaratmışdı. Ikinicisi, 1453-cü ildə Konstantinopolun Türkiyə tərəfindən tutulmasından sonra Avropanın cənubunda beynəlxalq şəraitin kəskin şəkildə dəyişməsi ilə bağlı idi. Avropanın siyasi xəritəsi hələ tamamlanmaqda idi.

Son orta əsrlərin müstəmləkə imperiyaları Portuqaliya və İspaniya dövlətləri idi, XVI əsrin beynəlxalq münasibətlərində İspaniya dövləti başlıca rol oynadığı halda XVII əsrdə bu birincilik Fransaya keçmişdi. XVII yüzilliyin əvvəlləri üçün Avropada beynəlxalq ziddiyyətlərin düyün nöqtəsi Almaniya torpaqları idi ki, bunun nəticəsi Otuz ilik müharibə oldu. Avropanın iki düşmən koalisiyada birləşmiş dövlətləri arasında gedən mübarizə müasir dünya qaydasının əsaslarında dayanan Vestfaliya beynəlxalq münasibətlər sisteminin formalaşması ilə başa çatdı. Vestfaliyanın iki ilə şəhəri – Osnabryuk və Myunsterdə imlazalanmış müqavilələr nəticəsində Avropanın siyasi xəritəsi formalaşdı.

XVI-XVII əsrlər Avropa diplomatiyasında bir sıra yeniliklərlə səciyyələnir. Dövlətlərarası münasibətlərin daimi xarakter alması, daimi diplomatiya institutlarının meydana gəlməsi, müxtəlif koalisiyaların və sülalə ittifaqlarının yaranması, dövlət marağının beynəlxalq münasibətlərə hakim kəsilməsi, dini müharibələr, hakimiyyətin legitimliyi, beynəlxalq hüquq sahəsində müxtəlif tədqiqatların meydana gəlməsi, dövlətlərarası münasibətlərdə qüvvələr müvazinəti, nikah diplomatiyasının xüsusi təsir vasitəsinə çevrilməsi – bütün bunlar həmin yeniliklərin yığcam siyahısı olsa da beynəlxalq münasibətlər sisteminə ciddi təsir göstərən faktorlara çevrilmişdi. Göstərilən faktorlardan hər hansı birinin, məs., «nikah diplomatiyasının» mahiyyətini aydınlaşdırmaq üçün bir nümunəyə müraciət edək, 1551-ci ildə İspan kralı V Karlla («Günəş kral») İngiltərə parlamenti arasında imzalanmış nikah müqaviləsinə görə, «Mariya (İngiltərə şahzadəsi) Filippə (V Karlın oğlu)

ərə verilirdi... lakin İspaniya İngiltərəni Fransa ilə müharibəyə cəlb etməməli, Filipp İngiltərə qanunlarına hörmət etməli, Mariyanın ölümündən sonra İngiltərə taxt-tacı iddiasında olmamalı idi». «Nikah diplomatiyası» beynəlxalq münasibətlərin sülaləvi xarakterinin möhkəmləndirilməsində mühüm rol oynamışdı.

XVII əsr Avropa siyasətində Fransa hegemonluğu dövrüdür ki, bu ilk növbədə görkəmli dövlət xadimi, diplomat, hersoq, generalissimus Arman Jan dü Plessi Rişelyenin (1586-1642) adı ilə bağlıdır. Hakimiyyətə gəlişinin birinci məqsədini «Kralı yüksəltmək», ikinci məqsədini «Krallığı qüdrətli etmək» elan edən Rişelye «dövlət marağını» strategiyaya çevirir. Fransız müəlliflərindən Şantero Lefevro yazırdı ki, «Reyn çayınadək bütün Qalliya torpaqları Fransaya verilməzsə, Avropada sülh və əmin-amanlıq heç zaman bərqərar olmayacaqdır». Lakin Fransanın həddindən artıq qüvvətlənməsi Avropada qüvvələr tarazlığını pozduğu üçün antifransız koalisiyasının yaradılması «qüvvələr müvazinətinin» dövlətlərarası münasibətlərdə oynadığı rolu əyani şəkildə nümayiş etdirdi.

İspaniyanın dənizlərdə və okeanlarda ağalığına son qoyulduqdan sonra bu birincilik tədricən İngiltərəyə keçməyə başladı. Fransanın kontinentdə hegemonluğu İngiltərənin dünya okeanında ağalığı ilə paralel baş verməkdə idi. Lakin Fransanın «kontinental tirana» çevrilməyə çalışması İngiltərə, Hollandiya və Müqəddəs Roma imperiyasından ibarət yaradılmış Böyük alyansla (1701) toqquşmaya gətirib çıxardı ki, bunun nəticələri Fransan üçün o qədər də ürək açan olmadı. Avropada dövlətlərarası münasibətlərin kifayət qədər ziddiyyətli və mürəkkəb konfiqurasiyası XVIII əsrin ortalarında iki bir-birinə qarşı duran koalisiyanın yaradılması ilə başa çatdı.

Şimali Amerikadakı koloniyalar uğrunda mübarizə 1756-cı ilin mayında İngiltərənin Fransaya müharibə elan etməsi ilə nəticələndi. İngiltərə (Hannoverlə birlikdə) və Prussiyanın ittifaqına alman knyazlıqlarından Hessen-Kassel, Braunşveyiq, Şaomburq-Litqe və Saksen-Qota daxil idilər. Digər koalisiyada Avstriya, Fransa, İsveç və Saksoniya birləşmişdilər. Rusiya bu koalisiyaya 1757-ci il yanvarın 11-də Avstriya ilə imzalanmış müqaviləyə əsasən qoşulmuşdu. Az sonra Müqəddəs Roma imperiyasına daxil olan alman knyazlıqlarının əksəriyyəti Avstriya-Fransa ittifaqına qoşuldular. Mövcud tədqiqatlarda yaranmış vəziyyət «diplomatik inqilab» adlandırılır, çünki əslində bir-birinə qarşı düşmən mövqedə olan dövlətləri «dövlət maraqları» müxtəlif koalisiyalarda birləşməyə vadar etmişdi.

Yeddiillik müharibə Avropada qüvvələr tarazlığının yeni nisbətini müəyyənləşdirdi, Avropada müharibəyə qədər mövcud olan tarazlıq İngiltərə və Prussiyanın xeyrinə dəyişdi. İngiltərə dünyanın ən iri müstəmləkə və dəniz dövlətinə çevrildi (lakin məhz bu ingilis koloniyalarının 1775-1783-cü illər istiqlaliyyət mübarizəsi dövründə İngiltərənin beynəlxalq aləmdən tam şəkildə təcrid edilməsinə gətirib çıxardı). Fransa müstəmləkə mülklərinin əksəriyyətini itirdi və İngiltərənin dənizlərdə hegemonluğunu qəbul etmək məcburiyyətində qaldı.

XVIII yüzilliyin ikinci yarısından etibarən dünyanın siyasi xəritəsi bir sıra hadisə və proseslərin təsiri ilə ciddi dəyişikliklərə məruz qaldı ki, bunlara müstəmləkələr uğrunda mübarizənin, Böyük Fransa burjua inqilabını, ingilis koloniyalarının istiqlaliyyət müharibəsini, Polşanın bölüşdürülməsini, şərq məsələsinin kəskinləşməsini, Napoleon müharibələri nəticəsində Avropada yaranmış beynəlxalq şəraiti, antifransız koalisiyalarının yaradılması və fəaliyyətini, Vyana konqresi və qərarlarını, Müqəddəs İttifaqın və Vyana sisteminin yaradılmasını göstərmək olar.

Vyana konqresindən sonra yaradılmış «pentarxiya» - «beşlər ittifaqı» - dünyanın yeni geosiyasi mənzərəsi idi. Bu dövrdən etibarən Avropa dövlətləri arasında bir növ «nisbi sükunət» vəziyyəti yaranır ki, belə vəziyyət XIX yüzilliyin 50-ci illərinə qədər davam edir.

Beynəlxalq münasibətlərin qədim, orta əsrlər və XIX yüzilliyin 70-ci illərinə qədərki yeni dövrünün hadisə və proseslərini əhatə edən «Beynəlxalq münasibətlər tarixi» dərsliyi müəlliflərin uzun illər boyu oxuduğu mühazirələr kursuna əsasən hazırlanmış, Bakı Dövlət Universitetinin «Beynəlxalq münasibətlər və beynəlxalq hüquq» fakültəsinin hər iki ixtisasının tələbə və magistrləri üçün nəzərdə tutulmuşdur. Bununla yanaşı, dərslikdən respublikamızın ali məktəblərinin müvafiq profilli ixtisaslarının tələbələri və magistrləri, habelə elmi-ictimai fikri də istifadə edə bilər.

# I Mövzu
# Qədim Şərqdə dövlətlərarası münasibətlər və diplomatiya işi

Diplomatiya tarixi öz başlanğıcını dövlətlərarası münasibətlərin yarandığı dövrdən götürür. Bu mənada dövlətlər e.ə. IV minilliyin ortalarından etibarən tarix səhnəsinə qədəm qoymuşdur. Dövlətlərarası münasibətlərin erkən dövrlərində bunlar əsasən hərbi-iqtisadi xarakterli olmuşdur. Diplomatiya bir elm sahəsi kimi XVI-XVII əsrlərdən etibarən formalaşmağa başlasa da, daimi peşə kimi XVII əsrin sonu XVIII əsrlərdən etibarən təşəkkül tapmışdır.

Dövlətlər meydana gəldiyi vaxtdan bir-biriləri ilə müxtəlif xarakterli münasibətlərdə olmuşlar ki, bunlar müəyyən ənənələrə əsaslanmışdır. Həmin adət və ənənələrin üzərində müasir beynəlxalq hüquq elmi təşəkkül tapmışdır.

E.ə. XV yüzilliyə aid edildiyi hesab olunan və Misirdə aşkarlanan El-amarn yazıları təqribən 500 ədəd kitabdan ibarət olub, həm təsərrüfat xarakterli, həm də nomlararası xarakterli münasibətləri öyrənmək üçün əhəmiyyətlidir. Diplomatiya tarixi bir elm sahəsi kimi götürülsə də, bu əslində tarix elminin bir hissəsi kimi mövcud olmuşdur. Məlum olduğu kimi, elmlər öz təsnifatına görə Aristotelə borcludular. «Tarixin atası» Herodot yunan-iran müharibələrinin tarixini işləyərkən dövlətlərarası münasibətlərə xüsusi diqqət yetirmişdir. Beynəlxalq münasibətlər tarixinin müasir dövrləşməsi tarixi dövrləşməyə uyğundur.

İlk mərhələ kimi quldarlıq dövrü diplomatiyası götürülə bilər ki, xronoloji baxımdan bu dövr e.ə.IV minilliyin II yarısı - Misir nomlarının siyasi ittifaqa çevrilməsindən Roma quldarlıq imperiyasının süqutuna qədər (b.e. 476-cı ilinədək) davam etmişdir. Feodalizm dövrü beynəlxalq münasibətləri V-XVIII əsrin ortalarına qədər davam etmiş və bir neçə mərhələdən keçmişdir. İntibah dövrü xadimlərindən Flavio Biyondo və Lorensa Vallua orta əsrlər dövrü kimi XII əsrin ortalarına qədər olan mərhələni götürsələr də və bu beynəlxalq münasibətlərin bir sıra problemlərinin qoyuluşu baxımından düzgün olsa da, dövlətlərarası münasibətlər epizodik xarakter daşıdığına görə, konkret mərhələ kimi qəbul edilə bilməz.

XVIII əsrin II yarısından başlanan dövr I dünya müharibəsinin sonuna qədər davam edir və 2 mərhələyə bölünür. Bu elə dövrdür ki, beynəlxalq münasibətlər təşkilatlanır, daimi səfirlik institutu yaranır. Ənənələrə əsasən həmin institutun imtiyazları beynəlxalq hüquq elminin tələbləri baxımından məcəlləşdirilir.

I dünya müharibəsinin sonundan başlanan dövr müasir beynəlxalq münasibətlər dövrü kimi qiymətləndirilə bilər və üç mərhələyə bölünür:

1.1918-1945-ci illər.

2.Soyuq müharıbə epoxası 1946-1990-ci illər

3.XX əsrin 90-cı illərdən müasir dövrdək

Qədim Şərq diplomatiyasını öyrənmək üçün qaynaqları 2 qrupa bölürlər. Arxeoloji və yazılı qaynaqlar. Fransız arxeoloqu de Morqan XIX əsrin 80-ci illərində Suz kitabxanasını, ingilis arxeoloqu Corc Smit isə buradan 30000 gil kitabəni aşkaryır. Assur dövlətinin şərq ölkələri ilə münasibətlərinə dair faktlar aşkara çıxarıldı. Yazılı qaynaqlar isə əsasən yunan və roma qaynaqlarından ibarət olub epizodik xarakter daşıyırdı.

Qaynaqlara görə, Misirdə erkən dövlət birləşmələri e.ə.IV min I yarısında meydana gəlmiş dini, hərbi, siyasi birliklərdən ibarət olan nomlar olmuşdur. Tədricən normaların birləşməsi prosesi cənub və şimal padşahlarının yaranması başa çatmış və e.ə. III minillikdə paytaxtı Memfis olan qədim Misir şahlığı meydana gəlmişdi. Qədim, orta, yeni şahlıq dövrlərinin fironları - Tutmoslar və II Ramzes Misir şahlığının hakimiyyətini orta Mesapatomiyaya qədər yaya bilmişdir. Xüsusilə II Ramzesin apardığı müharibələr uğurlu olmuşdu. E.ə. XIV əsrdə Misir giksos tayfalarının yürüşlərinə məruz qaldı. Giksos çarı Fivi mühasirəyə alaraq firondan təslim olmağı tələb etdi. Bu tələb tarixdə ilk ultimatum hesab olunur. Nəticədə Fiv tutulur, orta Misir çarlığı süqut edir.

Elə bu dövrdən etibarən siyasi tarixə Assuriya kimi cəngavər dövlət daxil oldu. Aşşur dövlətinin yaranması e.ə. XXVIII əsrə aid edilir. Lakin XIV əsrdən etibarən Aşşur çarlığı Mespatomiyanın siyasi xəritəsinə ciddi dəyişikliklər gətirməyə başladı. Bu isə həm Het, həm də Misir çarlığını narahat etməyə bilməzdi. Assuriyanın işğalları ilk dövrdə Misir qoşunlarının müqaviməti üzündən ciddi əhəmiyyət kəsb etmirdi. Misir fironları Mesapatomiyanın şimalına-Zaqros dağlarına hücumlarına ara vermirdi. Bu isə Het çarlığı ilə 17 il davam edən müharibəyə səbəb oldu. Nəhayət Misir fironu II Ramzes və Het çarı III Xattuşil müharibəni dayandırdılar və müqavilə imzaladılar. Müqavilənin mətnindən aydın olur ki, həmin sənəd II Ramzesin çarlığının 17-ci ilində imzalanıb. Müqavilə 3 hissədən ibarətdir.

Giriş hissədə hökmdarların titulları sadalanır, sazişin əhəmiyyəti qeyd olunur. Müqavilənin mətni II hissədə verilib. Burada sazişə gələn tərəflər arasında iqtisadi və siyasi əməkdaşlıqdan bəhs edilir. Siyasi əməkdaşlıq bilavasitə Assuriyaya qarşı çevrilmişdi. Müqavilənin son hissəsində götürülmüş öhdəliklərin pozulacağı təqdirdə allahların qəzəbindən bəhs edilir. Misir və Het çariçaları da öz aralarmda saziş bağladılar. Saziş bəzək əşyalarının mübadiləsi ilə əlaqədardır.

Dövlətlərarası münasibətlərin qiymətləndirilməsi, yaranmış ənənələrin öyrənilməsi baxımından Aşşur dövlətinin xarici siyasəti xüsusilə diqqətəlayiqdir. Bu dövlət təxminən e.ə.VIII-VII əsrlərdə qədim Şərqin

cəngavər dövlətləri arasında olub və Babil çarı Hammurapidən sonra Mesapatomiyanın birləşməsinə nail olan II böyük dövlət olmuşdur. E.ə.VIII-VII əsrlərdə bütün Mesapatomiya Aşşur çarlarına tabe olmuş, dövlətin paytaxtı əvvəlcə Aşşur, sonra Nineviya şəhəri olmuşdur. Aşşur çarları Mesapatomiyanı birləşdirərkən iki üsuldan istifadə etmişlər. Aşşurnasirpal və Aşşurbanipal ayrı-ayrı ərazilərin başçılarına müraciət edərək onları Aşşur çarlarına tabe olmağa çağırırdılar. Aşşur şahları bunu onunla əlaqələndirirdilər ki, birlikdə olanda qonşuların hücumundan qorunmaq və müvəffəqiyyətli müharibə etmək mümkündür. I Salmanasarın nəslindən olanlar isə əsasən işğalçılıq yürüşlərinə fikir verirdilər. Tarixdə ən qədim hərbi koalisiyalardan biri 618-616-cı illərə aiddir ki, Midiya və yeni Babil hökmdarları birləşərək Aşşur dövlətinin varlığına son qoymuşlar.

**Mövzuya dair suallar:**

1. Diplomatiya tarixi elmin müstəqil sahəsi kimi
2. Beynəlxalq münasibətlər tarixinin dövrləşməsi problemi
3. İxtisas fənninin elmin digər sahələri ilə bağlılığı
4. Qədim Şərqdə dövlətlərarası münasibətlərin səciyyəsi
5. El-Amarn  yazışmalarının siyasi əhəmiyyəti
6. Qədim Misirin beynəlxalq əlaqələri
7. Qədim Misirin Şumer şəhər dövlətləri ilə əlaqələri.
8. Qiksosların Misir şahlığına ultimatumu
9. Qədim Mesopotamiyada dövlətlərarası münasibətlər.
10. Qədim Şərq diplomatiyası ənənələri və müasirlik.

**Ədəbiyyat:**


1. Yusifov Y. Qədim Şərq tarixi. B., 1995
2. «Beynəlxalq münasibətlər tarixi» fənninin proqramı (bakalavr təhsil pilləsi üçün). B., 2005
3. Авдиев В.И. Военные история древнего Египта. т.2. М., 1959
4. Авдиев В.И. История Древнего Востока. М., 1970
5. Геродот. История в девяти книгах. Л., 1972
6. Дьяконов И.Н. Общественный и государственный строй древнего Двуречья (Шумер). М., 1959
7. История дипломатии. II изд.,  т.I. М., 1959
8. История дипломатии. СПб,  М., 2005
9. История древнего мира. Древний Восток. т.,1, М., 1989
10. История древнего мира. Ранняя древность. т.1, М., 1982
11. История Древнего Востока / Под ред. В.И.Кузищина. М., 1979
12. Литература Вавилиони и Ассирии. М., 1981
13. Межгосударственные отношения и дипломатия на Древнем Востоке. М., 1987
14. Никифоров В. Восток и всемирная история. М., 1977
15. Программа курса «История Древнего Мира». М., 1981
16. Хрестоматия по истории Древнего мира / Под редакции В.Г.Боруховича. Саратов, 1973

## II Mövzu
## Misir və Mesopotamiyanın beynəlxalq əlaqələri

### 2.1. Yeni şahlıq dövründə Misirin yüksəlişi. Misir fironlarının işğalçı yürüşləri

E.ə. XVII əsrin sonunda üsyanlar zamanı Orta Şahlığın zəiflədiyi bir dövrdə şərqdən Misirə müxtəlif tayfa birləşmələri basqın edirlər. Misirə gəlmiş bu tayfaların etnik tərkibi müxtəlif olmuşdur. Qədim müəlliflərdən Manefon Misiri işğal etmiş bu tayfaları «hiksos» adlandırmışdı.

Qiksoslar müxtəlif köçəri tayfalardan ibarət idilər. Onlar Fələstin və Sina yanmadasında hərbi demokratiya mərhələsini yaşayırdılar. Kəskin sosial mübarizə Misiri daxilən zəiflətmişdi. Bundan istifadə edən hiksoslar tədricən Misir deltasına soxulmuşdular.

Misir əhalisi və ordusu qiksoslara müqavimət göstərə bilmədi. Qiksoslar Şimali Misirdə məskən saldılar, deltanın şərq hissəsindəki Avaris şəhərini istehkama və dövlətin paytaxtına çevirdilər. Qiksos hökmdarları da firon rütbəsini daşıyırdılar. Qiksos fıronları XV -XVI sülalələrə mənsub olmuşlar. Manefon və sonrakı antik müəlliflər altı qiksos hökmdarının adını çəkir, onların fəaliyyəti haqqında məlumat verirdi. .

Mənbələrə görə, Qiksoslar Misirdə 150 ilə yaxın ağalıq etmişdilər. Sonuncu qiksos hökmdarı Apopinin dövründə hakimiyyət zəifləməyə başladı.

Qiksos ağalığına qarşı mübarizə Yuxarı misirdə başladı. Fiv fironları uzun müddət hiksoslara xərac verməklə az - çox XVII sülalənin müstəqilliyini saxlayırdılar. E.ə. XVI əsrin ortalarında hiksos hökmdarlanna qarşı ölkədə narazılıq artırdı. Fıron Sekenenra misirlilərin azadlıq mübarizələrinə başçılıq edirdi. Lakin onun hiksoslara qarşı çıxışı müvəffəqiyyətsizliyə uğradı. O, ilk döyüşdə əsir düşdü və işgəncə ilə edam edildi. Sekenenranın uğursuz çıxışı mübarizəni dayandırdı.

Az sonra hiksoslara qarşı mübarizəyə firon Kamos başçılıq etdi. Saray əyanları müxtəlif bəhanələrlə Komosu mübarizədən yayındırmağa cəhd göstərsələr də o, Fiv allahı Amonun əmrinə əsasən işğalçılara qarşı mübarizəni davam etdirdi və ardıcıl olaraq müvəffəqiyyətlər qazanmağa başladı. Çətin vəziyyətdə qalan hiksos sülaləsinin son hökmdarı Apopu Kür ölkəsinin hökmdarına hərbi yardım üçün müraciət edərək məktub yazır və qasidlə göndərir. Lakin Apopinin qasidi məktubla bərabər Kamosın əlinə keçir. Kamos qasidi geriyə, Avaric şəhərinə qaytarır.

Kamosun qiksoslara qarşı mübarizəsi qələbə ilə nəticələndi. Kamoncu bir qalib kimi Fiv şəhərində təntənə ilə qarşıladılar. Kamonsun və döyüşlərin şücaəti haqqında yazılar Amon məbədində Daş lövhələrə həkk olundu. Misir qiksos hakimiyyətindən azad oldu.

Qiksosların üzərində ilk qələbə Misirdə Fiv şəhərinin mövqelərini möhkəmlətdi. Kamosun vəfatından sonra hakimiyyətə onun qardaşı I Yaxmos (e.ə. l580-1558) gəldi. Yaxmos qiksoslara qarşı Avaris uğrunda döyüşlərdə qələbə çaldı. Misir tarixinin Yeni Şahlıq dövrü başlandı. Yeni Şahlıq e.ə.XYI-XI əsrlərdə mövcud olmuşdur.

I Yaxmos XVIII sülalənin birinci hökmdarı idi. Onun hərbi yürüşü şərqdə Fələstinin cənubuna kimi çatmışdı. Üç il mühasirədən sonra burada Laruxön şəhəri tutuldu. Sonra I Jaxmos cənub istiqamətində müharibələr apardı.

I Yaxmos mərkəzləşdirilmiş Misir dövləti yaratmaq siyasətini yürüdürdü.

I Yaxmosun varisi I Amenxotep həmçinin Efıopiyaya yürüş təşkil etdi və həbəş qoşunu məğlubiyyətə uğradıldı. Bu ərazi bir vilayət kimi Misirə birləşdirildi. Efiopiyanı idarə etmək üçün canişin təyin edildi. XVIII sülalənin ilk hökmdarlarının hərbi yürüşləri nəticəsində Misirin əvvəlki sərhədləri bərpa olundu. Yeni şahlığın ərazisi Sina yarımadasından Nilin ikinci keçidinə qədər uzanırdı.

I Tutmosun hakimiyyəti işğalçılıq müharibələrinin genişlənməsi ilə səciyyələnir. I Amenxotepin bacısına evlənən I Tutmos bu nigaha əsasən ona hakimyyətə sahib olmuşdu. I Tutmos cənubda Misirin siyasi mövqeyini möhkəmləndirmək məqsədi ilə yürüş təşkil etmiş və burada baş vermiş üsyanı yatırmışdı.

I Tutmosun Şərqi Aralıq dənizi ölkələrinə yürüşü də uğurlu olmuşdu. O, Fərat çayına qədər gəlib çatmış, Mitanni qoşununu darmadağın etmişdi. Qələbə zamanı qənimət kimi ələ keçirdiyi hərbi əsirlərin sayı məlum deyildi.

I Tutmos Fələstin və Suriyanı keçərək Mesogotamiyanın şimalına çatmış və orada Mitanni hökümdarını məğlubiyyətə uğratmışdı. O, Fərat çayına çatmış ilk Misir fironu idi. XVIII sülaləsinin ilk fironları Misiri yenidən qüdrətli dövlətə çevirdilər. Fironlar işğal edilmiş ölkələrdən ilbəil xərrac alırdılar. Qələbədən sonra ələ keçirilmiş qənimət Misirə gətirilirdi. Ölkədə məbəd tikintisi genişləndirilirdi. I Tutmos əvvəlki fironlardan fərqli olaraq özünə ehram yox, yer altında qayalıqlar arasında sərdabə tikdirmişdi. Onun ölümündən sonra hakimiyyətə əvvəlcə oğlu II Tutmos, sonra isə nəvəsi III Tutmos gəldi.

III Tutmos e.ə.l450-cü illərdə Misirin hökmdarı olmuşdu. O, Misirin xarici siyasəti kökündən dəyişdi və fəal işğalçılıq müharibələrinə başladı. III Tutmos ilk növbədə Suriya və Fələstinə yürüş etdi. Yürüşün nəticəsi bütün Suriyanın və Fələstinin fəth edilməsi oldu. Bu ərazi çoxlu şəhər-dövlətlərdən ibarət olmasına baxmayaraq, yaxşı müdafiə olunmaq imkanlarına malik idi. Hündür qala divarları olan Suriya şəhərləri hər

hansı bir ordunun qarşısını uzun aylar ala bilərdi. Misirliləri Mektddo şəhəri yaxınlığında “330 hökmdar” öz döyüşçüləri ilə gözləyirdi. Döyüşün ilk anlarındaca Misir ordusu başdan sovdu yığılmış «üç yüz otuz» Suriya-Fələstin drujinasının müdafiə xəttini dağıtdı və onlar atlarını, döyüş arabalarını ataraq şəhərə tərəf qaçmağa başladılar. Lakin firon Mekiddo şəhərini döyüş məqamında ələ keçirə bilmədi. Şəhər mühasirəyə alındı, yeddi ay mühasirədən sonra tutulmuşdu.

Mekiddo şəhəri tutulduqdan sonra Misirin geniş işğalçılıq siyasəti daha da genişləndi. III Tutmos demək olar ki, hər il Suriya ərazisinə yürüş edir, şəhər və vilayətləri işğal edirdi. Hakimiyyətinin 29-cu ili Suriyada Uarqet qalası alnıır və Ardat şəhərinin kənarı boşaldılır. 30-cu ildə Oront çayı üzərində Kadeş şəhərinin ətrafı işğal olunur, lakin şəhəri tutmaq mümkün olmur. Firon Tsumuru və Ardat şəhərlərinə tərəf hərəkət edir, Ullaza şəhəri alınır, III Tutmos Mitanniya daxil oldu, Fınikiya və Nuxaşşe ölkəsinə hücum edir. Hakimiyyətinin 42-ci ilinə qədər Tutmos tərəfindən 15-dən artıq yürüş həyata keçirilir. Bu zaman III Tutmos şimalda Fərat çayı üzərində Karkəmiş şəhərinə qədər, Suriya və Mesopatomiyanın qovuşduğu yerəcən gəlib çatmışdı.

Suriya uğrunda uzun illər davam edən mübarizədə Oront çayı üzərində Kadeş şəhəri və Şimali Suriyada Tunib şəhəri, əsasən də Mitanni şahları Misirin başlıca rəqibləri olaraq qalırdı.

III Tutmosa ən güclü müqavimət göstərən və Şimali Suriya uğrunda onun rəqibi olan dövlət Mitanni şahlığı idi. Mitanni şahlığı bu zaman öz qüdrətinin zirvəsində idi. Bütün Suriya dövlətləri firona qarşı mübarizədə Mitannini özlərinə dayaq hesab edirdilər. Mitannini fəth etmədən bütün Suriyanı ələ keçirmək ağlasığmaz idi. Lakin ilk döyüşdə Mitanni ordusu darmadağın edilmişdi.

Mitannini şahı Fərata çəkilmişdi. Müharibəni davam etdirmək üçün Tutmosa gəmilər lazım idi. Onlann çox hissəsi tələsik Finikiyada düzəldildi və Fərata gətirildi. Ordu ilə Fərata keçən firon orada Mitanni ordusımu tapa bilmədi. Onlar daha uzağa çəkilmişdilər. III Tutmos sahildəki qayanın üzərində qələbə nişanı qoyaraq çayaşağı şəhər və kəndləri talan edə - edə üzməyə başladı.

Göz qabağında olan müvəffəqiyyətə baxmayaraq, hakimiyyətinin 33-cü ilində Tutmos Mitanni məsələsini həll edə bilmədi. III Tutmos tərəfindən Misirin fəth etdiyi hüdudlar sonradan, demək olar ki, dəyişmədi.

Karnak şəhərindəki ümumdövlət məbədi Amonun və onun «oğlu» Tutmosun qələbələrinin abidəsinə çevrildi. Bu məbədin divar və qüllələrində fironun ustaları onun tərəfindən Amona bağışlanmış ləl-cəvahiratın, Suriya-Fələstindən gətirilmiş bitki və heyvanların, Amonun iştirakı ilə düşmənləri öldürən Tutmosun şəkillərini çəkirdilər.

III Tutmosun dövründə Misirin sərhədi cənubda dördüncü Nil keçidindən başlayırdı və Şimali Suriyaya çatırdı. Tutmosun qələbələri hətta yüz illər sonra da dillər əzbəri olmuşdu. Onun şəkilləri bər-bəzək əşyaları üzərində xoşbəxtlik gətirən və düşmən qüvvələrini qorxuya salan talisman kimi gəzdirilirdi.

III Tutmos XV əsrin ortalarında -54 il hökümdarlıq etdikdən sonra vəfat etdi.

Onun vəfatından dərhal sonra Suriya - Fələstini narazılıq bürüdü. Suriyalılar elə bilirdilər ki, yeni firona qarşı müvəfəqiyyətlə müqavimət göstərə biləcəklər və bununla da çox kobut səhv etmişdilər. III Tutmosun oğlu və varisi Amenxotep Misir fironlarının az qala ən sərti və qorxulusu idi. O, əla hərbi hazırlıq keçmişdi və həddən artıq güclü və dözümlü idi. Hələ onsəkkiz yaşında ikən o, atası tərəfindən hökumət işlərinə cəlb edilmişdi və dövlət işləri ilə məşğul idi. Atası vəfat etdikdən sonra isə hakimiyyət tamamilə onun əlinə keçdi.

Amenxotep hakimiyyətinin 7-ci ilində Fələstinin şimalına yürüş etdi. İtayət etməyən Şamiş - Adumu şəhərinin müqaviməti qırıldı. Katna şəhəri yaxınlığında Amenxotep düzmənin döyüş arabalarını görüb onlara hücum etdi və aparıcını öldürdü. Amenxotep Fərata, torpaqlarının şimal sərhədinə çatdıqdan sonra geri döndü. Onun varisi IV Tutmosun dövründə Misir Mitanni ilə dostluq mümünasibətləri yaratdı. Mitanni şahı Artadama qızını Firona ərə vergi.

IV Tutmosdan sonra hakimiyyətə III Amenxotep gəldi. Şahlığının 5-ci ili o, Efıopiyada baş verən üsyanı yatırdı, bundan sonra cənuba tərəf yürüş etdi və sələflərindən heç birinin getmədiyi, Xora sularına gedib çıxdı və öz sərhəd nişanəsini ora həkk etdi. Bu, III Amenxotepin şəxsən iştirak etdiyi yeganə «birinci qalibiyyətli yürüş» idi.

Yaxın Şərqin böyük dövlətləri öz qüdrətli qonşularını narahat etmişdilər. Misir silahının gücü və Misir qızılının parıltısı onları üzüyola etmişdi. III Amenxotep zaman-zaman bu «qardaş»larına qızıldan hədiyyələr bağışlayırdı. Efıopiya və Misir qızıl məbədləri, Suriya - Fələsdindən alınan xərac və hərbi qənimətlər Fironların xəzinələrini saysız-hesabsız qızılla doldurmuşdu. Babil şahı Kadaşman-Xarbe öz misirli «qardaş»ından qızını ona ərə verməyi xahiş edəndə firon düşünmədən cavab vermişdi ki, Misir şahzadəsi heç vaxt başqa ölkəyə ərə verilməyib. Təhqir olunmuş Babil şahı isə öz qızına firona verməyə razı oldu. Başqa şahlara qızların verməyən Amenxotep, onların qızların Misirə yığmışdı. Ona iki Babil şahzadəsi, üç Mitanni və bir Artsava şahzadəsi verilmişdi. Onların heç biri sarayda əhəmiyyətli bir yer tutmurdu. Sarayda deyilirdi ki, Babilistan, Aşşur, Mitanni və Het tamamilə Misir şahının əlindədir.

III Amenxotepin dövrü ziddiyətli bir dövr olmuşdur. Bir tərəfdən Misir saray, loğvalıqla dünya

hökümranlığı iddiası edir, xəyali təbəələri sırasında Babil, Aşşur və qitə Yunanıstanının əhalisini görürdü. Digər tərəfdən laqeyidcəsinə Suriya -Fələstin torpaqlarında Het şahlığının fitnə-fəsadına və riyakarlıqla itaət edən hökümdarların hərəkətlərinə sakitliklə dözürdü. Əslində yeni şahlıq dövrü Misir fironları Misirin əvvzlki qüdrətini bərpa edə bilmədilər.

### 2.2. Misir-Babilistan münasibətləri yeni şahlıq dövründə

Dövrü səciyyələndirən yazılı kitabələrin, müxtəlif xarakterli sənədlərin təhlili göstərir ki, Babil-Misir əlaqələrinin ən zəngin dövrü Misirdə yeni şahlıq dövrünə təsadüf edir. Məhz bu zaman iki dövlət arasında müqavilə bağlanmış və hökmdarlar müəyyən edilmiş sərhədlərin pozulmamasına and içmişlər.

E.ə. XV əsrin ortalarından Babilistan yenidən ÖnAsiyanın qüdrətli dövlətləri sırasına çıxır, onun qonşu ölkələrə mədəni- siyası təsiri güclənir. Kassi- babil şahı I Karaindaşın hakimiyyəti dövründə Babilistan Misirlə diplomatik əlaqələr yaradır və sonralar bu əlaqələr daha da genişlənir. Babilistan Misir əlaqələri haqqında XIX əsrin sonlarında Misirdə Ell-Amarn arxivindən tapılmış diplamatik məktublar ətraflı məlumat verirlər. Amarn arxivində firon III Amenxotepin Babil şahı Kadaşman -Enlilə (e.ə.1374-1360) iki məktubu və Kadaşman-Enlilin ona üç cavab məktubu II Burna-buriaşın (e.ə.1359-1333) III Amenxotepe bir, IV Amenxotepə (Exnaton) beş məktubu, Babilistandan Misirə və Misirdən Babilistana göndərilən hədiyyələrin siyahısı qorunub saxlanmışdır.

Göründüyü kimi, Babil - Misir yazışmaları e.ə.XIY əsrin təxminən 30-40- illik bir dövrünü əhatə edir. Lakin məktublardakı bəzi qeydlər Babilistan- Misir əlaqələrinin əsasının e.ə XV əsrin ikinci yarısında, kassi şahı I Karaindaşın dövründə qoyulduğunun göstərir. Məsələn, kassi şahı II Burna-buruaşın Exnatona yazdığı bir məktubda göstərilirdi: «Karaindaşın dövründən, sənin əcdadlarının səfirləri mənim əcdadlarımın yanına gələn vaxtdan indiyə qədər onlar (II Burna-buruaş və Exnatonun əcdadları) dost olmuşlar.» Buradan aydın olur ki, Misir fironu birinci olaraq Babilistana səfirlər göndərmiş və onunla dostluq əlaqələri yaratmağa cəhd göstərmişdir. Bu şübhəsiz ki, I Karaindaşın dövründə Babilistanın beynəlxalq nüfuzunun olduqca artdığını göstərir.

II Burna-buruaşın başqa bir məktubundan aydın olur ki, kassi şahı I Kuriqalzu (e.ə.XIY əsrin əvvəlləri) qədim Fələstin və Suriyanın Misir əleyhinə ittifaq bağlamaq təklifini rədd etmiş və Misir fironun özünün müttəfiqi adlandırmışdı. Yenə II Burna-buruaşın Exnatona yazdığı bir məktubda I Kuriqalzunın Misirdən çoxlu qızıl aldığı göstərilirdi.

Ümumiyyətlə, Babilin Misirdən aldığı mallar içərisində qızıl əsas yer tuturdu. I Kuriqalzunun dövründən başlayaraq ölkədə inşaat işlərinin geniş miqyas alması bu qiymətli metala ehtiyacı xeyli artırmışdı. Təsadüfu deyil ki, istər Kadaşman - Enlil, istərsə də II Burna-buruaş Misir fironlarından qızıl göndərmələrini xahiş edərkən onun inşaat işləri üçün lazım olduğunu xüsusi qeyd edirlər. Kadaşman Enlil III Amenxotepə yazırdı: «haqqında sənə yazdığım qızıla gəldikdə isə, nə qədər mümkünsə çoxlu qızıl göndər, sənin səfirlərinin mənim yanıma gəlməsindən də tez göndər. Onu indi nə qədər mümkünsə tez, bu biçim vaxtı, ya Duzu (iyun-iyul), ya da Ab (iyul-avqust) ayında göndər ki, mən gördüyüm işi başa çatdıra bilim.

Əgər sən bu biçim vaxtı - Duzu və ya Ab ayında mənim yazdığım qızılı göndərsən onda mən qızımı sənə verərəm... Və əgər sən Duzu və Ab aylarında qızı göndərməsən və beləliklə, mən gördüyüm işi başa çatdırmasam, ondan sonra göndərməyinin nə mənası var? Mən işi qurtardıqdan sonra qızıl mənim nəyimə lazımdır. Əgər sən onda mənə üç min taland qızıl göndərsən də, mən qəbul etməyib geri qaytaracam və qızımı sənə ərə verməyəcəm.

Kadaşman-Enlinin bu «ultimatumu» tezlikb öz təsirini göstərir və II Amenxotep (Kadaşman Enlinin yeni evi üçün zəngin mebel dəsti göndərir) qiymətli ağac növlərindən olan, qızıl və fil sümüyü ib hasiyələnmiş çarpayılar, taxtlar, kürsülər və s. göndərir.

Hədiyyələrin siyahısından sonra adətən onların bəzəyini təmsil edən qızıl, gümüş və başqa qiymətli metalların ümumi çəkisi göstərilirdi. III Amenxotepin Kadaşman Enlilə göndərdiyi hədiyyələrin tərkibində 4 kq dan çox qızıl, 600 qr -a yaxın gümüş var idi.

Tikinti ilə bağlı qızıl sifariş verilməsinə II Burna-buruaşın Exnatona məktublarında da rast gəlirik: «Mən tikinti işinə başlamışam və bu haqda qardaşıma yazmışam, qoy qardaşım mənə çoxlu yaxşı qızıl göndərsin və mən öz işimi başa çatdırım.» Başqa bir məktubunda II Burna-buruaş fironun ona yalnız iki minə (yəni 1 kq) qızıl göndərməsindən narazı qaldığını bildirərək yazırdı:

«Mənim əjdadlarımla sənin əjdadların dostluq əlaqələri yaradandan bir-birinə zəngin hədiyyələr göndərmiş və heç vaxt bir-birinin ədalətli xahişini rədd etməmişlər. İndi isə qardaşım hədiyyə kimi mənə yalnız iki mina qızıl göndərmişdir, əgər qızıl çoxdursa sən də atanın göndərdiyi qədər göndər. Əgər o kifayət qədər deyilsə, onda heç olmasa, atan göndərdiyinin yarısını göndər. Nə üçün sən yalnız iki minə qızıl göndərmisən? İndi allahın evində (məbəddə işim çoxdur və tezliklə onu başa çatdırmaq istəyirəm. Ona görə də çoxlu qızıl göndər. »

Qızılın əsasən insaat işlərinə sərf edilməsi haqqında Durr-Kuriqalzudan tapılmış və e.ə XIII əsirə aid olan sənədlər daha ətraflı məlumat verirlər, bu sənədlərin xeyli hissəsi Durr- Kuriqalzudan tikilən iki sarayın müxtəlif hissələrini bəzəmək, mebelləri haşiyələmək, bəzək əşyaları hazırlamaq və s. üçün sənətkarlara verilən

qızıl, gümüş, qiymətli və yarımqiymətli daşların qəbzləridir. Qeyd etmək lazımdır ki, Babil şahdarının adətən, Misirə «yaxşı qızıl» sifariş verməlarinə baxmayaraq alınan qızılın keyfiyyəti həmişə yüksək olmurdu. Mənbələrə görə XVIII sülalənin sonlarından Misirdə bəzən qızılın əyarlılığını süni şəkildə aşağı salmaq təcrübədən keçirdilirdi. Tarixi dəqiq müəyyən olmayan bir üzüyün təhlili onun tərkibində 75 faiz mis, 25 faiz isə qızıl olduğunu göstərmişdir. El-Amarn məktublarında Misirdən göndərilən qızılın keyfiyyətindən narazılığına tez-tez rast gəlmək olur. Məsələn, Kadaşman-Enlil məktublarının birində Misir fironunun göndərdiyi 30 minə (15kq) qızılın gümüşə bənzədiyini göstərirdi.

II Burna-buruaş Exnatondan xahiş edirdi ki, o, göndərəcəyi qızılı məmurlarına etibar etməsin və yalnız özü görəndən sonra onu möhürləyib yola salsın. Daha sonra o yazırdı: «Qardaşım əvvəl göndərdiyi qızılı özü görməmiş və onu qardaşımın məmuru möhürləyib göndərmişdir. Ona görə də onun gətirdiyi 40 mina qızılı kürəyə qoyduqdan sonra onun çəkisi düz gəlməmişdir. II Burna-buruaşın xahişinə baxmayaraq, Misir yenə də keyfiyyətsiz qızıl göndərməkdə davam edirdi. «Sənin göndərdiyin səfirə gəldikdə isə - deyə II Burna-buruaş başqa bir məktubunda yazırdı ki, onun gətirdiyi 20 mina qızılın çəkisi düz olmamışdır və onu kürəyə qoyduqdan sonra heç 15 mina da qızıl alınmamışdır.»

Qaynaqların təhlili göstərir ki, Babilistanla Misir arasında vaxtaşırı baş verən düşmənçiliyə baxmayaraq, nəinki ticarət-iqtisadi, habelə siyasi əlaqələr də heç zaman kəsilməmiş, ayrı-ayrı hökmdarların dövründə isə «nigah diplomatiyasından» da istifadə edilmşidir.

El-Amarn məktublarında qızılla yanaşı, Babil şahlarının başqa sifarişlərinə də rast gəlmək olur. Məsələn, Kadaşman-Enlil və II Burna-buruaş Misir fironlarından «umamu» adlanan heyvanın canlıya bənzər müqəvvasını göndərmələrini xahiş edirdilər. II Burna-buruaşın məktubunda onların həm suda, həm də quruda yaşayan heyvanlar olduğu göstərilirdi. Görünür, burada Babilistanın heyvanat aləminə yad olan timsah və begemot nəzərdə tutulurdu. Ola bilsin ki, Babil şahları bu qəribə heyvanlar haqqında eşitmiş və onlara öz saraylarında nümayiş etdirmək istəmişdilər.

Bunlarla yanaşı Babilistan Misirdən çoxlu məişət əşyaları, bəzək şeyləri, paltarlar və b. mallar alırdı. Babilistanın Misirdən aldığı malların çeşidini öyrənmək baxımından Exnatonun II Burna-buruaşa göndərdiyi hədiyyələrin siyahısı böyük maraq doğurur. Dörd sütundan və 307 sətirdən ibarət bu siyahıda qızıl, gümüş tunc və b. materiallardan onlarca nəfıs əşyanın adı göstərilir. Qızıldan müxtəlif qablar, onlarla qızıl üzük, qolbağı, boyunbağı, Pamassu (hami-allah) allahının qızıl heykəlləri, daş qablar, fil sümüyündən müxtəlif əşyalar və b. - Exnatonun II burna-buruaş göndərdiyi hədiyyələrin tam olmayan siyahısı bunlardır.

Göstərilən əşyaların tərkibindəki qızılın çəkisi 1200 minadan çox (təxm.600 kq), gümüşün çəkisi 293 mina 3 şəkəl (təxm. 146kq), tuncun çəkisi ilə 860 mina 20 şekel təxm. 430 kq idi.

Babilistanla Misir arasında ticarət əlaqələri hər iki ölkəyə iqtisadi mənfəət verməklə yanaşı, siyasi, əlaqələrin möhkəmləndirilməsi üçün də zəruri idi. Təsadüfi deyil ki, II Burna-buruaş məktublarda bunu dəfələrlə qeyd edirdi. Hələ ilk məktublarının birində o, III Amenxatepe yazırdı. «Sənin atanla mənim atam əvvəllər bir-biri ilə dost olduqları kimi, gəl indi biz də bir-birimizlə dost olaq və qoy bizim aramızda bədxah sözlər deyilməsin”.

Başqa bir məktubda II Burna-buruaş Exnatona bildirildi ki, «şahlar arasında qardaşlıq, dostluq, ittifaq və başqa əlaqələr o zaman ola bilər ki, qiymətli daşlar ağır gəlsin, gümüş ağır gəlsin, qızıl ağır gəlsin.»

Göründüyü kimi, ölkələr arasında hər cür münasibətlərin inkişafı ticarət əlaqələrinin miqyasından asılı idi. Bu əlaqələr isə, qeyd edildiyi kimi, hər iki ölkə üçün faydalı idi. Babilistana zəruri mallar göndərən Misir əvəzində özü üçün eyni dərəcədə zəruri olan mallar alırdı. Amarn məktubları Babilistanın Misirə göndərdiyi mallar haqqında da aydın təsəvvür yaradır. Bu malların içərisində lazurit üstünlük təşkil edirdi.

Qeyd etmək lazımdır ki, hələ III Tutmosun salnaməsində Misirin Mesopotamiyadan lazurit aldığı göstərilirdi. Kadaşman-Enlil və II Burna-buruaşın Misirə göndərdiyi hədiyyələrin içərisində demək olar ki, həmişə lazuritə və ya lazuritdən hazırlanmış əşyalara rast gəlmək olur. Məsələn II Burna-buruaş Exnatona ümumiyyətlə, 8 mina lazurit (4kq) və lazuritdən bir sıra qiymətli əşyalar göndərmişdi.

Məlum olduğu kimi, Mesopotamiyada lazurit və b. qiymətli və yarımqiymətli daşlar yox idi və ən qədim zamanlardan Mesopotamiya dövlətləri bu qiymətli malları xaricdən alırdılar. Mənbələrdə lazuritin Mesopotamiyaya müasir Əfqanıstanın Bədəxşan rayonundan və ya Urmiya gölü zonasından gətirildiyi göstərilir.

Şübhə yoxdur ki, kassilər dövründə Babilistan şərqlə sıx ticarət əlaqələri saxlamış və oradan çoxlu miqdarda dazurit və başqa mallar almışlar. Bu dövrdə Babilistanda dekorativ tətbiqi sənətdə lazurit və başqa qiymətli və yarımqiymətli geniş istifadə edilməsi, habelə onların geri ixracı bunu sübut edir.

Lazuritb yanaşı, Misirə daha çox və çənk arabası göndərilirdi. II Burna-buruaş Exnatona 10 cüt at, 5 çənk arabası göndərmişdi. Amarna məktublarında Babilistanın Misirə göndərdiyi bir sıra başqa malların da da adı çəkilir. Məsələn, II Burna-buruaşın dövründə Misirə çoxlu qiymətli əşya göndərilmişdi. Bunlar əsasən lazurit, gümüş, qızıl, tunc fil sümüyündən bəzəklər və məişət şeylərindən ibarət idi.

İstər Babilistan, istərsə də Misir tərəfi yuxarıda adları çəkilən malları bir-birinə hədiyyə göndərdiklərini yazmalarına baxmayaraq, bunun əslində mübadilə məqsədi güddüyü və iqtisadi ehtiyacla bağlılığı açıq

göstərilirdi. Amarn məktublarından yuxarıda gətirdiyimiz misallar bunu aydın sübut edir. Xarici ticarəti öz əllərinə alan bu və ya digər ölkənin hökmdarı qarşı tərəfə hədiyyələr göndərərkən onların əvəzində layiqli cavab hədiyyəsi gözləyirdi və daha doğrusu, nə gözlədiyini açıq yazırdı: Deməli, Amarna məktublarında söhbət adı hədiyyə mübadiləsindən deyil, iki böyük dövlət arasında müntəzəm ticarət əlaqələrindən gedir. Təbiidir ki, bu əlaqələr müəyyən beynəlxalq normalara, bir-birinin hüquq bərabərliyini tanımağı tələb edirdi. Ehtimal ki, bu münasibətlər iki dövlət arasında bağlanmış müqavilə ilə tənzim olunurdu. Amarna məktublarında belə bir müqavilənin mövcudluğuna işarə olunurdu.

Müəyyən olunmuş normaların hər hansı şəkildə pozulması cavab tədbirləri ilə qarşılanırdı. II burna-buruaşın məktubundan gətirdiyimiz aşağıdakı sətirlər bizcə, məhz bu mənada başa düşülməlidir: "Sənin səfirlərin üç dəfə mənim yanıma gəlmiş, lakin sən onlarla məmə heç bir qiymətli hədiyyə göndərməmisən. Ona görə mən də sənə heç bir qiymətli hədiyyə göndərməmişəm. Nə sən qiymətli bir şey əldə etdin, nə də mən".

Exnatona yazdığı bütün məktublarında öz şərəfini və dövlətin mənafeyini uca tutan II burna-buruaşın narazılığının əsas səbəbi bizcə aşağıdakı sətirlərdə aydınlaşır: «Sonra o (II Burna-buruaşın səfiri) dedi ki, mənim qardaşımın ölkəsində hər şey vardır və onun heç bir şeyə ehtiyacı yoxdur (Sənə bildirirəm ki,) mənim də ölkəmdə hər şey vardır və mən də hər bir şeyə ehtiyac hiss etmirəm. Yaxşı münasibətlər bizə şahlardan qalmışdır və bizdə bir-birimizə firavanlıq arzulamışıq. Qoy, bizim aramışdakı bu əlaqələr daha da möhkəm olsun.»

Bununla II Burna-buruaş özünün Misir fironu ilə bərabər səviyyəli hökmdar olduğunu qabarıq şəkildə nəzərə çarpdırır. II Burna-buruaş Exnatona yenə kiçik hədiyyə 4 mina lazurit və 5 cür at göndərir və çoxlu yaxşı hədiyyələr göndərə bilməməsini yolun çətinliyi ilə su təchizatının pisliyi, havanın istiliyi izah edir. Elə buradaca o, Exnatondan çoxlu yaxşı qızıl göndərməsini xahiş edir.

Ticarət əlaqələrinin normal inkişafına mane olan səbəblər təkcə bunlar deyildi. Daha təhlükəli maneə Babilistandan gedən karvanların yolda qarət edilməsi, tacirlərin isə öldürülməsi idi. Belə qarətləri əsasən Misirin nüfuz dairəsində olan Şərqi Aralıq dənizi ölkələrinin hökümdarları edirdilər. Bu da təsadüfi deyildi. Məlum olduğu kimi, Exnaton ölkədə kəskin daxili çəkişmələr şəraitində özünün məşhur dini islahatını həyata keçirirdi. Bu çəkişmələr Misirin hərbi potensialını xeyli zəiflətmişdi. Başı islahata və öz rəqibləri ilə mübarizəyə qarışan Exnaton fəal xarici siyasət yeritmirdi və əslində Misirdən asılı olan Şərqi Aralıq dənizi dövlətlərini başlı-başına buraxmışdı. Bu dövlətlər arasında daimi ixtilaflar və daxili çəkişmələr hökm sürürdü. Onlar Misir fironuna bir-birindən şikayət edir. Hər biri öz qonşusunu Misirə xəyanətdə təqsirləndirirdi. Misir hökmdarı bu şikayətlərə qibtə ediləcək dərəcədə səbirlə yanaşır və adətən heç bir tədbir görmürdü.

II Burna-buruaşın sonrakı məktubunda Babilistan tacirlərinin ölümü ilə nəticələnənə daha ağır qarətin xatırlanması fironun öz nüfuz dairəsinə daxil olan ərazilərdə karvan yollarının təhlükəsizliyini təmin etmək üçün ciddi tədbir görə bilmədiyini göstərir və bu, Exnatonun dövründə Misirin beynəlxalq vəziyyətinin mürəkkəbliyini bir daha sübut edir. II Burna-buruaş yazırdı: «mənim Ahu-tabu ilə səfərə çıxan tacirlərim ticarət işləri ilə əlaqədar Kinahiddə ləngimişdilər. Ahu-tabu oradan qardaşımın yanına yola düşdükdən sonra Balumemenin oğlu Şumadda və Akkolu Şaratunun oğlu Şutatna öz adamlarını göndərərək Kinahiddəki Hinnatuni şəhərində mənim tacirlərimi öldürmüş və pullarmı ələ keçirmişlər. Buna görə mən Azzanı (?) sənin yanına göndərmişəm. Ondan soruş və o hər şeyi sənə desin. Kinahhi sənin ölkəndir və onun şahları sənin qullarındır. Mən sənin ölkəndə zorakılığa məruz qalmışam. Onların qarşısını al və qarət etdikləri pulları ödə". Məktubda daha sonra deyilirdi: "Mənim qullarını öldürən adamları isə edam et və onların qanının intiqamını al. Əgər sən bu adamları öldürməsən, onlar yenidən bu işə qayıdacaq. Ya mənim karvanlarımı, ya da sənin səfirlərini öldürəcəklər. Belə olduqda bizim aramızda səfirlərin gediş gəlişi kəsilər və əgər belə olsa, onda onlar sənə qarşı çıxarlar. »

Göründüyü kimi, Exnatonun hakimiyyəti illərində Şərqi Aralıq dənizi ölkələrində Misirin mövqeyinin zəifləməsi Babilistan-Misir ticarət əlaqələrini xeyli çətinləşdirmişdi. Babilistan ticarət karvanlarının qarətində Suriya və Fələstin hakimlərinin iştirakı, onların Ön Asiya ticarətində öz müstəqilliklərini bərpa etmək, Misirin Babilistan və başqa dövlətlərə birbaşa ticarət əlaqələrinə mane olmaq cəhdlərindən irəli gəlirdi. Ehtimal ki, Misirin Babilistanla əlaqələri bu ölkələr üçün daha təhlükəli idi. Hananeylərin Misirdən ayrıla biləcəyini açıqca qeyd edir. Bu məsələ ilə bağlı bir faktı da xatırlatmaq yerinə düşərdi. Hanandılar Misirə qarşı çıxış etmək istərkən kömək üçün məhz Babilistana müraciət etmiş, lakin Kuriqalzudan rədd cavabı almışdılar. Bu Şərqi Aralıq dənizində ağalıq üçün Misirin Babilistanla ittifaqının mühüm əhəmiyyətə malik olduğunu göstərir.

E.ə.XVI yüzillikdə Mitanni və Babilistandan asılı vəziyyətə düşən Assuriya XV yüzillikdən başlayaraq, Misirlə əlaqələri genişləndirməyə və öz keçmiş qüdrətini bərpa etməyə çalışırdı. Exnatonun müasiri olan I Aşşur Uballitin (e.ə.1365-1330) dövründə Assuriya Mitanni və Babilistanın təhlükəli düşməninə çevrilir. İstər Mitanni, istərsə də Babilistan şahları Misir-Assuriya yaxınlaşmasının və Assuriyanın yüksəlişinin təhlükəli nəticələrini yaxşı görürdülər və ona görə də bu ittifaqa mane olmağa çalışırdılar. II Burna-buruaş Exnatona məktubunda assuriyalıları öz təbəələri adlandırır və tələb edir ki, firon onunla heç bir əlaqə saxlamasın.

Tarixi şəraitin mürəkkəbliyinə baxmayaraq, Babilistanla Misir arasında ticarət əlaqələri kəsilmirdi və hətta bu "nigah diplomatiyası" - qohumluq əlaqələri ilə möhkəmləndirilirdi. Amarn yazılarından məlum olduğu

kimi, Kadaşman Enlilin bacısı və qızı, habelə II Burna-buruaşın qızı müvafiq olaraq III Amenxotep və Emxatona ərə vermişdilər. Digər tərəfdən Kadaşman-Enlilin III Amenxotepin qızını almaq arzusuna Misir fironuna rədd cavabı vermişdi. Bu fakt əksər hallarda Misir fironunun Babil şahına etinasız münasibəti, ona yuxarıdan aşağı baxmağı ilə izah olunur. Əslində isə bu qədim Misir taxt-tacı varisliyi adəti ilə bağlı idi. Bu adətə görə «taxt-tac yalnız qadın xətti ilə keçirdi. Firon arvadı taxt-tac varisi hesab olunurdu. Taxt-taca istənilən mənşəli adam iddia edə bilərdi. Və əgər o məlikəyə evlənirdisə, dərhal şah taxtına çıxırdı. Məlikə öz mənşəyinə görə məlikə idi, şah isə ona evləndikdən sonra şah olurdu.»

Amarna dövründən sonra Babilistanla Misir arasında ticarət əlaqələri zəifləyir, lakin tamamilə kəsilmir. II Ramzesin hakimiyyəti illərində iki ölkə arasında daha bir diplomatik qohumluq əlaqəsinin yarandığı güman edilir. XIX sülalə dövrünə aid sənədlərdə Misirin Babilistandan müxtəlif mallar, xüsusilə at, gümüş, qiymətli daşlar, sürtgü yağı idxal etdiyi göstərilir.

E.ə. XIII əsrin başlanğıcında Babilistanla Xett dövləti arasında əlaqələr genişlənir. Misirə və Assuriyaya qarşı hər iki dövlətinin mövqeyini möhkəmlətmək məqsədilə Xett şahı III Xattusili Babil şahı Kadaşman-Turqu (e.ə.1281-1264) ilə qarşılıqlı hərbi yardım haqqında müqavilə bağlayır. Müttəfiqlik borcunun yerinə yetirən Kadaşman-Turqu Misirlə əlaqəni kəsmiş və Xett şahına Misirlə müharibə edərsə, piyada qohumlar və cənk arabaların ilə kömək edəcəyini vəd etmişdi.

**Mövzuya dair suallar:**

1. Qədim Şərqin siyasi xəritəsi
2. Dövlətlərarası münasibətlərin öyrənilməsi üçün sənəd və qaynaqların icmalı
3. Qədim Misir şahlığının yüksəlişi
4. Qədim Misirin beynəlxalq əlaqələri
5. Misir fironlarının işğalçı yürüşləri və nəticələri
6. Qədim Misirin Mesopotamiya siyasəti I və IV Tutmosun dövründə
7. Misir hökmdarlarının nigah diplomatiyası
8. Misir-Babilistan münasibətləri yeni şahlıq dövründə
9. Misir və Babilistanın Assuriyaya qarşı mübarizəsi
10. Qədim Mesopotamiyada dövlətlərarası münasibətlərin xarakteri.
11. Misirlə Babilistan arasında səfirlik əlaqələri

**Ədəbiyyat:**


1. Yusifov Y. Qədim Şərq tarixi. B., 1995
2. Авдиев В.И. Военные история древнего Египта. т.2. М., 1959
3. Авдиев В.И. История Древнего Востока. М., 1970
4. Белова Г.И. Египитяне в Нубии (III –II тыс. до н.э.). М., 1988
5. Геродот. История в девяти книгах. Л., 1972
6. Дьяконов И.Н. Общественный и государственный строй древнего Двуречья (Шумер). М., 1959
7. История дипломатии. II изд., т.I. М., 1959
8. История дипломатии. СПб, М., 2005
9. История древнего мира. Древний Восток, т.1, М., 1989
10. Кузишина Н.И. История Древнего Востока. М., 1978
11. Лапис И.А. Новые данные о гиксосском владычестве в Египте // ВДИ,1958, №3
12. Ливщиц И.Г. Сказки и повести древнего Египта. Л., 1979
13. Межгосударственные отношение и дипломатия на Древнем Востоке. М., 1987
14. Оппенхейм А.Л. Древняя Месопотамия М., 1980
15. Струве В.В. Государство Лагаш (XXV- XXIV вв до н.э). М., 1961
16. Тураев Б.А. История Древного Востока. Т.1., М., 1935

## III Mövzu
## Mesopotamiya şəhər-dövlətlərinin qədim Misirlə diplomatik -siyasi əlaqələrinin spesifik xüsusiyyətləri

### 3.1. Babilistan-Misir diplomatik-siyasi əlaqələri

E.ə. XVI əsrin əvvəllərində Misirdə hiksosların hakimiyyətinə son qoyulmuş və bununla Misir tarixində yeni şahlıq dövrü başlandı. XVI sülalənin hakimiyyəti ilə başlanan yeni Şahlıq dövrünün fironları, xüsusilə III Tutmos Afrika və Asiyanın bir çox ərazilərini işğal etmişdilər. III Tutmosun hakimiyyəti dövründə Misirin Şimaldan cənuba doğru ərazisi 5 min kilometrədək uzanırdı və Afrikanın onlarla xalqı Misirə tabe edilmiş, Misir mədəniyyətinin təsir dairəsinə düşmüşdü.

E.ə. II minilliyin ortalarında III Tutmosun varisləri IV Tutmos, III Amenxotep və IV Amenxotepin dövrlərində Misir Ön Asiyanın bir sıra qüdrətli dövlətləri, o cümlədən Babilistan, Asiya və Xet dövləti ilə geniş diplomatik əlaqələr yaradır.

E.ə. II minilliyin ortalarında Ön Asiyada dövlətlərarası münasibətləri, o cümlədən Misirin xarici siyasətini öyrənmək üçün ən mühüm mənbələr Misirdəki Ell-Amarna (qədim Axetaton şəhəri) adlanan ərazidən tapılmış sənədlərdən ibarətdir. Bu sənədlər Babil, Xet, Assuriya və s. dövlətlərin hökmdarlarının Misir fironlarına məktublarından və fironların onlara cavablarından ibarətdir. 500-dən çox məktubdan ibarət olan Ell-Amarn arxivinin materialı tam tərcümə və tədqiq olunmamışdır. Bu məktublardan ayrı-ayrı parçalara müxtəlif müəlliflərin əsərlərində rast gəlinir. Misirin diplomatik əlaqələrini öyrənmək baxımından Misir-Xet müqaviləsi (e.ə.XIII əsr) xüsusi əhəmiyyət kəsb edir. Bu müqavilənin istər Xet, istərsə də qədim Misir dilində tam məntiqi dövrümüzə qədər gəlib çatmamışdır.

Kassilərin hakimiyyətinin ilk dövründə Babilistanın xarici əlaqələrinə aid mənbələr olduqca azdır. Dağınıq faktlar göstərir ki, II Aqumun şahlığından III Aqımrun şahlığına qədərki dövrdə (təxm. e.ə. 1595-1460) Babilistanda kassi şahları uzun mübarizədən sonra «Dəniz sülaləsini» məğlub edərək aşağı Mesopatomiyanı yenidən vahid şahlıqda birləşdirmişdilər.

Bu dövrdə Babilistanın Xet dövləti, Assuriya və Nuzi ilə əlaqələrinə aid mövcud faktlar kassilərin öz yaxın qonşuları ilə yaxşı münasibətlər yaratmağa cəhd etdiklərini göstərir. Məsələn «Sinifronik tarix» adlı mənbədə göstərilir ki, Aşşur şahı III Puzur- Aşşur və Kardunyaş (aşağı Mesopotamiyanın kassicə adı) şahı I Burna-Buriaş and içmiş və öz ölkələri arasında sərhəd xəttini müəyyən etmişlər. Göstərilən mənbədəki başqa bir məlumatdan aydın olur ki, «Kardunyaş şahı Karaundaş və Aşşur şahı Aşşurbel III Hattusilisin Babil şahı II Kadaşman Enlilə yazdığı məktubdan aydın olur ki, Xet dövləti ilə Misir arasında məlum sülh müqaviləsi bağlandıqdan sonra (e.ə.l260-cı il) Babil Misir dostluq əlaqələri bərpa olunmuşdu.»

Misirlə geniş ticarət əlaqəsi Babilistanın iqtisadiyyatında nəzərə çarpacaq iz buraxmışdı. Mənbələrdən məlumdur ki, Babilistanda kassi hakimiyyətindən əvvəl və ondan sonrakı dövrlərdə dəyər ölçüsu kimi gümüşdən istifadə edilmişdir. Lakin kassilər dövründə Misirdən çoxlu qızıl idxal olunması gümüşün sıxışdırılmasına və dəyər ölçüsü kimi qızıldan istifadə edilməsinə səbəb olur. E.ə.XIII yüzilliyin əvvəllərindən başlayaraq Misirlə intensiv əlaqələr kəsildikdən sonra bu məqsədlə qızılla yanaşı, gümüşdən də istifadə olunurdu.

### 3.2. Misirin Mitanni dövləti ilə əlaqələri

Mittanni e.ə. XVI-XIII əsrlərdə Mesopatomiyanın şimal-qərbində indiki Suriyanın şimalında yerləşirdi. Əhalisi hürrilərdən və sami dilli tayfalardan ibarət olmuşdur. Rəsmi dili hürri və akkad dilləri idi. E.ə. XVI əsrdə bu tayfalar Mitanni sülaləsinin başçılığı ilə vahid dövlətdə birləşmişdilər. Güclü ordu yaratmış Mitanni dövləti fəal xarici siyasət yeritmiş, Assuriyanın bir hissəsini, Kiçik Asiyanı, Asiyanı, Suriyanı, Finikiyanı və Fələstini özünə tabe etmişdi.

Ölkənin iqtisadiyyatında əkinçilik əsas yer tuturdu. Əkinçilik üçün yağışlar mühüm rol oynayır, geniş çay vadiləri isə süni suvarma sistemlərinin yaradılmasına imkan verirdi. Mitanni ərazisindən Ön Asiya ölkələrinin mühüm ticarət yolları keçirdi. Mitanni dövləti bir çox qonşu ölkələr ilə əlaqələr saxlayırdı. Ell-Amarn məktublarındakı məlumata görə, müxtəlif Mitanni malları Misirə göndərilirdi.

Mitanni əhalisi mənşəyinə görə, əsasən hürilərdən ibarət olmuşdur. Mitanni şahları – hətta Hind-ari mənşəli adlar daşıyanlar da, məişətdə hürri və akkad dilində danışırdılar. Akkad dili beynəlxalq ünsiyyət vasitəsi idi. Hürri dövlətlərinin (Arrapxa, Alalax, Uqarit) sosial quruluşlarındakı oxşarlıq, Mitanni cəmiyyətinin də onlardan o qədər seçilmədiyini göstərir.

Bizə məlum olan ilk Mitanni şahı I Şuttatnadır e.ə. XVI əsrin sonunda, I Şuttatnadan sonra isə Parattarna şahlıq etmişdir. Mənbələrdən bizə məlum olan Mitanni şahlarının ən qüdrətlisi Saussadattar olmuşdur. Bizə qədər onun yazılı möhürü gəlib çatmışdır: «Saussadattar Parsadattapın oğlu Mitanni şahı».

Saussadattar Misir fironlarının XVIII sülaləsinin Asiya yürüşləri dövründə şahlıq etmişdir. Buna baxmayaraq, Mitanninin nüfuzu dairəsinə yuxarı Fəratdan Kilikiyaya, Şimali Suriyadan Assuriya, Nineviya, Arabxah, Kadmuq, İsuv və Alziyə qədər geniş bir ərazi daxil idi. Bu dövrdə Ön Asiyanın siyasi həyatında Misirdən sonra əsas rolu Mitanni oynayırdı. Lakin qüdrətinə və sərvətinə görə Mitanni Misirdən çox geri

qalırdı.

Ehtimal ki, XVIII sülalənin fironları ilə müharibələr olmasaydı, Mitanni öz qüdrətinin ən yüksək zirvəsində dayanardı. I Tutmosun şahlığından başlayaraq, Misir fironları Suriya və Fələstinə işğalçı yürüşlər təşkil edir, lakin hər dəfə də Mitanni ordusunun müqavimətinə rast gəlirdilər. Bu müharibə Mitanni şahı I Artadamanın dövründə, Misir və Mitanninin dostlaşmasından sonra başa çatdı və bu sülh firon IV Tutmosun Mitanni şahzadəsi ilə nikahına əsasən möhkəmləndi. Mitanni şahı Tuşrattanın IV Amenxotepə məktubunda deyilir:

«III Amenxotepin atası IV Tutmos, mənim babam Aptadamaya məktub yazdı və onun qızı atamın (II Şüttarna) bacısını istədi. Beş-altı dəfə məktub yazdı, amma o, qızını vermədi. Yeddinci dəfə məktub yazandan sonra o, (Artadama ) qızını verdi».

Bu hadisələr Mitanni və Misirin Şərqi Aralıq dənizi hövzəsi ərazisi uğrunda illərlə davam edən mübahisəsinə son qoydu. Ərazi bu iki dövlətin nüfuz dairələrinə bölünür. Şimal hissəsi Mitanninin, cənub hissəsi isə Misirin nüfuz dairəsinə daxil olur. Qeyd etmək lazımdır ki, III Amenxotep Mitanni şahı II Şuttarnaşm qızı Kelu-Xəbəyə evləndikdən sonra Misir və Mitanninin siyasi əlaqələri daha da möhkəmləndi.

Mitanni dövlətinin Xet şahı I Suppiliuma ilə müharibəsi dövründə Mitanni şahı Tuşiratta Misir fironuna birinci məktubunu yazır: «Misir şahına , qardaşıma sənin qardaşından, mən sağ-salamatam. Sənə, bacım Kellu-Xebeyə, sənin evinə, sənin arvadlarına, oğullarına, əyanlarına, orduna, atlarına, döyüş arabalarına və ölkənə əmin-amanlıq arzulayıram.

Sən mənim atamla yaxşı münasibətdə olmusan. Mənim atam səni sevirdi, sən də mənim atamı. Buna görə də o, mənim bacımı sənə verdi. Kim mənim atamla belə yaxın olub? Bütün Het düşmən kimi mənim ölkəmə hücum etdi. Mən onları darmadağın etdim. Onlardan heç biri öz ölkəsinə qayıtmadı.

Mən sənə döyüş arabası iki at, Het hərbi qənimətindən I oğlan və I qız göndərmişəm. Qardaşıma isə hədiyyə olaraq 5 döyüş arabası və 5 qoşqu atı göndərmişəm. Bacım Kelu Xebeyə hədiyyə olaraq bir cüt qızıl boyunbağı, bir cüt qızıl sırğa və ətriyyatla dolu daş qab göndərmişəm. Səfir kimi Kelsiyə və Tunibivrini göndərmişəm. Qoy qardaşım onları tez buraxsın ki, qardaşımın salammı eşidim və fərəhlənim. Qoy qardaşım mənimlə dostluğu möhkəmlən-dirsin və öz səfirlərini yanıma göndərsin ki, onlar mənə qardaşımdan salam gətirsinlər və mən bunu eşidim.»

Ell-Amarndakı məktubdan məlum olur ki, III Aminxotep öz səfirini Mitanniyə göndərmiş və Turşattanın qızı Tadu-xebanı istəmişdir.

Turşatta fironunun xahişi ilə cavab olaraq yazmışdı: «böyük şaha, Misir şahına, mənim qardaşıma. Turşatta, böyük şah, Mitanni şahı, sənin qardaşın. Mənim qardaşım səfiri Maneni mənim yanıma göndərdi. Dedi: Qoy qardaşım öz qızını mənə arvad olmaq üçün göndərsin və o, Misirin xanımı olsun. Mən qardaşımın ürəyini kədərləndirmədim və dedim: «Mən razıyam.» qardaşım istədiyi kimi mən onu Maneyə göstərdim, Mane onu görən kimi çox xoşhal oldu».

Misir səfirləri bir neçə dəfə hədiyyələrlə Mitanni sarayına gəldilər. Nəhayət, Turşatta məmnun oldu və qızını çox böyük cehizlə Misirə göndərdi. Cehiz əsasən qızıl - bəzək əşyalarından, bürünc, parça - paltar, ətriyyat yağı, döyüş arabaları, atlar, qullar, lazurit, və müxtəlif növ qiymətli daşlardan ibarət idi. Nigah III Aminxotepin hakimiyyətinin 35 və ya 36-cı ili oldu.

Misir taxt-tacına IV Aminxotep sahib olandan sonra Turşatta hədiyyə olaraq ona qiymətli əşyalar göndərdi və xatırlatdı ki, o, Mütaniyə hələ III Aminxotepin onun üçün hazırladığı iki qızıl heykəlciyi göndərməlidir. III Aminxotep Mitanniyə az miqdarda hədiyyə göndərdi və hətta qızıl heykəlciklərin yerinə ağacdan düzəldilmiş və üzərinə qızıl çəkilmiş heykəlciklər göndərdi.

Tell-Amarna yazışmalanndan məlum olur ki, III Aminxotepə ərə getmiş Mitanni şahzadəsi Tadu- Xeba, sonra onun oğlu III Aminxotepin arvadı oldu.

III Aminxotepin və IV Aminxotepin sarayının təsviri göstərir ki, bütün hərəmxana qadınları baş hərəmin xidmətçiləri idilər. Güman ki, firon ayrı-ayrı vaxtlarda məlikənin xidmətçiləri, o cümlədən əcnəbi şahzadə xanımlarla birgə yaşamaq hüququndan istifadə edirdi. Bu şahzadə xanımlar sarayda, atalarının Misirə lazım olan siyasi istiqamətlərdə fəaliyyətini təmin etmək üçün girov kimi saxlanılırdılar və faktik olaraq fironun arvadları deyildilər.

Yeni firon sələfinin bütün saray heyətinin, həmçinin aralarında Tadu-Xeba olan mərkənin əsil-nəcabətli xidmətçilərinin varisi oldu. Turşatta onu yenə də yeni fironun «arvadı» hesab edirdi, amma Misir mənbələrindən məlumdur ki, I Aminxotepin bir baş arvadı (Nefertiti) və bir rəsmi kənizi (Kiya) olmuşdur. Bu Misirlə Mitaninin əlaqələrinin nə qədər birtərəfli olduğunu göstərir, hərçənd ki, Tuşrattanın məktublarına əsasən belə bir nəticəyə gəlmək olar ki, bu dövlətlər bərabərhüquqlu olmuşlar.

### 3.3. Misir-Assuriya əlaqələri

Misirin diplomatik əlaqələr saxladığı Ön Asiya dövlətlərindən biri də Assuriya idi. E.ə.XV əsrdə və XIV əsrin birinci yarısında Assuriya Mitanni və Babildən asılı vəziyyətdə idi. Yuxarıda qeyd edildiyi kimi, e.ə. 360-cı ildə Xet hökümdarı Suppiluliumas Mitanniyə ağır zərbə endirmişdir. Elə bu dövrdən başlayaraq Assuriya tədricən güclənir və Ön Asiya siyasətində mühüm rol oynamağa başlayır.

Assuriya şahı I Aşşuruballit (e.ə.1365-1333-cü illər) Misirlə diplomatik əlaqələr yaradır. Amarna arxivində onun Misir fironu IV Amenxotepə göndərdiyi bir neçə məktub qalmışdır. Məktubların birində o yazırdı: «Səni görmək üçün yanına göndərdiyim elçimi mehriban qarşıla. Qoy o, səni görsün və geri qayıtsın. Qoy o, sənin və sənin ölkənin arzusunu öyrənsin».

I Aşşuruballit IV Amenxotepə göndərdiyi başqa bir məktubunda onun elçisinin Misirdə ləngidilməsi ehtimalı ilə bağlı olaraq yazırdı: Qoy mənim elçilərim sənin ölkəndə ləngidilməsinlər. Nə üçün elçilər yad torpaqda qalmalıdırlar. Əgər onlar yad torpaqda qalarsa və şah bundan fayda görürsə, onda qoy qalsınlar və orada ölsünlər. Əgər şah bundan fayda götürmürsə onda nə üçün bizim göndərdiyimiz elçilər yad torpaqda ölməlidirlər?»

İstər Mitanni şahı, istərsə də Babil şahı assuriyalıları öz təbəələri hesab edirdilər və Misir fironunun Assuriya elçilərini qəbul etməsinə etirazlarını bildirmişdilər. Lakin Xet dövləti ilə ziddiyyətlərin tədricən kəskinləşdiyi bir dövrdə Misirin Ön Assuriyada yeni müttəfiqə ehtiyacı var idi. Buna görə də Misir fironu göstərilən etirazlara baxmayaraq Assuriya ilə müstəqil əlaqələr yaratmışdı. Tezliklə Assuriya dövləti Xet şahlığı ilə birlikdə Ön Assuriyada Misirin ən güclü rəqiblərindən biri olan Mitanni dövlətinin varlığına son qoydu və onun torpaqlarmı öz aralarında böldülər. Beləliklə, Şərqi Aralıq dənizi rayonları uğrunda mübarizədə Misir Het dövləti ilə üzbəüz qaldı.

**Mövzuya dair suallar:**

1. Misirdə yeni şahlıq dövrünün səciyyəsi
2. Misirin Ön Asiya ölkələri ilə əlaqələrinin xarakteri
3. Babilsitanla diplomatik-siyasi əlaqələrin inkişafı
4. E.ə. II minilliyin ortalarında Ön Asiyada beynəlxalq vəziyyət və daxili çəkişmələr
5. Misir- Muttani münasibətləri
6. Assuriyanın qüvvətlənməsi və Misirin rəqibinə çevrilməsi

**Ədəbiyyat:**


1. Yusifov Y. Qədim Şərq tarixi. B., 1995
2. Авдиев В.И. Военные история древнего Египта. т.2. М., 1959
3. Авдиев В.И. История Древнего Востока. М., 1970
4. Древняя литература Малой Азии. М., 1977
5. История дипломатии. II изд., т.I. М., 1959
6. История древнего мира. Ранняя древность. т.1, М., 1982
7. Кузишина Н.И. История Древнего Востока. М., 1978
8. Лившиц И.Г. Сказки и повести древнего Египта. Л., 1979
9. Литература Вавилиони и Ассирии. М., 1981
10. Маккуин Дж. Хетты и их современники в Малой Азии. М., 1983
11. Межгосударственные отношение и дипломатия на Древнем Востоке. М., 1987
12. Оппенхейм А.Л. Древняя Месопотамия М., 1980
13. Тураев Б.А. История Древного Востока. Т.1., М., 1935

## IV Mövzu
## Misirin Xet dövləti ilə diplomatik əlaqələri

Yeni Şahlıq dövründə Xet dövləti xeyli yüksəlmiş və qüdrətli bir dövlətə çevrilmişdir. Kiçik Asiyada öz mövqelərini möhkəmlətdikdən sonra Xet şahlığı cənuba doğru irəliləyir və Simali Suriyada böyük nəticələr əldə edirdi. Hetlərin müəyyən zaman zəifləməsindən istifadə edən Mitanni Fəratdan qərbdə, əsasən də Şimali Suriyada müvəffəqiyyət qazanmışdır. Xet şahı I Suppiluliumas Mitanninin qüdrətinə son qoydu. Xet qoşunları yuxarı Fəratdan keçərək kiçik hürri şahlıqlarmı məğlub edir və Mitanninin paytaxtı Başşkanini darmadağın edirdi. Suppiluliumasm Şimali Suriyaya müvəffəqiyyətli yürüşləri nəticəsində Mitanni Fəratdan qərbdəki torpaqlarını itirdi. Bu dövrdən Şimali Suriyada Hetlərin uzunmüddətli ağalığı başlayır.

Supiiluliumasın dövründə Xet dövləti ilə Misir arasında münasibətlər yaxşı idi. Buna əsasən Supiiluliumasın firon Exnatona taxt-taca çıxması münasibətilə yazdığı təbrik məktubunu göstərmək olar. Lakin xetlərin Suriyada apardığı siyasət onların Misir ilə toqquşmasına gətirib çıxardı. Xet dövləti öz hakimiyyətini cənuba doğru genişləndirməkdə davam etdirdi. Gənc firon Tutanxamon isə Misirin düşmənləri ilə yalnız əcnəbi tələbələrin şikayəti dözülməz olduqda müharibə aparırdı. Gənc Firon məişət əşyalarının üzərində suriyalı və efiopiyalı əsirlərin, onlar üzərində qələbənin təsvirlərini çəkdirməyi sevirdi. Lakin onun qələbələrinin nə dərəcədə olduğunu demək çətindir.

Tutanxamonun keçmiş ənənələrinin bərpa edilməsinə həsr edilmiş təntənəli yazısında deyilir: «Ordu Suriya Fələstinə Misirin sərhədlərini genişləndirmək üçün göndərilirdisə də heç bir müvəffəqiyyət əldə edilmirdi». Əslində söhbət sərhədlərin genişləndirilməsindən və ya əvvəlki sərhədlərin qorunmasından yox, Het dövləti tərəfindən hələ tutulmamış Suriya - Fələstin torpaqlarının qorunmasından gedirdi.

Tutanxamon təxminən on səkkiz yaşında ikən vəfat etdi. Tutanxamonun dul qalmış arvadı Anxesenpaamunun bu zaman 17-16 yaşı vardı. Öz təbəələrindən heç biri ilə evlənmək istəməyən Anxesenpaamun Het şahı Suppiluliuması, oğlunun ona ər olmaq üçün verməsi haqqında müraciət edir.

Anxesenpaamunun Suppiluliumasa iki məktubu Het tarixi xronikasında, onun oğlu II Mursilis tərəfindən söylənən «Suppiluliumasm əməlləri»ndə göstərilir. «Suppiluliumasm əməlləri» boğazgöydə, kil lövhələr üzərindəki mixi yazılı mətinlərdə tapılmışdır. Burada Anxesenpaamunun məktubları haqqında yazılır: «Mənim atam aşağıda, Karkəmiş ölkəsində olan zaman Lupakkas və Tarhuntasalması irəliyə, Amka ölkəsinə göndərdi. Onlar Amka ölkəsinə hücum etmək üçün getmişdilər və onlar əsirləri, öküzləri və qoyunları mənim yanıma gətirmişdilər. Misirlilər Amkaya hücumu eşidəndə çox qorxdular. Elə bu vaxt onların ağası Nibhururias (Tutanxamon) vəfat etdi və buna görə də Misirin məlikəsi Dahamunaus (Anxesenpaamun) mənim atama qasidlə məktub göndərdi.

Məktubda o, yazırdı: «Mənim ərim vəfat edib, oğlum isə yoxdur. Deyillər ki, sənin çoxlu oğulların var. Əgər sən onlardan birini mənə versən o mənim ərim olar. Mən heç vaxt öz nökərimi seçib özümə ər etməyəcəm. Mən belə biabırçılıqdan qorxuram». Mənim atam bunu eşidəndə böyük əyanları məşvərətə çağırdı və ona belə dedi: «Bütün həyatım boyu mənim başıma heç vaxt belə hadisə gəlməmişdir». Bundan sonra mənim atam saray işlərini idarə edən Hattusasitisi belə bir əmirlə Misirə göndərdi: «Get, bu xəbərin həqiqi olub-olmadığı haqqında mənə xəbər gətir». Yazda Hattusatisis Misir qasidi səfir Hani ilə birlikdə Misirdən qayıtdı.

Misir məlikəsi atamın sorğusuna cavab olaraq belə yazırdı: «Nə üçün sən deyirsən ki, bu işdə onlar məni aldadırlar. Əgər mənim oğlum olsaydı, mən özümün və öz ölkəmin düşdüyü biabırçılıq haqqında yad ölkəyə yazardımı? Sən Mənə inanmadın və hətta bunu belə dedin. Mənim ərim vəfat etmişdir, oğlum isə yoxdur. Mən heç vaxt öz xidmətçimə ərə getmərəm. Mən başqa heç bir ölkəyə yazmamışam. Mən yalnız sənə yazmışam. Deyilənlərə görə, sənin çoxlu oğlanların var onlardan birini mənə ver. O, mənim üçün ər, Misirdə isə şah olacaq». Beləliklə, mənim atam açıq ürəkli olduğu üçün o, qadına güzəştə getdi və oğlunun işi haqqında düşünməyə başladı. Hata sonra Suppihıliumas Misir səfiri Haniyə dedi: «Mən sizə qarşı dost münasibəti bəsləyirdim. Lakin gözlənilmədən siz mənə pislik etdiniz. Siz misirlilər mənim hürri şahımdan azad etdiyim Kinza (Kade) adamlarına hücum etdiniz. Mən bunu eşitdikdə qəzəbləndim və öz şəxsi dəstələrimi və kənd arabalarımı irəli göndərdim. Onlar sizin ərazinizə Amkaya hücum etdilər. Mən sizin ölkə Amkaya hücum etdiyim vaxt görünür, siz qorxuya düşürdünüz və mənim oğlum haqqında xahişlə mənə müraciət etdiniz. O, beləliklə, girov olacaqdı və siz onu şah etməyəcəksiniz».

Cavabında o mənim atama dedi: «Ey mənim atam, bu bizim ölkə üçün biabırçılıqdır. Əgər şahın oğlu olsaydı, məgər bir özgə ölkəyə gəlib özümüz üçün ağa xahiş edərdiniz? Nəzərə al ki, biz heç bir başqa ölkəyə getməmişik. Biz yalnız sənin ölkənə gəlmişik. İndi isə, bizim ağamız, öz oğlunu bizə ver». Daha sonra mənim atam keçmişdə Tufan allahı Teşubun Hatti övladlarını Misirə aparıb çıxarması və onları misirli etməsi, Misir və Hatti ölkəsi arasında müqavilə bağlanması və sonralar onların həmişə bir-biri ilə dost olması haqqında müqavilənin mətni olan lövhəni gətirməyi xahiş etdi. Həmin mətni bərkdən onun qarşısında oxuduqdan sonra mənim atam belə dedi: «Ən qədim vaxtlardan hatti ölkəsi və Misir dost olmuşlar və indi də bu bizim mənafeyə uyğundur».

Mətnin sonundakı sözlərdən məlum olur ki, Suppiluliumas oğlunu Misirə göndərməyə razılıq verir.

Lakin, Suppiluliumasın oğlu Sanlansas Misir sarayında bir qrup əyan tərəfindən qəsd yolu ilə öldürülür. Bununla da Anxesenpaamunun Xet şahzadəsini özünə ər və firon etmə cəhdi boşa çıxır.

Məlum olduğu kimi, Xet dövlətinin Suriyaya işğalçılıq yürüşləri firon Exnatonun dövrünə təsadüf edir. Exnatonun islahatlara başı qarışması və xarici siyasətdəki səhvləri Misirin Suriya - Fələstin torpaqlarının Xet dövləti tərəfindən tutulmasına gətirib çıxartmışdı və Misirlə Xet arasında toqquşma baş vermişdi.

Şahzadə Sanpansas öldürüldükdən sonra Suriyada hərbi əməliyyatlar yenidən başlandı. Suppiluliumasın oğlu Arpuvandasın başçılığı ilə Xet dəstələri yenidən Amka ölkəsinə soxuldular. Bir müddət sonra Xet ordusunda Misir əsirlərindən yayılmış taun epidemiyası baş vergi, və Xet ordusu hücumu dayandırmağa məcbur oldu. Tezliklə Suppiluliumas özü də taun xəstəliyindən öldü. Bu hadisələrdən üç il sonra Misir taxt-tacına Xoremxeb sahib oldu.

Xoremxebin şahlığı dövründə Misirin beynəlxalq mövqeləri xeyli möhkəmləndi. Onun müharibələri haqqında məlumat o qədər də çox deyil. O, Efiopiya və Suriyaya yürüşlər etmişdir. Suriyaya girərkən firon Xet şahlığı ilə toqquşmaya bilməzdi. Fironun məğlub etdiyi şəhərlərin və ölkələrin siyahısında Fələstin və Suriya şəhərləri, Şimali Finikiyada Uqarit və nəhayət, Xet şahlığı və Cənubi Anadoluda Artsava ölkəsinin adı vardır. Lakin firon şimalda öz uğurlarmı möhkəmlədə bilmədi.

Suriyada Misir hökmranlığını bərpa etmək XIX sülalənin üzərinə düşdü. Bu sülalənin ilk fironu Xoremxebin varisi I Ramses sonra isə I Seti oldu. I Seti şahlığının əvvəllərində Suriya - Fələstinə yürüşə başlayır. I Setinin yürüşünün bilavasitə məqsədi Fələstinin sakitləşdirilməsi idi. Misirin şimal torpaqları olan Fələstində hərcmərclik hökm sürürdü və bunun başlıca səbəbkarı köçəri tayfalar idilər. Onlar firona qarşı qiyama səbəb olur, bir-biri ilə müharibə aparır və ölkədə nizamsızlıq yaradırdılar. Fələstin məsələsində Setinin siyasəti III və IV Amenxoteplərdən fərqli olaraq uzaqgörənliklə həyata keçirilirdi.

Arxada sakitləşdirilməmiş Fələstin ola-ola Xet şahlığı ilə mübarizə aparmaq qorxulu idi və buna görə də firon Fələstini susdurdu. Buna baxmayaraq, Fələstinin sakitləşdirilməsi hələ XVIII sülalənin «dünyəvi» dövlətinin bərpa edilməsi demək deyildir. Növbədə Suriyada ağalıq edən Xet şahlığı və ondan asılı vəziyyətdə olan Amuru dururdu.

I Setinin Xet dövləti ilə müharibəsi həm də ondan asılı vəziyyətdə olan Suriya şahlıqları ilə müharibə idi. Fironun qələbə yazılarında onun Xet torpağından qiyamçı ölkələri məhv edib suriyalıları qıraraq qayıtmasından danışırlar. Firon Xet şahlığının hakimiyyətində olan və Suriya şəhərlərindən ən başlıcası Amurrun darmadağın edəndən sonra Kadeş şəhərini tutdu.

Het dövləti və onun müttəfiqləri ilə müharibə Misir üçün uğurlu oldu. Fiv şəhəri şahın Amon silahına hədiyyə kimi gətirdiyi Anadolu və Suriya əsirləri və müxtəlif növ qiymətli əşyalarla doludur. Fironun məğlub etdiyi xalqlar və tutduğu şəhərlər arasında Fələstin və Cənubi Finikiya şəhərləri, orta Suriyada Kadeş, Kata, Ullaza, Nahrima, Tunib var idi. Xet mixi yazılı mənbələrindən məlum olur ki, Suriyadakı Amuru şahlığı Misirin tərkibinə daxil edilmişdir, yəqin ki, müəyyən vaxt Misir dövlətinin tərkibinə Oroit çayı üzərindəki Kadeş şəhəri də daxil edilmişdi. Onun oğlu və varisi II Ramses bütün qələbələrinə baxmayaraq özündən əvvəlki şahlığının sərhədlərinin şimal hissəsini saxlaya bilmədi.

Misirlə Xet şahlığının müharibəsi II Ramsesin hakimiyyətinin 5-ci ili (e.ə. 1300-cü il) başlandı. Bu ilin hərbi əməliyyatlarmı firon özünün «ikinci qalibiyyətli yürüşü» hesab edirdi.

Misir yazılarının birində deyilir ki, şimal xalqları əlahəzrətin «sərhədlərinə hücum etmək üçün» gəlmişdilər. Hər halda onu Xet dövlətinin fitnələri məcbur etsələr də hücum edən tərəf firon özü olmuşdur. Bütün hadisələr Kadeş yaxınlığında baş vermişdi. Yadımıza salaq ki, I Setilin vaxtında Kadeş Misir dövlətinin tərkibinə daxil edilmişdir, Ramsesin hakimiyyətinin 5-ci ili onun Misirə düşmən ittifaqın tərkibində olması bu ərəfədə onun Misirdən qoparıldığını göstərir.

Xet şahı Muvattalis Misir ordusu ilə açıq döyüşdən çəkinirdi. Onun ordusu o dövrə görə çox saylı (28 min döyüşçü və 6 mindən çox at) olsa da, nizamsız idi və əsasən muzdlulardan ibarət idi. Ordunun əsasını Xet dövlətinin döyüşçüləri təşkil edirdilər. Lakin onlardan başqa orduda öz qala bütün Anadolu və Suriya şahlarının nümayəndələri var idi: Artsava, Luka, Kussuvadna, Aravana, Fəpətboyu, Suriya, Kapkemiş, Amino, Uqarit, Nuxaşik, Kadeş köçəri tayfalar və s. Bu müttəfiqlərin hər biri öz hökmdarlarının başçılığı ilə hərəkət edirdi və bu orduya rəhbərlik etmək Muvattalist üçün çox çətin idi.

Belə nizamsız ordu ilə mütəşəkkil Misir ordusuna qalib gəlmək çox çətin idi. Sonrakı 16 illik mübarizə göstərdi ki, Xet ordusu açıq döyüşdən çəkinir daha çox Suriya qalalarında otururdu. Hətta Kadeş yaxınlığındakı döyüşün də gedişi göstərirdi ki, Xet şahlığı hərbi gücdən çox hiylə ilə qalib gəlməyə ümid bəsləyirdi.

Mənbələrdən məlum olur ki, Ramses Kadeş şəhərini tuta bilmir. Rəqiblər bir-birinə güc gələ bilmədilər və gözlənildiyi kimi, Xet şahı Muvatalis firona sülh təklif etdi. Bu haqda Kadeş yaxınlığındakı döyüş haqqında yazılmış povestdə məlumat vardır. Burada Xet nümayəndələrinin məktubla Ramsesin yanına gəlməsi, misirlilərin hərbi müşavirəsi və fironun düşmənin xahişinə «xeyirxahlıqla mərhəmət» göstərməsi haqqında yazılır.

Ramsesin şahlığının 8-ci ili Misir ordusu yenidən Suriya - Fələstinə yürüş edir. Misir ordusunun zərbələri altında Fələstin qalaları və tayfaları məğlub olurdular. Ramsesin qələbə abidələrində cənubda Aşkelon,

Ölü dənizdən şərqdə Moav, Finikiyada Akka, Livanın cənub sərhədi yaxınlığında yaxınlığında İenam və onlarla naməlum torpaqlar göstərilir.

Müharibə Xet dövlətinin ərazisində keçdi və firon Amuru ölkəsindəki Dapur qalasına yaxınlaşdı. Firon qalanın alınmasında şəxsən iştirak etdi və Xet qoşunu məğlub edildi. Mixi yazılı mənbələrdəki məlumata görə, nəticədə yenə də Şimali Suriya və hətta Amuru şahlığı Xet şahlığının əlində qaldı.

II Ramsesin hakimiyyətinin 2I-ci ili sülh bağlanmasının mümkünlüyünü misirlilər düşmən qüvvələrinin tamamilə gücdən düşməsi ilə izah edirdilər. Misirin güzəştə getməsi haqqında isə belə bir fərziyyə irəli sürmək olar. Yeni Şahlıq fironları Suriya-Fələstin təbəələrindən xərac alırdılar. Xəracın ağırlığı həmişə qiyamçı əhval-ruhiyyəyə səbəb olurdu. Suriya -Fələstin torpaqlarına uzaqdan - uzağa sahiblik etmək orada güclü rəqib olmadığı halda mümkün idi. Misirin belə bir rəqibi güclənmiş Het dövləti oldu.

II Ramses dövründə Misirin Xet şahlığı ilə münasibətləri III Tutmos dövrünün Misirin Mitanni ilə münasibətlərini xatırladırdı. Fərq bunda idi ki, Xet şahlığı Mitannidən xeyli güclü idi. Mitanni şahını öz ölkəsində məğlub etmək olardı və Suriyadan əl çəkməyə məcbur etmək olardı. Xet dövlətini məğlub etməyə isə Misirin gücü çatmadı və 16 illik üzücü mübarizədən sonra Ramses başa düşdü ki, Fələstin və Suriyanın bir hissəsinə yalnız şimaldakı işğallardan imtina etdikdən sonra yiyələnmək olar.

Mənbələrin məlumatına görə, Misirlə Xet çarlığı arasında sülh müqaviləsi II Ramzesin çarlığının 17-ci ilində - e.ə. 1280-cı ildə imzalanmışdır. Müxtəlif ədəbiyyatlarda fərqli tarixə də rast gəlmək mümkündür.

Sülh müqaviləsi II Ramses ilə Muvatallisin varisi III Hattusilis tərəfindən bağlandı. Bu müqavilə sülh, qardaşlıq, xarici təcavüzün və daxili siyasi konfiliktlərin dəf edilməsində əməkdaşlıq haqqında məlum olan ən qədim müqavilələrdən biridir.

II Ramsesin şahlığınm 2I-ci ilin qışın əvvəlində Xattusilisin səfiri, misirli tərcüməçinin müşayiəti ilə fironun paytaxtı Per - Ramses şəhərinə gəldi və Misir şahına öz hökmdarı adından üzərində müqavilənin mixi yazılı mətni olan gümüş lövhəciyi təqdim etdi. Bu lövhəcikdən müqavilə Misir dilənə tərcümə edildi və sonradan Misir heroqrifləri ilə daş üzərinə həkk edildi. Müqavilənin qısa mətni belədir: «Qoy gələcəkdə, əbədiyyətə qədər tanrı Misirin böyük hökmdarı və Xet ölkəsinin böyük hökmdarı arasında bu müqaviləyə uyğun olaraq düşmənçilik yaranmasına imkan verməsin. Qoy Het ölkəsinin böyük hökmdarının övladları Misirin böyük hökmdarı Ramses Meriamunun övladları ilə qardaş olsunlar və sülh şəraitində yaşasınlar. Qoy Misirin böyük hökmdarı Ramses hər hansı bir yeri tutmaq məqsədi ilə heç vaxt Xet ölkəsinə hücum etməsin». Müqavilənin mətnində daha sonra deyilirdi:

- Əgər hər hansı bir düşmən Misirin böyük hökmdarı Ramsesin torpaqlarına hücum edərsə və o, Xet ölkəsinin böyük hökmdarına «Mənimlə düşmənə qarşı qalibiyyətli qoşununla birgə çıxış et deyə müraciət edərsə, Xet ölkəsinin böyük hökmdarı gələcək və onun düşmənlərini darmadağın edəcək. Və əgər Xet ölkəsinin böyük hökmdarı şəxsən özü gəlmək istəməsə, o, ləngimədən öz piyada və cəng arabalarından ibarət qoşunu göndərəcək və onlar onun düşmənbrini darmadağın edəcək.

- Əgər Misirin böyük hökmdarı Ramses Meriamun öz xidmətçilərinə qəzəblənərsə və ya onlar Ramsesə qarşı hər hansı bir çıxış edərlərsə və o, onları darmadağın enmək istəyərsə Xet ölkəsinin hökmdarı onunla birlikdə olacaq və Ramsesin qəzəblənməsinə səbəb olanların hamısını məhv edəcək.

- Əgər hər hansı bir düşmən Xetin böyük hökmdarının torpaqlarına hücum edərsə və o, Misir ölkəsinin böyük hökmdarına müraciət edərsə, Misir ölkəsinin böyük hökmdarı gələcək və onun düşmənlərini darmadağın edəcək.

- Əgər böyük Xet hökmdarının qulluqçuları ona qarşı qalxarlarsa, onda, Ramses Meriamun da müqaviləyə uyğun olaraq onunla birlikdə olacaq. Və əgər Xet ölkəsinin hökmdarı «Mən öldükdən sonra qoy, Ramses Meriamun böyük Xet hökmdarının varisinə köməyə gəlsin, » - deyərsə onda, o gəlsin.

- Əgər hansı bir əyan Misir torpağından Xet ölkəsinin hökmdarının yanına qaçarsa və yaxud Ramses Meriamuna tabe olan Asiyadakı hər hansı bir şəhər ondan ayrılarsa və o, Xet hökmdarına müraciət edərsə qoy, böyük Xet hökmdarı onları qəbul etməsin və əmr etsin ki, onları ağaları Ramses Meriamuna qaytarsınlar. Və əgər hər hansı bir əyan Xet ölkəsindən qaçaraq böyük Misir hökmdarı Ramsesin yanına gələrsə yaxud hər hansı bir şəhərli, hər hansı bir kəndli... Ramsesin yanına gələrsə, qoy, Ramses onları qəbul etməsin və əmr etsin ki, onları Xet hökmdarına qaytarsınlar.

- Əgər Misir torpaqlarından I, 2 və ya 3 adam qaçarlarsa, və Xet hökmdarın yanma gələrlərsə, qoy, Xet hökmdarı onları tutsun və böyük Misir hökmdarına qaytarmağı əmr etsin. Ramses Meriamuna qaytarılacaq adama gəldikdə isə qoy, ona qarşı bu cinayətlə bağlı heç bir iş qaldırılmasın. Qoy, onun evini, arvad və uşaqlarını məhv etməsinlər, qoy, onun özünü öldürməsinlər. Qoy onun gözlərinə, qulaqlarına, ayaqlarına xətər yetirməsinlər. Qoy ona qarşı hər hansı cinayətə görə də iş qaldırmasınlar. Eyni qaydada Xet ölkəsindən adamlar, fərdi yoxdur, I, 2 və ya 3 nəfər olsun, qaçıb böyük Misir hökmdarının yanına gələrlərsə, qoy böyük Misir hökmdarı Ramses onları tutsun və böyük Xet hökmdarına qaytarmağı əmr etsin və qoy böyük Xet hökmdarı da onların cinayətləri ilə bağlı heç bir iş qaldırmasın, evlərini, arvad və uşaqlarını məhv etməsin, özünü öldürməsin, qulaqlarına, ağzına, ayaqlarına heç bir xətər gətirməsin, ona qarşı başqa bir cinayət işi qaldırmasın».

Müqaviləni nəzərdən keçirdikdə görürük ki, heç bir bənddə Misirlə Xet şahlığının sərhədindən danışılmır. Amma bütün məlumatlara görə aydın olur ki, II Ramses Misirin Asiya torpaqlarını genişləndirə bilmədi. Suriya və Finikiyanın çox hissəsi xetlərin, yalnız Cənubi Finikiya, Cənubi Suriya və Fələstin Misirin nüfuz dairəsində qaldı.

**Mövzuya dair suallar:**

1. Xet çarlığının yüksəlişi
2. Mesopatomiya uğrunda Misirlə Xet dövləti arasında hərbi –siyasi mübarizə və nəticələri
3. Misir -Xet əlaqələrində nikah diplomatiyasının rolu
4. Ən qədim müqavilə – II Ramzeslə III Xattuşil arasında imzalanmış müqavilənin mahiyyəti
5. Misir və Xet çarlığı arasında səfirlər mübadiləsi
6. Mesopotamiyanın nüfuz dairələrinə bölüşdürülməsi

**Ədəbiyyat:**


1. Yusifov Y. Qədim Şərq tarixi. B., 1995
2. Авдиев В.И. Военные история древнего Египта. т.2. М., 1959
3. Авдиев В.И. История Древнего Востока. М., 1970
4. История дипломатии. II изд., т.I. М., 1959
5. Кузишина Н.И. История Древнего Востока. М., 1978
6. Маккуин Дж. Хетты и их современники в Малой Азии. М., 1983
7. Межгосударственные отношение и дипломатия на Древнем Востоке. М., 1987
8. Перепелкин Ю.Я. Переворот Амен-Хотепа IV. М., 1967

## V Mövzu
## Qədim Yunanıstanda diplomatiya və səfirlik işi

### 5.1. Qədim yunan polisləri arasında münasibətlər və səfirlik işi

Yunanıstanın diplomatik əlaqələrinin öyrənilməsi Roma hüququnun öyrənilməsinə çıxış hesab edilə bilər. Yunanıstan üçün həmişə dualizm xas olmuşdur. Bu Yunanıstanın birləşməsi uğrunda mübarizədə təcəssüm olunur. Yunanıstanın e.ə.VIII -VI əsrlərə qədər olan dövrünü əsasən arxeoloji qazıntılar nəticəsində öyrənmək mümkündür. Yeganə yazılı əsər Homerin "İlliada" və "Odisseya" əsərləri, habelə Herodotun "Tarix" əsəridir. Bu əsərlərdə yunan-Troya və yunan-İran müharibələri ilə bağlı maraqlı materiallara rast gəlinir.

Qədim Yunanıstan təkcə sivilizasiyanın erkən vətəni deyil, həm də dövlətlərarası münasibətlərin konkret məzmuna malik olduğu ölkələrdən biridir. Yunan şəhər dövlətləri - polislər öz aralarında müəyyən ittifaqlar yaradırdılar ki, bunlar məbəd ittifaqları adlanırdı. Bu zəmində Anfiktoniya və Prokseniya institutları bərqərar olmuşdur. Xeyli sonralar ostrakizm yolu ilə ana şəhərdən qovulanlar yeni koloniyalar yaradarkən özləri ilə yunan-şəhər dövlətlərinə məxsus olan ənənələri də aparmışlar.

Afina və Sparta şəhər-dövlətlərinin ittifaqları bərqərar olandan sonra yunan diplomatiyasında və hərbi-siyasi tarixində dualizm qəti olaraq bərqərar olmuşdur. Bu dualizm özünü 1-ci və 2-ci Afina dəniz ittifaqları dövründə aydın şəkildə göstərmişdir. Klassik dövr diplomatiyası üçün xarakterik cəhətlərdən biri də məbəd ittifaqlarının mövcudluğudur. Bir qayda olaraq 12 yunan polisi bir məbəd ittifaqını yaradırdı. Bunların içərisində ən böyük nüfuza malik olanları Delfi və Fiv məbəd ittifaqları idi. Hər bir məbəd ittifaqına 12 kahin daxil idi. Onlara ağsaqqal başçılıq edirdi. Onun başlıca vəzifəsi məbəd İttifaqları arasında əlaqələri qoruyub saxlamaq, sülhü təmin etmək, habelə lazım olarsa müharibəni elan etməkdən ibarət idi.

Ənənəyə görə, yunan polislərindən heç biri digərinə dərhal müharibə elan edə bilməzdi. Bunun üçün 40 günlük müddəti başa vurmaq lazım idi. Bu müddətdə sülhə nail olunmurdusa, ağsaqqal müharibə elan edən dövlətin adından müharibə elan olunan dövlətin ərazisinə bir ucu yandırılmış, o biri ucu isə qana batırılmış cida atardı. Sülh elan olunması müharibənin nəticəsindən asılı olurdu və ağsaqqalların köməyi ilə sülh sazişi konkret müddət üçün imzalanırdı.

Siyasi dualizmlə yanaşı yunan polisləri arasında iqtisadi əlaqələrə ciddi diqqət verilirdi ki, bu zaman prokseniyadan istifadə olunurdu. Hər hansı yunan şəhər dövləti başqa şəhərə göndərilən elçinin zəngin ailədən olmasına, soyadının qədim olmasına çalışırdı. Elçi göndərilən şəxs qonşu polisin xalq yığıncağı qarşısında çıxış etmək üçün hazır olmalı idi. Buna görə elçiyə üzərinə mum çəkilmiş taxta lövhənin üzərinə səlahiyyətləri yazılmış iki lövhə verilirdi. Lakin diplomu olan şəxs gedəcəyi şəhərdə özünə proksen-himayəçi tapmalı idi. Məhz proksen onu xalq yığıncağına təqdim edə bilərdi. Yunan diplomatiyasında ritorik-diplomatiya məktəbləri mühüm rol oynayırdı.

Yunan şəhər dövlətlərinin hamısı öz koloniyalarına malik idilər. Lakin həmin koloniyalar çox keçmədən güclü siyasi vahidlərə çevrilirdilər. E.ə.VIII-VI əsrlərdə yunan koloniyaları Qara dənizin şərq sahillərindən tutmuş Aralıq dənizi boyunca yayılmışdı. Yunan koloniyaları Yunanıstanın qədim Şərqin müxtəlif ölkələri ilə əlaqələrinin genişlənməsində mühüm rola malik olmuşlar.

Mövcud tədqiqatlarda Homer dövrü diplomatiyası e.ə.XII-VIII əsrlərdə aid edilir. Homerin "İlliada" və "Odiseya" əsərlərinin təhlili göstərir ki, bu əsərlərin materialları e.ə.III minilliyin problemləri ilə səsləşir. Homer də yunan şəhər dövlətləri arasındakı dualizmi siyasi rəqabət və iqtisadi əlaqələrlə bağlayırdı.

"İlliada" əsərinin təhlili göstərir ki, qədim yunanlar o dövrki dünyanın məlum ölkələrinin hamısı - üç qitə haqqında kifayət qədər elmi biliklərə malik olmuşlar. Qədim Yunanıstanda da şərqdə olduğu kimi koalisiyaların yaranması xarici təhlükə ilə bağlı olurdu. Məlum olduğu kimi, yunan şəhər dövlətlərinin ən böyük ittifaqı e.ə. 479-cu ilə aid olan və Peloponnes müharibələri dövründə dağılan I Afina dəniz ittifaqı və e.ə. 379-da yaranan II Afina dəniz ittifaqından ibarət olmuşdur.

İranda Əhəmənilər sülaləsi bərqərar olduqdan sonra Aralıq dənizindən keçən ticarət yollarının tutulması onun başlıca arzusu olmuş və e.ə. 500-cü ildə başlanan yunan-İran müharibəsi buna xidmət etmişdi. İstər I Dara, istərsə də varisi Kserks onilliklər boyu apardığı müharibələrlə Elladaya yiyələnməyə çalışırdılar. Sonralar Panellin konqresində məhz bununla bağlı İrana müharibə elan olunması məsələsi dəfələrlə səslənmişdi. Hətta diplomatiya ilə hərbi işi paralel aparan Makedoniya çarı II Filip belə Şərq yürüşünün alovlu carçısı olmuşdur. Yunan şəhər-dövlətləri möhkəmləndikcə və İranla müharibələr fasiləsiz xarakter aldıqca, bu şəhər dövlətlərin vahid ittifaqda birləşməsi ideyası ciddi şəkildə müzakirə obyektinə çevrilməkdə idi. Məhz bu zəmində birləşmənin Makedoniya və Afina layihələri meydana gəlmişdi.

Hələ Yunan-İran müharibələri dövründən Afina Yunanıstanın bir sıra şəhər-dövlətlərini öz ətrafında birləşdirməyə nail olmuşdu. İttifaqın xəzinəsi Parfenon məbədində saxlanırdı. Afinanın əsas məqsədi hərbi və siyasi yolla yunan şəhərlərinin hamısını öz ətrafında birləşdirməkdən ibarət idi. E.ə.V-IV əsrlərdə Yunanıstanın başlıca qorxusu İrandan və Makedoniyadan idi. Təsadüfi deyil ki, e.ə.443-429-cu illərdə Afinanın strateqi olmuş Perikl Yunanıstanın birləşdirilməsinin özünəməxsus layihəsini hazırlamışdı

Periklin layihəsinə görə, yunan şəhərləri Afinanın ətrafında gözlənilən təhlükələrə qarşı birləşməli idilər. Bu məqsədlə Panellin konqresi çağırılmalı idi. Lakin Perikl öz layihəsini reallaşdıra bilmədi. Çünki yunan polislərinin bir qismi müxtəlif səbəblərdən Spartaya meyilli idilər. Təsadüfi deyil ki, Yunanıstana xas olan siyasi dualizm Peloponnes müharibələri dövründə öz siyasi zenitinə yüksəlmişdi. Əslində Peloponnes müharibələri Makedoniya çarlığının gücləndiyi dövrdə dəniz ittifaqını dağıtmaqla Yunanıstanı həm İran, həm də Makedoniya qarşısında tərksilah olunmuş vəziyyətdə qoydu. Digər tərəfdən Sparta Afina dəniz ittifaqının gücü qarşısında İranla yaxınlaşmağa başladı ki, bu da bir sıra müqavilələrdə öz əksini tapmışdır.

Lakin yunan şəhər-dövlətlərinin birləşməsi prosesi Makedoniya çarlığı tərəfindən reallaşdı. Çarlığın tarixi e.ə.VII-V əsrlərə, xüsusilə V Filippin dövrünə gedib çıxır. E.ə.IV əsrin ortalarında Makedon tayfalarının hamısı IV Filipp tərəfindən birləşdirilmiş və qüdrətli monarxiya aparatı yaradılmışdı. Yeni döyüş qaydası olan falanqa ellin şəhər- dövlətləri üzərində qələbə çalmağa şərait yaradırdı. II Filipp hərbi qüvvədən daha çox diplomatiyaya üstünlük verirdi. Tədricən şəhər- dövlətlərinin bir qismi Makedoniya tərəfə keçmişdi. II Filipp də Periklin müəllifi olduğu Panellin konqresinin keçirilməsində maraqlı idi. Bu konqreslərdə özü şəxsən iştirak edir və bildirirdi ki, yunanlarla makedoniyalılar ümumi düşmənə qarşı birləşməyə borcludurlar. Yunanıstanın birləşdirilməsi yolunda ən mühüm hadisə e.ə.338-ci ildə baş vermiş Xeroneya döyüşü olmuşdur. Xeroneya döyüşü ilə Yunanıstanın istiqlaliyyəti də məhv oldu, yerində vahid dövlət yarandı.

II Filipp Perikldən sonra ikinci şəxs idi ki, Panellin konqresinin çağırılması uğrunda mübarizə aparırdı. Xeroneya döyüşündən sonra Fiv və Fokida məbəd ittifaqları arasında yaranmış ziddiyyətlərdən istifadə edən II Filipp Fiv tərəfindən münaqişəyə qoşulur. Bu Fiv məbəd ittifaqına fokidalıların qarət etdiyi 10 min talant vəsaiti geri qaytarmağa imkan verir. Xeroneya döyüşündən sonra II Filipp Panellin konqresini çağırmaqla iki başlıca məqsədə nail olmaq istəyirdi.

- Yunan şəhər dövlətləri üzərində hegemonluğu təmin etmək.
- İranla müharibə məsələsində yunan şəhərlərinin müttəfiqliyini qazanmaq.

Məhz II Filippin təhriki ilə e.ə.337-ci ildə Korinf şəhərində sinedron-məclis çağırılır. II Filipp yunan dilində pis danışmasına baxmayaraq məclisdə çıxış edərək öz missiyasını nəzərə çatdırır və yunan şəhər-dövlətləri arasında düşmənçiliyi pisləyir. İki yüz ildən bəri davam edən və Yunanıstana böyük bəlalar gətirən yunan-İran müharibələrinin qisasının alınmasını tələb edən II Filipp öz populyarlığının zirvəsində idi. Korinf məclisi İrana müharibə elan edir. Müharibə üçün məqam əlverişli seçilmişdi. E.ə.336-cı ildə gərgin saraydaxili çəkişmələrdən sonra III Dara hakimiyyəti ələ almışdı.

II Filippin Yunanıstanı birləşdirməsi və Afina dəniz ittifaqına mənsub olmuş donanmaya sahiblənməsi ona Kiçik Asiyaya yürüş üçün geniş imkan yaratmışdı. Lakin baş vermiş faciəli hadisə onun həyatəna son qoydu. Şərq yürüşünə rəhbərlik Makedoniyalı İsgəndərin payına düşdü. İsgəndərin şərq yürüşü e.ə.334-325-ci illər arasındakı onillik dövrü əhatə edir. Şərq yürüşündə məqsəd Kiçik Asiyadakı yunan şəhərlərini İranın təsirindən azad etmək və «demokratiyanı» bərpa etməkdən ibarət idi. İsgəndərin hərbi qüvvələri təxminən 100 min nəfərə yaxın idi, halbuki Əhəmənilərin silahlı qüvvələri bundan on dəfələrlə çox idi.

İsgəndərin Kiçik Asiyaya çıxışı maneəsiz baş verdi. Çünki təzəcə hakimiyyətə gəlmiş III Dara İsgəndərin məqsədindən xəbərdar olsa da öz hərbi qüvvələrini qaydaya sala bilməmişdi. E.ə.334-cü ildə Qranik çölündə baş vermiş döyüş III Daranın hərbi qüvvələrinin məğlub olması ilə nəticələnmişdi. Lakin e.ə.333-cü ildə baş verən İss döyüşü yalnız İsgəndərin sərkərdəlik bacarığı nəticəsində Makedoniyanın xeyrinə həll oldu. İss döyüşündən sonra Babil hökmdarı Mazun, Atropat, habelə III Daraya sadiq olmuş 2 şəhər hakimi İsgəndərin hakimiyyətini qəbul edirlər.

İsgəndərin e.ə.332-ci ildə baş vermiş Misir yürüşü xilaskarlıq yürüşü kimi qəbul edilir. Lakin Qəza və Tir şəhərləri müqavimət göstərdikdən sonra təslim olurlar. İsgəndərin Misir yürüşü nəticəsində Misir onun hakimiyyətini qəbul edir. İsgəndər Misir fironu və Ra allahının oğlu elan edilir. Həmin ildə İsgəndəriyyə şəhərinin əsası qoyulur. Burada tikilən Mayak dünyanın ikinci möcüzəsi sayılır. İsgəndərin zərbələri altında İran Əhəmənilər dövləti e.ə. 330-da dağılır. Dara özünün sevimli sərkərdəsi Bes tərəfindən öldürülür.

İsgəndərin Orta Asiyaya yürüşü e.ə. 328-327-ci illərə aiddir. Yürüşdən sonra İsgəndər Hindistan səfərinə başlayır və Hindistanın şimal-qərb bölgəsi Makedoniya imperiyasının hakimiyyəti altına keçir. İsgəndər e.ə. 325-ci ilin sonunda yürüşü başa vurur və su yolu ilə öz qoşunlarını Mesopotamiyaya qaytarır. İmperiyanın ərazisi canişinliklərə bölünür və paytaxt kimi Babil şəhəri seçilir.

## 5.2.Makedoniyanın beynəlxalq əlaqələri

E.ə. VII-VI əsrlərdə Makedoniyanın ayrı-ayrı vilayətləri Homer dövrünün basilevslərinə bənzər tayfa başçıları tərəfindən idarə edilirdi. Bu vilayətlərin birləşdirilməsi cəhdlərinə e.ə. VI əsrdən etibarən bir sıra sülalələrin fəaliyyətində təsadüf olunur. Bu dövrün hakim nəsilləri içərisində ən qüvvətlisi Ageadlar idi. Makedoniyada vahid dövlətin – monarxiyanın yaranması bu sülalənin adı ilə əlaqədardır. Tədricən bu sülalənin nümayəndələri bütün Aşağı Makedoniyanı özlərinə tabe edirlər. Lakin İran-yunan müharibələri dövründə az müddətdə olsa da, Makedoniya İranın hakimiyyəti altına düşür.

Makedoniyanın ilk yüksəlişi dövrü I İskəndərin (e.ə. 495-450) ilə bağlıdır. Mərkəzləşmə siyasəti yeridən I İskəndər və I Arxelayın çarlığı dövründə (e.ə. 419-399) mərkəzi hakimiyyətin konsolidasiyasına yönəldilmiş bir sıra islahatlar verilir. Arxelay Makedoniyada qalalar tikdirir, yeni yollar saldırır, hərbi işi canlandırırdı. Antik tarixçilərdən Fukididin yazdığına görə, o Makedoniya üçün özündən əvvəl gələn səkkiz çarın hamısından daha çox iş görmüşdü. Arxelay dövründə paytaxt Pella şəhərinə köçürülür və onun yeritdiyi birləşmə siyasətini varislərindən III Perdikka (e.ə. 365-360) tərəfindən davam etdirilmişdi. Bununla belə, sülalənin son nümayəndələrinin dövründə Makedoniyada hakimiyyət uğrunda mübarizə ölkəni xeyli zəiflətmişidi.

Makedoniyada vəziyyət II Filippin (e.ə. 359-336) hakimiyyəti illərində stabilləşir və qüdrətli monarxiya yaranır. II Filipp tərəfindən həyata keçirilmiş siyasi-hərbi islahatlar nəticəsində orduda başlıca rol falanqaya verilmişdi. Bir-birinin arxasında 16 sıra ilə düzülmüş, qılınc, qalxan və iki metrlik nizələrlə silahlanmış Makedoniya falanqası o dövrkü hərbi qaydanın ən mükəmməl nümunəsi hesab edilirdi. Qalxanlarla mühafizə olunub, uzun nizələrlə düşməndən özünü qoruyan Makedoniya falanqasının hücumu düşməndə vahimə yaradırdı. Ağır silahla silahlanmış süvari alayları isə ictimai tərkibi etibarı ilə Makedoniya zadəganlarından ibarət idi. Makedoniya falanqalarının sağ və sol cinahında duran yüngül silahlı piyada və atlı alaylar falanqanı düşmənin mühasirəyə almasından müdafiə edirdi. Bu muzdlu alaylar tərkib etibarı ilə yunan, Frakiya, İlliriya və başqa tayfaların nümayəndələrindən ibarət olmuşdu. Makedoniya qoşununda döyüş texnikasından – taran və katapultadan da məharətlə istifadə edilirdi.

II Filippin islahatları içərisində iqtisadi islahatın da böyük əhəmiyyəti var idi. Makedoniya çarı Strimon çayı yaxınlığındakı qızıl və gümüş mədənlərini ələ keçirməklə böyük sərvət sahibi olmuş və ildə 1000 talant qızıldan artıq gəlir əldə etmişdi. Tədricən Makedoniya pul vahidləri olan qızıl və gümüş sikkələr Aralıq dənizinin şərq rayonlarında həqiqi mübadilə vahidinə çevrilərək İran darikləri (qızıl pul vahidi) ilə paralel olaraq işlədilməyə başlanmışdı.

II Filippin iqtisadi islahatı ölkənin ticarət əlaqələrinin inkişafına xeyli təkan vermiş, əldə edilmiş pul vəsaitləri Makedoniya ordusunun gələcək hərbi müvəffəqiyyətlərində böyük rol oynamışdı. Digər tərəfdən ticarətin inkişafı Makedoniyanın beynəlxalq əlaqələrinin güclənməsinə də müsbət təsir göstərmişdi.

II Filip tərəfindən qüdrətli ordunun yaradılması və çoxlu sərvətlərin əldə edilməsi Makedoniyanın işğalçılıq siyasətinə təkan vermişdi. II Filippin planlarında dənizə çıxmaq və Yunan polislərinin tabe edilməsi mühüm yer tuturdu. Qısa müddətdə Makedoniya dəniz sahilindəki Amfipola və Frakiyanın dəniz sahili rayonlarının çoxuna sahib olur və bununla da əslində qüdrətli dəniz dövlətinə çevrilir. II Filippin malik olduğu donanma öz döyüşkənliyi və gücü ilə seçilirdi. Bu donanmanın köməyi ilə Makedoniya quru döyüşlərində də böyük uğurlar qazanmışdı.

II Filippin xarici siyasət uğurları ona Yunanıstanın daxili işlərinə qarışmaq imkanı vermişdi. Bunun üçün bəhanə lazım idi ki, e.ə. 355-ci ildə «müqəddəs müharibə»nin başlanması nəticəsində belə bəhanə əldə edildi. Məlum olduğu kimi, yunan şəhərləri arasında münaqişələr mütəmadi xarakter daşıyırdı və mübahisələrin başlıca səbəbi torpaq və sərhəd məsələləri ilə bağlı olmuşdu. Bu qəbildən olan münaqişələrdən biri də e.ə. 355-ci ildə Fiv və Fokida arasında olmuşdu. Münaqişəyə səbəb fokidalıların Delfi məbədi torpaqlarını şumlaması olmuşdu. Fivin və onun müttəfiqlərinin ittihamına cavab olaraq fokidalılar gözlənilmədən Delfiyə hücum etdilər və 10.000 talanta malik olan Apollon məbədinin xəzinəsini ələ keçirdilər. Qısa müddət ərzində bu ixtilaf ümumellin xarakteri almış və on il davam etmiş «müqəddəs müharibə»yə çevrilmişdi.

Münaqişədə II Filipp fivlilərin tərəfindən keçir, fokidalıları və onların mütəffiqlərini məğlub edir. «Müqəddəs müharibə»də Makedoniya çarının əldə etdiyi qələbə ona Şimali Elladada möhkəmlənmək imkanı vermişdi. Filippin işğalçılıq siyasəti bütün yunan polislərini təşvişə salmağa başlamışdı.

Tədricən Yunanıstanda Makedoniyaya qarşı siyasi ittifaq formalaşmağa başlamışdı ki, bu ittifaqa Afina başçılıq edirdi. Afina demokratiyasının rəhbəri qədim yunan dövrünün görkəmli siyasi xadimlərindən və natiqlərindən olan Demosfen idi. Lakin yunan polisləri arasında həmrəyliyin olmaması Demosfenə II Filipə qarşı uğurla mübarizə aparmağa imkan vermirdi. Makedoniya diplomatiyası Yunan şəhərləri arasında narazılığı bir qədər də gücləndirir, Oliqarxiyanı öz tərəfinə çəkməklə antimakedoniya partiyasının mövqelərini sarsıdırdı. II Filipin başlıca siyasi vasitəsi pulun gücü ilə hakim siniflərin seçilmiş nümayəndələrini ələ almaq yunan şəhərləri arasındakı mübarizədə həmişə zəifin tərəfində durmaqdan ibarət idi.

Makedoniya və antimakedoniya partiyaları arasında hərbi-siyasi mübarizə Afinada xüsusilə şiddətli forma almışdı. Afinada Makedoniya partiyasının başında dövrün görkəmli xadimləri olan Esxin, İsokrat, Filokrat, Fokion və başqaları dururdular. Bu partiyanın tərəfdarları Yunanıstanda normal iqtisadi və siyasi həyatı bərpa etmək üçün nəyin bahasına olursa-olsun yunan polislərini birləşdirmək, bununla da İrana qarşı mübarizədə zərbə qüvvəsi yaratmaq, yunan sənətkarlığı və ticarəti üçün meydan əldə etməklə yanaşı Yunanıstanı «artıq adamlardan» (şəhər yoxsullarından) qurtarmaq istəyirdilər. Makedoniya partiyası liderlərinin fikrincə, Yunanıstanı birləşdirib İrana qarşı şərq yürüşünə apara biləcək yeganə qüvvə II Filipp idi.

Demosfen də Yunanıstanın birləşdirilməsi tərəfdarı idi. Lakin o, II Filippin ətrafında deyil, II Filippə qarşı birləşməyin tərəfdarı idi. Lakin, yunan polisləri daxilindəki parçalanma buna imkan vermirdi. Yaranmış

şəraitdən istifadə edən II Filipp e.ə. 348-ci ildə Olinf şəhərini tutaraq əhalisinin xeyli hissəsini qul edib satır, bir hissəsini ilə qırır. E.ə. 346-cı ildə yunan şəhərləri ilə Filokrat sülhü imzalanır. Sazişə görə Afina böyük itki verir, II Filipp isə Orta Yunanıstanın açarı olan Fermopil keçidini ələ keçirərək Delfi Amfiktioniyasının üzvü olur. Lakin bu uğurlar uzun sürmür, belə ki, e.ə. 340-cı ildə bizans yaxınlığındakı dəniz döyüşündə Yunan şəhərlərinin birləşmiş donanması II Filippi ağır məğlubiyyətə uğradır.

Lakin Bizans məğlubiyyətinin əvəzini çıxmaq və itirilmiş hərbi nüfuzunu bərpa etmək üçün II Filipp skif çarı Atey ilə müharibəyə başlasa da döyüş əməliyyatları gah bu, gah da qarşı tərəfin üstünlüyü ilə səciyyələnən yorucu müharibə xarakteri alır və makedoniyalilara uğur gətirmir. II Filip yenidən diqqəti diplomatiyaya yönəldir və müttəfiqlər arası münasibətləri pozmaq üçün intriqaya əl atır ki, bunun nəticələri özünü çox da gözlətmir. E.ə. 339-cu ildə yunan şəhər-dövlətləri arasında başlanmış ikinci «müqəddəs müharibə»də iştirak edən II Filipp qısa müddətə Orta Yunanıstanda möhkəmlənir və itirilmiş mövqelərini bərpa etməyə müvəffəq olur. Bu isə yenidən yunan şəhərlərini II Filippə qarşı birləşməyə vadar edir. Afina, Fiv, Korinf və başqa şəhərlər II Filippə qarşı koalisiya yaradır, böyük qoşun toplayaraq Makedoniya ilə müharibəyə hazırlaşırlar. E.ə. 338-ci ilin payızında Beotiyadakı Xeroneya şəhəri yaxınlığındakı döyüşdə Fiv və Afina qoşunlarının zərbə qüvvəsi darmadağın edilir. Qüvvələr arasında təxmini bərabərliyin olmasına baxmayaraq (Filippin 30 min piyada, 2 min süvari qoşunu var idi, müttəfiqlərin qoşunlarının sayı isə bir qədər artıq idi)qələbə sayla yox, bacarıqla əldə edilir. Döyüşdə II Filippin oğlu 18 yaşlı İsgəndər ordunun sol cinahına komandanlıq edirdi. II Filipp sonralar demişdi ki, Xeroneya döyüşü zamanı İskəndər mənim sol cinahımda idi, lakin sağ əlim idi. Onun sol cinahdan başladığı hücum mənim mərkəz və sağ cinahdakı qələbəmə gətirib çıxardı və bununla da yunan polislərinin birləşmiş qüvvələri əvvəlcə geri oturuldu, sonra isə darmadağın edildi.

Xeroneya döyüşü Yunanıstanın tarixi taleyində böyük dönüşə səbəb oldu. Mənbələrdə deyilirdi ki, Xeroneya döyüşündə həlak olanların cəsədlərinin yığılıb basdırılması ilə Yunanıstanın da istiqlaliyyəti və azadlığı da dəfn edildi. Bununla da bütün Yunanıstan II Filippin hakimiyyəti altına düşdü. Yunan dövlətlərinin çoxunda hakimiyyət başına Makedoniya tərəfdarları olan oliqarxlar gəlirlər və e.ə. 337-ci ildə Korinfdə bütün yunan dövlətlərinin və Makedoniyanın iştirak etdiyi sinedrion (ümumi iclas) adlanan məşhur Panellin konqresi çağrılır.

Konqres ümumi sülh elan edir, yunan şəhərləri arasında müharibələr qadağan olunur və Panellin ittifaqı təsis olunur. Konqresdə qəbul edilmiş bir sıra yeniliklərin içərisində İrana müharibə elan edilməsi mühüm yer tuturdu. Konqresdən sonra II Filipp Panellin ittifaqının hegomonu olur. II Filipp bütün Eladanı siyasi cəhətdən birləşdirə bilmiş, bununla da faktiki olaraq Yunanıstan Makedoniyanın hegomonluğu altına keçmişdi.

Yunan şəhər-polisləri arasında davam edən müharibələr onları zəiflədir, ayrı-ayrı polislərin hegomonluq cəhdləri isə onlara qarşı digər polislərin koalisiyasının yaranmasına səbəb olurdu ki, nəticədə bir neçə yunan dövləti aparıcı qüvvəyə çevrilə bilmirdi. Makedoniyanın üstünlüyü onda idi ki, burada quldarlıq cəmiyyətinin ziddiyyətləri hələ bir o qədər kəskin xarakter almamışdı. Bu da Makedoniyanın Yunanıstan üzərində üstünlüyünü təmin etdi. Makedoniyanın qələbəsinin səbəblərindən digəri onun qüdrətli orduya malik olması və dövlətin başında II Filipp kimi mahir diplomat və görkəmli sərkərdənin durması idi.

II Filipp Yunanıstanın birləşdirilməsi uğrunda mübarizədə bütün vasitələrdən, diplomatiyadan, hərbi gücdən, intriqadan və pulun köməyindən məharətlə istifadə edirdi. O, bəzən kinayə, bəzən də obrazlı şəkildə deyirdi ki, «qızıl yüklənmiş uzunqulağın dunyada aşıb-keçə bilmədiyi qala divarları yoxdur». Məlum olduğu kimi, yunan şəhərlərinin hamısında Makedoniya tərəfdarları var idi və II Filipp onların yardımından hərtərəfli şəkildə istifadə etməyi bacarırdı. Öz tərəfdarları vasitəsilə hər hansı polisin elitası satın alınır, bu isə şəhərin ictimai həyatına təsir göstərir, hətta Makedoniya ordusu hücuma keçəndə şəhərin qala qapıları onların əli ilə açılırdı. Hər hansı şəhər tutulduqdan sonra II Filipp şəhərin əhalsinin ümumi yığıncağını çağırır və çıxış edərək baş verənlərlə bağlı əhalini məlumatlandırırdı. Şəhər əhalisi isə xəyanətkarların cəzalandırılmasını tələb etdikdə, onları hamının gözü qarşısında edam etdirir və edam olunmuşların əmlakını ələ keçirməklə bir növ müharibənin xərcini ödəyirdi.

II Filippin Şərq yürüşü e.ə. 336-cı ildə başlanır. Makedoniya sərkərdələrindən Parmenion və Attalın başçılıq etdiyi yunan ordusu Kiçik Asiyaya daxil olur. Lakin Makedoniyada baş vermiş hadisələr tezliklə yürüşün dayandırılmasına səbəb olur. Belə ki, hələ e.ə. 337-ci ildə II Filipp özünün birinci arvadı – İsgəndərin anası Olimpiadadan ayrılmış və Makedoniya zadəganlarının nəslindən olan Kleopatra ilə evlənmişdi. Olimpiada isə qardaşı Epir çarı Aleksandrın sarayına qayıtmışdı. Lakin e.ə. 336-cı ildə II Filipp qızının toy məclisində mühafizəçilərindən Pavsani tərəfindən öldürülür. Ölümün səbəbləri ilə bağlı müxtəlif versiyaların olmasına baxmayaraq, ehtimal ki, İran şahı III Daranın bu məsələdə əli olmuşdur.

Atasının ölümündən sonra e.ə. 336-cı ildə hakimiyyət başına İsgəndər keçir. O, öz dövrünün və mühitinin oğlu idi. Aristotelin tərbiyəsi nəticəsində geniş dünyagörüşə və böyük biliyə yiyələnmiş İsgəndər hələ gənc yaşlarında ikən onu əhatə edən saray mühitində hakim olan görüşləri və əxlaq vərdişlərini mənimsəmişdi. Onun xarakteri son dərəcədə ziddiyyətli olub, özündə soyuqqanlılığı və coşqun temperamenti, alicənablılığı və qəddarlığı birləşdirirdi. O yaranmış mürəkkəb vəziyyətlərdən böyük məharətlə çıxır və tələbata uyğunlaşa bilirdi. İsgəndər son dərəcədə görkəmli sərkərdə və böyük dövlət xadimi olmuşdu. Onun hakimiyyəti dövründən

Yunanıstan ellinizm dövrünə qədəm qoyur.

İskəndərin hakimiyyətinin e.ə. 336-334-cü illəri əhatə edən ilk iki ili atasının ölümündən sonra başlanmış olan hərc-mərcliyin aradan qaldırılmasından ibarət olmuş, şimalda Frakiya və İllariya, cənubda isə Yunanıstan yenidən Makedoniyaya tabe edilmişdi. Yalnız bundan sonra İrana yürüşə hazırlıq başlanır.

### 5.3. Makedoniyalı İsgəndərin Şərq yürüşü və nəticələri.

İran-yunan müharibələri dövründə İranın məğlubiyyəti əslində Əhəmənilər imperiyasının süqutunun başlanğıcı idi. İrana tabe olan əyalətlərdə zülm, istibdad və məmurların özbaşınalığı yerli əhalinin İrana qarşı nifrət və üsyanlarının başlıca səbəbi idi.. Makedoniyalı İsgəndərin Şərq yürüşü ərəfəsində dərin böhran keçirən İran dövləti dağılmaqda idi.

Əhəmənilərin sonuncu hökmdarlarından olan III Artakserks e.ə 338- ci ildə vəfat etdikdən sonra şahın varisləri arasında uzun müddət hakimiyyət uğrunda mübarizə başlanır. Nəhayət e.ə 336-cı ildə III Dara Kodoman hakimiyyət başına keçir.

Uzun müddət davam edən hakimiyyət uğrunda mübarizə, ümumi iqtisadi tənəzzül, İran ordusunun döyüş qabiliyyətinə son dərəcə ciddi mənfi təsir göstərmişdi. Onları tayfa və xalqlardan təşkil olmuş, biri-biri ilə əlaqəsi olmayan, hərbi hazırlığı və nizam- intizamı son dərəcə zəif olan İran ordusunun başında duran sərkərdələr də əksər hallarda hərbi işdən yaxşı baş çıxara bilmirdilər.

E.ə 334-cü ildə ciddi hərbi hazırlıqdan sonra İsgəndərin birləşmiş Makedoniya-yunan ordusu Hellesponta doğru hərəkət edir. Arxada əminamanlığı təmin etmək üçün İskəndərin sərkərdəsi Antipatr 13.500 nəfərlik qoşunla Yunanıstanda qalır. İrana qarşı başlanmış müharibədə başlıca məqsəd Aralıq dənizi və Kiçik Asiya regionlarından İran monarxiyasını sıxışdırıb çıxarmaq, yeni ərazilər, sərvətlər, çoxlu qul və s. əldə etmək və bu vasitə ilə yunan quldarlıq demokratiyasının inkişafını təmin etmək idi. Müharibənin başlanmasında səbəb kimi, Kserksin Yunanıstana hucumu zamanı yunanların çəkmiş olduqları iztirabların əvəzinin çıxarılması, iranlılar tərəfindən aparılmış yunan allahlarının heykəllərinin geri qaytarılması və II Filippin qisasını alınması göstərilirdi.

Kiçik Asiyaya daxil olmuş İsgəndərin ordusu 30 min piyada və 5 min süvari döyüşçüdən ibarət idi. Bu ordunu Aralıq dənizinin şərq sahillərinə 160 gəmidən ibarət yunan donanması çıxarmışdı. Makedoniya nizami ordusunun əsasında cəbhənin mərkəzindən hüçum etmək və düşməni darmadağın etmək vəzifəsini həyata keçirən və daha az mütəhərrik olan ağır piyada qoşun - falanqa dayanırdı. Makedoniya ordusunda təcrübəli mühəndislər, istehkam ustaları, habelə o dövr üçün mükəmməl sayılan mühasirə texnikası və s. var idi. Sonralar Roma ordusu məhz Makedoniya ordusunun nümunəsində qurulmuşdu.

Makedoniya qoşunlarının İran ordusuna qarşı ilk döyüşü e.ə. 334-cü ilin mayında Kiçik Asiyadakı Qranik çayı yaxınlığında baş vermişdi.. Makedoniya ordusu hücumla Qranik cayını keçərək İran ordusunun ön cəbhəsini yarmış və onun avanqard hissələrini darmadağın etmişdi. Döyüş zamanı düşmənin cinahlarına və arxasına keçmiş Makedoniya süvari qoşunları başlıca rol oynamışdı.

Qranik döyüşündən sonra Kiçik Asiyanın yunan şəhərləri Milet və Qalikarnas istisna olmaqla müqavimətsiz İsgəndərə tabe oldular. Qısa müddətdə Kariya, Likiya, Pamfiliya, Frakiya və s. şəhərlər İsgəndər tərəfindən zəbt edildi. E.ə 333-cü ilin baharında makedoniya ordusu Kappadokiyanı işğal edib Kilikiya və Tavra daxil olmuşdu. İran ordusu müqavimət göstərmədən Mesopotamiyaya çəkilmişdi. Makedoniyalı İsgəndər taktiki mülahizələri əsas tutaraq yunan polislərində «azadlıq» və «xilaskarlıq» siyasəti yeridir, oradakı iranmeyilli hakimləri devirərək demokratik quruluşu bərpa edirdi. Əslində Kiçik Asiyadakı yunan polislərinin «azadlığı» Yunanıstandıkı dövlətlərin «azadlığından» daha çox zahiri xarakter daşıyırdı. Azad olmuş yunan polislərinin müstəqilliyi nisbi xarakter daşıyır, onlar hətta Korinf ittifaqına belə daxil edilmirdilər.

Kiçik Asiyada qazandığı uğurlara baxmayaraq İsgəndər İran donanması arxadakı fəaliyyətinə qarşı heç nə edə bilmirdi. Aralıq dənizinin şərq rayonlarında hakim mövqe tutmaqda olan bu donanma İsgəndərin materiklə əlaqəsini əsasən kəsmişdi. Yunanıstanda da vəziyyət o qədər möhkəm deyildi. Makedoniya hakimiyyətinə qarşı narazılıq əhvali-ruhiyyəsi genişlənməkdə idi. Hətta Afina III Daranın yanına xüsusi nümayəndə göndərərək onunla danışıqlar aparmış , Makedoniyaya qarşı birgə fəaliyyət göstərilməsi haqqında razılığa gəlinmişdi.

Egey dənizində başlıca dayaq məntəqələrini ələ keçirmiş İran donanmasının başçısı yunan mənşəli Memnon İsgəndərin arxasında makedoniyalılara qarşı ümumi üsyan hazırlığı ilə bağlı son tədbirləri görürdü. Bununla belə, başladığı işləri axıra çatdıra bilmədi. Memnonun qəfildən ölümü bu planı alt-üst etdi. Onun ölümü ilə bağlı müxtəlif etimallar irəli sürülürdü.

İsgəndərin qoşunları çətin dağ keçidlərini aşaraq Şimali Suriyaya çıxarkən III Daranın İran qoşunları Aman dağlarını keçərək Makedoniya ordularının arxasına çıxmış, Pinar çayı boyunca əraziləri tutaraq İskəndəri arxadakı bazalarından məhrum etmişdi. İran qoşunları İssa (İss) şəhəri yaxınlığındakı dəniz ilə dağ silsilələri arasında olan dar vadidə möhkəmlənərək Makedoniya qoşunlarını çətin vəziyyətə salmışdı. III Daranın qoşunlarının sayı 150 min nəfərə çatırdı. Makedoniyalıları yalnız qəti və sürətli hərəkət fəlakətdən qurtara bilərdi. İsgəndərin sərkərdəlik bacarığı məhz burada özünü bariz şəkildə göstərirdi.

E.ə. 333-cü ilin oktyabrında Makedoniya qoşunlarının sağ cinahı və İsgəndərin özünün rəhbərlik etdiyi hetayr (hetayr «yoldaş», «dost» deməkdir. Hetayrlar Makedoniya zədəganlarından və İsgəndərin yaxın dostlarından ibarət olan qvardiya hissəsi olub İsgəndərin mühafizəsini təşkil edirdilər) hissələri Dara qoşunlarının mövqelərinə soxularaq onları dağıdır ki, bununla da III Dara döyüş meydanından qaçmaqla canını qurtarır. İran qoşunları olduqca böyük tələfat verərək pərakəndə şəkildə hərb meydanını tərk etməyə məcbur olmuşdular.

Makedoniya ordusunun bu qələbəsi nəticəsində III Daranın zəngin çadırı, anası, arvadı və iki qızı İsgəndərin əlinə keçmişdi.Mənbələrdə III Daranın İss döyüşündən sonra İsgəndərə yazdığı bir neçə məktubun məzmunu qorunub saxlanmışdı. Bunlarda III Daranın İsgəndərlə Əhəmənilər dövlətini bölüşdürmək istəyi öz əksini tapmışdı. Belə ki, III Daranın İsgəndərə yazmış olduğu birinci məktubda öz ailəsinin qaytarılmasını xaiş edir, ona İranla ittifaq müqaviləsi bağlamağı təklif edirdi. İkinci məktubunda Dara öz ailəsini azad etmək üçün İsgəndərə 10 min talant pul, habelə Fərat çayının qərbindən o yana yerləşmiş bütün əraziləri verməyi təklif edirdi. İss döyüşü İsgəndərin Şərq yürüşü gedişində dönüş nöqtəsi olmuşdu. Bununla da bütün Kiçik Asiya işğal edilmişdi.

Tədqiqatçılara görə, bu dövrdə İsgəndər hələ dünya monarxiyasının yaradılması haqqında düşünmürdü. Onu şərqə doğru yürüşə vadar edən iqtisadi çətinliklər idi. Belə ki, dövlət xəzinəsi boşalmış, borclar fəlakətli həddə çatmışdı. Şərq yürüşünə çıxarkən İsgəndərin xəzinəsində cəmi 70 talant pul var idi. Alınmış borcların məbləği isə 1300 talanta çatırdı. Hər ay qoşuna və donanmaya 300 talant muzd verilməli idi. Beləliklə, Elladanı iranlılardan müdafiə etmək məqsədi ilə başlanmış bu müharibə sözün əsil mənasında qəsbkarlıq yürüşünə çevrilmişdi.

İsgəndər İss döyüşündə darmadağın edilmiş İran qoşunlarını və Daranı təqib etməkdən imtina edərək Aralıq dənizində hegemonluq edən İran donanması bazalarını məhv etmək məqsədi ilə Suriya, Finikiya və Fələstinə hərəkət etmiş və böyük uğurlar qazanmışdı.Belə ki, Finikiyanın sahil şəhərlərlərinin əksəriyyəti müqavimət göstərmədən makedoniyalılara tabe olmuş, Arvad, Marat, Bibl, Sidon və s. şəhərlər döyüşsüz tutulmuşdu. İsgəndərin sərkərdəsi Parmenion Dəməşq şəhərini tutaraq III Daranın araba karvanını və səyyar xəzinəsini ələ keçirmişdi.

Lakin İsgəndər heç də hər yerdə xilaskar kimi qarşılanmırdı. Belə ki, Makedoniya qoşunları Tir və Qəzza şəhərlərində ciddi müqavimətlə qarşılaşmış, yalnız yeddi aylıq mühasirədən sonra e.ə. 332-ci ilin iyulunda Tir şəhərini ələ keçirmişdilər. Şəhərə amansız divan tutulmuş, əlinə silah götürə bilən kişilərin 30 min nəfəri məhv edilmiş, səkkiz min nəfəri isə qul edilib satılmışdı.Tir şəhərinin alınmasında Makedoniya ordusunun mühasirə texnikasının yüksək səviyyədə olması, habelə İsgəndərin sərkərdəlik məharəti özünü bir daha göstərmişdi. Aralıq dənizi boyunca şəhərləri ələ keçirən Makedoniya qoşunları bununla da İran donanmasını bazalarından məhrum edib onun dağılmasına səbəb oldu. Beləliklə, İsgəndər Aralıq dənizi hövzəsindəki başlıca təhlükəni aradan qaldıraraq Balkan yarımadası ilə sıx əlaqə yaratmağa müvəffəq olmuşdu.

İsgəndər e.ə. 332-ci ilin noyabrında Misiri müqavimət görmədən tutur. İran zülmündən cana gəlmiş Misir əhalisi İsgəndəri xilaskar kimi qarşılayırdı. Misirə daxil olan İsgəndər ölkənin fironları kimi, o da Liviyada Siva səhrasındakı məşhur Amon allahı orakulunu ziyarət etmişdi. İsgəndər Misir səfərinə böyük siyasi əhəmiyyət verirdi. Buna görə də İsgəndər öz ətrafındakı yunan və makedoniyalıların ciddi müqavimət göstərməsinə baxmayaraq, son nəticədə öz iradəsini onlara qəbul etdirmişdi.Tədqiqatçıların fikrincə, görünür gələcəkdə çarın ilahiliyi ideyası onun fikrinə elə burada gəlmişdi. Misir kahinləri İsgəndəri «Amonu sevən», Ra allahının oğlu və ölkənin qanuni fironu elan etmişdilər. Amon allahına nəinki Misirdə, hətta Kiçik Asiyada və Yunanıstanda da böyük hörmət var idi.Yunanlar və Makedoniyalılar Amon allahını Zevsə bərabər tuturdular. Kiçik Asiya şəhərlərindən biri də Frikiyanın paytaxtı olmuş Qordi şəhəri idi.Yerli əfsanəvi hökmdarlardan birinin adı ilə "Qordi düyünü" bu şəhərdə döyüş arabasına vurulmuşdu. Əfsanəyə görə, bu düyünü açan Asiyanın hökmdarına çevrilə bilərdi. Həmin düyün İsgəndərə də göstərilmişdi, lakin onu aça bilməyən İsgəndər düyünü qılıncla doğramışdı.Yəqin ki, elə o dövrlərdən siyasi leksikona düyünə düşmüş məsələlərin qılınc gücünə açılması fikri daxil olmuşdu.

E.ə 332-331-ci illərin qışını Misirdə keçirən İsgəndər Nil çayı deltasında İsgəndəriyyə adlı yeni şəhərin salınmasına nail olmuşdu. İsgəndəriyyənin coğrafi mövqeyi son dərəcə əlverişli idi. E.ə IV əsrin sonu III əsrin əvvəllərində bu şəhər yunan və şərq aləminin ən böyük ticarət, sənətkarlıq və mədəni mərkəzinə çevrilmişdi. Misirin işğalı və İsgəndəriyyənin salınması makedoniyalıların Aralıq dənizi hövzəsinin şərqində tamamilə möhkəmlənməsinə imkan yaratmışdı.Bu şəhərin adı ilə qədim dünyanın ikinci möcüzəsi hesab edilən İsgəndəriyyə mayakı bağlıdır.

E.ə 331-ci ilin baharında İsgəndər Misiri tərk edərək Finikiya və Suriya ərazisindən keçən qədim ticarət yolu ilə şərqə doğru hərəkət edir ki, bununla da İran monarxiyasının şərq hissəsi uğrunda mübarizə başlayır. Qarşıdakı döyüşdə III Dara imperiyasının taleyi həll edilməli idi. İran şahı bunu yaxşı başa düşdüyü üçün döyüşə əvvəlki döyüşlərdən daha yaxşı hazırlaşmışdı. İsgəndərlə sülh danışıqlarının baş tutmaması III Daranı

son döyüşə olduqca ciddi şəkildə hazırlaşmağa vadar etmişdi. III Daranın ordusunda təkərlərinə oraqvari xəncərlər taxılmış, düşmənə böyük tələfat verən 100 cəng arabası və 15 döyüş fili var idi. İsgəndərin hərbi qüvvələri 40 min piyada və 7 min süvari döyüşçüdən ibarət olduğu halda, III Daranın ordusu təxminən 80 min piyada və 12 min süvaridən ibarət idi.

Makedoniya qoşunları Dəclə və Fərat çaylarını keçərək e.ə. 331-ci ilin sentyabrında qədim Assuriyanın ərazisindəki Arbela şəhəri yaxınlığındakı Qavqamel kəndi ətrafındakı düzənliyə çatdı və məhz burada qədim dünyanın ən böyük döyüş əməliyyatlarından biri baş vermişdi.

İran ordusunun döyüş qaydalarını yaxşı öyrənmiş İsgəndər öz qoşunlarının ön xəttində yüngül silahlı piyadaları yerləşdirmişdi. Əsas hərbi qüvvələrin mərkəzində falanqa, sol cinahında piyada və süvari döyüşçülər, sağ cinahında hetayrlar və adi süvari dəstələri düzülmüşdü. Ordunun sol cinaha Parmenion, sağ cinaha isə İsgəndər özü komandanlıq edirdi.

III Daranın ordusunun mərkəzində döyüş filləri, cinahlarda cəng arabaları, əsas hərbi qüvvələrin arxasında isə muzdlu yunan qoşunları yerləşdirilmişdi. Təhlükəli cəhət o idi ki, İran qoşunlarının cəbhə xətti makedoniyalıların cəbhə xəttindən xeyli uzun idi. Belə vəziyyətdə İran ordu hissələri cinahlardan Makedoniya qoşunlarının arxasına keçib onları mühasirəyə ala bilərdi. Buna görə də İsgəndər sağ və sol cinahların arxasında ehtiyat qoşun dəstələri düzür ki, onlar lazımi vaxtda arxa tərəfə çevrilib oradan olan hücumu dəf edə bilsinlər.

Babil satrapı Mazeyin rəhbərlik etdiyi qoşun dəstələrinin müvəffəqiyyətli zərbəsi nəticəsində iranlılar Parmenionun komandanlıq etdiyi sol cinaha böyük tələfat verərək makedoniyalıların falanqasını yarıb İsgəndər qoşunlarının arxasına keçməyə müvəffəq olmuşdular.

Lakin İran qoşunlarının həmlələrinin qarşısı tezliklə alınır, hətta İsgəndər özünün başçılıq etdiyi hetayrlar iranlıların sol cinahını əzərək III Daranın qərargahına yaxınlaşır ki, İran şahı döyüşün taleyi həll edilmədiyi bir anda hərb meydanından qaçır və İran ordusunun arxasına keçmiş İsgəndər qoşunları onlara zərbə endirirlər. Bununla da döyüşün taleyi həll edilmiş olur. Makedoniya süvariləri iranlıları 80 km-lik məsafədə Arbelaya qədər təqib etsələr də, başda III Dara və onun satraplarından Bess, Barseant, Satibarzan, Nabarzan və digərləri olmaqla iranlıların kiçik bir süvari dəstəsi Midiyanın paytaxtı Ekbatan şəhərinə çəkilməyə müvəffəq oldular. Satrap Mazey isə Babil şəhərinə çəkilir.

Qavqamel döyüşündə İsgəndərin tam qələbə əldə etməsi və III Daranın əsas hərbi qüvvələrinin məhv olması Əhəmənilər dövlətinin sonunun çatması demək idi. İran dövlətinin həyati əhəmiyyətə malik bütün mərkəzlərinə yollar açılmışdı. İsgəndər əvvəlcə Babil şəhərinə doğru irəliləmiş, Babil əhalisi isə başda Mazey olmaqla İsgəndəri xilaskar kimi qarşılamışdı. İsgəndər burada qədim Mesopotamiya çarlarının titulunu («Babil və dünyanın dörd qitəsinin çarı») qəbul etmiş, oradan Suza, Suzdan isə İran imperiyasının mərkəzi olan Persidaya (Parsa) yollanmışdı. Satrap Ariobarzan və dağ tayfaları ilə bir neçə toqquşmadan sonra İsgəndər farsların hər iki paytaxt şəhərini- Pasarqad və Persepolu ələ keçirmişdi.

Antik müəlliflərindən Adrian və Plutarxın yazdıqlarına görə, İsgəndər Persepol xəzinəsindən tükənməz sərvət - 180 min talanta qədər pul, çoxlu qızıl və gümüş məmulatı, cəvahirat və s. ələ keçirmişdi. III Daranın bu sərvətini daşımaq üçün İsgəndərə min cüt qatır və üç min dəvə lazım gəlmişdi. Dövriyyəyə buraxılmış bu bahalı metal yaxın gələcəkdə ellinist dövlətlərinin iqtisadiyyatının canlanmasına səbəb olmuşdu. Elladaya Kserksin verdiyi zülm və işgəncənin əvəzini çıxmaq adı altında İsgəndər Kserksin Persepoldakı yüz sütunlu möhtəşəm sarayını da yandırmışdı, bu yanğının nəticəsində atəşpərəstliyin müqəddəs kitabı sayılan "Avesta" da məhv edilmişdi.

Qısa fasilədən sonra e.ə. 330-cu ilin yazında İsgəndər Persepolu tərk edərək Midiyanın paytaxtı Ekbatana tərəf hərəkət edir, çünki III Dara burada idi. Makedoniya qoşunlarının yaxınlaşması xəbərini eşidən III Dara Xəzər dənizini cənubundan keçən yollarla Orta Asiyaya qaçmaq qərarına gəlir. Bu dövrdə o əslində Baktriya satrapı Bessin başçılıq etdiyi bir dəstə İran zədəganının əsirinə çevrilmişdi. İsgəndər onları təqib edərək Xəzər dənizinin cənub-qərbindəki Kirkaniya vilayətində onlara yaxınlaşır. Makedoniya süvarilərinin onlara çatdığını görən satraplar III Daranı xəncərlə öldürərək təqibdən xilas ola bilirlər. İsgəndər öldürülmüş III Daranı böyük təmtaraqla dəfn edərək, özünü İran şahlarının qanuni xələfi və bütün Asiyanın çarı elan edir.

Bu dövrdən etibarən İsgəndər özünü Şərq monarxları kimi aparmağa başlayır ki, bu da yunan-Makedon əsilzadələrinin müqaviməti və İsgəndərə qarşı çoxsaylı qəsdləri şərtləndirir. Lakin bunların heç biri uğurla nəticələnməmişdi. Bu İsgəndərin sosial dayaqlarının kifayət qədər güclü olmasından xəbər verirdi.

Makedoniyaya düşmən olan bütün qüvvələrin Şərqi İran və Orta Asiyada toplaşmaqda davam etməsi Şərq yürüşünün davam etdirilməsini tələb edirdi. Xəzər dənizinin şərqində cəmləşməkdə olan bu qüvvələrin başında özünü IV Artaksersk adı altında şah elan etmiş Baktriya hökmdarı Bess dururdu. Şərqdə hakim olan bu qüvvələri məğlub etmədən İsgəndər öz hakimiyyətini möhkəm və təhlükəsiz hesab edə bilməzdi. Digər tərəfdən Bess özünü müstəqil hökmdar yox, İran şahı elan etməklə olduqca ciddi səhvə yol vermişdi. Əhəmənilər dövlətinin varlığına son qoymağı başlıca məqsədi elan edən İsgəndər Bessin bu niyyətini cavabsız qoya bilməzdi. Lakin Orta Asiyada yürüşü davam etdirmək istəyən İsgəndər gözlənilməyən hərbi çətinliklərə və xüsusilə də öz yaxın adamları arasında qəti müxalifətə rast gəlmişdi. Çarın yaxın silahdaşları onun siyasəti ilə razılaşaraq bu siyasətin həyata keçirilməsinə ciddi etiraz edirdilər.

İsgəndərin şərq yürüşü ilə əlaqədar etiraz və narazılıq hələ müharibənin ilk dövrlərində özünü göstərməyə başlamışdı. Kiçik Asiya işğal edildikdən və III Daranın İsgəndərə yazmış olduğu ilk məktubdan sonra çarın yaxın silahdaşlarının bir qismi, o cumlədən hələ II Filippə xidmət etmiş qocaman sərkərdə Parmenion İran şahının təklifini qəbul etməyi, Kiçik Asiyanın fəthi ilə kifayətlənməyi və bununla da müharibəni bitirməyi təkid edirdi. Lakin İsgəndər bu təklifi qəti olaraq rədd etmişdi.

Şərq yürüşünün gedişində Makedoniya zədəganlarının narazılığı daha da armaqda idi. Bu ilk növbədə III Daranın ölümündən sonra özünü İran şahlarının xələfi elan etmiş İsgəndərin «xilaskar ellinlən» şərq monarxına çevrilməyə başlaması ilə əlaqədar idi. Silah gücünə qarışıq yunan-Makedoniya-İran zəminində «dünya monarxiyası» yaratmağa çalışan İsgəndər İran zədəganlarını dövlət vəzifələrinə cəlb etməyə, yunan-makedoniyalıları yerli xalqlarla siyasi və mədəni cəhətdən yaxınlaşdırmağa, orduya şərq kontingentlərini cəlb etməyə başlamışdı.

İsgəndər özünü ilahi elan edib sarayında şərq despotiyası qaydalarını bərqərar edirdi ki, bu ilk növbədə nisbətən demokratik ənənələr ruhunda tərbiyə edilmiş yunan-makedoniyalıların narazılığına səbəb olurdu. İşğal edilmiş ərazilərə və tabe edilmiş xalqalara "barbar" və istismar obyekti kimi baxanlar İsgəndərin yunan-makedoniyalıları yerli xalqlarla yaxınlaşdırmaq cəhdlərini nəinki dəstəkləmirdilər, hətta bu siyasətə düşmən gözlə baxırdılar. Şərq vilayətlərini fəth etməklə məşğul olan İsgəndər böyük qətiyyət və qəddarlıqla öz əleyhdarlarına və sui-qəsdçilərə divan tuturdu. İsgəndərin belə amansızlığı ilə bağlı qeyd etmək olar ki, özünə qarşı ilk sui-qəsd aşkar olan kimi İsgəndər Hetayrların başçısı bacarıqlı sərkərdə Parmenionun oğlu Filotu edam etdirir, ardınca Parmenion da öldürtdürülür.

Makedoniyalı İsgəndərin Şərqdə apardığı müharibələr öz spesfik xüsusiyətləri ilə fərqlənirdi. İran monarxiyasına daxil olan, iqtisadi və mədəni cəhətdən xeyli inkişaf etmiş Aralıq dənizinin şərq sahillərindəki ölkələrdə İran zülmündən cana gəlmiş yerli əhali əksər hallarda İsgəndəri xilaskar kimi qarşılayırdı. Bu isə İsgəndərə böyük ictimai dayaq demək idi. İnkişaf etmiş şərq ölkələri hələ İsgəndərdən çox əvvəl hərbi imperiya çərçivəsində birləşdirilmişdilər. Bununla belə, zəif İran monarxiyası bu boşluğu doldura bilməmişdi, baxmayaraq ki yunan-İran müharibələri dövründən bu ərazilər İran monarxiyasının tərkibinə qatılmışdı. Qərbi Asiyada yeni tipli siyasi birləşməyə zəruri ehtiyac var idi ki, bu ehtiyacı makedoniyalılar reallaşdırırdılar.

E.ə. 330-329-cu ilin qışında Besi təqib edən İsgəndər Baktriyanı, sonra isə Hindikuşu ələ keçirərək Oks (Amu-Dərya) vadisinə daxil olmuşdu. Bess tutularaq edam edilmiş, makedoniyalılar məhsuldar Sır-Dərya vadisinə daxil olub Soqdinada İsgəndəriyyə - Esxata şəhərini salırlar. Ümumiyyətlə, İsgəndər istilaçılıq siyasətini ələ keçirilmiş ərazilərdə möhkəmləndirilmiş və İsgəndəriyyə adını almış şəhərlərin inşa edilməsi yolu ilə davam etdirirdi. Yaxın və Orta Şərqdə belə şəhər-qalaların sayı 70- ə yaxın idi. Bu şəhərlərdə güclü qarnizonlar yerləşdirilir, yunan – makedon zadəganları və ya İsgəndərə sadiq yerli hakimlər idarəçiliyi həyata keçirirdilər.

Orta Asiya xalqlarının makedoniyalılara qarşı mübarizəsinə soqdinalı Spitamen başçılıq edirdi. Bu mübarizədə soqdanalılar, saklar. massagetlər, dahlar və s. xalqlar iştirak edirdilər. Baktriya, Soqdiana və başqa ərazilərdəki hərbi əməliyyatlar zamanı makedoniyalılar yerli əhalidən 120 min nəfərdən yuxarı adam qırmış, xeyli hisəsini qula çevirmiş, köçəri tayfalar isə daha uzaqlara köç etməli olmuşdular.

Spitamen e.ə. 329-328-ci illərdə İsgəndərə böyük zərbə vursa da, son nəticədə məğlub olmuş və şərqdəki köçəri tayfalara üz tutmuşdu. Onlar isə İsgəndərin hərbi əməliyyatları davam etdirəcəyindən ehtiyat edərək Spitameni öldürmüş, kəsilmiş başını isə İsgəndərə göndərmişdilər. Lakin üsyanların yatırılması mümkün olmamışdı. Belə ki,Spitamen öldürüldükdən sonra xalq hərəkatına Oksiart, Xorien və başqaları rəhbərlik etmişdilər. Orta Asiya tayfaları ilə aparılan müharibələrinin gedişində İsgəndərə qarşı öz əhatəsində olanların da narazılığı güclənmiş və bu sui-qəsdlərdə özünü göstərmişdi. Belə mübahisələrin birində İsgəndər özünün ən yaxın dostlarından olan Kliti öldürmüş, tarixçi Kallisfenə amansız divan tutmuş, şəxsi qvardiyasının üzvlərindən bir çoxunu isə edam etdirmişdi.

İsgəndərin Orta Asiya yürüşü üç ildən yuxarı davam etmiş və e.ə. 327-ci ildə başa çatmışdı. Elə həmin ildə də məşhur Hindistan yürüşü başlamışdı. Qədim yunanların fəlsəfi-coğrafi dünyagörüşünə görə, Oykumenanın hüdudları-insanların yaşamaq qabiliyyətinə malik olduqları ərazilər dünya okeanın sərhəddinə qədər uzanır. Dünya okeanı isə Hindistandan sonra başlanır, buna görə də Hindistanın kəşfi ilə dünyanın coğrafi hüdudları başa çatmış olur. Digər tərəfdən İsgəndəri Şərq yürüşündə müşayət edən alimlərin fikrincə, Hindistan yürüşünü asanlaşdıran amillərin biri də orada vahid dövlətin olmaması idi. Hind çarlarından biri olan Taksillə ittifaqa girən İsgəndər ilk olaraq başqa bir Hindistan çarı Pora ağır zərbə vurur və Hind çayı ilə cənuba doğru hərəkət edərək Pəncaba çatır. Burada iki şəhərin – Nikeya və Bukefal şəhərlərinin əsası qoyulur. Lakin e.ə. 326-cı ildə İsgəndərin səfərdən əzab-əziyyət çəkən ordusu yürüşü davam etdirməkdən imtina edir və geri qayıtmağı tələb edir. Yaranmış şəraitdə İsgəndər geriyə qayıtmaq əmrini verir və qoşunun bir qismi Nearxın rəhbərliyi ilə e.ə.325-ci ildə dəniz yolu, o biri hissəsi isə quru yolla Mesopotamiyaya doğru hərəkət etməyə başlayır. E.ə.324-cü ilin əvvəllərində hər iki qoşun Babil şəhərində birləşir ki, bununla da Hindistanla Mesopotamiya arasında su yolu kəşf edilir.

On ilə yaxın davam etmiş şərq yürüşləri başa çatdıqdan sonra İsgəndər imeriyanın daxili işləri ilə

məşğul olmağa başlayır. Babil şəhəri paytaxt seçilir. Iskəndər yunan-makedoniyalıları yerli tayfalarla, xüsusilə Əhəmənilər imperiyasında hakim olmuş farslarla qarışdırıb-qovuşdurmaq siyasətini yeridir. Məhz bu məqsədlə İsgəndər Orta Asiya satrapı Oksiartın qızı Roksananı (İskəndərin ondan bir oğlu olmuşdur), III Daranın qızı Statiranı və III Artakserkin qızı Parisatidanı almışdı. Mənbələrin yazdığına görə, İsgəndər öz yaxın silahdaşlarından 80 nəfərinə, habelə 10 min nəfər yunan-Makedoniya əsgərinə iranlı qızları almış və onların toyunu bir gündə etmişdi. Bu məhşur Suz şənlikləri zamanı baş vermişdi.

Makedoniyalı İsgəndərin on il ərzində yaratmış olduğu böyük imperiyanın sərhədləri Dunay çayı və Qara dənizdən tutmuş Pəncaba qədər olan geniş əraziləri əhatə edirdi. Bu dövlətin yaranması ilə qədim dünyada ellinizm dövrü başlayır. İsgəndər monarxiyasının qısa müddətə bir sıra dövlətlərə parçalanmasına baxmayaraq, onun işğalları nəticəsində qərb və şərqdə sivilizasiyanın gələcək inkişafına uyğun gələn yeni siyasi quruluş yaranır. Bu isə yunan və şərq mədəniyyətləri ünsürlərinin qarşılıqlı təsirindən ibarət olmuş və ellinizm adını alımışdı. Makedoniyalı İskəndər e.ə. 323-cü il iyunun 13-də vəfat etsə də onun qərb və şərq mədəniyyətlərinin sintezindən ibarət yaratdığı yeni quruluş ellinizm dövrü kimi e.ə. III-I əsrlərdə mövcud olmuş və ictimai inkişafın sonrakı gedişinə böyük təsir göstərmişdi.

**Mövzuya dair suallar**:

1. Qədim yunan şəhər-dövlətləri arasında əlaqələr
2. Məbəd ittifaqlarının polislərarası münasibətlərdə rolu
3. Prokseniya və amfiktoniya institutları
4. Diplomatiya anlayışının meydana gəlməsi. Yunan səfirləri-pilaqarlar
5. Ritorik- diplomatiya məktəbinin yunan diplomatlarının hazırlanmasında rolu
6. Perikl və Demosfen qədim Yunanıstanın görkəmli diplomatı və dövlət xadimləridir.
7. Panellin konqreslərinin çağırılması və Yunanıstanın birləşdirilməsi uğrunda diplomatik-siyasi və hərbi mübarizə
8. Makedoniya çarlığının yaranması və II Filippin xarici siyasəti
9. II Filippin hakimiyyəti illərində Yunanıstanın birləşdirilməsi
10. Yunan şəhər-dövlətlərinin İranla münasibətləri
11. Yunan-İran müharibələri və beynəlxalq nəticələri
12. Makedoniyalı İskəndərin şərq yürüşü.
13. Şərq yürüşünün beynəlxalq nəticələri
14. Ellinizm dövründə dövlətlərarası münasibətlər

**Ədəbiyyat:**


1. Вестник Древней Истории. М., 1952 -1970
2. Геродот. История в девяти книгах. Л., 1972
3. История Александра Македонского. М., 1971
4. История Дипломатии, изд. II, т.1. М., 1959
5. История Древнего Мира. В 3-х т.2. М., 1989
6. История Древней Греции / Под ред. В.И.Авдиева, А.Г. Бокщанина, Н.Н.Пикуса. М., 1971
7. Программа курса «История Древнего Мира». М., 1981
8. Хрестоматия по истории Древнего мира / Под редакции В.Г.Боруховича. Саратов, 1973

## VI Mövzu
## Qədim Roma diplomatiyası

### 6.1. Qədim Romada diplomatiya və səfir işi

Avropanın cənubunda Aralıq dənizinə doğru uzanan Appennin yarımadasını qədim dövrlərdən yunanlar İtaliya adladırmışlar ki, tərcümədə «Buzovlar ölkəsi» deməkdir. Yarımada İoniya, Tirren və Adriatik dənizləri ilə əhatə olunur, Italiyaya Siciliya, Sardiniya və Korsika kimi böyük adalar da buraya daxil edilir.

Romanın hərbi demokratiya və padşahlıq dövrü sinfi cəmiyyətə xas amillərin meydana gəlməsi ilə xarakterizə olunur. Bununla bərabər, nəsli quruluşun qalıqları da uzun müddət davam etmişdi ki, bu özünü xalq yığıncağı vasitəsilə idarəçilikdə əks etdiridi. Romada 300 qədim nəslin olduğu məlumdur. Hər 10 nəsil bir kuriyada birləşirdi. 10 kuriya isə bir tribanı (tayfanı) təşkil edirdi. Beləliklə, Romada 3 triba olmuşdu ki, hər triba bir tayfanı təşkil edirdi. 300 qəbilə (üç tayfa ittifaqı) Roma xalqını (populus Romanus) təşkil edirdi. Romanın idarəçiliyi xalq yığıncağı (komissiyalar), senat və reks (padşah) tərəfindən həyata keçirilirdi ki, ən qədim Romada bu üç hakimiyyət orqanı mövcud idi. Romalılar hələ qədim dövrlərdən bütün mühüm işləri xalq yığıncaqlarında (comitia) həll edirdilər. Senatda əvvəlcədən baxılan məsələlər rəsmən xalq yığıncağında qəbul olunurdu.

Romada quldarlıq münasibətlərinin və dövlətin yaranması nəticəsində tədricən keçmiş qəbilə quruluşuna əsaslanan idarə sistemi də öz formasını dəyişərək dövlət hakimiyyətini idarə sisteminə çevrilmişdi. Romaya gəlmələrin - plebeylərin vətəndaş icmalarına daxil edilməsi və etrusk hakimiyyətinə qarşı mübarizə Romada şah hakimiyyətinin devrilməsinə, təxminən e.ə. VI əsrin sonlarına (e.ə.510-cu ilə) aid edilir. Bununula da sonuncu - yeddinci Roma padşahı Tarkvini (o etrusk idi) Romadan qovulmuşdu.

Romanın respublika elan olunması ilə etrusk hakimiyyətinə son qoyuldu və bu mübarizədə zəifləmiş romalılar qonşu tayfaların hücumlarını da dəf etməli olmuşdular. Romanın zəifliyindən istifadə edən bir sıra latın tayfaları Romaya qarşı çıxdılar. Lakin romalılar bu müharibələrdən qalib çıxmış və latın şəhərlərinin federasiyasına daxil olmuş, hətta 498-ci ildə latınlar ilə qarşılıqlı yardım haqqında müqavilə də bağlamışdılar. Bu ittifaq nəticəsində Roma öz müstəqilliyini qoruyub saxlamışdı. Tezliklə Roma öz düşmənlərinə qalib gələrək federasiya şəhərləri üzərində üstünlük qazanmağa nail olmuşdu..

E.ə.V-IV əsrlərdə yeridilən fəal xarici siyasət Romanın Appenin yarımadası üzərində ağalığını təmin etmişdi. Ələ keçirilən torpaqların çoxu Romanın icma torpaqlarına qatılaraq patrisilərin sərəncamına verilmişdi. Belə ki, veylərin torpaqları tutulduqdan sonra orada 4 kənd tribası, e.ə. 537-ci ildə volskların yerində iki kənd tiribası yaranmışdı. Roma bununla da İtaliyanın işğalına başlamışdı

Romanın əsas qüvvəsi ordu idi. Roma ordusunda əsasən plebeylər xidmət edirdilər. Onlar öz xərcləri ilə silahlanırdılar. Roma ordusunun qələbələri eyni zamanda plebeylərin siyasi nüfuzunu möhkəmləndirirdi. Təsadüfi deyildi ki, e.ə. V əsrdə plebeylər Roma vətəndaşlığı qazanmış və tribun seçmək hüququ əldə etmişdilər. Tribun isə Romanın həm daxili həyatında,həm də xarici siyasətində mühüm rol oynayırdı. Belə ki, plebeylərlə bağlı hər hansı qanun və ya fəaliyyət onun razılığı olmadan həyata keçirilə bilməzdi.

Romanın xarici siyasətdə qələbələri və yüksəlməsi onun intizamlı orduya malik olması hesabına əldə edilmişdi. Çoxlu müharibələr ordunun döyüş bacarığının artmasına səbəb olurdu. Orduda xidmət vəzifə deyil, böyük şöhrət idi. Bunsuz heç bir dövlət vəzifəsi tutmaq olmazdı. Qrakx qardaşları məhz orduda xidmət etdikdən sonra xalq tribunu seçilmişdilər.

Romanın ordu vahidi olan hər bir legionda 4500-6000 nəfərə qədər döyüşçü olurdu. Legion 30 manipuladan, manipula isə 2 senturiondan ibarətdir. Manipulani döyüşə aparan senturionların biri manipulaya sağdan, o biri soldan əmr verirdi. Atlı qoşun isə hərəsi 30 atlısı olan 30 turmdan ibarət idi. Qobustan kitabəsində (b.e. I əsri) senturionlardan birinin başçısının adı çəkilir.

Roma ordusunda müttəfiqlərdən təşkil edilmiş legionlar da iştirak edirdilər. Bunlar müttəfiq şəhərlərdən, tabe edilmiş İtaliya tayfalarından düzəlirdi. Müttəfiq legionlar 5000 piyada və 900 atlıdan ibarət olurdu. Müttəfiq qoşunların başında hərbi triubunu (tribunu militum) əvəz edən 12 prefekt dururdu ki, bunlar romalı olub, konsullar tərəfindən təyin olunurdular. Hər 400 müttəfiq əsgər bir kaqorta təşkil edirdi. Ordunun belə quruluşu bir neçə məqsədə xidmət edirdi. İlk növbədə, orduda Roma əleyhinə hər hansı qiyamın qarşısı alınırdı. Digər tərəfdən, belə ordu ilə uzaq səfərlərə çıxmaq, xüsusilə Parfiya, Sasanilər və Selevkilər dövlətləri ilə uğurlu müharibələr aparmaq və Romanın nüfuzunu Yaxın Şərqdən tutmuş Aralıq dənizinin Şimali Afrika sahillərinədək olan ərazilərə yaymaq mümkün olmşudu.

Mövcud tədqiqatlarda qədim Romanın tarixi və xarici siyasəti üç dövrə bölünür.

- tiranlıq dövrü-e.ə.510-cu ildə başa çatır.
- respublika dövrü-e.ə.510-e.ə.30-cu illəri əhatə edir.
- imperiya dövrü-e.ə.30 və eramızın 476-cı illərini əhatə edir.

Əgər I dövrdə daxili və xarici siyasət məsələləri ilə reks (tiran) məşğul olurdusa, II dövrdə bu senatın prerativinə çevrilmişdi.İcra orqanı xalq yığıncağı tərəfindən seçilmiş 2 konsuldan birinə verilmişdi. İmperiya dövründə diplomatik əlaqələr imperatorun əlində cəmlənmişdi. Təşkilati məsələləri imperator dəftərxanası həll

edirdi.Qaynaqlar Roma şəhərinin e.ə.753-də Palatin və Kapitoli təpələri üzərində salındığını göstərir. Eramızın əvvəlİərində Roma 2 mln.yaxın əhalisi olan şəhərə çevrilmişdi. Şəhərin ətrafına uzunluğu 30 min metrdən çox olan qala divarları çəkilmişdi. Şəhərin Tibr çayı ilə ayrılmış 2 hissəsi bir-birilə 6 körpü vasitəsilə ilə əlaqələndirilmişdi.

Mənbələrin yazdığına görə, İtaliyanın ərazisində etrusklar da daxil olmaqla 12 latın tayfası yaşayırdı. Tayfalar arasında müharibə və ticarət əlaqələri mütəmadi davam etmiş və yalnız e.ə.V əsrdən etibarən Roma respublikası bu ərazilərin işğalına başlamışdı. Romanın şahlıq dövrü ilə bağlı məlumatlar çox deyil, əsasən yunan qaynaqlarındadır. İcma münasibətlərinin dağılması başqa yerlərdə olduğu kimi, Romada da hərbi demokratiya dövrünün meydana gəlməsi ilə nəticələndi. Bu dövrdə reksin hakimiyyəti hamı tərəfindən qəbul olnmasa da, hərbi demokratiya e.ə.VI əsrdə Roma dövlətinin yaranmasını şərtləndirdi. Romanın ilk sakinləri şəhərin müdafiəsini təşkil etmək üçün qarşılıqlı müqavilə əsasında buraya kənardan gəlmələri dəvət edirdilər ki, qeyd etdiyimiz kimi, bunlar sonralar plebey adını almışdı. Məlum olduğu kimi, Roma tarixinin bütün dövrlərində idarəçilik məsələləri ilə tiran və imperatorla yanaşı senat da məşğul olurdu. Senat patrisilərin qocalarından təşkil olunmuşdu və əvvəllər 300 nəfərdən ibarət idi.

Qədim Romada daxili və xarici siyasət məsələləri ilə bağlı qərarlarının qəbul edilməsi 2 yolla–xalq yığıncağı və senat vasitəsilə həyata keçirilirdi. Respublika dövrünün əvvəllərində senat daha böyük hakimiyyət əldə etmişdi. Xalq yığıncağı tərəfindən seçilmiş 2 konsuldan biri quru qoşunlarına, o biri donanmaya rəhbərlik edirdi. Konsullar senatın tabeliyində idi. Ancaq müharibə dövründə konsullar müstəqil qərar qəbul edirdilər. Romada diplomatiya ənənələrinə əsaslanan əlaqələr formalaşırdı ki,bu beynəlxalq əlaqələr hüququ –xalqlar hüququ adlanırdı.

Roma respublikası yaxın və uzaq qonşularla, Romanın dostları və düşmənləri ilə fərqli əlaqələrə malik idi.Dost ölkələrdən gələnlər Palantin təpəsində, düşmən və dost olmayan ölkələrdən gələnlər Kapitoli təpəsində yerləşdirilirdi və onlara Roma ictimaiyyəti ilə əlaqə saxlamağa imkan verilmirdi. Roma imperiyası güclə ndikcə bir tərəfdən adət-ənənələrə əsaslanan diplomatiya hüququ təşəkkül tapır, digər tərəfdən isə dost olmayan və düşmən ölkələrdən gələnlərə qarşı münasibətlər kəskinləşirdi. Belə ki, bir qayda olaraq səfirlər senat tərəfindən qəbul edilməli idi. Lakin düşmən ölkələrdən gələnləri senat qəbul etmirdi. Belə halda onlar dərhal ölkəni tərk etməli idilər. Həmin ölkənin nümayəndəsinin təkrar gəlişinə isə əvvəldən razılıq alınmalı idi. Beləcə, «persona-qrata», «persona-non-qrata» və «aqreman tələbi» adət-ənənəyə çevrilirdi.

Persona-qrata- arzu edilən şəxs, persona-non-qrata- arzu edilməyən şəxs, aqreman tələbi-səfirin gəlməsinə və onun yerləşəcəyi ölkə rəhbərinin əvvəlcədən razılığı kimi mənalandırılırdı.

Roma respublikasının və imperiyasının dövründəki xarici siyasətlə bağlı olan həm orqanlar, həm də fəaliyyətlər fərqlidir. Respublika dövründə səfirin, natiqin, oratorun və xəbərçinin səlahiyyətləri fərqlənirdi. Lakin imperiya dövründə əsasən 2 institut-səfir və indiki müvəkkil vəzifəsinə uyğun olan vəzifə formalaşırdı. Respublikanın ən qüdrətli dövrü e.ə.III-II əsrlər idi.

Həmin dövrdə əvvələr istifadə olunan müttəfiqlərlə bağlanmış sazişlərə ehtiyac itsə də, pun və Makodoniya müharibələri dövründən etibarən Romada ənənəvi formaya qayıdılır. Məsələn, II pun müharibəsi dövründə Roma Nubiyadakı 2 çarlıqla müttəfiqlik münasibətləri qurmuş, Makedoniya müharibəsi dövründə isə Yunanıstana qarşı mübarizədə V Filiplə dostluq münasibətlərinə malik olmuşdur. Halbuki zərurət aradan qalxdıqdan sonra Romanın keçmiş müttəfiqlərinin hamısı onun əsarəti altına düşmüşdü.

Səfirin seçilməsi respublika dövründə ancaq senatın prereqativi idi və püşk yolu ilə müəyyənləşirdi. Püşkdə ancaq senatorlar iştirak edə bilərdilər. Heç kəsin səfir titulundan imtina etmək ixtiyarı yox idi. İmtina etsəydi senator vəzifəsindən məhrum olardı. Yunanıstandan fərqli olaraq Romada heç vaxt 1 nəfəri səfir göndərmirdilər. Məqsəd xəyanətin və informasiyanın saxtalaşdırılmasının qarşısını almaq idi. Səfirlə birlikdə böyük personal hərəkət edirdi ki, bunlar texniki işçilər idi. Səfir göndərilən şəxs qısa müddət üçün nəzərdə tutulurdu.

O dövrdə daimi səfirlik və ya konsulluq institutu yox idi. Səfir göndərilən adamların yerləşəcəyi ölkənin siyahısı tez-tez dəyişilirdi. Roma xüsusən Makedoniya müharibəsi dövründə "parçala və hökm sür" siyasətindən geniş istifadə etsə də, 3 yunan şəhərinin muxtariyyətini ləğv etməmiş, lakin müttəfiqlik məsələsi aradan götürülmüşdü. Romada respublikadan imperiyaya keçid dövrünün maraqlı hadisələri Qay Yuli Szarın Qalliyaya müharibələri dövrü ilə bağlıdır.

Məlum olduğu kimi, e.ə. I yüzilliyin ortalarında seatın hakimiyyəti zəifləmiş, sərkərdələrin hakimiyyəti güclənmişdi. Sayılıb-seçilən sərkərdələrdən Qay Yuli Sezar, Qney Pompey və Mark Publi Kras e.ə.61-ci ildə I triumviratı yaratmışdılar ki, onların qəti əlehdarları olan Varron bu triumvratı «senatı yeyəcək 3 başlı əjdaha» adlandırmışdı. Triumviratın yaranması Yuli Sezarın e.ə.60-cı ildə Romanın konsulu seçilməsinə gətirib çıxardı. O, e.ə.59-cu ildə öz tərəfdarlarının köməyilə Qalliyaya prokonsul təyin olundu. Sezarın Qalliyada canişinliyi e.ə.59-e.ə.51-ci illəri əhatə edir. Prokonsulluq müddəti 4 il davam edirdi. Konsul seçilən şəxs iki dəfə prokonsul təyin edilə bilərdi. Sezarın Qalliyanı seçməsi təsadüfi deyildi. O dövrki Qalliya üç hissəyə bölünürdü və bugünkü bütün Avropanı əhatə edirdi. Y.Sezarın Qalliyaya verdiyi diqət iki amillə bağlı idi:

- Qal tayfaları mütəmadi olaraq Romanın ərazilərinə hücum etdikləri üçün, daimi narahatlıq mənbəyinə

çevrilmişdilər.

- Sezar Qalliyada möhkəmlənməklə hərbi baxımdan güclənə bilər və bu ona Romada hakimiyyəti ələ keçirməyə imkan verərdi.

Bu dövrün öyrənilməsi üçün əsas mənbələrdən biri Sezarın yazdığı 8 kitabdan ibarət "Qalliya müharibələri" adlanan qeydləridir. Bu əsərdə qədim dünyanın adət-ənənələrindən tutmuş, o dövrki siyasi xadimlərin diplomatik ustalıqlarına qədər materiallar əldə etmək mümkündür. Sezarın apardığı mübarizədə kelt tayfalarına qarşı mübarizə ağır olmuşdur. Bunlar döyüşkən tayfa olsalar da, Sezar onların ram olunmasına çalışırdı. Ancaq kelt tayfaları hər şeyi yandırmış və qərbə doğru köç etmişdilər. Kelt tayfalarının qüdrəti bütün Qalliyaya məlum idi. Onların tabe edilməsi Sezarın Qalliyadakı fəalliyyətinə uğur gətirə bilərdi. Keltləri izləyən Sezar hiss etdi ki bu tayfalar romalılara qarşı döyüşə girməkdən yayınırlar.

Sezarın kəşfiyyatı müyyənləşdirmişdi ki, kelt kahini öz tayfa başçılarına yeni ay çıxana qədər müharibəyə girməməyi tapşırmışdır. Bu, Sezarın kelt tayfalarını ram etməsinə və əvvəlki yaşayış yerlərinə qaytarmasına imkan verdi. Senat Sezarın Qalliyadakı uğurları şərəfinə Romada 15 günlük bayram tədbirləri həyata keçirməli olmuşdu. Qalliya müharibələri Sezara elə şöhrət gətirdi ki, bu ona Romada öz diktaturasını yaratmağa imkan verdi.

E.ə. 49-cü ildə Sezar Romada hakimiyyəti ələ keçirdikdən sonra (e.ə.49-44) tiranlıq yaratmış və qısa müddət olsa da xarici siyasətlə bağlı bütün fəaliyyəyləri özündə birləşdirmişdi.Sezarın istəmədiyi adam səfir gedə bilməzdi.

Sezarın ölümündən sonra Romada II triumvrat formalaşdı. Buraya Sezarın varisi Oktavian və etibarlı sərkərdələrdən Antoni və Lepid daxil idilər. II Triumvratın fəaliyyəti nəticəsində respublika tərəfdarları e.ə. 42-ci ildə baş vermiş Filippi döyüşündə darmadağın edilmiş və e.ə.31-ci ildə Romanın tarixində imperiya dövrü başlamışdı. 44 il hakimiyyətdə olan Oktvian Avqust senatın və konsulların fəaliyyətini özündə birləşdirdi və onun icazəsi olmadan heç kəs səfir göndərilə bilməzdi. Xarici siyasət məsələləri imperatorun əlində olsa da, sənədlərin hazırlanması ilə imperator dəftərxanası məşğul olurdu. Çox keçmədən dəftərxananın səlahiyyətləri (imperatolrun şəxsi dəfətərxanası «ərizələr xidməti» adlanırdı) daxili və xarici siyasət idarələri arasında bölündü.

İmperiyannı sonlarına doğu xarici siyasətdə barbarlarla müttəfiqlik müqavilələri xüsusi əhəmiyyət kəsb etməyə başlamışdı. Belə müqavilələr eramızın I-II əsrlərinə təsadüf edirdi. Bu Romanın zəifləməsi ilə bağlı idi. Romalılar barbar tayfalarının hücumlarının qarşısını almaq üçün german və ya başqa tayfalarla ittifaqa girməyə məcbur olurdular. Müqavilələr 3-4 bənddən ibarət idi. Müqavilələrdə Romanın müttəfiqləri taxılla təchiz etməsi, müttəfiqlərin isə Romanı digər barbarların hücumundan qorunması öz əksini tapırdı. Eramızın 395-ci ilində imperator Feodosi Romanı iki oğlu - Qonori və Arkadi arasında bölüşdürdükdən sonra imperiyanın hər iki hissəsi o dövrə qədər mövcud olmuş təsisatlara ayrıldı.

### 6.2. Romanın respublika və imperiya dövrü diplomatiyası

İtaliyanın işğalı Romanı Aralıq dənizi regionunun qüdrətli dövlətinə çevirmişdi. Romanın beynəlxalq əlaqələrində Misir, Suriya, Parfiya və Karfagen mühüm yer tuturdu. Karfagen şəhəri ilə iqtisadi əlaqələr hələ e.ə. IV əsrdən başlamışdı. Siciliya, Sardiniya və Korsikanı tutduqdan sonra Karfagen tacirləri tez-tez Romaya gəlirdilər. Onların gəmiləri Romanın başqa ölkələrlə ticarətində də iştirak edir, Romaya Karfagen tacirləri xəz, gön, fil sümüyü, meyvə, şərab, ağac məmulatı, şüşə, güzgü, boya, əlvan parçalar və s. gətirir, Romadan isə mal-qara, taxıl, duz, yağ, zeytun yağı və s. aparırdılar. E.ə. 273-cü ildə Misir padşahı Ptolomey Romaya elçi göndərərək "İttifaq və dostluq" yaratmağı təklif etmiş, Roma da cavabında oraya nümayəndəlik göndərmişdi.

İtaliyanın işğalının başa çatması, Kapuya, Tarent, Neapol, Brundiziya və s. liman şəhərlərinin tutulması romalılarının dəniz ticarətinin genişləndirməsinə şərait yaratmışdı. Romalılar öz müttəfiqlərinə və tabe edilmiş şəhərlərə bilavasitə xarici ölkələrlə iqtisadi əlaqə saxlamağı qadağan etmişdilər. Xarici əlaqələrin saxlanılması Roma dövlətinə məxsus idi.

E.ə. V-III əsrlərdə Romanın İtaliyanın işğalını başa çatdırması onun Karfagenlə qarşılaşmasına səbəb oldu. Karfagen Aralıq dənizindən keçən ticarət yollarını öz nəzarətində çaxlayırdı və dəniz ticarətindən böyük gəlir götürürdü. Roma tacirlərinin mənafeyi isə Siciliya, Sardiniya və Korsika adalarının ələ keçirməsini tələb edirdi. Təsadüfi deyildi ki, senatın qərarı ilə Romada güclü hərbi dəniz donanmasının yaradılması işinə başlandı. Romalılar karfagenliləri punlar adlandırırdılra ki, buna görə də Roma-Karfagen müharibələri Pun müharibələri adını almışdı. Birinci (e.ə.264-241) və ikinci (e.ə.218-201) Pun müharibələri gedişində Karafagen ağır məğlubiyyətə uğradı və Romanın asılılığına düşdü.

Qun müharibələri dövründə romalılar Şərq ölkələri ilə o qədər də maraqlana bilməmişdilər. Şərqdə ellinist dövlətlərin arasında gedən çəkişmələr, xüsusilə Yunan ittifaqları arasındakı müharibələr Romanın Yunanıstanda işğalçılıq siyasəti üçün əlverişli şərait yaratmışdı.

İki Pun müharibəsi, Şərqi Aralıq hövzəsi dövlətləri ilə müharibələr Romanı Aralıq dənizinin ən qüdrətli dövlətinə çevirmişdi. Lakin Aralıq dənizində Karfagen dövlətinin qüdrəti hələ tamam sarsılmamışdı. Romanın başının Şərq ölkələri ilə qarışmasından istifadə edən Karfagen yenidən öz iqtisadi və hərbi qüdrətinin artırmağa

başlamışdı. Karfagenin iqtisadi tərəqqisi Roma tacirlərini, sələmçiləri, eləcə də patrisiləri narahat etməyə bilməzdi.

Roma senatında antikarfagen əhval-ruhiyyəli bir qrup Karfagenin tamamilə məhv edilməsini tələb edirdi. Bu qrupun başında senator Mark Porsi Katon (böyük) dururdu. O, həmişə çıxışlarının «Mən hesab edirəm ki, Karfagen mütləq dağıdılmalıdır» sözləri ilə qutarırdı.

Romanın apardığı müharibələrdə diplomatiyanın rolu böyük olmuşdur. Bu zaman Roma diplomatiyası öz xarici siyasət məqsədlərini pərdələmək və ona bəraət qazandırmaq üçün azadlıq, insanpərvərlik, ədalət,sədaqət kimi anlayışlardan geniş istifadə edirdi.

Diplomatiyada düşmən ölkələr daxilində müxtəlif partiyalar təşkil etmək, şəhər və dövlətləri vuruşduraraq zəif salmaq, "parçala və hökmranlıq et" üsulları geniş tətbiq edilirdi.

Roma diplomatiyası onun hegemonluq uğrunda mübarizəsinə xidmət edirdi. Əvvəllər romalıların başqa ölkələrdə nümayəndəlikləri olmamışdı. Beynəlxalq əlaqələrin qurulmasında elçilərdən istifadə edilirdi. Bu işə şahlıq dövründə olduğu kimi, beynəlxalq qayda-qanunların gözlənilməsinə nəzarət edən kahinlər kollegiyası baxırdı. Sonralar bu iş xüsusi elçilərə- leqatlara tapşırıldı. Elçi senat tərəfindən təyin edilir və ona xüsusi imtiyazlar verilirdi. Tədricən elçiləri qəbul etmək və danışıqlar aparmaq qaydaları protokollaşır və ənənəyə çevrilirdi.

Romanın xarici siyasətində Parfiya dövləti ilə münasibətlər mühüm yer tuturdu. Parfiya və Roma arasında diplomatik əlaqələr e.ə. I əsrin əvvəllərindən başlayır. Hələ e.ə. 92-ci ildə Sualla Kappadokiyada olan zaman onun yanına gəlmiş Parfiya elçiləri Pont padşahı VI Mitridat Yevpatora qarşı Romaya ittifaq təklif etmişdilər. O, zaman Parfiya padşahı II Mitridat idi və beynəlxalq vəziyyət Parfiyanın xeyrinə idi.

Bununla belə, Pompeyin e.ə.6-65-ci illər Cənubi Qafqaz yürüşü və burada qazandığı uğurlar Parfiya-Roma münasibətlərini pisləşdirdi və Roma ilə ilk toqquşmaya gətirib çıxardı.

Parfiyanın vəziyyətini mürəkkəbləşdirən məsələlərdən biri də ölkə daxilində hakimiyyət uğrunda gedən mübarizə idi. Ölkədə yaramış iki güclü qruplaşma arasında gedən bu mübarizədə taxt-tacın bir neçə varisi öldürülmüş, son nəticədə hakimiyyətə gələn III Orod isə Romanın tələblərini qəti olaraq rədd etmişdi. Bu isə Roma-Parfiya münasibətlərinin tamamilə pozmuş, iki ölkə arasında müharibə vəziyyəti yaranmışdı.

I triumvirat üzələrinin hamısı Parfiyaya qarşı mübarizədə maraqlı idilər. Bu müharibə Krassı xüsusilə cəlb edirdi. O, Parfiyada şöhrət və çoxlu sərvət əldə edəcəyi xəyalında idi. E.ə. 54-cü ildə Krass Mesopotamiyaya soxuldu. Lakin Karr yanında döyüşdə (e.ə.53-cü il) əvvəlcə oğlu, sonra isə özü həlak oldu. Bu müharibədə 2000 Roma əsgəri öldürüldü, 10000 nəfəri isə əsir düşdü. Bütün Mesopotamiya parfların əlinə keçdi. Parfiya qüdrətli dövlət oldu və Şərqdə Romanın ən böyük rəqibinə çevrildi. Əsir düşmüş Roma əsgərlərini isə diplomatik yollarla Avqust geri qaytarmışdı.

Oktavian Avqust hakimiyyətinin ilk dövrlərindən imperiyanın sərhədlərini "təbii sərhədlərə" çatdırmağa çalışırdı. Bunun üçün İspanıyanın işğalı başa çatdırılmalı idi. Halbuki orada yerli kantabrilər qonşu tayfalara birləşərək Romaya qarşı kəskin müqavimət göstərmiş, astur tayaları romalılara böyük tələfat vermişdilər. E.ə. 26-25-ci illərdə Oktavian İspaniya əməliyyatına şəxsən rəhbərlik etməli olmuşdu. İspaniyanın işğalı e.ə. 19-cu ildə gərgin mübarizədən sonra başa çatdı. Məhz bu Qalliyanın işğalını başa çatdırmağa imkan etdi. Bütün Qalliya tutularaq 3 böyük əyalətə (Akvitaniya, Luqudun Qalliyası və Belgika) parçalandı. Qallar üzərinə ağır vergi qoyuldu.

Şərqə münasibətdə xüsusilə, Parfiya ilə ziddiyyətlər danışıqlar yolu ilə nizama salınmışdı. Avqust öz sələflərinə nisbətən Şərqdə, xüsusən Parfiya ilə münasibətlərində çox ehtiyatlı olub, açıq döyüşlərdən uzaq durmağı və danışıqlar yolu ilə münasibətləri nizama salmağı üstün tuturdu. Daxili çəkişmələrdən, hakimiyyət uğrunda gedən mübarizədən ehtiyat edən Parfiya şahı IV Fraat da açıq döyüşlərə girməkdən çəkinirdi.

Parfiya-Roma münasibətlərində ziddiyyətli məsələlərdən başlıcası Cənubi Qafqaza münasibət idi. Bu məsələ sonralar sasanilərin də Bizans imperiyası ilə münasibətlərində mərkəzi yerlərdən birini tuturdu.

Aralıq dənizi regionu dövlətlərinə münasibətdə Roma imperatorları ənənəvi ehtiyatlı siyasət yeridirdilər. Buranı ələ keçirmək asan, möhkəmlənmək isə olduqca çətin idi. Təsadüfi deyildi ki, yalnız uzunmüddətli hazırlıqdan sonra İudeya və Suriya da Roma imperiyasının tərkibinə qatılmışdı. Roma Hindistan ilə də ticarət əlaqələri saxlayırdı. Avqust özü iki dəfə Hindistan elçilərini qəbul etmiş, Cənub Şərqi Asiya ölkələri, xüsusilə Çinlə maraqlanmışdı.

Aqustun yaratdığı siyasi quruluş bir neçə əsr davam etmişdi. Lakin hakimiyyətin irsən nəsildən-nəslə keçməsi haqqında hələ xüsusi qanun verilməmişdi. Buna baxmayaraq, onun nəslindən olan adamlar uzun müddət hakimiyyəti öz əllərində saxlamışdılar.

Klavidinin imperatorluğu zamanı dövlət aparatının formalaşması prosesi əsasən başa çatdırılmışdı. İmperiya dəftərxanasında bir sıra yeni idarələr yaranmışdı ki, bunlardan "buyuruqlar xidməti"idarəsi mühüm əhəmiyyətə malik idi. Onun başında Klavdinin şəxsi katibi, keçmiş qul, sonradan azadlığa buraxılmış Narsis dururdu. Dövlətin mühüm işləri, daxili və xarici siyasət, hərbi işlərə nəzarət bu idarəyə məxsus idi. Romanın Şərq siyasətinin istiqamətləri, Şərq ölkələri ilə ticarət əlaqələrinin genişləndirilməsi, dəniz ticarəti kimi ideyalar məhz Narsisə məxsus idi. Narsisin fəaliyyətində xüsusi yer tutan məsələlərdən biri də Roma ordusunun

gücləndirilməsi məsələsi idi.

Klavdi xarici siyasət fəaliyyətində Avropanın şimal-qərbinə xüsusi fikir vermiş, 43-45-ci illərdə Roma ordusu Britaniyanın işğalını həyata keçirmişdi. İngiltərənin siyasi mərkəzlərindən olan Kamulodun və Londininin (London) romalıların dayaq məntəqəsinə çevrilməsi burada Romanın mövqelərini olduqca möhkəmlətmişdi.

Klavdi Dunay boyu məskən salmış tayfaları tabe edərək Romanın hakimiyyətini bütün orta və aşağı Dunay boyunda yaymışdı. Çox keçmədən Bosfor padşahlığı da tabe edildi. Klavdi 47-ci ildə sərkərdə Didi Pallın başçılığı ilə Qara dənizin şimalındakı Pantikapeyə ordu göndərdi ki, nəticədə Bosfor şahı III Mitridatın qoşunları məğlub edildi, özü isə əsir düşdü. Iberiya şahı Farasman da özünü Romanın vassalı elan etdi. Yəhudilərin ərazisi və Afrikadakı Mavritaniya da Romanın alətinə çevrildi.

Klavdinin yəhudilərin təqib olunmasına son qoyması ilə bağlı siyasəti öz əksini "İskəndəriyyəlilərə məktub" da tapmışdı. Klavdi qallara da seçki hüququ vermişdi. Görülmüş tədbirlər imperiyada daxili sabitliyin yaradılmasına xidmət edirdi ki, bununla da yeni işğallara başlanması üçün şərait yaradılırdı. Ümumiyyətlə, Klavdinin imperatorluğu zamanı Roma imperiyasının ərazisi Aralıq dənizi hövzəsindən xeyli kənara çıxmışdı.

Roma imperiyasının Şərq siyasəti, burada aparılan hərbi əməliyyatlar çoxlu sərvət vəd etməklə, həmişə Roma əyanlarının diqqət mərkəzində idi. 55-58-ci illərdə görkəmli sərkərdə Domisi Korbulon böyük ordu ilə Şərqə göndərilmiş, nəticədə Pont şahlığı və İberiya Romanın əyalətlərinə çevrilmişdi.

Roma ordusunun başqa bir qolu Qara dənizin şimal sahillərində əməliyyat aparırdı. Burada Dunayboyu tayfaları Romaya tabe edilmiş, Krım yarımadası işğal olunmuşdu ki, bununla da Qara dəniz Roma imperiyasının daxili dənizinə çevrilmişdi.

Qney Pompeyin e.ə.66-cı il Cənubi Qafqaz yürüşündən etibarən Roma imperatorları Şərq siyasətində bu istiqamətə xüsusi fikir verməyə başlamışdılar. Böyük İpək yolunun üzərində yerləşən Qafqaz Hindistan və Çinlə əlaqələrdə mühüm əhəmiyyətə malik idi. Trayanın Şərqə səfəri nəticəsində (113-117-ci illər) Roma imperiyasının nüfuzu İran körfəzinə qədər yayılmışdı. Trayandan bir qədər əvvəl isə imperator Neron Xəzər dənizindən Hindistana gedən yolu ələ keçirmək üçün hərbi səfər planı hazırlamışdı. Tarixçi Svetoni yazırdı ki, Neron "Xəzər darvazalarına səfərə də hazırlaşırdı".

Roma imperatorlarından Diokletianın (285-305-ci illər) xarici siyasəti imperiyanın sərhədlərinin möhkəmləndirilməsindən, barbarlara, allemanlara, franklara və burqundlara qarşı mübarizədən ibarət olmuşdu. Diokletian hakimiyyəti qəsb etmək arzusunda olanlara qarşı Afrikada və Misirdə müharibələr aparmış, imperiyanın bütövlüyünü qoruyub saxlamışdı.

Lakin 305-ci ildə Diokletian əvvəlcədən verdiyi sözə əməl edərək 20 il tamam olan kimi imperatorluqdan əl çəkmiş və Maksimianı da buna məcbur etmişdi. Hər ikisi hakimiyyətə öz köməkçilərini - Qalerini Şərqdə, Konstansini isə Qərbdə imperator təyin etdilər. Tarixçilər bununla da imperyanın iki hissəyə parçalanmasının əsasının qoyulduğunu göstərirdilər. Konstansi qısa müddət imperator oldu və onun ölümündən sonra oğlu Kosntantin hakimiyyətə keçdi. Qaynaqlar mömin təbiətli Konstantinin həm də kifayət qədər qətiyyətli şəxsiyyət olduğunu qeyd edirdilər. Təsadüfi deyildi ki, hakimiyyətə gəldikdən az sonra Konstantin bütün rəqiblərini aradan götüirmüş və təkhakimiyyətliliyə nail olmuşdu. Konstantin rəqiblərinin əksinə olaraq xristian dininə meyilli adam idi, çünki xristianlıq bu zaman qüvvətli ictimai təşkilata çevrilmiş və onun icmaları imperiyanın hər yerinə yayılmışdı. Ordu, imperator məmurları, hətta imperator sarayında belə xristianlığa rəqabət bəsləyənlər çox idi. Konstantn öz sosial dayaqlarını möhkəmləndirmək üçün xristianlıqan bir vasitə kimi istifadə etmək qərarına gəlmişdi. Belə bir dayağın əldə orlunması ona müstəqil daxili və xarici siyasət yeritməyə imkan verərdi. Roma papaları isə Konstantinin xristianlığa belə münasibətindən istifadə edərək saxta «Konstantin bəxşişi» aldı sənəd uydurmuşlar.

İmperator Konstantinin 313-cü ildə verdiyi fərmana əsasən bütün dinlərə, o cümlədən də xristianlığa ibadət azadlığı verilirdi. Xristian kilsələri bir sıra imtiyazlar alır, xristian icmalarına vurulan zərərlərin dövlət tərəfindən ödənilməsi qanunuləşdirilirdi. Xristianlığın dövlət dininə çevrilməsi imperiya daxilində baş vermiş ciddi iqtisadi-siyasi dəyişikliklərlə əlaqədar idi. İmperiyanın iki hissəsi qısa müddətdə Feodosinin (379-395-ci illər) imperatorluğu dövründə birləşdirildi, lakin 395-ci ildə onun ölümündən sonra imperiya iki oğlu arasında bölüşdürülmüş, Arkadi şərqi imperiyanı, Honori isə qərbi imperiyanı almışdı. Hər iki imperator azyaşlı olduğu üçün imperator sarayında və dövlət işlərində barbarlardan ibarət məmurlar və sərkərdələr böyük nüfuza malik idilər. Belə ki, vandal Stilixon dövlətin daxili və xarici işlərində ciddi rol oynayırdı. Feodosi özü sağlığında Stilixonu bacarıqlı sərkərdə və köməkçi kimi oğlu Arkadiyə təqdim etmişdi. Arkadinin sarayında qalliyalı Rufin də böyük nüfuza malik idi.

IV əsrin sonlarından etibarən Qərbi imperiyanın ərazisinə soxulan barbarlar ölkəni tamam talan edir, Roma şəhərinə təhlükə yaradırdılar. Vestqotların başçısı Alarix 401-ci ildə İtaliyaya soxuldu, lakin Stilixonun işə qarışması nəticəsində onunla sülh bağlandı. Lakin 406-cı ildə vestqotlar yenidən Romanı mühasirə edib tutdular və 3 gün müddətində şəhəri qarət edib yandırdılar. Törətdikləri dağıntılara görə, bundan sonra vestqotlar və səndəl tayfaları vandal adlandırılmağa başladı. 420-ci ildə isə digər tayfalarla birlikdə vandallar əvvəlcə İspaniyaya, sonra Şimali Afrikaya soxuldular.

Qərbi imperiyaya soxulmuş tayfalardan hunlar daha təhlükəli idilər. V əsrin 50-ci illərində hunların başçısı Atilla Mərkəzi və Şərqi Avropanı tutaraq oradan İtaliyaya daxil olmuşdu. 451-ci ildə Katalaun döyüşündə Roma sərkərdəsi Aesinin qoşunları ilə vuruşmada məğlub olan hunlar Dunay boyuna çəkilməli oldular, sonradan hunlar yenə də İtaliyaya soxulub Etruya ərazisinədək iəriləd‍ilər. 476-cı ildə Qərbi imperiyaya sonuncu zərbə vuruldu. Qoların başçısı Odoakr başqa barbar tayfalarla birlikdə Romaya hücum etdi. Sonuncu imperator Romul Avqustul taxtdan salındı. Onun imperatorluq əlamətlərini Konstantinopola göndərdilər. Bununla da Qərbi Roma imperatorluğuna son qoyuldu.

**Mövzuya dair suallar**:

1. Roma şəhər-dövlətinin yaranması
2. Latın tayfalarının tabe edilməsi və İtaliyanın Romanın ətrafında birləşdirilməsi
3. Romanın tiranlıq dövrü əlaqələri
4. Romada respublikanın qurulması və dövlətlərarası münasibətlərdə meydana çıxan yeniliklər
5. Roma senatının xarici və daxili siyasətə rəhbərliyi
6. Romanın dostlarının və düşmənlərinin fərqləndirilməsi
7. Roma hüququnda «xalqlar hüququ» anlayışı
8. Roma –Parfiya münasibətləri
9. Romanın şərq siyasəti. Sasanilərlə müqavilələr
10. Sasanilərlə 387-ci il müqaviləsinin Albaniya və Atropatenanın tarixi taleyinə təsiri
11. Qay Yuli Sezarın diplomatiyası. Sezarın «Qalliya müharibələri»nin Roma diplomatiyasının öyrənilməsində rolu
12. Romada imperiya dövrünün diplomatik ənənələri və səfir işi
13. İmperiya dövründə Romanın beynəlxalq əlaqələri
14. Qədim Roma diplomatiyası və müasirlik

**Ədəbiyyat:**


1. Həsənov Y. Qədim Roma tarixi. B., 1973
2. Bokşanin A.Q. Parfiə i Rim. t.1, M., 1964; t.2, M., 1965
3. İvanova İ.İ. İstoriə mejdunarodnıx otnoşeniy ot antiçnosti do konüa pervoy mirovoy voynı. Vladivostok, 2001, ç.1
4. İstoriə Diplomatii. İzd. II, t.1., M., 1959
5. İstoriə Drevneqo Mira. V 3-x tt. T.3, M., 1989
6. İstoriə Drevneqo Rima / Pod red. V.İ.Kuzihina. M., 1981
7. İstoriə İtalii. t.1., M., 1970
8. Lozinskiy S.Q. İstoriə papstva. M., 1961
9. Proqramma kursa «İstoriə Drevneqo Mira». M., 1981
10. Prinüipat Avqusta. M., 1959
11. Xrestomatiə po istorii drevnoqo mira. M., 1976.


**Mövzuya dair suallar**:

15. Roma şəhər-dövlətinin yaranması
16. Latın tayfalarının tabe edilməsi və İtaliyanın Romanın ətrafında birləşdirilməsi
17. Romanın tiranlıq dövrü əlaqələri
18. Romada respublikanın qurulması və dövlətlərarası münasibətlərdə meydana çıxan yeniliklər
19. Roma senatının xarici və daxili siyasətə rəhbərliyi
20. Romanın dostlarının və düşmənlərinin fərqləndirilməsi
21. Roma hüququnda «xalqlar hüququ» anlayışı
22. Roma –Parfiya münasibətləri
23. Romanın şərq siyasəti. Sasanilərlə müqavilələr
24. Sasanilərlə 387-ci il müqaviləsinin Albaniya və Atropatenanın tarixi taleyinə təsiri
25. Qay Yuli Sezarın diplomatiyası. Sezarın «Qalliya müharibələri»nin Roma diplomatiyasının öyrənilməsində rolu
26. Romada imperiya dövrünün diplomatik ənənələri və səfir işi
27. İmperiya dövründə Romanın beynəlxalq əlaqələri
28. Qədim Roma diplomatiyası və müasirlik

**Ədəbiyyat:**


12. Həsənov Y. Qədim Roma tarixi. B., 1973
13. Бокшанин А.Г. Парфия и Рим. т.1, М., 1964; т.2, М., 1965

14. Иванова И.И. История международных отношений от античности до конца первой мировой войны. Владивосток, 2001, ч.1
15. История Дипломатии. Изд. II, т.1., М., 1959
16. История Древнего Мира. В 3-х тт. Т.3, М., 1989
17. История Древнего Рима / Под ред. В.И.Кузищина. М., 1981
18. История Италии. т.1., М., 1970
19. Лозинский С.Г. История папства. М., 1961
20. Программа курса «История Древнего Мира». М., 1981
21. Принципат Августа. М., 1959
22. Хрестоматия по истории древнего мира. М., 1976.

## VII Mövzu
## Erkən orta əsrlərdə beynəlxalq münasibətlər

### 7.1. Avropanın siyasi xəritəsi

Roma imperiyasının dağılması nəticəsində Avropanın siyasi xəritəsi barbar krallıqları siyahısı ilə zənginləşdi. 455-ci ildə simali Afrikadan İtaliyaya soxulan Səndəl tayfaları Roma mədəniyyətinə elə divan tutdular ki, onun yazılı və memarlıq abidəlri əsasən məhv edildi. Barbarların bu hərakatı leksikona vandalizm adı ilə daxildir. Səndəl tayfalarının adı unudularaq vandal tayfalarına çevrildi. Roma imperiyası dağıldıqdan sonra Avropada yaranmış siyasi vəziyyət şərqdə yaranmış siyasi vəziyyətdən əsaslı şəkildə seçilirdi.

Əgər Avropa başdan-başa parçalanmışdırsa şərqdə isə Sasanilər dövləti öz qüdrətinin zirvəsində olub müasir yaxın şərqin çox böyük hissəsini öz hakimiyyəti altında birləçdirdi. Roma imperiyasının dağılması, dağılmada mühüm rol oynamış barbar tayfalarlna dövlətçilik ənənəsi verdi. Hələ e. II əsrində çəkilmiş yuxarı Dunayla Reyn çayl arasında ərazini qoruyan Roma səddi artıq III-IV əsrdən etibarən barbarların hücumları nəticəsində aradan qaldırılmış idi. Şimaldan German, Şərqdən Hun tayfaları, cənubdan və cən.-qərbdən vandal tayfalarının hücümü nəticəsində artıq iki hissəyə parçalanmış Roma imperiyasının qərbi tənəzzül edir, şərqi isə iqtisadi və siyasi inkişafda vüsət götürürdü.

Orta əsr dövrünün qaynaqları içərisində öronikalar adını almış və xronoqlaflar tərəfindən hadisələrin illər üzrə yazılmasını əks etdirən səlnamələr, xalqların böyük köçü də daxil olmaqla ertən orta əsrin öyrənilməsi üçün son dərəcə zəngin məlumatlar verir. Qərbi avropada annallar adını almış səlnamələrdə erkən orta əsrin ayrı-ayrı müəlliflərinin əsərlərində bəhs olunan dövrün hadisələri ətraflı işıqlandırılır. Xüsusilə barbar tayfalarında hərbi demokratiyadan dövlətə keçidin etnoslar arası münasibətə təsiri məsələləri annallarda öz əksini tapmışdır.

Erkən orta əsr müəlliflərindən Qeysəriyyəli Prokofü “tarixin sirləri” əsərində Bizans dövlətinin Yustinyan dövrü haqqında maraqlı məlumatlar verir. Erkən orta əsrlər dövrünün xarakteristikasını verərkən nəzərə almaq lazımdır ki, Roma imperiyasında diplomatiya və səfirlik işi barbar xalqlarının təkamülünə və xalqlararası münasibətlərə ciddi təsir göstərmişdir. Həmin dövrlə səsləşən “Salik qanunları” (qal tayfaları haqda), “Rus pravdası” Tatsitdən tutmuş hadisələrin müasiri olan Sevilyalı İsidora (Qat tarixi əsrinin müəllifi), Turlu Qriqoriya (frankların tarixi), Mirzə Pavelə qədər (Znqabardlrın tarixi) əsərində erkən orta əsr müəlliflərinin hamısı mənsub olduqları dövləti idealizə edir, həmin dövlətin apardığı müharibələrin tarixini yazırdılar.

Qeysəriyyəli Prokopi (Qüds qeydləri) əsərində şərqdən qərbə doğru hərəkət edən, öz aralarında ittifaq yaradan bir sıra xalqların tarixindən epizodlara toxunmuşdur. Dövrün hadisələrini öyrənmək üçün hüquqi sənədlər xüsusu aktuallıq təşkil edir ki, “pravda” adı altında meydana gələn həmin sənədlərlə yanaşı krallar arasında yazışmalar dövlətlərarası münasibətlərin necəliyini müəyyənləşdirməyə imkan verir. Yustinianın şərq hökmdarları ilə yazışmaları, B.Karlın Harun Rəşidlə məktublaşması Hun dövlətinin Atillanın Roma dövləti ilə bağladığı sazişlər hüquqi mənbələrə aid edilə bilər. Orta əsrlər dövrünün siyasi hadisələri içəricində xalqların böyük köçü dövründə yar anan münasibətlərin öyrənilməsi mühüm əhəmiyyətə malikdir.

Məlum olduğu kimi, xalqların böyük köçü hunların Böyük Çin səddindən yürüşü ilə başlayır.VI əsrdən sonra slavyanların miqrasiyası ilə başa çatır. Məhz bu dövrdə Barbar xalqları ilə yanaşı Hun tayfaları da tarixdə Roma imperiyasının hüquq qaydaları ilə tanış olmuş, bunun nəticəsində yaranmışdır. Böyük Hun imperatorluğu Romanın vaxtı ilə malik olduğu ərazilərin çox böyük hissəsini öz tərkibində birləşdirmişdirə.

Hunların miqrasiyası IV əvvəlindən başlansada ortalarına doğru güclənmiş və Volqa və Don çayı arasındakı ərazidə nəhəng Hun çarlığı yaranmışdır (IV əsr). Hunlar əsasən hərəkətdə olan döyüşkən xalq olduğuna görə çox tezliklə Don çayı ətrafında məskunlaşmış Alan tayfaları ilə toqquşmuş Qərbə doğru irəliləmişlər. Eramızın 375-illərdə hunlar Qara dəniz ətraflarındakı Qot tayfalarını ittifaqını dağıtdıqdan sonra Roma imperiyasının qoşunlarına çevrilmişdilər.

Hun tayfalarının Romanın qonşuluğunda görünməsi imperiya üçün ciddi təhlükəyə çevrildiyinə görə Roma imperatoru federatlarla –barbarlarla imzalanmış müqavilələrə bu təhlükə ilə bağlı xüsusi bənd daxil edirdilər. IV əsrin sonu V əvvəlində Hun tayfalarının dövlətləşməsi sürətlə getmiş, xüsusilə Atilla və onun varisinin dövründə son dərəcə güclü Hun dövləti yaradılmışdı. Qaynaqlar Atillanı “allahın bəlası” adlandırır onun qrşısında heç nəyin dura bilməyəcəyini deyirdilər.

Bu dövr diplomatiyasının xüsusiyyətlərindən biri də ondan ibarət idi ki Roma imperiyasının yerində yaranmış onlarla barbar krallıqları həmçinin Hun imperiyası Roma hüququ və diplomatiyasının ənənələrindən bəhrələnmişlər.Səfir işinin təşkili Roma üslubunda qurulmuşdu.Atilla səfirə verdiyi tapşırıqlara və onun səlahiyyətlərə uyğun hərəkət etməsinə nəzarət edirdi.

Danışıqlar zamanı əvvəllər nəzərdə tutulmayan məsələ qarşıya çıxardısa səfir göndərilmiş şəxs bunun üçün əlavə razılıq almalı idi.Bu xüsusiyyət Yustinian diplomatiyasının analoji xüsusiyyəti ilə üst-üstə düşürdü.Roma imperatorları barbarlarla müttəfiqlik müqavilələrinə daha çox fikir verirdilər. Çünki Qərb imperiyası barbar hücumlarının qarşısını ala bilmirdi.

Qot tayfalarının birinin hökmdarı Alarix 395-ci ildə Romanı tuta bilməsə də 410-cu ildə Romanı ələ keçirir.Varisi Atanarix də 455-ci ildə Romanı istila etmişdi.Atilla hakimiyyətdə olduğu ilk dövrlərdə Roma imperiyasına iddialı deyildi.Lakin Roma əsilzadələrindən Vigilin Atillaya qəsd təşkil etməsi bu məqsədlə elçisi Edikonu ələ alması münasibətləri gərginləşdirdi.Qəsdən xəbər tutan Atilla Vigili edam etdirmədi və bunu elçinin toxunulmamazlığı ilə izah etdi.

Bu dövrdə hunların Roma ilə danışıqlarında gündəlikdən çıxmayan bir məsələ var idi. Bu da hunların yanından Romaya qaçanların geri qaytarılması məsələsi idi.Şampan qraflığı ərazisində 451-ci ildə baş vermiş döyüşdə nə romalılar, nə də hunlar qəti qələbə əldə edə bilmədilər.Lakin döyüşün hunların üstünlüyü ilə bitməsini göstərən fakt ondan ibarət idi ki ,Roma papası böyük dəstənin başında Atillanın hüzuruna gələrək Romanı dağıtmamağı təvəqqə etmiş və Atillaya Romanın müttəfiqliyini təklif etmişdi.

### 7.2. Bizans imperiyasının xarici siyasəti

Erkən orta əsrlərin qüdrətli dövlətləri sırasında olan Bizans imperiyası bir sıra faktorların təsiri ilə öz mövcudluğunu qoruyub saxlamış, Yustinianın hakimiyyəti illərində isə nəhəg dövlətə çevrildi.Yustinianın uğurlarında arvadı Feodora,sərkərdə Velizari və onun arvadı Teodora mühüm rol oynamışdılar.Velizari Yustinianın qələbələrində mühüm rol oynayan sərkərdə olmuş məhz onun qələbəsi nəticəsində barbar krallıqları süqut etmiş və 555-də Bizans imperiyası Roma imperiyası sərhədində bərqərar olmuşdu.

Saray intriqası nəticəsində Velizarinin ölümündən sonra bu işi Nersus davam etdirdi.Yustinianın dövründə Bizansda səfirlik və diplomatiya işi elə bir səviyyəyə yüksəlmişdi ki feodal Avropasının yarımbarbar dövlətlərinin hamısı bu ənənədən bəhrələnmişdi. Yustiniyanın dövründə imperiya dəftərxanası səfirlərin göndərilməsi və qəbulu ilə məşğul olan orqana çevrildi.

Yustinian Bizans imperiyasının qüdrətinin təbliğ olunmasına elə diqqət yetirmişdi ki hakimiyyət illərində imperiya ərazisinə bir dəfə də olsun barbarların hücumu baş verməmişdi.Yustinian xarici qonaqların qəbuluna xüsusi fikir verirdi.Qonaq gələn şəxs sərhəddə qarşılanıb Bizansa gətirilirdi.Yustinian tapşırırdı ki gələn səfirləri elə yolla gətirsinlər ki onlar bir də bura gəlmək istəməsinlər.

Yustinianın hakimiyyəti dövründə şərq ölkələri ilə dostluq münasibətləri saxlanmasına xüsusi diqqət verilirdi.Yustinianın şəxsən özünün təşkil etdiyi ticarət karvanları şərq saraylarına zəngin hədiyyələrlə daxil olur və bununla da imperiyanı şərqdə gözləyən hücumların qarşısı alınırdı.Lakin sələflərindən fərqli olaraq Yustinian müttəfiqlik müqavilələrinə diqqət versə də barbar tayfalarının xidmətindən istifadə etməkdən imtina etmişdi.Onun hakimiyyət illəri xristianlığın yüksəliş dövrü hesab edilə bilər.

Bu dövrdə xristian kilsəsi vahid idi.Bütün kilsəyə Roma papası başçılıq edirdi.Avropada yaranmış dövlətlərin hamısı xristianlığa dövlət dini statusunun verilməsində maraqlı idilər. Çünki Qalliyanın əhalisi xristian idi.

### 7.3. Frank dövlətinin yaranması və xarici siyasəti

Məhz buna görə 493-cü ildə Xlodviq xristianlığı qəbul etdi və Qalliyadakı sosial dayağını möhkəmləndirdi. Roma papaları Konstantinin dövründən etibarən öz imtiyazlarını artırmış, hətta VIII əsrdə saxtalığı sonralar məlum olan "Konstantin bəxşişi" adlı saxta sənəd də uydurulmuşdu. Onun mahiyyəti ondan ibarət idi ki, Roma imperatoru Konstantin 333-334-cü illərdə onu ağır xəstəlikdən xilas etmiş Roma papasına Qərbi Roma imperiyasının ərazisini bağışlamışdı. Həmin ərazidə 751-ci ildə Papalıq dövləti yarandı.

Konstantin bəxşişinin saxtalığını ilk dəfə italyan humanislərindən olan Lorenso Vallua şübhə altına almışdı. O sübut etdi ki sənəd IV əsrdə yox VIII əsrdə yazılmışdı.VIII əsrdə isə yunan dili dövlət dili idi.Latın dilindən az istifadə edildiyinə görə ona mətbəx latını deyirdilər və sənəd də həmin dildə hazırlanmışdı. Eyni zamanda 313-cü ildən etibarən Konstantinin xristianların xidmətindən istifadə etməsi və onlara açıq şəkildə icmaların fəaliyyətinə icazə verməsi məlumdur. Əgər Qərbi Roma papaya hədiyyə verilmiş olsaydı imperator qərb hissənin papanın əlindən alınmasına cəsarət etməzdi. Romada xristianlıq IV əsrin sonunda hakim dinə çevrildi. Əgər xristianlıq həqiqətən də Konstantin tərəfindən dövlət dininə çevrilməmişdisə papaya imperiyanın çox nəhəng hissəsinin pay verilməsi heç bir sübuta əsaslanmır.

Əsasının Xlodviq tərəfindən 500-cü ildə qoyulduğu Frank imperiyası iki sülalənin tarixindən ibarətdir.

I sülalə - Xlodviqin mənsub olduğu Meroveylər sülaləsi adlanır.

II sülalə - VIII əsrin əvvəllərində keçəl Karlın və gödək Pipinin dövründən isə bu sülalə Karolinlər sülaləsi adlanır və müasir Avropanın siyasi xəritəsində silinməz izlər buraxmışdır.

Məlum olduğu kimi, vaxtilə tarixən üç hissəyə bölünmüş Qalliyanın əhalisi xristianlardan ibarət idi. Təsadüfi deyil ki yerli əhalinin sosial dayağını qazanmaq məqsədilə Xlodviq xristianlığın orta məzhəbini qəbul etmiş və bununla da gələcək Frank dövlətinin qurulması üçün həm Roma papasının həm də Bizans imperiyasının dəstəyini qazanmışdı. Xlodviqin varisləri dövründə Frank dövlətinin ərazisi müasir İtaliyanın şimalına qədər yayılmış şimalda isə anqlo-saks tayfalarının yaşadığı ərazinin bir hissəsini əhatə etmişdi.

Frank dövlətinin erkən dövrünün problemlərini öyrənmək üçün eramızın VI əsrinə aid olan Salik qanunlar külliyatı qiymətli mənbədir. Bəhs olunan dövrdə barbar krallıqları içərisində Lanqobard krallığı xüsusi

əhəmiyyətə malik idi. Lanqobardlar xüsusilə Yustinianın dövründən sonra Bizans imperiyasını və Frank dövlətini təhdid edirdilər. Təsadüfi deyil ki Lanqobaradlarla mübarizə Roma papasını Frank dövləti ilə yaxınlaşmağa vadar etdi. Çünki bəhs olunan dövrdə Roma papalığı Konstantinopol patriarxı ilə xristian kilsəsinin gəlirlərinin bölüşdürülməsi uğrunda gərgin mübarizə aparırdı.

VIII əsrin 70-ci illərinə qədər mövcud olan Lanqobard krallığı Avropanın siyasi həyatında da mühüm rol oynamışdı.Frank dövləti yaranan dövrdən etibarən hərbi başçının hakimiyyəti kralın hakimyyətinə çevrilməyə başlamışdı. Əvvəlki xalq yığıncağının yerini kralın əmrilə toplaşan və ildə iki dəfə keçirilən məclislər –saborlar tutmuşdu. Təxminən mart-aprel və oktyabrda keçirilən məclislər zamanı kral yeni qaydaları elan edir qonşu qəbilələrlə və ya dövlətlərlə münasibətlərlə bağlı məsləhətləşmə keçirmək lazım gəldikdə nümayəndə göndərirdi.

Salik qanunlarının təhlili göstərir ki Frank dövləti həm erkən dövrlərdə həm də sonralar Roma hüququnun təsiri altında olub. Romada olduğu kimi Frank dövlətində də xarici əlaqələrə diqqət verilirdi. Bu əlaqələrin təşkili zamanı adlı-sanlı nəsillərin nümayəndələrinin xidmətindən istifadə olunurdu. 711-ci idə ərəb qoşunları Tariqin başılığı altında Tariq boğazından keçərək Priney yarmadasının cənubuna daxil olmuşdu. Kristallı Pipin və çəkic Karlın dövründə ərəblərin Avropanın içərilərinə doğru hərəkəti dayandırıldı və 732-ci ildə baş vermiş Puatye döyüşündə ərəb orduları geri çəkildilər.

Çəkic Karl ərəblərlə yanaşı 720-736-cı illər arasındakı dövrdə Qalliyadakı feodal pərakəndəliyinə son qoydu cənubi Qalliyanı və İspaniyanı öz torpaqlarına birləşdirdi. Benefesis sisteminin mövcudluğu krala dövlət hakimiyyətini möhkəmlənməsi üçün ciddi əsas yaratmışdı. Təsadüfi deyil ki, çəkic Karlın varisi olan gödək Pipin dövlət idarəçiliyini həyata keçirərkən dövlət vəzifələlərini paylayarkən sərbəst hərəkət edirdi. Bu o demək idi ki monarxın hakimiyyəti mütəqləşdirilmiş Avropa bütövlükdə bir hakimiyyət altında bərqərar olmuşdu. Frank dövlətinin ən qüdrətli dövrü Böyük Karlın dövrü (768-814) heab olunur.

Mərkəzləşmiş hakkimiyyəti kifayət qədər gücləndirən Karl xarici siyasətə diqqət verir və apardığı işğalçı müharibələr zamanı bundan istifadə edirdi. 42 illik hakimiyyəti zamanı az qala 50-ə yaxın yürüş edən Karl yeritdiyi ittifaq siyasəti hesabına anqlar və saksları ,slavyanları özünə tabe etmiş, Ərəb dövləti, Çin və Hindistanla ticarət əlaqələri qurmuşdu.Bu dövrdə Ərəb xilafəti öz yüksəlişinin zirvəsində idi.Ərəb xəlifəsi Frank dövləti ilə ticarət əlaqələrinin saxlanmasına xüsusi fikir verir, Frank və Ərəb tacirləri hörmətlə qəbul edilirdilər.Bu dövr ərəb müəlliflərinin məlumatına görə Frank dövlətinə gedən ticarət karvanları özləri ilə konkret tapşırıqla yanaşı əvvəlcədən iki qrupa bölünmüş hədiyyə aparırdılar. I-əvəzi ödənilməyən hədiyyələr, II-qarşıya qoyulmuş məqsədə nail olmaq üçün paylanması nəzərdə tutulan hədiyyələr.

Frank elçiləri Kiçik Asiyadakı sahil şəhərləri və Çin ilə ticarət əlaqələri saxlayırdılar.Franklarda yüksək qiymətli ipək Cənubi Qafqazın ərazisindən keçən karvan yolu ilə Avropaya daşınırdı. Böyük Karlın dövründə papalıq dövləti ilə Frank dövləti arasındakı münasibətlər qarşılıqlı asılılığa əsaslanırdı. Papa lanqobardlara qarşı frankların köməyindən istifadə edirdi. Frank dövləti isə katolik dininin möhkəmlənməsinə xidmət etmişdir. Böyük Karl imperator titulunu Roma papasından aldı.

Təxminən eramızın IX əsrinə aid edilən katolik kilsəsi ilə bağlı saxta sənəd papanın gələcək dünyəvi hakimiyyətinin əsaslanması üçün çıxış nöqtəsi olmuşdu.

Həmin sənədə görə, Roma papalarının təyin etdikləri keşişlər və yepiskoplar yerli hökmdarlar tərəfindən dəyişdirilə bilməzdi. Məhz bu Roma papalarına XVI əsrin əvvəllərinə qədər Avropada şəriksiz hökmranlığa imkan yaratmışdı. Böyük Karlın yaratdığı imperiyanın ucqarlarda olan makqraflıqlar iki məqsədə xidmət edirdi. Birincisi, imperiyanın hüdudlarına qəfl hücumların qarşısını almaq, ikincisi, Frank dövlətinə gələn elçilərin və tacirlərin qarşılanması və yola salınması.

**Mövzuya dair suallar:**

1. Erkən orta əsrlərdə Avropanın siyasi xəritəsi
2. Xalqların böyük köçünün dünyanın siyasi xəritəsinin yeniləşməsində rolu
3. Barbar krallıqlarının xarici siyasəti
4. Böyük Hun imperatorluğunun xarici siyasəti
5. Frank dövlətinin yaranması və Avropanın birləşdirilməsi uğrunda mübarizə.
6. Frank imperiyası böyük Karlın hakimiyyəti illərində
7. Frank imperiyasının ərəb xilafəti ilə əlaqələri
8. I Yustinyanın hakimiyyəti illərində Bizans imperiyasının xarici siyasəti
9. Roma papalıq dövlətinin yaranması və Avropanın mənəvi birliyi
10. 843-cü il Verden müqaviləsi və Avropada müstəqil feodal dövlətlərinin yaranması
11. Avropa ölkələri XI-XII əsrlərdə

**Ədəbiyyat**


1. Böyük Hun imperiyası. 2 cilddə. B., 1993
2. Orta əsrlər tarixi / Y.Mahmudovun redaktəsi altında. B., 1986, I cild.

3. История Византии, т.1, М., 1963
4. История Западной Европы. М., 1947
5. История Италии. т.1. М., 1970
6. История средних веков. Хрестоматия. М., 1982, т.1
7. Межгосударственное отношения и дипломатия в средних веках. М., 1970
8. Сиротенко В.Т. Истории международной отношений в Европе в IV-VIвв. Перм, 1975
9. Сказкин И.В. История средных веков. В 2-х тт. М., 1972, т.1

## VIII Mövzu
## Ərəb xilafəti diplomatiyası

Məlum olduğu kimi Sasanilər imperiyasının feodallaşma dövrünə qədəm qoyması imperiyanın hüdudlarının genişləndirilməsi ilə paralel baş vermişdir. Bizim eranın V-VI əsrlərində imperiyanın sərhədləri şimalda Mərkəzi Asiyanın ortalarına, Qafqaz dağlarının ətəklərinə, qərbdə Aralıq dənizinin sahillərinə, cənubda Səudiyyə Ərəbistanının ərazisi də daxil olmaqla Asiyanın cənubuna, şərqdə Çinə qədər uzanırdı. Eramızın 570-ci ilində Sasani qoşunları Həbəşləri Yəsrib və Məkkədən qovaraq buranı öz hakimiyyəti altına aldı. Həmin ildə də Məhəmməd peyğəmbər anadan olmuşdur.

Sasanilər imperiyasının qüdrəti uzun sürmədi. Hələ qədimdən ticarət karvanlarının yönəldiyi bu yerlər Bizans imperiyasının da diqqətində idi. I Xosrovun Hicazda ağalığı uzun sürmədi. Eramızın 575-579-cu illərində hərbi əməliyyatlar nəticəsində Səudiyyə Ərəbistanının ərazisi bölündü.

Ərəblərdə nəsli qəbilə quruluşu və bir sıra adətlər aradan qalxmaqda idi. Ərəb qəbilələrinin birləşdirilməsi müəyyən ideya hazırlıq mərhələsi keçməmişdi. Bu proses yalnız xarici hərbi təhlükənin mövcudluğu və təsiri şəraitində reallaşmışdı. Ərəb qəbilələri tərkibcə yekcins deyildi.

Məlum olduğu kimi, ərəblər quldarlıq quruluşunu yaşamayıb və bu onların sonrakı ictimai inkişafına öz təsirini göstərmişdi. Ərəb dövlətçiliyi öz başlanğıcını VII əsrin əvvəllərindən götürür. Lakin bu dövlətçilik ictimai inkişafın hərbi demokratiya dövrünə uyğundur. Tədricən qəbilə və tayfalararası münasibətlər erkən ittifaqların yaranmasını şərtləndirmiş, Ərəb xilafəti bu zəmində təşəkkül tapmışdır. Ərəb dövlətçiliyi 610-cu ildən etibarən islamı yeni din kimi təbliğ etməyə başlamış Məhəmməd peyğəmbərin adı ilə bağlıdır. Ərəb xilafəti 630-cu ildən tarix səhnəsinə qədəm qoymuşdu. Məhəmməd peyğəmbər üç daxili və xarici qüvvəni neytrallaşdırmaq və ya kənarlaşdırmaq məcburiyyətində qalmışdı:

I qüvvə-Sasanilər imperiyası,
II qüvvə-Bizans imperiyası,
III qüvvə-özünün içərisindən çıxdığı Qüreyşilər nəsli.

İslamın təbliği gedişində müsəlman icması və ya ümmənin böyük rolu olmuşdu. Peyğəmbərin anası Mədinə qızı Əminə, atası Abdulla isə məkkəli idi. Məkkə və Yəsrib şəhərləri ticarət birinciliyi uğrunda rəqib idilər və yəsriblilər islamın təbliğinə Məkkənin nüfuzuna zərbə endirmək üçün vasitə kimi baxırdılar. Qəbilə qanunlarını yaxşı bilən Məhəmməd peyğəmbər bu faktorun təsiri ilə 622-ci ilin 20 sentyabrında Mədinəyə hicrət edir və Mədinə icmasının- ümmənin başçısı kimi qəbul olunur.

Quranın surələrinin təhlili göstərir ki, onu iki və ya üç qrupa bölmək olar. Məkkə surələri loyallığı, Mədinə surələri dramatizmi və dinamizmi ilə səciyyələnir.Tədqiqatçılar göstərirlər ki, peyğəmbərin həyatının Mədinə dövrü olmasaydı, Ərəb xilafəti də yaranmazdı. Məhəmməd hələ 620-622-ci illərdə gizli şəkildə Mədinədə olan aus və həzrəc qəbilələrinin başçıları ilə görüşmüş, Mədinədə islamın qəbulu şərtləri müəyyənləşmişdi.

Mədinəyə köçdükdən sonra Məhəmməd 624 –cü il Bədr, 627-ci il Mədinə döyüşlərində məkkəliləri məğlub etmiş, sonra hakimiyyətini Məkkəyə qədər ərazilərə yaymağa müvəffəq olmuşdu. Məlum olduğu kimi, Kəbə qədim zamanlardan ziyarət yeri idi. Bütpərəstlik dövründə burada 360 büt saxlanılmışdı. Ərəblərlə hər günün öz allahı mövcud idi. 628-ci ildə peyğəmbər 1500 əsabəsi ilə birlikdə zəvvar adı altında Məkkəyə yaxınlaşdı, lakin şəhər başçısı Əbu Sufyan onu güclü qoşunla qarşıladı. Yaranmış şəraitdə peyğəmbərin əmisi Abbas müharibənin başlanmasına imkan vermədi. Aparılmış danışıqlar nəticəsində şərtləri iki ildən sonra məlum olan Xudeybə müqaviləsi imzalandı.

Məlum olduğu kimi, Məhəmmədin peyğəmbərliyi ilk vaxtlar nəinki məkkəlilər, hətta qohumları tərəfindən də qəbul edilmirdi. Təsadüfi deyildi ki, Xudeybə müqaviləsində də Məhəmmədin peyğəmbərliyi tanınmırdı. Lakin bu müqavilə hüquqi baxımdan mədinəlilərin üstünlüyünü göstərirdi. Çünki müqavilənin ruhuna görə, Məhəmməd tərəf-müqabil kimi tanınırdı.

Müqavilənin şərtinə görə, Mədinə ilə Məkkə arasında hərbi əməliyyatlar dayandırılır və onillik barışıq elan olunurdu. Müsəlmanlara silahsız şəkildə Kəbəni ziyarət etməyə imkan verildi. Müqavilənin sonuncu bəndinə görə, Məhəmməd Məkkə karvanlarına hücum etməmək öhdəliyi götürürdü.

Müqavilə hüquqi sənəd olduğu üçün Məhəmmədin tanınması Məkkə tərəfindən etiraf olunurdu. Əslində Məhəmməd bununla iki məqsədə nail olmuşdu: həm vaxt qazanmış və öz qüvvələrini möhkəmləndirmiş, həm də İslam dininin dinc yolla yayılması imkanı əldə etmişdi. Təsadüfi deyil ki, sonrakı iki il ərzində Məkkəyə düşmən ərəb qəbilələri Məhəmmədlə müqavilə bağlayaraq İslam dinini qəbul etmişdilər.

Məhəmməd peyğəmbər ciddi hazırlıqdan sonra 630-cu ilin yanvarında on minlik Mədinə ordusu ilə Məkkəni mühasirəyə aldı. Lakin əmisi Abbasın vasitəsilə Əbu Sufyanla Məhəmməd arasında barışıq imzalanır. Məkkə Məhəmməd peyğəmbərə təslim olur. Müqavilənin şərtləri açağıdakılardan ibarət idi:

- Müqavimət göstərməyən məkkəlilərin təhlükəsizliyinə təminat və aman verilir;
- Ümmənin olmasına baxmayaraq, məkkəlilər hamılıqla islamı qəbul etməli idilər;
- Kəbədəki bütün bütlər məhv olunmalı idi;

- Məkkəyə verilən aministiya islamın 10 qəddar düşməninə tətbiq olunmurdu.

Müqavilə imzalandıqdan sonra Məhəmməd peyğəmbər Məkkəyə daxil olur, Kəbədəki bütlər məhv edilərək Əl-Həram məscidinə çevrilir. Məhəmməd peyğəmbərin apardığı siyasət nəticəsində 630-631-ci illərdə bütün Ərəbistan yarmadası islamı qəbul etdi və vahid dövlətdə birləşdi.

Peyğəmbərdən sonrakı 4 qanuni xəlifənin və Əməvilərin dövründə (632-750) Afrikanın şimalından Avropanın cənubuna qədər nəhəng ərazilər işğal edildi. 630-651-ci illər arasında aparılan hərbi əməliyyatlar nəticəsində Sasanilər dövləti süqut etdi və və onun ərazisi vahid Ərəb dövlətinin tərkibinə qatıldı. Sasanilərin paytaxtı Ktesifon şəhəri tutuldu. Ərəblər 900 mln dirhəm hərbi gəlir əldə etdilər.

İslam dininin yayılmasında istifadə olunan amillər iki qrupa bölünür: güc və inandırma. Dahi N.Gəncəvi «Xosrov və Şirin» əsərinin əvvəlində Ktesifon (Mədain) şəhərinin tutulması, Ə.Xaqani isə «Mədain xərabələri» əsərlərində sasanilər imperiyasının süqutu ilə bağlı məsələləri bədii şəkildə işıqlandırmışlar.

Ərəb orduları Tariqin başçılığı altında 696-cı ildə Karfagen şəhərini, sonra isə Cəbbəllütariq boğazından keçərək İspaniyanın cənubunu tutdular və 711-ci il üçün Priney yarmadası işğal olundu. 755-ci ildə isə burada Kordova xilafəti təşəkkül tapdı. Qanuni xəlifələrin və Əməvilərin dövründə ərəblər Sasanilərin idarə sistemindən istifadə etsələr də, güclü idarəçilik aparatı sonralar, xüsusilə Harun Ər-Rəşidin dövründə yarandı.

Məlum olduğu kimi, Ərəb xilafətinin ərazisi əvvəlcə 5, sonra isə 14 Ktesifon (Sasanilərin dövründəki mərzbanlıqların əvəzinə) bölünmüşdü. Əmirlər xəlifəyə tabe idilər, lakin müstəqil daxili siyasət yeritmək hüququna malik olmuşdular. Ucqar əmirliklərin hamısı Böyük Karlın makqraflıqlarında olduğu kimi, Xilafətin ucqar sərhəddi funksiyasını daşıyır, xarici qonaqlar buradan qəbul olunur, gedənlər buradan yola salınırdı. Tədricən poçt-yam xidməti yaradılırdı. Sonralar Abbasilərin dövründə bu xidmət kəşfiyyat, polis və rabitə funksiyalarını özündə birləşdirirdi. Xilafətdə poçt xidmətini həyata keçirmək üçün təlim görmüş göyərçinlərdən istifadə olunurdu.

Abbasilərin dövründə daxili və xarici siyasət məsələlərinin həyata keçirilməsi üçün divanxana yaradıldı və baş vəzir postu təsis olundu.Əslində baş vəzir xəlifə divanxanasına başçılıq edirdi. Lakin onun maarif və məhkəmə səlahiyyətləri yox idi. Baş vəzir həm də xarici siyasət məsələləri sahəsində həm də hökumdarın məsləhətçisi hesab olunurdu. Bağdad xəlifələri qonşu ölkələrdə vəziyyətin necəliyi və islamın yayılması məsələlərinə xüsusi diqqət verir, İslamın dinc yollarla yayılması üçün bütün vasitələrdən istifadə edirdilər. Bu məqsədlə göndərilən elçilər xəlifənin hədiyyələri ilə birlikdə, göndərildikləri dövlətin sarayında olur və islamın qəbulu şərtlərini həmin ölkəyə çatdırırdılar.

Təsadüfi deyil ki, oğuz türkləri məhz bu yolla islamı qəbul etmişdilər. Türk tayfalarından olan xəzərlər hərbi əməliyyatların gedişində məğlub oldular, lakin VIII əsrin sonlarından etibarən böyük bir hissəsi İslamı qəbul etdilər. Lakin xəzərlərlə qonşu olan türk tayfaları İslama könüllü olaraq tapınmışdılar. İslamın yayıldığı ərazilər qədim sivilizasiyanın vətəni olduğuna görə, çox tezliklə yüksək mədəni inkişaf səviyyəsinə yüksəlmişdilər. Buna görə IX-XII əsrlər İslamın intibah mədəniyyəti dövrü adlanır.

Türk-islam amili şərqin səlib yürüşündən qorunmasında mühüm rol oynamışdı. 1071-ci Malazgird döyüşü və 1099-1100-cü illər Əyyubilərlə baş verən döyüşlərdə səlibçilər ağır məğlubiyyətə uğrayaraq şərqdən çəkilmək məcburiyyətində qaldılar. Abbasilər xilafətinin dövlətçilik ənənələri Hülakülər dövlətinin idarə sisteminin formalaşmasında mühüm rol oynamışdı.

**Mövzuya dair suallar**

1. Ərəbistan uğrunda Sasani-Bizans müharibələri
2. Məhəmməd Peyğəmbərin Ərəbistanın birləşdirməsi uğrunda hərbi-siyasi mübarizəsi
3. Peyğəmbər diplomatiyasının xüsusiyyətləri. Xudeybə müqaviləsi
4. Məkkənin tutulması və Ərəb xilafətinin yaranması
5. Qanuni xəlifələrin dövründə Ərəb xilafətinin xarici siyasəti
6. Ərəb işğallarının dünyanın siyasi mənzərəsinin dəyişməsində rolu
7. Cənubi Qafqazda İslam dininin yayılması
8. Əməvilər dövlətinin xarici siyasəti
9. Abbasilər xilafətinin beynəlxalq əlaqələri
10. Ərəb xilafətində diplomatiya və səfirlik işi

**Ədəbiyyat**


1. Qurani-Kərim. B., 2005
2. Belyayev Y. Müsəlman təriqətləri. B., 1995
3. Nizam-Əl Mülk. Siyasətnamə. B., 1987
4. Арабские страны. История, экономика, М., 1970
5. Беляев Е.А. Арабы, ислам и арабский халифат в раннее средневековье. М., 1965
6. История средних веков. Учеб. М., Просвешение, 1986
7. Исмаилов Р.И. Распространение ислама и преемственность в арабо-мусульманской культуре в

Египте / Актуальные проблемы современного ислама. Баку, 1986
8. Климович Л.И. Ислам. М., 1965
9. Мец А. Мусульманский ренессанс. М., 1973
10. Мюллер А. История Ислама. В 4-х тт. М., 1895, т.1-2

## IX Mövzu
## Teymurilərin hakimiyyəti dövründə beynəlxalq münasibətlər

Cənubi Qafqaz xalqları mürəkkəb və rəngarəng hadisələrlə zəngin çoxəsrlik tarixə malikdir. Həmin tarixin olduqca maraqlı, lakin az öyrənilmiş XIV-XV əsrlər dövrü xalqın təşəkkülü, Azərbaycan və Gürcüstanda milli dövlətlərin meydana gəlməsi, azəri və gürcü ədəbi dillərinin formalaşması kimi proseslərlə səciyyələnir.

Ölkəmizin təbii-coğrafi mövqeyi, beynəlxalq ticarət yolları üzərində yerləşməsi və strateji əhəmiyyəti hələ qədim zamanlardan yadelli işğalçıların diqqətini cəlb etmiş, Cənubi Qafqaz torpaqları vaxtdan-vaxta onu ələ keçirmək istəyənlər arasında mübarizə meydanına çevrilmişdi. XIV-XV əsrlərin hüdudunda həmin mübarizə xüsusilə kəskinləşmişdi. Belə ki, şimaldan Qızıl Orda, şərqdən Teymurləng, cənubdan cəlairi orduları tarixi mənbələrdə «Hülakü ulusu» adlı ilə xatırlanan Qafqaza can atırdılar.

Cənubi Qafqaz uğrunda mübarizənin gedişində çox keçmədən Teymurləngin böyük üstünlük qazandığı ortaya çıxdı. Həm cəlairi qüvvələri, həm də Toxtamış xanın başçılıq etdiyi Qızıl Orda teymuri orduları tərəfindən darmadağın edilərək Cənubi Qafqazdan qovuldular. Teymurləngin 1895-1404-ci illəri əhatə edən yürüşləri Qafqaz xalqlarına olduqca böyük fəlakətlər gətirdi. Yadelli işğalçıların talançı yürüşlərinin bütün ağırlığı xalq kütlələrinin üzərinə düşürdü. Xalqın mübarizə əzmini qırmaq isə mümkün deyildi. Belə ki, teymurilər Cənubi Qafqazda möhkəmlənmək uğrunda 23 il mübarizə aparmalarına baxmayaraq, Teymurləngin ölümündən cəmi üç il sonra burada yaşayan xalqlar istila boyunduruğunu öz üzərlərindən atdılar.

Teymuri işğalları və onların nəticələri Cənubi Qafqaz xalqları tarixşünaslığında ayrıca tədqiqat əsərlərində, həm də birtərəfli qaydada işıqlandırılmışdır. Belə ki, teymuri işğallarından bəhs edən bütün müəlliflər hadisələrin təsviri ilə kifayətlənir, istilanın Cənubi Qayqaz xalqlarının tarixi taleyindəki rolu işıqlandırılmamış qalır. Azərbaycanın orta əsrlər tarixinin sanballı tədqiqatçılarından olan akademik Əbdülkərim Əlizadə respublikamızın XIII-XVI əsrlər ictimai-iqtisadi və siyasi tarixinə həsr etdiyi monoqrafiyada ərəb, fars və türk mənbələrinə əsasən Teymurləngin 1385-1400-cü illər arasındakı yürüşlərindən bəhs etmiş, göstərilən dövr Şirvan şahlığının tarixinə ayrıca fəsil həsr etmişdi.[1] Monoqrafiyada Teymurləngin Gürcüstana və Ermənistana etdiyi yürüşlərdən də bəhs olunur, gürcü xalqının talançı yürüşlərdən xilas edilməsində Şirvanşah I İbrahimin göstərdiyi xeyirxahlıqdan söhbət açılır.

Tədqiqatçılardan M.X.Nemətova orta əsr mənbələri və epiqrafik abidələr əsasında Şirvanşahlarla Teymuri dövləti arasındakı münasibətləri işıqlandırmışdır. Əsərdə I İbrahimin uzaqgörən siyasiəti nəticəsində Şirvanşahların dövlət müstəqilliyinin qorunması və Qızıl Ordaya qarşı etibarlı müttəfiq əldə edilməsi məsələləri açılıb göstərilmişdir.[2]

C.İbrahimovun əsəri isə Azərbaycan tarixinin XIV-XV əsrlər dövrünə dair qiymətli məlumatlarla zəngindir. Əsərdə Teymurləngin yürüşləri, Əlincə qalasının müdafiəsi, Şirvanşah I İbrahimin diplomatik müvəffəqiyyətləri, Qızıl Ordaya qarşı mübarizəsi yığcam şəkildə şəhr edilmişdir[3]. Müəllif əsərin I fəslində mövzunun tarixşünaslığına və mənbələrin təhlilinə geniş yer verir, fars və ərəb dilli mənbələrin böyük hissəsi müqayisəli tədqiqat obyektinə çevrilir.

«Azərbaycan tarixi»nin birinci cildi[4], S.Aşurbəylinin[5], Ə.S.Sumbatzadənin[6], S.Məmmədovun[7] və başqlarnın əsərləri Teymuri işğalları ərəfəsi və gedişi zamanı Cənubi Qafqazın ictimai-siyasi və iqtisadi vəziyyətini, tarixi fonunu, əhalinin, «istehsalın və siyasi qüvvənin çox mühüm amili» olan kəndlilərin vəziyyətini işıqlandırmaq üçün zəruri material verir. Göstərilən ədəbiyyatlardakı ziddiyyətli fikirlər sərfnəzər edilmiş, tarixi fonla səsləşən, hadisələrin inkişaf prosesini düzgün işıqlandırmaqla xidmət edən tarixi materillar diplom işin yazılmasında ətraflı istifadə olunmuşdur.

Cənubi Qafqaziya xalqlarının teymuri əsarətinə, Toxtamışın hücumlarına qarşı mübarizəsi, feodal pərakəndliyi nəticəsində müdafiənin uğursuzluğu, teymuri qüvvələrinə qarşı Əlincə qalasının 14 il qəhrəmancasına sinə gərməsi, nəhayət, Teymurun şəxsiyyətinin qiymətləndirilməsi, İ.Muminovun[8], T.Bünyadovun[9], R.Məmmədovun[10], A.P.Novosoltsevin[11], V.Piriyev və R.Məmmədovun[1] və başqalarının

---

[1] Ализаде А.А. Социально-экономическая и политческая история Азербайджана XIII-XIVвв. Б., 1956, сящ.336-351, 351-400

[2] Немятова М.Х. ХЫВ—ХВЫ яср тарихинин юйрянилмясиня даир. Б., 1959, сящ.8-27

[3] Ибращимова Ъ. Азярбайъанын ХВ яср тарихиня даир очеркляр. Б., 1956, сящ.25-36

[4] Азярбайъан тарихи, 1-ъи иъилд, Б., 1961, сящ.215-221

[5] Ашурбейли С. Государство Ширваншахов (VI-XVвв.) Б., 1983, сящ.114-173

[6] Сумбатзаде А.С. Азербайджанцы-этногенез и формирвание народа. Б., 1990, сящ.176-189

[7] Мяммядов С. Азярбайъан ВЫЫ-ХВЫ ясрлярдя, Б., 1980, сящ.75-80

[8] Муминов И. Роль и место Амира Теймура в истории Средней Азии. Ташкент, 1968

[9] Бцнйадов Т. Бир галанын сирри «Улдуз журналы, 1967, №4

[10] Мяммядов Р. Нахчыван шящяринин таврихи очерки, Б., 1967, сящ.92-99; Мяммядов Р. Ялинъя галасынын орта ясрляр тарихи. Азярбайъан тарихиня даир материаллар, ЫХ ъилд, Б., 1973

[11] Новосельцев А.П. Об исторической оценка Тимура. Вопросы истории, 1973, №2, сящ.3-20

tədqiqat hədəfi olmuşdur ki, diplom işində həmin əsərlərdən istifadə edilmişdir.

Teymurləngin yürüşləri zamanı Cənubi Qafqazda törədilən fəlakətlər, onun ölümündək sonra xələfləri arasında hakimiyyət uğrunda gedən mübarizə istisnasız olaraq bütün ora əsr tarixçilərinin diqqətini cəlb etmişdir. Buxaralı Məhəmməd Kavənd şahın (Mircondun), Xandəmir Qiasədin ibn Hümaməddin əl-Hüseyninin, Əbülfəqaq Kəmaləddin Səmərqədinin, Əhməd ibn Məhəmməd Ərəbşahın, yəhya ibn Əbdüllətif əl Qəzvinin, rus səyyahı Afanasi Nikitinin, Azərbaycanda olmuş qərbi Avropa səyyahları Katerino-Zenonun, Klaviki Qonzame de Ryunin, İosafat Barbaronun, Ambrosi Konsorinin, Həsən bəy Rumlunun, Nizamədin Ədbül Paşa Şaminin, Şərəfxan Bidlivinin, anonim «Tüzükati-Teymur»un, Həmdullah Qəzvinin və başqalarının əsərləri XVI-XV əsrlərin geşməkeşli, tarixi hadisələrlə zəngin tarixini öyrənmək üçün etibarlı mənbədir.

Teymurləngin Cənubi Qafqaz yürüşlərinin müasiri olan Mestop keşişi Foma Metsopski «Teymurləngin və xələflərinin tarixi» əsərini teymurilərin 1388-1446-cü illəri əhatə edən hakimiyyəti dövründə baş verən hadisələrin təsvirinə həsr etmişdir.[2] Əsərdə Teymurun Səmərqəndi tutmasından başlayaraq onun qərbə doğu yürüşləri, İranı istila etməsi, Cənubi Qafqaza soxulması, Qızıl Orda xanı Toxtamış və Gürcüstan çarı Baqratla toqquşması, qərbi Ermənistana yürüşü və osmanlı sultanı Bəyazidlə vuruşu təsvir edilir, həmin yürüşlər zamanı baş vermiş fəlakətlər, törədilmiş vəhşiliklər ürək ağrısı ilə qələmə alınır. Əsərdə Qaraqoyunlu tayfalarının Teymur və onun xələfləri əleyhinə apardıqları kəskin və inadlı mübarizələr haqqında daha geniş məlumat verilir.

Teymurləngin yürüşlərinin digər müasiri Zeynalabdin bin Həmdullah Qəzvin öz əsərlərini 1341-2392-ci illər Azərbaycan ərazisində, Ermənistanda, həmçinin İran və İraqda başverən hadisələrin təsvirinə həsr etmişdir. Əsərdə Məlik Əşrəfin əmirliyi dövründə feodal çəkişmələri və toqquşmalarından tutmuş Teymurun Cəqubi Qafqazda ikinci yürüşünədək söhbət açılır, baş verən hadisələr, o cümlədən Təbriz üzərinə hücumlar (1385-1392)-ci illər ərzində Təbrizə 18 dəfə hücum edmilşdi), Qızıl Orda xanı Toxtamışın törətdiyi vəhşiliklər haqqında maraqlı məlumat verilir. Burada Əlincə qalasının müdafiəsi, Qaraqoyunlu Qara Məhəmmədin teymurilərlə mübarizəsi, Azərbaycan şəhərləri və təsərrüfat həyatı haqqında məlumatlar da öz əksini tapmışdır.

Teymuri dövləti qurama «imperiya» olduğu üçün təkcə işğalçıların yox, həm də istila edilmiş ölkələrin hakim siniflərinin mənafeyini qorumaq kimi mürəkkəb funksiyanı yerinə yetirirdi.

Aşkarlıq və demokratiya şəraitində Azərbaycanda da tarixi keçmişimizin öyrənilməsinə maraq gücləndirilmiş, tarixin «ağ ləkələrinin» işıqlandırılması günü zəruri məsələsinə çevrilmişdir. Azərbaycanın XIV-XV əsrlər tarixinin öyrənilməsi isə bu baxımdan xüsusi aktuallıq kəsb edir. Belə ki, biz indi Cənubi Qafqaz xalqları deyərkən, üç əsas xalqı –azərbaycanlıları, gürcüləri və erməniləri nəzərdə tuturuq, halbuki Teymurləngin yürüşlərindən bəhs edən bütün orta əsr müəllifləri, hadisələrin müasirləri Erməniyyəni Cənubi Qafqazdan kənarda göstərirlər, indiki Ermənistan respublikasının ərazisində bir ədəd də olsun erməni toponiminin adını çəkmirdilər, amma Ermənistan respublikası XVI əsrin yadigarı, türk-azəri şəhəri İrəvanın (1936-cı ildən Yerevan) tarixinin 2750 il əvvələ çəkərək bunun təntənə ilə bayram edirlər. Azərbaycan respublikasının ərazisində türk Azərbaycan mənşəli 500-dən yuxarı şəhər, kənd, qəsəbə və digər yer adlarının dəyişdirilməsi dediklərimizə əyani sübutdur.

## 9.1. Əmir Teymurun işğalları ərəfəsində Cənubi Qafqazda beynəlxalq vəziyyət

Cənubi Qafqaz, xüsusilə Azərbaycan tarixinin mürəkkəb dövrlərindən biri olan XIV əsr hadisələrin rəngarəngliyi, dramatizm və çoxepizodluluğu ilə seçilir. XIV əsr əslində Azərbaycanın daxili və xarici mübarizələr tarixidir. Bu dövr eyni zamanda XV əsr üçün çıxış nöqtəsidir. Bütün XIV əsr boyu davam edən ictimai-siyasi mübarizənin gedişində Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda gedən mübarizə əvvəlcə Qaraqoyunlu, sonra isə Ağqoyunlu dövlətlərinin yaradılması ilə başa çatır. Gürcüstan və Ermənistan torpaqların da bu iki dövlətin ərazilərinə daxil edilmşidi.

XIII əsrdə Cənubi Qafqazın başı üzərini iki böyük fəlakət almışdır ki, bunların hər ikisi monqol istilaların ilə bağlı idi. Monqolların Azərbaycana birinci (1220-1223) və ikinci (1228-1230) yürüşləri zamanı əhalinin sıx yaşadığı 7 Azərbaycan şəhəri – Marağa, Ərdəbil, Sərab, Beyləqan, Şamaxı, Gəncə və Şəmkir əsasən xarabalıqlara çevrilmişdi. Beyləqan şəhərinə elə amansız divan tutulmuşdu ki, şəhər bir daha özünü düzəldə bilməmişdi. İri şəhərlərdən yalnız Təbriz və Naxçıvan böyük xərac bahasına öz varlıqlarını qoruyub saxlaya bilmişdi.

XIII əsrin ikinci yarısında Azərbaycanın başı üzərini yeni fəlakət aldı. Belə ki, Çingiz xanın nəvəsi Hülakü xan 1254-cü ildə 120 minlik böyük bir ordu ilə İrana və Cənubi Qafqaza doğru hərəkətə başladı. 1255-1256-cı illərdə bütün İran və Azərbaycan, az sonra Ön Asiya başdan-başa Hülakü xanın hakimiyyəti altına keçdi. 1258-ci ilin fevralında Hülakü xan və onun sərkərdəsi Bacu Bağdadı aldılar, şəhər 40 gün qarət olundu və xarabazara çevrildi. Beləliklə, Abbasilər sülaləsinin 508 ildən yuxarı davam edən hakimiyyətinə (750-1258) son qoyuldu. Abbasilərin bütün xəzinəsi Hülakülərin əlinə keçdi və saxlanmaq üçün Urmiya gölü yaxınlığındakı

---

[1] Мяммядов Р., Пирийев В. Теймурлянэин Ялинъя сяфяри, «Елм вя щяйат», 1977, №9, сящ.31-33

[2] Местопски Ф. Теймурлянэин вя онун хяляфляринин тарихи. Б., 1957, сящ.5

Şahi şəhərinə göndərildi. Hülakü xanın hakimiyyətdə olduğu dövrdə (1256-1265) Marağa, sonralar isə Təbriz yeni dövlətin paytaxtı oldu. Hülakülər dövlətinin (1256-1355) tərkibinə Azərbaycandan əlavə İraqi-Əcəm və İraqi-Ərəb, German, Gürcüstan, Kiçik Asiya (Rum) Ermənistan, Gürcüstan, Fars, Xusistan, Xorasan və başqa vilayətlər daxil idi. Amu-Dəryadan Aralıq dənizinə, Dərbənddən İran körəfəzinədək bütün ölkələr Hülakülər dövlətinin hakimiyyəti altına keçmişdi. Bu dövlətin başçıları Elxan adlandıqları üçün ona bəzən Elxanilər də deyirlər. Yalnız Şirvanşahlar dövləti öz müstəqilliyini qoruyub saxlaya bilsə də, Şirvanşahlar Fəriburz vassal asılılığını qəbul etməyə məcbur olmuşdu.

Elxanilər dövlətinin yaranmasından Qızıl Orda Azərbaycan və Gürcüstandan keçən ticarət yollarından, habelə otlaqlardan sərbəst şəkildə istifadə edirdi. Lakin Elxanilər dövləti yarandıqdan sonra Azərbaycan hülakülərlə qızıl Orda arasında döyüş meydanına çevrildi.

Qızıl Orda xanları Azərbaycana 1262, 1265, 1290, 1318 və 1335-ci illərdə altı dəfə basqın etdilər. Müharibələr Azərbaycan topağında getdiyindən, onun bütün ağırlığı xalqın üzərinə düşürdü. Qızıl Orda xanlarının basqınları həmişə məğlubiyyətlə qurtarsa da xalq kütlələrinin sosial-iqtisadi həyat şəraitinin daha da pisləşməsi ilə müşayət olunurdu.

Elxanilər dövləti çox keçmədən feodal zədəganları arasında gedən şiddətli mübarizə meydanına çevrilir. Hülakü xanın ölümündən sonra köçəri feodalar, maliyyə məmurları arasında başlanan daxili çəkişmələr getdikcə güclənir. Əgər hülakülər dövlətinin meydana çıxdığı ilk vaxtlarda köçəri feodallar arasında bir sıra məsələlrdə mənafe ümumiliyi mövcud idisə, Abağa xanın (1265-1282), Əhməd xanın (1282-1284), Argün xanın (1284-1291) və Keyxatu xanın 91291-1295) hakimiyyətinin sonlarında şahzadələrin və əmirlərin bir hissəsi onlara tapşırılan ərazidə öz mövqelərini və təsirlərini möhkəmlədə bildikdən sonra əvvəlki birlikdən əsər əlamət qalmamışdı. Artıq əmirlər bir-biri ilə düşmənçilik edən ayrı-ayrı qruplarda birləşir və hakimiyyət uğrunda mübarizə aparırdılar. Həmin mübarizənin başlıca səbəbləri içərisində əyanların əlində böyük torpaq sahələrinin toplanması, həmin torpaqlardan gələn gəlirlər və həmçinin əhalinin amansız istismarı nəticəsində əldə olunan mədaxil hesabına iri feodalların iqtisadi və siyasi qüdrətinin artması da olmuşdur.

İran tarixiçisi Həmdullah Qəzvinin verdiyi məlumata görə XIV əsrdə Azərbaycanın cənub hissəsində Hülakülərin aldığı verginin miqdarı 210 tümənə (bir tümən 10 min dinara bərabərdir), Azərbaycanın şimal vilayətlərində isə 54 tümənə çatırdı.

Mənbələr XIII əsrin sonlarında 40-dək vergi və rüsumun olduğunu xəbər verir.[1] Xüsusilə ağır olan torpaq vergisi-xərac kəndlinin əldə etdiyi məhsulun 70 faizə qədərini təşkil edirdi. Vergini verə bilməyən sənətkar və kəndlilər yaşadıqları yeri tərk edib gedirdilər. XIII əsrə dair salnamələrdən birində deyilirdi ki, sui-istifadə və talançılıq nəticəsində rəiyyətin əksəriyyəti öz vətənini tərk edir və yad ölkələrdə yaşamağa başlayırdı. Şəhər və kəndlər isə bomboş qalırdı. Qaqçınlar silahlı dəstələr təşkil edir və istilaçılara qarşı partizan müharibəsi aparırdılar.

Ölkənin təsərrüfat həyatının dərin tənəzzül dövrünə daxil olması, sinfi mübarizənin kəskinləşməsi əlaməti kimi kəndlilər arasında sinifləri təşvişə salırdı. Yaranmış şəraitdə dövlətdə iqtisadi və siyasi islahatların həyata keçirilməsi son dərəcə vacib məsələ kimi ortaya çıxmışdı ki, həmin islahatlar Argün xanın oğlu Qazan xan (1295-1304) tərəfindən həyata keçirildi.

Qazan xan XIV əsrin əvvəllərində -1303-cü ildə torpaq sahibkarlığın, kəndlilərin vəziyyəti, vergi sistemi, çəki, ölçü, pul vahidi sistemi, islam dini sahəsində islahatlar keçirdi. İslahata qədər yerli əyanların torpaqların daima, həm də geniş miqdarda zəbt edilərək köçəri feodallar arasında bölüşdürüldü. İslahatdan sonra torpaq siyasəti divan torpaqlarından əkin sahələrini iri iqta hüququ əsasında paylanması ilə səciyyələnirdi. Qazan xan nəinki sərkərdələrə, həm də bütün qoşun hissələrinə iqta bağışlayırdı. İqta sahibləri dövlətə vergi vermədən azad idilər, xəzinəyə 50 Təbriz manı miqdarında bəxşiş verirdilər.

Qazan xan kəndlilərin kütləvi qaçqınlığına son qoymaq üçün onları torpağa təhkim etmək haqqında fərman verdi. Fərmana görə, keçən 30 il müddətində öz iqtidarlarını qoyub gedən kəndlilər axtarılıb tapılaraq öz əvvəlki yerinə qaytarılmalı idi. Qaçqın kəndliləri qəbul etməyə və gizlətməyə icazə verilmirdi.

İslahat vergi sistemində də qayda yaratdı, onun toplanılmasının icarəyə verilməsi məhdudlaşdırıldı. Verginin toplanması üçün vaxt məhdudiyyəti qoyulurdu.

Qazan xan monqol feodallarının ilk nümayəndəsi idi ki, islam dinini rəsmi şəkildə qəbul edərək onu dövlət dininiə çevirmişdi. İslam dini qəbul edilərkən hülakülər dövlətinin torpaqlarından bütün bütpərəst məbədləri uçurulub yerlə yeksan edilmişdi. Qazan xan bu addımı atmaqla islam ruhanilərini və yerli islam feodallarını öz tərəfində çəkməyə müvəffəq olmuşdu.

Mərkəzləşmiş dövlət aparatını gücləndirmək məqsədilə həyata keçirilmiş islahatlar imperiyanın məhvini aradan qaldıra bilmədisə də, onun süqutunu 20-30 il geçikdirdi.

İslahatlar ölkənin iqtisadi həyatında dirçəliş yaratdı, daxili və xarici ticarətin inkişaf sürətləndi. Hülakülərin paytaxtı istisna olmaqla qalan şəhərlərin dirçəlişi çox ləng gedirdi. Avropa və Asiyanın bir sıra ölkələrindən: şimaldan Dərbənddən keçərək, Uzaq Şərqdən, Orta Asiyadan, Hindistan və İraqdan gəlib Təbrizə

[1] Азярбайъан тарихи, 1-ъи ъилд, сящ.198, 200

qovuşan tranzit karvan yolları Avropa ilə Asiyanı birləşdirirdi. Qərblə Şərq arasında ticarətdə vasitəçilik edən Venetsiya və Genuya tacirləri də tez-tez Azərbaycana gəlirdilər.

XIII əsrin son rübündə başlanan feodal ara müharibələri Qazan xanın dövründə bir qədər zəifləsə də, XIV əsrin əvvəllərində Sultan Məhəmməd Xudabanənin (1304-1316) hakimiyyəti illərində yenidən güclənmişdi, (Qazan xanın vəsiyyətinə görə ölümündən sonra, qardaşı Olcaytu Məhəmməd Xudabənə adı ilə hakimiyyətə gəlmişdi) onun ölümündən sonra isə xeyli kəskinləşmişdi. Buna xeyli dərəcədə Əbu Səidin (1316-1335) azyaşlı olması (hakimiyyətə gələndə onun 12 yaşı var idi) və dövlət işlərinin suldusilərdən olan Əmir Çobanın əlində toplanması da səbəb olmuşdu. Müxtəlif feodal qrupları yaranmış vəziyyətdən istifadə edərək öz mövqeyini və siyasi qüdrətini yüksəltməyə, iqtisadi cəhətdən qüvvətlənərək Hülakülər dövlətinin təsirindən mümkün qədər daha çox uzaqlaşmağa can atırdılar. Bütün bunlar Hülakülər dövlətinin süqutunu şərtləndirirdi. Akademik Ə.Ə.Əlizadə Əbu Səid hakimiyyətindən başlayaraq Hülakülər dövlətinin iqtisadi və siyasi tənəzzül dövrü keçirdiyini qeyd edərək yazırdı ki, köçəri aristokratiya arasında gedən müharibələr və daimi düşmənçilik Elxanilər dövlətinin əsasını daha da sarsıdır, onun siyasi birliyini qırır, ölkənin iqtisadiyyatına mənfi təsir göstərirdi. Müxtəlif vilayətlərin iqtisadi, etnik və mədəni cəhətdən əlaqəsizliyi, əmtəə istehsalının rolunun azalması və natural-təsərrüfat ənənəsinin üstün mövqe tutması, feodal pərakəndliyinin inkişafı və bununla əlaqədar olaraq Elxanilərin mərkəzi hakimiyyətinin zəiflətməsi - bütün bunlar birlikdə Hülakülər dövlətinin tənəzzülü hazırlayırdı.

Məhəmməd Xudabəndinin vəsiyyətinə görə, baş sərkərdə Əmir Çoban Əbu Səidin qəyyumu təyin edilmişdi. Əmir Çoban Əbu Səidə sədaqət andına axıradək sadiq qalmış, Elxanilər dövlətini daxili və xarici müdaxilədən məharətlə qorumuşdu. Əmir Çobanın və onun dörd oğlunun artmaqda olan nüfuzu yetkinlik yaşına çatmış Əbu Səidi olduqca narahat edirdi. 1328-ci ildə saray intriqası nəticəsində Əmir Çoban və oğlanları Əbu Səid tərəfindən öldürüldü, 1335-ci ildə isə Qızıl Orda qoşunlarının Azərbaycana hücumu zamanı Sultan Əbu Səid arvadı Bağdad xatun (Bağdad xatun Əmir Çobanın qızı idi, Əbu Səidi öldürməklə atasının və qardaşlarının intiqamını aldı) tərəfindən zəhərləndi. Əbu Səidin ölümündən sonra XIV əsrin 30-cu illərinin sonlarında Elxanilər dövləti iki hissəyə parçalandı: Azərbaycanda Təbriz şəhəri paytaxt olmaqla Çobanilər, Ərəb İraqında isə paytaxtı Bağdad olmaqla cəlairlər dövlətləri meydana gəldi. Çobanilər dövlətinə Əmir Çobanın nəvəsi Həsən Kiçik (Əmir Şeyx Həsən Çobani), Cəlairlər dövlətinə isə Baydu xanın nəslindən Musa padşah başçılıq edirdi, az sonra o Şeyx Sənan İlkani (Cəlairi) tərəfindən taxtdan salındı.

İbn Bəttutə, Hafiz Əbru və başqalarının yazdığına görə, Çobanilərin nüfuz dairəsinə Azərbaycan, İraqi-Əcəm, Həmədan, Qum, Kaşan, Rey, Vəramin, Furğan, Gürcüstan vilayətləri və Ermənistanın böyük bir qismi daxil idi.

Hülakülər dövləti daxilində şiddətlələn feodal ara müharibələrində fəal iştirak edən Şeyx Həsən Çobani öz rəqiblərinə qalib gəldikdən sonra 1338-ci ildə Elxanilərin baş əmiri oldu. Lakin onun əmirliyi uzun sürmədi, belə ki, 1343-cü il dekabrın 16-da öz arvadı İzzət Mələk tərəfindən öldürüldü. Onun ölümündən sonra hakimiyyəti qardaşı Məlik Əşrəf Çobanini (1344-1357) əlinə keçdi. Məlik Əşrəf rəqibləri Suğran və Yağı Basdı Manini aradan götürdükdən sonra Elxanilər dövlətinin idarəsini öz əlinə aldı.

Çobanilərin hakimiyyət dövründə (1338-1357) Elxanilərin dövlət quruluşunda heç bir dəyişiklik baş vermədi. Əvvəllər olduğu kimi, Hülakülər nəslindən olan padşahlar bişçılıq edirdi. Şeyx Həsən və qardaşı Məlik Əşrəf növbə ilə Satibəy xatunu, Süleyman xanı, Ənuşirəvan –Adili Elxani taxtına oturtmuş, onların adına pul zərb etdirmişdilər.

Çobani feodallarının özbaşınalığının həddi-hüdudu yox idi. Həmdullah Qəzvini yazırdı ki, Məlik Əşrəf son dərəcə xəsis, qaniçən, hiyləgər və zalım şəxs idi. O, 13 illik hakimiyyəti dövründə keçirdiyi saysız-hesabsız müsadirələr, toplanan vergilər hesabına Azərbaycanda 17 xəzinə yaratmışdı. Təbrizdən qaçdığı zaman həmin xəzinənin bir hissəsini aparmaq üçün ona min dəvə və dörd yüz qatır lazım olmuşdu.

Teymurləngin Cənubi Qafqaza hücumu ərəfəsində Şirvanşahlar dövləti də ağır vəziyyətdə idi. Belə ki, Şirvanşahlar dövlətinin ərazilərini zəbt etmək istəyən Məlik Əşrəf 1345-1350-ci ilərdə dəfələrlə fitnəkarlığa əl atmışdı. Lakin Şirvanşahlar Arran və Qarabağ feodallarının, habelə Qızıl Orda qüvvələrinin yardımı ilə Çobanilərin hücümlarını dəf edə bilirdilər. Lakin 1348-ci ilin sonlarında Mlik Əşrəfin Qarabağdan Şirvana etdiyi yürüş gözlənilməz olduğu üçün Şirvanşah Kavus və atası Keyqubad müdafiəni təşkil edə bilmədikləri üçün Gülüstan qalasına çəkilməli olurlar. Çobani qoşunu ölkəni qarət edib dağıtsa da burada möhkəmlənə bilməyib geri çəkilməli olur.

Yaranmış şəraitdə Məlik Əşrəfin zülmündən cana doymuş sənətkarlar, kiçik feodal və ruhanilər Şirvanşahlar dövlətinə gəlirdilər. Belə qaçqınlardan biri də Qazi Mahiyyəddin Bərdən idi. O, Şirvanşah Kavusla razılığa gəldikdən sonra Qızıl Orda dövlətinə gedərək Cani bəylə görüşərək Azərbaycandakı vəziyyəti ona bildirir. 1357-ci ildə Cani bəy 100 minlik hərbi qüvvə ilə Təbrizə yaxınlaşır və Məlik Əşrəfin 17-18 minlik hərbi qüvvəsini pərən-pərən salır. Məlik Əşrəf xəzinəsini və ailə üzvlərini Mərəndə göndərərək Təbrizin müdafiəsini təşkil etmək istəyirsə də, müvəffəq olmur. Qoşun hissələri, bütün yaxın adamları, hətta anası da onu tərk edir.

Məlik Əşrəf Təbrizdən Xoy şəhərinə gedərkən Şeyx Məhəmməd Balıqçının evində gecələyir. Şeyx

Məlik Əşrəfi tanıyır və onu Canı bəyə təslim edir. Məlik Əşrəf Şirvanşah Kavusun təkidi ilə Təbrizdə edam edilir və bununla da Elxanilər dövlətinin varlığına son qoyulur. Canı bəy Təbrizi tərk etdikdən az sonra Azərbaycan Cəlairlərin istilasına məruz qaldı. Qeyd edildiyi kimi, Cəlairilər dövlətinin əsasını Şeyx Həsən İlkani (Cəlairi) qoymuşdu. Cəlairilər dövləti 1340-1411-ci illər arasında mövcud olmuşdur.

Şeyx Həsən Cəlairinin ölümündən sonra Şeyx Üveys (1341-1374) Cəlairi səltənətinə sahib oldu. Canı bəy Təbrizi tərk etdikdən sonra Azərbaycanda daxili və xarici vəziyyətli gərginliyindən istifadə edən Şeyx Üveys 1359-cu ildə Təbrizi ələ keçirərək Cəlairilərin hakimiyyətini Azərbaycana da yaydı. Cəlairilərin hakimiyyəti illərində feodal ara müharibələrinə son qoyuldu, mərkəzi hakimiyyəti gücləndi, ölkənin təsərrüfat hayatında canlanma yarandı.

Şeyx Üveysin oğlu Sultan Hüseynin hakimiyyəti illərində (1374-1382) Mərkəzi dövlət hakimiyyəti yenidən zəiflədi ki, Teymurləngin yürüşləri ərəfəsində bu olduqca ağır nəticələr verə bilərdi. Lakin onun qardaşı Sultan Əhmədin Təbriz şəhərini əlinə keçirərək hakimiyyətə yiyələnməsi (o, fasilələrlə 1382-1410-cu illər arasında hakimiyyətdə olmuşdu) hərc-mərcliyi aradan qaldırdı. Azərbaycanın bütün vilayətləri yenidən (Şirvan istisna olmaqla) Cəlairilər dövlətinin tərkibinə qatıldı.

Tədqiqatçılar Sultan Əhmədin hakimiyyəti illərinin XIV əsrin ən çətin dövrlərindən, ölkənin daxili və xarici həyatında çoxlu mühüm və nəhəng hadisələrlə dolu olan dövrlərdən biri kimi səciyyələndirirdilər. Azərbacyanın strateji mövqeyi, ölkənin təbii coğrafi şəraiti, yeraltı və yerüstü zənginlikləri, feodal ara müharibələri nəticəsində zəifliyi Qızıl Orda xanlarının Azərbacyana yürüşə həvəsləndirirdi. 1386-cı ilin əvvəllərində Qızıl Orda xanı Toxtamış (1367-1395) 90 minlik ordu ilə Dərbənd keçidindən Azərbaycana yürüş etdi. Şirvanşah I İbrahim monqollarla döyüşdə məğlub olaraq geri çəkildi. Qızıl Orda qoşunları Təbrizi mühasirəyə aldılar. H.Qəzvinin yazırdı ki, təbrizlilər öz küçə və məhəllələrinin yolunu ağaclarla kəsdilər və mövqelərini möhkəmlətdilər. Toxtamışın qoşunları 8 gün şəhərin ətrafında dövrə vurdular, lakin şəhərə daxil olmağa imkan tapa bilmədilər. Belə olduqda o hiyləyə əl atdı. 250 tümən qızıl pul aldıqdan sonra mühasirədən əl çəkəcəyinə söz verdi. Lakin vədini xaincəsinə pozaraq şəhərə soxuldu və Təbriz on gün qəraət edildi. Naxçıvan, Marağa və Mərənd şəhərləri də monqol-tatarlar tərəfindən talandı. Müasirlərinin dediyinə görə istilaçılar Azərbaycandan 200 minədək adamı qul edib aparmışdılar. Beləliklə, Teymurləngin işğalları ərəfəsində feodal ara müharibələri nəticəsində iqtidardan salınmış Azərbaycan torpaqları demək olar ki, müdafiəsiz qalmışdı.

Hülakülər imperiyası parçalandıqdan sonra meydana gələn dövlətlərdən yalnız Şivanşahlar öz müstəqilliyini qoruyub saxlamağa müvəffəq olmuşdu. Şirvanşahlar dövləti Kür çayı sahillərindən Dərbəndə qədər olan əraziləri əhatə edirdi. Buraya Salyan, Şəki, Bakı, Quba, Dərbənd, Təbəristan, Kürə, Samur nahiyyəsi və İşsunun aşağı hissəsi daxil idi. Şirvanşahlar Hülakülər dövlətinin tənəzzülə başladığı dövrdən iqtisadi cəhətdən güclənələrk siyasi müstəqillik uğrunda mübarizə aparırdılar. Həmin mubarizə nəticəsində Şirvanşahlar 1338-ci ildə müstəqillik qazandılar, lakin 1348-ci ildə Məlik Əşrəfin Şirvana hücumu nəticəsində ehtimali ki, Şirvanşahlar Elxanilərdən formal asılılığı qəbul etdilər.

1358-1368-ci illər arasında Şirvanşahlar yenidən müstəqilləşdilər. 1369-cu ildə Sultan Üveys Cəlairinin Bayram bəyin başçılığı altında göndərdiyi Cəlairi qoşunları Şirvanşah Kavusu əsir toplayaraq Bağdada göndərir. O üç ay Bağdadda qaldıqdan və Sultan Üveysin hakimiyyətini qəbul etdikdən sonra yenidən Şirvana qayıtdılar. 1373-cü ildə Kavusun ölümündən sonra onun Sultan Üveysin yanında girov olan oğlu Huşən Şirvanşahlar taxtına çıxarılır (1373-1382).

Şirvanşahlar –Kəsranilər sülaləsinin (1027-1382) son nümayəndəsi olan Huşəngin hakimiyyəti illərində ölkədə vəziyyət daha da pisləşdi. Sinfi ziddiyətlərin kəskinləşməsi, feodal ara müharibələri, iqtisadi pozğunluq, bir tərəfdən də Huşəngin qəddarlığı 1382-ci ildə Şirvanda güclü xalq hərəkatına səbəb oldu və Huşəngin öldrülməsi ilə başa çatdı.

Şirvan feodalları Huşəngin əmisi oğlu Məzdədilər sülaləsindən olan yoxsullaşmış əyan İbrahim Dərbəndini hakimiyyət başına gətirdilər (1382-1417). I İbrahimlə Şirvan taxtında Dərbəndilər sülaləsinin (1382-1538) hakimiyyəti başlayır.

I İbrahim uzaqgörən dövlət xadimi və bacarıqlı diplomat idi. Onun hakimiyyəti illərində Şirvanşahlar dövlətində feodal ara müharibələrinə son qoyuldu. Şirvanın daxili müstəqilliyi saxlandı. I İbrahim sənətkarlığı, ticarəti və elmi himayə edirdi. Beləliklə, Teymuri işğalları ərəfəsində qədim Azərbaycan torpaqlarından yalnız Şirvanşahlar dövlətində iqtisadi və siyasi sabitlik təmin edilmiş oldu. I İbrahimin uzaqgörən siyasəti nəticəsində Şirvan torpağı Teymurləngin dağıdıcı yürüşlərindən xilas oldu.

Teymuri qoşunlarının hüquqi ərəfəsində Gürcüstan və Ermənistanda da sosial-siyasi vəziyyət mürəkkəb olaraq qalırdı.

Bütün XIII əsr boyu gürcü çarı IV Qurucu Davidin xələfləri monqol istilasına, feodal ara müharibələrinə qarşı barışmaz mübarizə aparmışdı. Çariça Tamaranın (1184-1213) və onun varislərindən olan çariça Rüsudanın (1222-1245) hakimiyyəti illərində Gürcüstan əvvəlcə çiçəklənmiş, sonra isə monqolların istilası nəticəsində xarabazara çevrilmişdi.

1221-ci ilin əvvəllərində monqollar Təbrizdən xərac aldıqdan sonra Muğana doğru hərəkət edərkən

gürcü qoşunu ilə rastaşdılar və on mindən yuxarı gürcü əsgərini qıraraq qalanların pərən-pərən saldılar. Monqollar Muğanda orakən gürcü çarı IV Georgi Laşan Atabəy Özbəklə birlikdə monqolların üzərinə qəfləğən hücum etmək üçün gizli ittifaq bağladı. Lakin bundan xəbərdar olan Atabəy Özbəyin Arandakı hakimi Nəsrəddin Aquş monqolların tərəfindən keçərək həmin sirri onlara bildirdi. Vaxtında xəbərdar edlmiş Cebə Bahadır sürətlə Gürcüstana irəliləyərək feodal knyazlarına amansız divan tutdular. Ölkə başdan-başa qarət edildi, Tiflis şəhərinə isə amasız divan tutuldu.

1245-ci ildə Qərbi Gürcüstana qaçmış çariça Rüsudan monqolların hakimiyytini qəbul etməyə məcbur oldu. Gürcü çarları monqol xanı tərəfindən təyin olunmalı, 1246-cü ildən etibarən kişi əhalinin 20% -i monqol yürüşlərində iştirak etməli idi.

Qeyd edildiyi kimi Gürcüstan Hülakülər imperiyasının tərkibinə daxil edildikdən sonra 1257-ci ildə burada əhalinin siyahıya alınması keçirildi. Məqsəd vergi sisteminin qaydaya salmaq idi. Gürcüstanın ərazisi 8 tümənə bölündü, tümənlərin idarə işləri bütünlükdə monqol nümayənədələrinə həvalə edildi.

XVIII əsrin 60-cı illərindən etibarən gürcü xalqlının monqol- işğallarına qarşı mübarizəsi yeni vüsət aldı. 1259-cu ildə Davud Narinin başçılığı altında (o, çariça Rüsudanın oğlu idi) güclü üsyan baş verdi. Hülakü xanın əmri ilə Argün xan böyük qoşunla yenidən Gürcüstanı xarabazara çevirdi. Davud Narinin Qərbi Gürcüstanda gizlənməkdən başqa çarəsi qalmadı.

1260-cı ildə Hülakü xanın fərmanı ilə Gürcü çarı V Davud Ulu öz ordusunun başında Misirə hücum etməli idi. V Davud bundan boyun qaçırdıqda Argün xan yenidən Gürcüstana yürüş təşkil etdi, Qori yaxınlığında gürcü qoşunları ağır məğlubiyyətə uğradılar və Argün xan Cənubi Gürcüstanı işğal edərək viran qoydu.

Gürcü çarı II Demetre (1270-1289) 1288-ci ildə Argün xanı ortadan götürmək üçün qəsd hazırladı. Lakin qəsdin üstü açıldı və II Demetre Ordaya çağırıldı. Tərəfdarları onu Ordaya getməkdən daşındırmağa çalışsalar da müvəffəq olmadılar, çünki II Demetre yaxşı bilirdi ki, əgər Ordaya getməsə Gürcüstan monqollar tərəfindən təkrar yandırılacaqdır. 1289-cu ildə Ordaya gedən II Demetre orada öldürüldü. Özünü bilərəkdən qurban verdiyi üçün adı tarixdə «Tavdadebuli» kimi qaldı.

1297-ci ildə Demitrenin oğlu II Davud monqollara qarşı üsyan qaldıraraq dağlara çəkildi. Üsyan bir neçə il davam etdi və monqol istilaçılarına ağır zərbələr vurulsa da, Gürcüstan özü də var-yoxdan çıxdı. Müasirləri yazırdı ki, Kartli başdan başa xarabazara çevrilmişdi.

XIV əsrin əvvəllərində Gürcüstanda monqol ağalığı xeyli zəiflədi. Monqollar yalnız sərhəddə 10 min nəfərlik hərbi qüvvə saxlayırdılar. V Əzəmətli Georginin hakimiyyəti illəri (1314-1346) Gürcüstan üçün olduqca uğurlu olmuşdu. Monqol vəziri ilə dostluq edən V Georgi ölkəyə monqol yürüşlərinə son qoymuş XVI əsrin 20-ci illərindən etibarən Gürcüstanın birləşdirilməsinə başlanmışdı. 1327-ci ildə İmeretiya, 1334-cü ildə Samexin, sonralar Kaxeti Tao-Klarceti və s. torpaqlar onun hakimiyyəti altında birləşdirilmişdi.

XIV əsrin ortalarında Elxanilər dövlətinin süqutundan sonra Gürcüstan istila boyunduruğundan xilas olaraq tam müstəqilləşdi. Lakin V Georginin ölümündən sonra mərkəzi hakimiyyətin zəifləməsi feodal pərakəndliyini yenidən gücləndi.

Azərbaycan və Gürcüstandan fərqli olaraq XIII-XIV əsrlərdə Ermənistanda feodal pərakəndliyi hökm sürürdü. Baqratilər sülaləsinin süqutundan sonra yaranmış yarımmüstəqil Vaspurakin, Taşir-Dzorakert, Taron və s. knyazlıqlar ölkəni birləşdirmək iqtidarında deyildi. XII əsrin sonu XIII əsrin əvvəllərində erməni knyazlıqlarının bir qismi gürcü çarlığına birləşdirilmişdi.

XII əsrin 30-40-cı illərindən etibarən Ermənistan monqol ulusları arasında mübarizə meydanına çevrilmişdi. 1236-cı ildə Ermənistanın şərq torpaqları, 1242-1243-cü illərdə isə cənubi və qərb hissələri monqollar tərəfindən işğal olundu.[1]

Ermənistan Elxanilər dövlətinin tərkibinə qatıldıqdan sonra burada ayrı-ayrı knyazlıqların da müstəqilliyinə son qoyuldu. Teymurləngin istilaları ərəfəsində erməni əhalisini miqrasiyası geniş yayılmışdı, bu bir tərəfdən bütün orta əsrlər boyu ermənilərin ticarətlə bağlı oluqdarı və buna görə də beynəlxalq karvan yollarının kəsişdiyi yerlərdə məskunlaşması ilə bağlı idisə, (sonradan həmin yer «qədim erməni torpağıdır» demək üçün), digər tərəfdən isə kiçik erməni knyazlıqlarının vahid dövlətdə birləşə bilməsindən irəli gəlirdi.

Beləliklə, Teymurləngin işğalları ərəfəsində Cənubi Qafqazda davam edən feodal pərakəndliyi, ara müharibələri, habelə monqolların istilaları nəticəsində ölkənin var-yoxdan çıxarılması teymuri ordularının müzəffər yürüşü üçün əlverişli zəmin yaratmışdı.

### 9.2. Əmir Teymurun Azərbaycanda möhkəmlənmək uğrunda hərbi-siyasi mübarizəsi

XVI əsrin 70-ci illərin orta əsrlər şərqində tarix səhnəsinə son dərəcə cəngavər bir dövlət çıxdı. Onun əsasını mürəkkəbləşmiş barlas tayfasından olan Teymurləng (1336-1405) qoymuşdu.[2] Tarixdə Topal Teymur, Tamerlan, «dəmir axın» adları ilə xatırlanan Əmir Teymur 1370-1507-ci illər arasında mövcud olmuş

[1] История Армении, сящ.46-48
[2] Муминова И. Роль и место Амира Теймура в истории средней Азии.

Teymurilər dövlətinin əsası qoymuşdu.

Teymurləng siyais xadim və sərkərdə kimi XIV əsrin 60-cı illərinin əvvəllərindən yüksəlməyə başlamışdı. 1361-ci ildə monqol xanı Toğrul Teymur Mavraünəhrə hücum etdiyi zaman Teymur onun yanında qulluğa girdi və Qaqqadəya vilayətinin idarəsi ona tapşırıldı. Elə həmin ildə də Teymur Əmir Hüseynlə yaxınlaşdı və onların ittifaqı Teymura Toğrul Teymurun vassal asılılığından çıxmağa kömək etdi.

1362-ci ildə Seistanda baş verən döyüşdə sağ əlindən və sağ ayağından yaralanan Teymur sonradan ömrü boyu axsadığına görə Teymurləng adı aldı.

Lakin Hüseynlə Teymurun ittifaqı üzün sürmədi. Hakimiyyət uğrunda mübarizənin gedişində 1370-ci ildə Teymur Xuttalan hakimi Keyxosrovun əli ilə Hüseyni aradan götürdü və həmin ildə əmir titulu qəbul edərək Mavəraünəhri Çingiz xanın şəxsi adından təkbaşına idarə etməyə başladı.

Teymur Səmərqəndi özünə paytaxt seçmişdi. O öz hakimiyyətini möhkəmləndirməkdə köçəri əyanlara, oturaq feodallara, xüsusilə müsəlman din xadimlərinə arxalanırdı.

Teymurləngin 1370-1380-ci illərdə apardığı hərbi yürüşlər nəticəsində Semireçye və Sır-Dəryanın aşağı axarları istisna olmaqla bütün Orta Asiya onun hakimiyyətinə altına keçdi.

Teymurləngin İrana, Ön Asiya ölkələrinə və Cənubi Qafqazı işğala təhrik edən başlıca səbəb qeyd edilən ölkələrin beynəlxalq ticarət yollarının üstündə yerləşməsi ilə əlaqədar idi. Qara dəniz və Xəzərətrafı çöllərdə keçən ticarət yolu o qədər də gəlirdi olmadığı üçün Teymurləng həmin yola əhəmiyyət verməyərək onun üstündəki Urgənc, Saray-Birgə, Həştərxan, Azov və s. kimi şəhərləri darmadağın etmişdi.

Teymurləngin İran yürüşləri 1381-1392-ci illəri əhatə edir. 1381-1385-ci illərdə Damqandan Sultaniyyəyə qədər bütün Şimali İran Teymurun hakimiyyəti altına keçdi. Onun 1381-ci ildə Xorasanda, 1383-cü ildə Səbzəvarda, Sistan, Qəndəhar və Qurqanda törətdiyi vəhşiliklər yalnız monqol istilaları ilə müqayisə oluna bilər. Cənubi İranın fəthi 1393-cü ilədək başa çatdı. Mənbələr 1387-ci ildə Teymurləngin İsfahanda törətdiyi dəhşətlərdən xəbər verir. Denyilənlərə görə Teymurləng şəhər əhalsindən qisas almaq üçün 70 min adamın başını kəsdirmiş və bürc tikdirmişdi. Qoşun əhlindən hər biri ya müəyyən qədər baş kəsməli, ya da hər baş üçün 20 dinar pul verməli idi.

Mövcud tarixi ədəbiyyatlar Teymurləngin yürüşlərini üçillik (1386-1388), beşillik (1392-1396) və yeddiillik (1399-1405) yürüşlərə bölürlər. Hər bir yürüşdə Teymur bir neçə ölkənin ərazisini viran etdikdən sonra Səmərqəndə qayıdırdı. Teymurun yürüşləri içərisində Cənubi Qafqazın, xüsusilə Azərbaycanın istilası mühüm yer tuturdu. Teymurləng ilk dəfə 1385-ci ildə Azərbaycan sərhədlərində görünmüş, Sultaniyyə şəhəri yaxınlığındakı döyüşdə Cəlairilərin qoşunun darmadağın edərək şəhəri tutmuşdu. Lakin Orta Asiyada xalq iğtişaşları baş verdiyi üçün yürüşü dayandıraraq Orta Asiyaya qayıtmalı olmuş və üsyançılara amansız divan tutmuşdu.

Əvvəlki fəsildə 1385-ci ilin qışında Qızıl Orda xanı Toxtamışın Təbrizə hücümundan və onun törətdiyi vəhşiliklərdən bəhs etmişdir. Toxtamışın Təbrizdə və ümumiyyətlə, Azərbaycanda törətdiyi hadisələr nəticəsində ölkə xaraba vəziyyətə düşdü. Cəlairi əmirləri arasında birlik olmadığından Sultan Əhməd Bağdada çəkildi, əmirlərdən bir neçəsi Əlincə qalasına getdi, qalanları Təbrizə gəldi. Mənbələrdə Teymurun yürüşü ərəfəsindəki vəziyyət şərh edilərək göstərilir ki, bu dövrdə İranda ölkənin hər tərəfinə fərman verə biləcək bir şəxs yox idi, eyni fikirli iki adam tapmaq olmazdı, heç kəsin heç kəsə etimadı qalmamışdı. Məhz belə bir zamanda 1386-cı ilin (hicri 788-ci il) bahar fəslində Teymurləngin qoşunları təkrar İran ərazisinə soxuldu. Təbriz hakimi Əmir Vəli Azərbaycan, Fars və İraqın hərbi qüvvələrini birləşdirib Teymura qarşa çıxmaq istədisə də, cəhdi baş tutmadı.

Teymurləngin qoşun hissələri Sultaniyyəni tutduqdan sonra Təbrizə doğru irəliləyərək şəhərə daxil oldular. Cəlairi sultanı Əhmədin Bağdaddan Təbrizə göndərdiyi ilk qüvvələr məğlubiyyətə uğrasa da bir müddətdən sonra o yenidən Təbrizə gəldi və şəhəri tutdu. Lakin Teymurun Ucana qayıtdığını eşidən Əhməd geriyə qayıtdı və Naxçıvana gələrək Vəstan-Vade yolu ilə keçib Bağdada getdi. Teymur Ucandan Həştrud yolu ilə Təbrizə gəldi və Şənb-e Qazanda məskən saldı.

Teymurləngin Təbrizi tutması heç bir ictimai dayağı olmayan Sultan Əhməd Cəlairinin biabırçı şəkildə şəhərdən qaçması ilə nəticələndi. Təbriz şəhərinin bütün tanınmış sənətkarları Teymurun göstərişi ilə Səmərqəndə göndərildilər. Təbriz tutulduqdan sonra həmin ilin payızında teymuri qoşunları Naxçıvana soxuldular. Xalq kütlələri Şeyx Həsənin başçılığı altında düşmənə qarşı ciddi mübarizəyə qalxdılar, Teymurləng naxçıvanlıların müqavimətini çox çətinliklə qıra bildi. Naxçıvanın Gərki və Sürməli adlı istehkamları dağıdıldıqdan sonra şəhər teymuri qoşunları tərəfindən istila edildi.

Naxçıvan tutulduqdan sonra Teymurləngin qoşunları Əlincə çayı üzərindəki sıldırım qayanın üstündə yerləşən Əlincə qalasını mühasirəyə aldılar. Əlincə qalası 14 il (1387-1401) düşmənə qəhrəmancasına müqavimət göstərmiş, Teymurləng qoşunlarının 1387, 1393, 1397, 1400-cü illərdəki həmlələrini qətiyyətlə dəf etmişdi.

1403-1406-cü illərdə İspaniya kralı III Enrikonun Səmərqəndə-Teymur sarayına göndərdliyi elçilər heyətinə başçılıq edən Rudi Qonzales de Klavixo öz gündəliyində Əlincə qalasını aşağıdakı kimi təsvir etmişdi:

«Əlincəqala yüksək və sıldırım bir dağ üzərində yerləşərk divar və bürclərlə əhatə olunmuşdur.

Divarların daxilində, dağ yamaclarının aşağı hissəsində üzümlüklər, bağlar, tarlalar, otlaqlar, bulaqlar və hökuzlar vardır. Qəsr və ya qalaça dağın başında yerləşmişdir.[1]

Əlincə qalasının strateji əhəmiyyətini nəzərə alan Cəlairilər onu həmişə möhkəmləndirməyə çalışırdılar. Qala uzun illər mühasirə şəraitində özünü ərzaq və su ilə təchiz etmək imkanına malik idi. Cəlairilər dövlətinin xəzinəsi burada saxlandığı üçün Sultan Əhməd onun müdafiəsini oğlu Məlik Tahirə tapşırmışdı. Qala qarnizonuna Sultan Əhmədin son dərəcə inandığı görkəmli sərkərdə Əmir Altun başçılıq edirdi. Onun sərənamında 300 qorçu (döyüşçü) var idi.

Teymurləng öz əmirlərindən İlyas Xocanı Naxçıvan tutulduqdan sonra Əlincə qalası üzərinə göndərir, özü də 40 gün Təbrizdə qaldıqdan sonra qala üzərinə hərəkt edir. Qoşun 3 gün qalanı mühasirəyə saxladıqdan sonra Teymurun əmri ilə qalaya hücuma keçir, lakin heç bir əhəmiyyətli müvəffəqiyyət qazana bilmədiyi üçün mühasirənin daha da gücləndirlməsini tapşıraraq qalanı tərk edir, əvvəlcə Qarsa, oradan Tiflisə və Şəkiyə yürüş edir və böyük dağıntılar törədir.

Teymurləngin qoşun hissələri Şimali Qafqaz xalqlarının (mənbələr həmin xalqlar ləzgilər adlandırılır), Şəki ətrafındakı dağlarda yaşayan xalşqların üzərinə hücum edib onları qarət etdikdən sonra Təngüt (Kəngüt) və Ağcəbə (Ağcabrun) soxuldular.

Cənubi Qafqazın şimali-qərbinə talançı yürüşlərdən sonra Teymurləngin orduları Qəbələdə Teymurla birləşərək Sorx (Suxrab) qalasının tutduqdan sonra Qarabağa gəldilər.

Üç cildlik «Azərbaycan tarixi»nin I cildində (səh.218), S.Mməmədovun «Azərbaycan XV-XVIII əsrin birinci yarısında» əsərində (səh.8), ensiklopedik nəşrlərdə və s. Teymurun Qəbələdə olması nəticəsində şəhərə ağır zəpbə dəyidiyi və bundan sonra onun bir daha dirçələ bilmədiyi fikri verilir. Lakin mənbələr bu fikri təsdiq etmirlər. Əksinə, bədii əsərlərdə, xüsusilə, Bərd Şirvanşahının Qəbələyə həsr etdiyi şeirdə şəhərin XV əsrin I yarısında mövcud olduğunu göstərilir. Odur ki, Qəbələ şəhərinin Teymurləngin yürüşlərindən sonra dağıdıldığını və sonralar da mövcud olduğu ehtimalı qəbul edilməlidir.

Teymurləngin işğalçı yürüşlərinin başlanması ilə əlaqədar Şirvanşahlar dövləti ikitərəfli təhlükə altında qalmışdı. Şirvanşah I İbrahim yaranmış şəraitdə Teymurla danışıqlara girmək qərarına gəldi. Mənbələr göstərir ki, Şirvanşahın baş vəziri Əbu Yezid buna qarşı çıxaraq I İbrahimə bir müddət dağlara çəkilməyi məsləhət görürsə də, o bunu qəbul etmir və Kür çayı sahillərində Teymurun Bərdə yaxınlığındakı qərargahında onün görüşünə gedir.

Mənbələrin verdiyi məlumatlara görə I İbrahim Teymurun adına xütbə oxutdurur və pul kəsdirdikdən sonra qiymətli hədiyyələrlə Bərdəyə gəlir. Müasirləri yazırdı ki, Şirvanşah monqol ənənəsinə görə «tokkuz» («doqquz» deməkdir – «tokkuz»da qiymətli hədiyyələrin hərəsindən doqquz ədəd olur) gətirmişdi, başqa hədiyyələrin hər birinin sayı 9 olduğu halda, qulların sayı 8 idi. Hədiyyələr təqdim edilərkən bu cəhət Teymurun nəzərindən yayınmamış, I İbrahim isə cavabında «9-cu qul özüməm» demişdi. Bu Teymurun o qədər xoşuna gəlmişdi ki, mənbələrin yazdığına görə, Şirvandan Elbrusa qədər bütün şimal torpaqlarının idarəsini I İbrahimə həvalə etmişdi.

Teymurun I İbrahimə belə münasibəti bir tərəfdən onun diplomatik bacarığı ilə bağlı idisə, digər tərəfdən də Şirvanşahlar dövlətinin strareji mövqeyini Teymurun düzgün qiymətləndirməsindən irəli gəlirdi. Belə ki, Teymur I İbrahimin şəxsində Şimaldan Qızıl Ordanın hücumlarına qarşı dayana biləcək etibarlı müttəfiqi görürdü, öz növbəsində I İbrahim də Qızıl Ordanın dağıdıcı yürüşlərinə son qoymaq üçün Teymurun köməyinə bel bağlayırdı. Məlumdur ki, Teymurləng vassallarından heç birinin qüvvətlənməsinə imkan vermirdi, lakin Şirvanşahların həm hərbi qüdrətinin, həm də istehkam tikililərinin qorunmasında Teymur maraqlı idi. Təsadüfi deyildir ki, Teymurləngin şəxsi sərəncamı ilə Dərbənd qalasının müdafiə tikililəri möhkəmləndirilmişdi.

1367-ci ilin əvvəllərində Toxtamışın orduları yenidən Azərbaycana soxuldular və Kür çayı sahillərinə qədər irəlilədilər. Şivanşahın qoşunları Teymurun göndərdiyi hərbi qüvvələrin köməyi ilə Toxtamışın qoşunlarına qarşı döyüşə girdilər. Tezliklə, Teymurun oğlu Miranşahın hərbi qüvvələrinin özünü döyüş meydanın çatdırması nəticəsində Qızıl Orda qoşunları darmadağın edildilər, bundan sonra 8 il müddətində Qızıl Orda qoşunlarının Azərbaycana yürüşləri kəsildi. Teymurləng 1390-1391-ci illərdə Toxtamışın hərbi qüvvələrini Orta Asiyada darmadağın edərək biabırçı şəkildə qovsa da, Toxtamış Azərbaycana olan iddialarından əl çəkməmişdi.

1394-cü ildə Toxtamışın qoşunları yenidən Azərbaycana soxuldu. Qızıl Orda qüvvələri Dərbənddən keçərək Şirvanın ərazilərinə soxuldular. Teymur Şəkidən onun üzərinə hərbi qüvvələr göndərdi. Şirvan torpağı yenidən iki qəsbkar arasında müharibə meydanına çevrildi. Toxtamışın qoşunları tezliklə Azərbaycanı tərk etdilər. Teymur Kür çayı boyunca hərəkət edərək Mahmudabada gəldi və Fəxrabad kəndi yaxınlığındakı «Qalın günbəz»də məskən salıb qışı orada keçirdikdən sonra 1395-ci il fevralın 28-də güclü qoşunla Mahmudabaddan Qızıl Ordaya hücum etdi. Bu yürüşdə Teymuru Şirvanşah I İbrahim müşayət edirdi.

Teymurun qüvvələri Dərbəndi keçib Dağıstana çoxuldular. Müasirləri yazırdı ki, Teymurləng Qaytaqda

[1] Мащмудов Й. Сяййащлар, кяшфляр, Азярбайъан. Б., 1985, сящ.80

böyük dağıngılar törətdikdən, ləzgilər ölkəsinə hesabagəlməz viranəliklər bəxş etdikdən sonra aprelin 15-də Terek çayı sahillərində Toxtamışın hərbi qüvvələrini darmadağın etdilər. Qızıl Ordanın pa taxtı Saray tutularaq qarət edildi və dağıdıldı. Həştərxan şəhərinin üzərinə ağır vergi qoyuldu. Teymur Urus xanın oğlunu Qızıl Ordaya xan təyin edərək 1396-cı ilin baharında geriyə qaıtdı.

Teymur Dərbəndin müdafiə istehkamlarını təmir etdirərək gücləndirdikdən sonra Dərbənddən Habran-Şamaxı yolu ilə Kür çayı sahillərinə gəldi. O burada Şeyx İbrahimi Şirvan vilayətinin hakimi təyin edərək Dərbəndin və sərhəd ərazisinin müdafiəsini ona tapşırdıqdan sonra Ağdama ylda düşdü.

1387-ci il yürüşü ərəfəsində görkəmli dövlət xadimi, sərkərdə və diplomat Qara Yusifin atası Qara Məhəmməd Qaraqoyunlu Azərbaycanda möhkəmlənməyə can atırdı. Bu Teymurləngl ə qaraqoyunluların toqquşmasına səbəb oldu. Teymuri orduları Ərzrum və Ərzincanda Qara Məhəmmədin qüvvələrini məğlubiyyətə uğradaraq onu geri çəkilməyə məcbur etdilər və Muş səhrasından keçərək Van və Bətana gəldilər. Erməni tarixçisi Foma Metsovski baş vermiş dəhşətləri aşağıdakı kimi təsvir edirdi: «Teymurləng Tosı (Van) şəhərinə gəldi və erməni qalası üzərinə hərəkət etdi. Senekerim tayfasından olan Əmir Yezdin onun hüzuruna gəlmədi, əksinə,… qalaya çəkildi və qapıları bağladı… Qala qırx gün ağır mühasirədə oldu, xeyli dinsiz cağatay qoşunu qırıldı. Lakin aclıqdan və susuzluqdan üzülmüş şəhərlilər daha mühasirədə qala bilmədilər və qala ona təslim edildi. Ey fələk, ey acı tale! Orada axirət divanına oxşar dəhşət və vahiməni görmək olardı. Bütün qala matəmə tutulmuşdu, hər yeri hönkürtü səsləri bürmüşdü, çünki amansız hökmdar bütün qadın və uşaqları əsir etməyi, yerdə qalan istər dindarları (xristinaları) və istərsə də dinsizləri (xristian olmayanları) qala divarlarından atmağı əmr etmişdi. Bu amansız əmr dərhal yerinə yetirilmişdi. Hamını qaladan atmağa başladılar…

Van və Vəstanda törəldilən qırğınlardan sonra Teymur ordusu Çəlmasa, oradan Urmiya gölünün qərbi ilə Urmiyyə, Uşniyyə və Marağaya gədmiş, buradan isə Səmərqəndə qayıtmışdı.

Teymurləng Cənubi Qafqazı tərk edərkən oğlu Miranşahı (həddindən artıq azğınlıq etdiyi üçün əhali onu Maranşah yəni «ilanlar şahı» adlandırırdı) zəbt olunmuş ərazilərin hakimi təyin etdi. O, Təbrizin iadərsini Əmir Məhəmməd Dəvatiyə və Qara Bəstama tapşırdı. Əki İranşah Sultaniyyənin, şah Əli Marağanın, Şibli Ərəvənəq nahiyyəsinin, Hacı Əhməd isə Pişkinin hakimi təyin olundular.

Teymurun Səmərqəndə qayıtması ilə Azərbaycanda xalq azadlıq hərəkatı və hakimiyyət uğrunda mübarizə şiddətləndi. Teymurləngin işğal etdiyi ərazilərdən əmirlərinə qarşı əsasən, Sultan Əhməd və onun Əlincə qalasındakı əmirləri, Mahmud Xalxalinin idarə etdiyi feodal qrupu, Təbrizin yerli əmirləri, Marağa hakimi Yadigar şah və Qara Yusifin başçılığı ilə qaraqoyunlular mübarizə aparırdı. Bu dövrdə Təbriz və ümumiyyətlə, Azərbaycan uğrunda mübarizədə iştirak edən qüvvələri iki hissəyə – xarici və yerli qüvvələrə bölmək olar. Xarici qüvvələrin (Təbriz əmirləri, Sultan Əhməd və Əmir Altun, Mahmud Xalxali, Marağa hakimi Yadigar şah) mübarizəsində Azərbaycanın müstəqilliyini təmin etmək cəhdləri mühüm yer tuturdu.

Göstərilən dövrdə Təbriz feodal ara müharibələrinin və xarici işğalçı yürüşlərin meydanına çevrilmişdi. Təbriz şəhərinin ələ keçirilməsi bütün Azərbaycanı tutmaq üçün əsas olduğundan şəhər uğrunda mübarizə olduqca ciddi şəkil almışdı. Təbriz 22 dəfə hücuma məruz şalmışdı, bunlardan 14-ü yerli, 8-i isə xarici feodallar tərəfindən edilmiş, 18 hücumun nəticəsində şəhərdə hakimiyyət bir feodaldan digərinin ixtiyarına keçmişdi. Nəhayət, Təbriz 1392-ci ildə ikinci dəfə İrana və Cənubi Qafqaza hücum edən Teymurləngin qoşunları tərəfindən tutulmuşdu.

1392-ci il yürüşünün başlıca hədəflərindən biri də Qafqaz idi. Teymurun əmirlərinin bir hissəsi ayrılaraq tərkar Təbrizə daxil olduqdan sonra özü Şiraz- İsfahan və Həmədan istiqamətində hərəkət edərək Bağdad şəhərini ələ keçirdikdən sonra Bizans istiqamətində Qars və Tiflis şəhrlərinədək irəliləiyr. Teymur hələ Bizans şəhərində ikən Əlincə qalasının mühasirəsini gücləndirmək üçün Əmir Məhəmməd Dərviş Bərlasın başçılığı ilə yeni qüvvələr göndərdi, özü isə Azərbaycan və Gürcüstandan əsgəri qüvvələr toplayaraq Aladağa səfər etdi.

Əlincə qalasının müdafiəsinin uzanması Teymuru əlavə tədbirlər görməyə məcbur etdi, onun göstərişi ilə Sultaniyyədən xacə Ağbuğa da Dərviş Bərlasın köməyinə göndərildi. Dörd görkəmli teymuri əmirlərini başçılığı ilə 40 min nəfərlik ordu 1393-cü ildə qalaya hücum etdi. Orta əsr müəllifləri yazırlar ki, bu zaman təsadüfən qala müdafiəçilərindən bir dəstə Əmir Altunun başçılığı altında qaladan çıxmışdı, lakin geri dönərkən qala qapılarının düşmən qoşunların tərəfindən mühasirəyə alındığını gördülər. Düşmən qoşununun soxluğuna baxmayaraq Əmir Altun düzgün döyüş mövqeyi seçərək teymuri qoşunlarına böyük tələfat verdikdən sonra əmirdən ikisini öldürərək qalaya daxil olur.

Orta əsr tarixçiərindən İbn Ərəbşahın yazdığına görə, qalanın gizli yollarına yaxşı bələd olan Əmir Altunun və qala müdafiəçilərinin cəsarəti və şücaəti Teymurləngi vahiməyə salmış və ona qalanı zəbt etməyə qadir olmadığı fikrini aşılamışdır. Teymurləng qalanın mühasirəsini müəyyən dəstələrə tapşıraraq yürüşü davam etdirmiş və Unik qalasını ələ keçirdikdən sonra Gürcüstana soxulmuşdu. Gürcüstanda törədilən dağıntılardan sonra Teymur Şəki vilayətinə gəldi. Şəki hakimi Sidi (Seydi) Əli Teymura tabe olmaqdan imtina edərək dağlara çəkildi, bu isə teymuri qoşunları tərəfindən Şəki ərazisinin qarət edilməsi ilə nəticələndi.

İkinci dəfə Cənubi Qafqaza yürüş etməsinə baxmyaraq hələ də bir çox qalaları və vilayətləri ələ keçirmək Teymura nəsib olmamışdı. Belə ki, 1392-ci il yürüşü nəticəsində Ermənistan və Gürcüstan başdan

başa istila edildi, yalnız ayrı-ayrı qalalar teymuri qoşunlarının hücumlarından özlərini qoruya bildilər. F.Metsopski yazır: «Teymurləng ölkəmizin yuxarı hissəsinə gəldi və Avnik adlanan Basen (Qərbi Ermənistan) qalasını mühasirəyə aldı. Qalanı alıb onun işxanı Misri zəncirlətdi və qala divarlarından atdıbırb öldürtdürdü. Sonra Ararat vilayətinə gəlib buranı da başdan-başa dağıtdı, bütün əmlakı qarət etdi və baqratilərin şəhərini (orta əsrlərdə Ermənistanın iri ticarət mərkəzi idi) mühasirəyə aldı. Şəhəri aldı…

Teymurləngin qoşunları Suroru ölkəsində (indiki İqdir şəhəri) Tçakata, Koqba, Barnakuta və Arçeş vilayətinə getdilər. Bu üç vilayətin əhalisi qaçdı. Onlar hər şeyi qarət etdilər. Korb şəhəri həmin gün qarət edildi…».

Erməni mənbələri Teymurləngin 1386, 1387, 1394 və 1400 illərdəki yürüşləri zamanı Ermənistanın başdan-başa xarabazara çevrildiyini, bütün erməni qalalarının tutularaq dağıdıldığını, əhalinin işgəncə ilə öldürüldüyünü və qul edilərək aparıldığını təsvir edirdilər. Hadislərin müasirlərindən Qriqor Xlatşi Teymurləngin yürüşləri nəticəsində Eriani (erməni daşnaq tarixşünaslığı bu şəhəri İrəvanla eyniləşdirir) şəhərinin dağıdıldığını 500 nəfərdən yuxarı erməni öldürüldüyünü qeyd edirdi.

Teymurun Cənubi Qafqaz yürüşləri Gürcüstanda da dərin izlər buraxdı, bu yürüşlərin hamısında teymuri qoşunları Tiflisi və ətraf yerləri qarət etdikdən sonra Gürcüstanın bütün qərb və şimal vilayətlərinə soxularaq böyük dağıntılar törətdilər. Hərbi yürüşlər zamanı yerlə əhalinin müsəlmanlaşdırılması da həyata keçirilirdi. F.Metsopski Teymurun Gürcüstana yürüşlərindən bəhs edərək yazırdı: «Teymurləng İldırımın üstünə hücum etməzdən əvvəl İberiya ölkəsinə gəlib onu dağıtmaq və əsarətə almaq istəyirdi. Lakin İberiya çarı Georgi onun bu cinayətkarlıq fikirlərindən xəbər tuturaq iki qardaşı Konstantin və Davidlə birlikdə dərhal qoşun topladı, bütün iberləri və erməniləri qalalara yığıb buranı qorumağı onlara tapşırdılar, özləri isə ölkənin dərə və cığırlarını ttudular… Teymurləng onların üstünə böyük bir qoşun göndərdi və bu qoşun onlara yuxarı tərəfdən yaxınlaşaraq xristianların böyük dəstəsini tamamilə əhatə etdi. Sərkərdələri qırıb qoşunları əsir apardılar. Onlar 60.000 nəfərdən çox idilər.

Çar Georgi güclə özünü xilas edərək yüz nəfər qoşunla düşmən qoşununu mərkəzinə soxuldu: onlar … düşməndən bir çoxunu qırdılar və sonra əlçatmaz yerlərə çəkildidər. Teymurləngin qoşunları isə bütün İberiya ölkəsini yandırdılar, əhalisini qılıncdan keçirdilər və kilsələri dağıtdılar. Ayaq yalın, çılpaq, ac və susuz əsirləri bizim ölkəyə gətirdilər. Hər cığatayın 20 əsiri var idi, onların çoxu yolda yıxılıb ölürdü…»

Azərbaycana ikinci yürüşü zamanı Teymurləng Ağdamda məskən salmışdı. İtaətə alışmayan ərazilərin istilasını başa çatdırmaq üçün 1396-cı ildə Teymurun əmri ilə Miranşahın Xorasandakı qoşunları Azərbaycana yeridildi. Teymuri qoşunlarının sağ cinahı Qarabağ-Naxçıvan istiqamətindən Unik qalasına kimi, sol cinahı isə Həmədana qədər uzanırdı. Teymurun Ağdamdan Ərdəbil-Sultaniyyə-Həmədan yolu ilə Səmərqəndə qayıtması nəticəsində onun növbəti yürüşü də başa çatmış olur.

Miranşahın Azərbaycanda törətdiyi dağıntılar ölkənin təsərrüfat və mədəni həyatına mənfi təsir göstərirdi. O, müxtəlif bəhanələrlə xalq kütlələrini və yerli feodalların əmlakını qarət edirdi. Bunun nəticəsində bütün Cənubi Qafqazda, o cümlədən Azərbayanda da yadelli işğalçılara qarşı mübarizə gücləndi. Bir tərəfdən Şəki hakimi Sidi Əhməd Miranşaha itaət göstərməkdən boyun qaçırdısa, digər tərəfdən Təbrizdə ona qarşı güclü üsyan baş verdi. Miranşaha qraşı mübarizənin gedişində Azərbaycan və gürcü xalqları arasında dostluq əlaqələri yarandı. Bu özünü Əlincə qalasının müdafiəsi zamanı xüsusilə aydın göstərdi.

Azərbaycanın ayrı-ayrı feodal hakimləri və gürcü çarı VI Geori teymuri qoşunlarına zərbə vurmaq və onun irəliləməsinə imkan verməmək məqsədilə Əlincə qalasının müdafiəçilərinə yaxından yardım edirdilər. Şəki hakimi Sidi Əli Orlat 1497-1498-ci ilin qışında gürcü qüvvələri ilə ittifaqda Əlincə qala müdafiəçilərinin köməyinə gəldi. Qalanın qarşısında teymuri qoşunları ilə kəskin döyüşlər gedirdi. Vəziyyətin getdikcə ağırlaşdığını görən teymuri sərkərdəsi Sultan Səncər Teymurləngin oğlu Miranşaha müraciət edərək ondan kömək istədi. Miranşah Əlincəqalanın mühasirəsini möhkəmləndirmək məqəsədi ilə Xorasandan xüsusi qoşun gətirdərək oğlu Əbubəkr Mirzənin və 4 teymuri əmirinin sərkərdəliyi altında qala üzərinə göndərdi. Tarixçilərdən Şərəfəddin Əli Yezdi və Əbdülrəzaq Səmərqəndinin yazdıqların görə, Əlincəqalanın qarşısında günlərlə əlbəyaxa döyüşlər getmişdi. Sidi Əli həmin döyüşlərin gedişində qəhrəmancasına həlak olsa da, Əbubəkr Mirzə mühasirədən əl çəkib Təbrizə qayıtmalı oldu. Müttəfiq dəstələr qalanın mühasirədən qurtardıqdan sonra onun müdafiəsi Seyid Əli, Hacı Saleh və üç gürcü sərkərdəsinə tapşırıldı.

Azərbaycanda yaranmış vəziyyət Teymuru hələ Hindistan səfəri zamanı olduqca narahat edirdi. O, 1399-cu ildə Hindistandan Səmərqəndə qayıdarkən yolda Təbrizdən gəlmiş qasiddən Cənubi Qafqaz və ətraf vilayətlərdəki vəziyyəti öyrənir. Qasidin verdiyi məlumatda Bağdad, Misir, Şam, Kiçik Asiya, Dəşti-Qıpçaq və s. ilə yanaşı Əlincənin də yad edilməsi, qalanın həmin ölkələrə bərabər tutulması və Teymurləngin onunla yaxından maraqlanması faktı özlüyündə qalanın ciddi müdafiə olunduğunu və böyük əhəmiyyət kəsb etdiyini göstərirdi.

Teymur Hinistan səfərindən qayıdıb Səmərqəndə çatdıqdan cəmi 4 ay sonra təcili səfərbərlik elan edib 1399-cu il oktyabrın 10-da Cənubi Qafqaza yürüşə başladı. «7 illik müharibə» adı ilə tanınan bu yürüş Cənubi Qafqazda, eləcə də Azərbaycanda vəziyyətin kəskin surətdə dəyişilməsinə səbəb oldu. Teymur Sultaniyyədən Ərdəbilə, oradan isə Qarabağa gəldi. Azərbaycandakı vəzhiyyəti nəzərə alan Şirvanşah İbrahim yerli hakimlərlə

Teymurun arasında ittifaq yaranmasına nail oldu.

Əlincə qalasının müdafiəsi zamanı həlak olmuş Sidi Əlinin oğlu Sidi Əhməd atasının ölümündən sonra Teymurləngdən icazəsiz atasının yerinə keçərək Şəkini idarə etməyə başlamışdı. Sidi Əhmədin xahişi ilə Şirvanşah İbrahim onun bağışlanması və Şəkiyə hakim təyin olunması üçün Teymurdan razılıq aldı.

Teymurləngin 1399 və 1402-ci illər Gürcüstan yürüşləri zamanı onu Şirvanşahın və Sidi Əhmədin qoşun hissələri müşayət edirdi. Gürcüstana ikinci yürüş ərəfəsində VII Georginin elçiləri qiymətli hədiyyələrlə Teymurun iqamətgahına gələrək itaət etdiklərini bildirdilər. Lakin Teymur hədiyyələri qəbul etməkdən imtina etdi, çünki gürcü knyazları əvvəlcə Teymurun xəzinəsinə vergi verməyə söz verir, lakin sonra imtina edirdilər. Yaranmış vəziyyətdə Şirvanşah İbrahim vasitəçilik edərək Teymurun VII Georginin bağışlanmasına nail oldu. Gürcü feodalları son dərəcə ağır şərtlərlə xərac verməklə Teymurun talançı yürüşlərindən xilas oldular. Bundan sonra həm Sidi Əhməd, həm də VII Georgi Şirvanşahın müttəfiqi kiim çıxış edirdilər.

Əlincə qalası Teymurun uzun illər boyu zəbt edə bilmədiyi yeganə istehkam olaraq qalırdı. Bundan narahat olan Teymur müttəfiqlərə qarşı mübarizədə cəsarətsizlik göstərmiş əmirləri cəzalandırdı və 1400-cü ilin yazında Gürcüstana soxulub qarətçilik edən Teymur Sivas, Misir, Şam, Hələb, Dəməşq, Mardin, Amid və s. əraziləri zəbt etdikdən sonra yenidən Əlincəyə yürüş etdi.

Teymurləngin Amiddən Əlincə qalasına göndərdiyi güclü qoşuna 3 əmirzadə və beş-altı əmir başçılıq edirdi. Onlara Əlincə qalasını ələ keçirib Gürcüstana tərəf irəliləmək tapşırılmışdı. Əlincə qalası uzun mübarizədən sonra teymurilərin əlinə keçdi. Mənbələr və mövcud tarixi ədəbiyatlarda qalanın 12 (1387-1399) və ya 14 (1987-1401) mühasirədə qaldığı göstərilir.

Qalanın tutulması barədə mənbələrin verdiyi ziddiyyətli məlumatlar onun necə ələ keçirildiyini dəqiqləşdirməyə imkan vermir.

Şərəfəddin Əli Yezdinin və Münəddin Hətənzinin yazdıqları görə Sultan Əhmədin qalada olan oğlu Tahir hələ müttəfiqlərin yürüşü zamanı (1497-1498) mühasirədən azad edilərək Gürcüstana aparılmış və hətta sonralar Teymurun tələbi ilə də geri qaytarılmışdı. Qala uzun müddət mühasirədə olduğu üçün orada az döyüşçü qalmışdı ki, onlar da zərurət üzündən təslim olmuşdular. Qalannı kutvalı Seyid Əhməd Oğlşahi Teymurun hüzuruna gətirilib öldürülmüş, qalanın müdafiəsi isə Məlik Məhəmməd Obyehiyə tapşırılmışdı.

Ərəb tarixçisi İbn Ərəbşahın məlumatından isə aydın olur ki, Sultan Tahirlə birlikdə Əlincə qalasının müdafiəsinə başçılıq edən Əmr Altun arasında ciddi çəkişmə baş verir. Əmir Altunun qaladan çıxıb ərzaq dalınca getməsindən istifadə edən Sultan Tahir onun qardaşını öldürtdürür, özünü isə qalaya buraxmır.

Altun Mərəndə getməyə məcbur olur, burada isə yerli hakim onu öldürərək başını Teymura göndərir. Lakin Teymur qəhrəmanlıqda ad-san qazanmış Altun kimi sərkərdəni məhv etdiyi üçün Mərənd hakimini öldürdürərək əmlaknın müsadirə etdirir. Müəllif yazır ki, Altunun ölümünə görə qala müdafiəçilərindən bir qismi Sultan Tahirdən üz çerirərək qalanı tərk edirlər. Yaranmış vəziyyətdə Tahir öz acizliyini dərk edərək xəzinəni də götürüb yaxın adamları ilə birlikdə Bağdada çəkilir. Nəticədə isə Teymurləngin qoşunları Gürcüstan səfərindən qayıtdıqdan sonra heç bir maneəyə rast gəlmədən başsız buraxılmış qalaya daxil olurlar.

Əlincə qalasının müdafiəsinin son dövrlərindən bəhs edən mənbələrin məlumatları dərindən araşdırıldıqda, əsərini Teymurə əks mövqedən yazmış İbn Ərəbşahın verdiyi faktların daha doğru və məntiqi olduğu aydınlaşır. Odur ki, Əlincə qalasının 1401-ci ildə, 14 il mərdliklə müdafiə olunduqdan sonra daxili çəkişmələr nəticəsində Teymurun əlinə keçdiyini qəbul etmək həqiqətə daha uyğun olardı.

Teymuri qoşunları Əlincə qalasını ələ keçirdikdən sonra Gürcüstana, oradanda Bağdada yürüş etdilər və Təbrizə qayıtdılar. Teymurləng Təbrizdən Naxçıvana gəlib Əlincə qalasına səyahət etmişdi. Mənbələrin yazdığına görə qalanın coğrafi mövqeyi və əzəməti Teymurləngi heyran etmişdi.

1402-ci il iyulun 20-də Anqara şəhəri yaxınlığında Çubuq adlanan yerdə Teymurlənglə I İldırım Bəyazid arasında o dövp üçün son dərəcə böyük müharibə baş verdi. Şirvanşah I İbrahimin və Şəki hakimi Sidi Əhmədin hərbi qüvvələri də Teymurun tərəfindən vuruşurdular. Anqara vuruşması nəticəsində İldırım Bəyazid, oğlanların Musa və Mustafa Teymurləng tərəfindən əsir alındılar.

Anqara döyüşündən sonra Teymur təkrar Qarabağa qayıtdı və burada qurultay çağıraraq Cənubi Qafqazda zəbt etdiyi ərazilərin nəvəsi Ömər Mirzəyə (Miranşahın oğlu) tapşırılmasını qərara aldığını bildirdi. Şeyx İbrahim Şirvan valisi və teymuri imperiyasının şimal sərhədlərinin mühafizəçisi kimsi daha da möhkəmləndi. Teymurləng 1404-cü il martın 27-də Qarabağdan Səmərqəndə qayıtdı.

Səmərqəndə qayıtdıqdan sonra Teymur qısa müddətdə səfərbərlik keçirərək güclü şəkildə Çin yürüşünə hazırlaşmağa başladı. 1404-cü ilin sonlarında 200 minlik böyük bir ordu ilə Səmərqənddən Çinə yürüş edən Teymurləng Otrar şəhəri yaxınlığında xəstələnərək 1405-ci il fevralın 18-də burada da vəfat etdi.

Teymuri dövlətinin tərkibinə daxil olan ölkələr iqtisadi cəhətdən bir-biri ilə möhkəm olmadığından onların siyasi birliyi də mümkün deyildi. Təsadüfi deyildir ki, Teymurləngin ölümündən sonra onun şərqdə Çin səddinə, şimalda Rusiyanın mərkəzlərinə, qərbdə Aralıq dənizi sahillərinə, cənubda Misir sərhədlərinə qədər uzanan imperiyası kəskin feodal ara müharibələri meydanına çevrildi. Hələ Teymurun sağlığında imperiyanın ərazisi onun oğlanları və nəvələri arasında bölüşdürülmüşdü. Belə ki, Teymurun özü tərəfindən Xorasan, Gürcan, Mazandaran və Sistan (mərkəzi Herat şəhəri) şahruxa (1409-1447), Qərbi İran, Azərbaycan, İraq və

Ermənistan (mərkəzi Təbriz şəhəri) Miranşaha, cənubi İran (mərkəzi Şiraz şəhəri) Ömər şeyxə, Əfqanıstan və Şimali Hindistan (mərkəzi əvvəllər Qəznə, sonralar Bəlx şəhəri) Pir Məhəmmədə soyurqal verilmişdi.

Teymurun xələfləri arasında hakimiyyət uğrunda gedən mübarizə yerli hökmdarların hakimiyyətilərinin möhkəmlənməsinə və genişlənməsinə şərait yaradırdı. Belə bir şəraitdə Təbrizdə, Qarabağda, Şəkidə və Marağada güclü xalq ixtişaşların baş verdi. Yaranmış şəraitdə Şirvanşah İbrahimin qoşunları Kür çayını keçərək Gəncəni və Qarağın bir hissəsini tutdu. Gürcü çarı Konstantin (o VII Georginin qardaşı idi), Şəki hakimi Sidi Əhməd, Gəncə hakimi qaramanlı Əmir Yarəhməd, Ərdəbil hakimi cəyirli tayfalarından Bistan Cəyir Şirvanşah İbrahimlə ittifaqa girərək hərbi qüvvə ilə ona yardım etdilər.

Teymurləng öz sağlığında Şirvanşahlar dövlətinin ərazisi istisna olmaqla Cənubi Qafqazın qalan ərazilərini, o cümlədən Azərbaycanı da oğlu Miranşaha soyurqal (1392-1400) vermişdi. Lakin Miranşahın hərəkətlərindən narazı qalan Teymur onu bu hüquqdan məhrum etmiş və qeyd edildiyi kimi, Anqara döyüşündən sonra həmin əraziləri Miranşahın oğlu Ömər Mirzəyə həvalə etmişdi.

Şirvanşah İbrahimin asılılıqdan çıxması ilə razılaşmayan Ömər Mirzə ondan Ərdəbil hakimi, teymurilərə qarşı mübarizə aparan Bistam Cəliri tələb etdi, lakin Şirvanşah bundan imtina etdi və güclü qoşunla Brdəyə, oradan Kür çayı sahillərinə yollandı. Bistamın verilməməsini bəhanə edən Ömər Mirzə Araz çayını keçərək Kürün sol sahilində düşərgə saldı. Hər iki qoşun bir həftə üz-üzə dürdüqdan sona Ömər Miranşah və Əbu Bəkrin Sultaniyyəni ələ keçirərək Təbriz üzərinə hücuma hazırlaşdığını xəbər tutdu və Şirvanşahla sülh bağlayaraq tələsik Təbrizə qayıtdı.

Miranşah və Əbu Bəkrin birləşmiş qoşunları tərəfindən məğlubiyyətə uğradılan Ömər Mirzə Azərbaycanı tərk etdi. Lakin Əbu Bəkrin Təbriz əhalisindən 100 min qızıl tələb etməsi 1406-cı ildə şəhər əhalisinin üsyanı ilə nəticələndi. Az sonra Əbu Bəkrin qoşunları Qaraqoyunlu Qara Yusif tərəfindən darmadağın edildi, özü isə Azərbaycanı tərk etdi.

Şirvanşah V İbrahim yaranmış imkandan istifadə edərək 1406-cı ilin mayında Təbriz şəhərinə daxil olur. Şirvanşahın ticarəti və sənətkarlığı himayə etməsi ona çox böyük nüfuz qazandırmışdı, odur ki, Təbriz əhalisi onu hüsn rəğbətlə qarşılayır. Lakin o Təbrizdə möhkəmlənə bilmədi, belə ki, iyunda Sultan Əhmədin Təbrizə doğru irəlilədiyindən xəbər tutan və onunla münasibətləri pozmaq istəməyən Şirvanşah Təbrizi tərk etməli oldu.

Sultan Əhməd və Qara Yusifin birləşmiş qüvvləri ilə Miranşah arasında həlledici döyüş 1408-ci ildə oldu. Döyüş ərəfəsində Şahruxun göndərdiyi 20 minlik hərbi yardıma baxmayaraq teymuri qüvvələri müttəfiqlər tərəfindən darmadağın edildi. Döyüşdə Miranşah özü də həlak oldu. Həmin il teymuri qoşunlarının qalıqlar Cənubi Qafqazı, o cümlədən Azərbaycanı tərk etdilər. Beləliklə, Teymurləngin ölümündən cəmi üç il sonra nəinki Azərbaycan, bütövlükdə Cənubi Qafqaz Teymurun və onun xələflərinin zülmündən xilas oldu. Azərbaycanda və Gürcüstanda hakimiyət başına yerli sülalələrdən olan hökmdarlar gəldi. Ermənistan isə Qara Yusifin yaratdığı Qaraqoyunlu dövlətinin tərkibinə daxil edildi.

### 9.3. Cənubi Qafqaz ugrunda hərbi-siyasi mübarizənin beynəlxalq nəticələri

Cənubi Qafqaz tarixinin 1385-1408-ci illəri əhatə edən 23 illik dövrü ölkənin ictimai-siyasi həyatının gərginliyi, yadelli istilaçıların azğınlığı, xalq kütlələrinin vəziyyətini həddindən artıq ağırlığı ilə səciyyələnir. Teymuri ordularının 23 il davam edən fasiləsiz talançı yürüşləri nəticəsində Şirvanşahlar dövlətinin ərazisi istisna olmaqla bütün Cənubi Qafqaz vilayətləri var-yoxdan çıxarıldı. Orta əsr müəlliflərinin yazdığına görə, teymuri qoşunlarının ayağı dəydiyi yerdə daş-daş üstə qalmırdı, Teymurləng təkcə şəhər və kəndləri qarət edib dağıtmaqla kifayətlənmirdi, istila olunmuş yerlər başdan-başa talan edilir, əhali isə bəzən ucdantutma məhv edilirdi. Adamları diri-diri torpağa basdırmaq, divara hörmək, qala hasarlarından aşağı tullamaq, qılıncla doğramaq, işgəncə ilə öldürmək, xalqın əsrlər boyu yaratmış olduğu mədəniyyət abidələrini uçurub yerlə yeksan etmək adi hal almışdı. Teymur məhv etdiyi şəhərlərin yerinə günahsız insanların başlarından qülləəp düzətməyə adət etmişdi.

K.Marks Teymurləngin yeritdiyi siyasəti və etdiyi zülmü aşağıdakı kimi səciyyələndirmişdi: «Teymurun siyasəti minlərlə qadın, uşaq, kişi və cavanlara işgəncə verməkdən, onları qılıncdan keçirməkdən, qırmaqdan və bununla da hər yerdə dəhşət yaymaqdan ibarət idi… O hər yerdə şəhərləri dağıdır, yandırır, əhalini isə zülmlə öldürürdü». «Teymur hər yerdə özündən bir qəbristan sükutu qoyub gedirdi».

Teymurləng də öz sələfi Çingiz xan kimi «dünya imperiyası» yaratmaq arzumunda idi. Lakin əgər Çingiz xan yaradacağı imperiyanı monqol atlarının dırnaqları dəyən yerlə hüdudlaşdırırsa, Teymurləng: «Göydə allah tək olduğu kimi, yer üzündə də ancaq bir şah olmalıdır, dünyanın əhali yaşayan hissəsi o qədər kiçikdir ki, iki padşahın olmasına ehtiyac yoxdur»- deyirdi.

Məğribdən məşriqə kimi kilometlərlə uzanan teymuri imperiyasında «hülakü ulusu» Cənubi Qafqaz öz strateji əhəmiyyətinə, ictimai-siyasi mövqeyinə görə xüsusi əhəmiyyət kəsb edirdi. Təsadüfi deyildi ki, Teymurləng Cənubi Qafqaza dörd yürüş etmişdi, üçillik, beşiillik və yeddiillik yürüşlərin başlıca hədəfi Azərbaycan və Gürcüstan idi.

Son dərəcə qəddar və amansız yadelli işğalçılara qarşı təklikdə müqavimət göstərməyin səmərəsizliyi

Cənubi Qafqaz xalqlarının, xüsusilə gürcülərin və azərbaycanlıların yaxınlaşmasına səbəb olmuşdu. Təsadüfi deyildi ki, gürcü çarı VII Georgi, Şəki hakimləri Sidi Əli və Sidi Əhməd, Ərdəbil hakimi Bistan Cəyir və başqaları Şirvanşah I İbrahimə yaxınlaşaraq onun müttəfiqi olmuşdular. Seperatçılıq göstərən, hadisələri seyrçi gözü ilə izləyən erməni feodallarının aqibəti xeyli ağır oldu, belə ki, Teymurləng müsəlmanlara nisbətən xristian ermənilərə münasibətdə yumşaq olmasına baxmayaraq istila etdiyi yerlərdəki (Foma Metsonski Teymurun viran qoyduğu 40-dək yerin adını çəkir) qalaları, müdafiə tikililərini uçurub yerla yeksan edirdi.

Qeyd edildiyi kimi, Cənubi Qafqazda Teymurun işğalçı yürüşlərindən xilas olmaq ancaq Şirvanşahlara müəssər olmuşdu. Şirvanşah I İbrahim Dərbəndi öz uzaqgörənliyi və diplomatik bacarığı nəticəsində Teymurun rəğbətini qazanmışdı. Cənnabi yazırdı ki, Şirvanşah İbrahim öz mülazimlərini çağırıb Teymura müharbə edib-etməmək haqqında onlarla məsləhətləşmişdi. Mülazimlər müharibə etməyin lazım olduğunu söylədikdə I İbrahim onlara gözlənilməyən cavab vermişdi: «Mən öz qoşunumu qıpçağın qılıncına verib, öz rəiyyətimi at dırnaqları altında məhv edə bilmərəm. Mən özüm şəxsən onun yanına gedəcəyəm. Əgər ölsəm heç, qalsam o zaman mənim rəiyyətlərimi cığatay soyğunundan və talanından xilas olmuş olar ki, bu da mənim ən sonuncu məqsədimdir».

Şirvanşahlar dövlətinin teymurilərlə ittifaq ölkənin daxili qüvvələrini qorunub saxlanılmasına imkan yaradaraq Şirvanşahların Azərbaycanın şimal torpaqlarının öz ətrafında birləşməsi uğrunda mübarizənin gedişində Azərbaycan dövlətçiliyinin əsasları qoyulurdu. XIV əsrin sonlarından etibarən güclənməkdə olan bu proses XV əsrdə Azərbaysanın cənubundakı tarixi ərazilərində Qaraqoyunlu (1410-1467) və Ağqoyunlu (1468-1500), şimal torpaqlarında isə Dərbəndilər sülaləsinin idarə etdiyi Şirvanşahlar dövlətinin (1382-1538) yüksəlməsi ilə nəticələndi. Gürcüstanda isə bu proses VII Georginin xələflərinin hakimiyyətdə olduğu gürcü çarlığının möhkəmlənməsinə gətirib çıxardı. Qeyd etmək yerin düşərdi ki, gürcü çarlığı ilə Şirvanşahlar dövlətinin ittifaqı qohumluq əlaqələri ilə də möhkəmləndirildi.

Cənubi Qafqazın, xüsusilə Azərbaycanın zəngin yaylaqları və qoşunları Ə.Ə.Əlizadənin dönə-dönə qeyd etdiyi kimi türkdilli köçəri-maldar tayfaların ən çox arzuladığı yer olmuşdu. Köçəri əyanların Arran və Muğanda daimi məskənləri meydana gəlirdi. Teymurilərin hakimiyyətdə olduğu dövr ərzində Orta Asiyadan İran, İraq və hətta Kiçik Asiya vasitəsilə türk etnosunun Azərbaycana axını ayrı-ayrı teymuri hökmdarlarının müdaxiləsi nəticəsində olduqca gücləndirilirdi. Belə ki, Miranşahın əmri ilə XIV əsrmn sonlarında Türkiyə və Suriyadan türkdilli 50 min əsir ailə Qarabağ, Gəncə və İrəvana köçürülmüşdü. Məcbur olaraq Cənubi Qafqaza köçürülən türk ailələri Miranşahın ordusuna on minlərlə əsgər verirdi. Zaman keçdikcə bu köçərilər yerli əhali ilə qaynayıb-qarışır, assimliyasiya olunurdular.

Beynəlxalq karvan ticarəti yollarının ayrıcında olan Azərbaycan şəhərlərini daimi əllərində saxlamaq üçün bu şəhərlərdə türkdilli ailələrin yerləşdirilməsi təbii hala çevrilmişdi. «Azərbaycan» kitabının müəllifi Məhəmədhəsən Baharlı (Vəliyov) göstərirdi ki, Hülakülərin hakimiyyəti dövründə İrana 200 min türk ailəsi köçürülmüşdü ki, sonralar Teymuri işğalları dövründə həmin ailələr Azərbaycanda məskunlaşmışdılar. Mənbələr həmin ailələrin əsasən aşağıdakı qəbilələrdən ibarət olduğunu söüləmyə imkan verir: qacar, zülqədər, çobani, baharlı, padar, ustaclı, lək, xəlildli, sar-sar, işqaq, osallı, zəngan, armalı, şilyar (şiryan) və s. Azərbaycandan Kiçik Asiyaya köçmüş səlcuq qəbilələrinin bir hissəsi də XIV əsrdə Azərbaycana qayıtmışdı. Belə ki, mənbələrdə «ayrum-Rum elindən çıxmışlar» (Anadoludan) adlanan səlcuq qəbiləsindən olanlar Gəncə və Qarabın ərazisində yerləşmişdilər. Məhz qeyd edilən prosesi nəticəsində artıq XIII əsrdən etibarən Azərbaycan dili Cənubi Qafqazda işlək dilə çevrilmişdi. XIV əsrdən etibarən isə bu dildə ilk ədəbi əsərlər meydana gəlməyə başlamışdı. XII-XIV əsrlərə dair erməni, gürcü mənbələri, Avropa səyyahlarının qeydləri məhz XVII-XIV əsrlərdən etibarən türk-Azərbaycan dilinin bütün Qafqazda ümumişlək dilə çevrildiyini söyləməyə əsas verir.

Teymurilərin ağalığı dövründə Azərbaycana türkdilli etnosun miqrasiyası ilə yanaşı, yerli oturaq türk etnosunun zorla öz tarixi ərazilərində uzuqlaşdırılması prosesi gedirdi. Min illər boyu yaşadıqları topaqlarda nadir sənət inciləri – maddi-mədəniyyət nümunələri yaratmış yüz minlərlə Azərbacyan sənətkarları, ədəbiyyat, elm, incəənət xadimləri, zorla Orta Asiyaya və Volqaboyuna köçürülür, Azərbaycan torpağının yeraltı və yerüstü sərvətləri talan edilirdi. Təsadüfi deyildi ki, dünya mədəniyyəti xəzinəsinə saysız incilər bəxş etmiş, özündən əvvəlki və sonrakı yüzilliklərlə müqayisədə XIII-XIV əsrlər son dərəcə kimsəsiz və kasıb görünürdü. Əvəzində Volqaboyundakı Qızıl Orda, Orta Asiyadakı Teymuri şəhərləri çiçəklənir, indinin özündə belə bəşəri təxəyyülü heyrətdə qoyan memarlıq, sənətkarlıq və mədəniyyət işçiləri meydana gəlirdi, möhtəşəm sarayların divarları, elmi fikrin nailiyyətləri türk-oğuz etnosunun alın təri və əti-qanı ilə yoğrulmuşdu.

Bütövlükdə götürüldükdə, monqolların və teymuri ordularının talançı yürüşləri Azərbaycannı ictimai, siyasi və iqtisadi inkişafının azı iki əsr ləngitmişdi, kənd təsərrüfatı bərbad vəziyyətə düşmüş, aclıq «qılıncını sıyırmış», çiçəklənən vilayətlər xarabazara çevrilmiş, şəhər həyatı tənəzzülə uğramış, beynəlxalq ticarətin inkişafına ağır zərbə vurulmuşdu. Hadisələrin müasirlərindən birinin yazdığı aşağıdakı sətirlər dövrün acınacağlı mənzərəsini canlandırmağa imkan verir: «Teymur gedəndən sonra ölkəmizdə dəhşətli aclıq yarandı, aclıq hər yeri bürüdü…. Gözlərimizlə görüb, qulaqlarımızla eşitdiklərimizin hamısını, insan nəslinin necə qırıldığını söyləməyə gücümüz çatmır».

Teymurun yürüşlərindən ən çox  çəkən Cənubi Qafqaz şəhərləri- Təbriz və Tiflis idi. Hər iki şəhər Teymurun «üçlük», «beşillik», və «yeddiillik» yürüşlərinin bütün əzablarına məruz qalmışdı, istilaçılar Tiflis şəhərində böyük dağıntılar törətmişdilər. 1385-1392-c illər ərzində Təbriz 8 dəfə Toxtamış və Teymurun hücumlarına məruz qalmışdı. 1385-1401-ci illər arasında Azərbaycanın ərazisində (Təbriz şəhəri nəzərə alınmamaqla) 10 dəfə qanlı vuruşma getmişdi, 1385-ci ildə Marağa, 1386-cı ildə Naxçıvanada, 1387-ci iddə Şəkidə, 1387 və 1394-cü illərdə Şirvanda, 1388-ci ildə Mərənddə, 1387, 1393, 1397 və 1400-cü illərdə isə Əlincə qalası ətrafında gedən döyüşlərdə on minlərlə azəri türkü doğma torpaq uğrunda qurban getmişdi.

Tədqiqatçılardan A.Y.Yakubovski Teymurləngin Orta Asiya tarixində oynadığı mütərəqqi  rolu eynilə başqa xalqlara da şamil etməyə çalışır. Həmin fikrin Cənubi Qafqaza aid edilməsi özünü yalnız Teymurun Qızıl Ordaya münasibəti məsələsində doğrulda bilər. Belə ki, Volqaboyuna 1395-ci il yürüşü zamanı Qızıl Ordaya – Cuci ulusuna elə bir ağır zərbə vuruldu ki, bununla da Qızıl Ordanın Cənubi Qafqaza yürüşlərinıə birdəflik son qoyuldu. Şübhəsiz ki, bu Teymurun Cənubi Qafqaz xalqları qarşısında ən böyük, həm də «yeganə» xidməti idi. Teymurun Qızıl Orda üzərinə sonuncu qələbəsi onun ömrünü heç olmasa yarım əsr gödəltdi.

Nəhayət, Cənubi Qafqaz xalqlarının həyatında teymuri işğallarının nəticələrindən danışarkən bir cəhəti yaddan çıxarmaq olmaz ki, istilaçıların azğınlığı, törətdiyi vəhşiliklər xalq kütlələrinin dərin narazılığına səbəb olaraq azadlıq uğrunda mübarizənin güclənməsinə təkan verirdi. 1403-1406-cı illərdə İspaniya kralı tərəfindən Səmərqəndə, Teymurun sarayına elçi sifəti ilə göndərilən Klovixo Qonzales de Ryun Teymurun tutduğu yerlərdə əhaliyə edilən zülmdən, ordu məmurlərının və əsgərlərin özbaşınalığından bəhs edərək yazırdı: «Teymurilər sarayına gəlmiş hər hansı bir dövlətin elçilərini müşayət edən əsgərlər, hər hansı şəhər və kənd olursa olsun, girən kimi qabaqlarına düşən birinci adamı tutub… özləri at üstündə getdikləri halda onu dallarınca sürükləyib ərrənsin (kəndxudanın) evini göstərməsini tələb edirdi. təsadüf etdikləri adamdarı əvvəlcə ağac və qamçı ilə döyərək ət, yağ, çörək, bal və s. gətirmələrini tələb edirdilər. Elçini görən kimi bazar və küçələrdə bir adam belə qalmırdı, hamı «elçi» deyərək dükanları bağlayıb evlərində gizlənirdilər». Səyyah davam edərək göstərirdi ki, «çox təəccüblüdür… bu adamlar həddindən artıq vəhşicəsinə hərəkət edirlər. Onlar hökmdarın fərmanıdır deyə istədikləri şeyi alır və əhalini döyürdülər. Əgər bu elçilər gecələməli olsalar əhali onların atlarını yerləşdirməli və özlərini lazımi ərzaq ilə təchiz etməli idilər».

Teymurilərin zülmünə qarşı güclənməkdə olan xalq hərəkatı öz ifadəsini  dini-siyasi təlimlərdə tapırdı, bu ictimai ədalətsizliyə, zülmə qarşı mübarizənin təzahür vasitəsi idi. Azərbaycanda islam dini ehkamlarına və Teymurilərin ağalığına qarşı çevrilmiş belə dini-siyasi təlimlərdən biri də hürufilik (ərəbcə «hərflər» sözündən olub şiəlikdə təriqət bildirir) idi. Hürufilik XVI əsrin sonlarında Naxçıvanda, Astrabadda meydana gəlmiş, XV əsrin əvvələrində isə İran, Türkiyə və Azərbaycanın qalan ərazilərinə yayılmışdı. Hürifilik təliminin banisi Fəzlullah əl Hürufi Təbrizi Astrabadi Nəimi, ən görkəmli ardıcıllıraı Əliyül-Əla, Nəsimi, Seyid İshaq və başqaları idi. Hürufilik təlimi XIV əsrin ictiimai-fəlsəfi  fikri  tarixində mühüm yer tutan məzdəkilik, xürrəmilik, manixiyçilik, vəzəsilik hərəkatın ilə üzvi surətdə bağlı idi.

Hürufilik mənəvi və cismani inikşaf nəticəsində insanın allahlaşmasına, ilahiləşməsinə, həmin inkişafın pozulması nəticəsində isə insannı dəcələ çevrilməsinə inanırdılar. Hürufilər məhz bu mənada Fəzlullaha iman gətirir, onun ilahiliyinə inanırdılar. Mənbələr hürufiliyin təlimdən təşiklata çevrilməsi haqqında maraqlı məlumatlar verir. Hürufilik siyasi təlim kimi  Nəiminin «Məhəbətnamə», «Vəsiyyətanmə», «Naumnamə», «Cavilane-Kəbir», «Cavidane-Səqir» və «Ərşnamə» əsərlərində şərh olunmuşdur. Mənbələrə görə, Nəimi Teymurləngin əmri ilə Şirvanda həbsə alınaraq dini məhkəməyə verilmiş və 1394-cü ildə Miranşah tərəfindən Naxçıvanda edam edilmişdi. Nəiminin ömründən sonra onun tərəfdarları müsəlman Şərqinin hər yerinə yayılaraq «dəccа»lın zühur etdiyini (hürufilərə görə Teymurləng dəccal hesab olunurdu) və onun «şərinin» aradan götürülməsinin savab olduğunu təbliğ etməklə teymuri hökmranlığına qarşı barışmaz mübarizə aparırdılar. Təsadüfi deyildi ki, hürufilik Teymurləng və onun xələfləri tərəfindən amansız təqib olunurdu.

Nəiminini ardıcıllarından İmadəddin Nəsiminin də taleyi ustadının taleyi kimi faciəli olmuşdu. Ruhanilərin fitvası ilə Nəsimi 1417-ci ildə Suriyanın Hələb şəhərində dərisi diri-diri soyulmaqla əzablı ölümə məhkum edilmşidi. Nəsimi yaradıcılığını hürufilik təliminini zirvəyə çatması deməkdir. Nəsiminin allahlaşmış insanı hər cür zülmə və dini xürafata ölüm hökmü yazırdı.

Beləliklə, Teymurləngin və onun xəlifələrinin işğalçılıq yürüşləri nəticəsində törədilən dağıntılar, əhaliyə tutulan işgəncəli divanlar teymuri dövlətinin əsalarındadək sarsıdan xalq azadlıq  mübarizəsinə təkan verməklə onun süqutunu sürətləndirdi. Teymuri «imperiyasının» xarabalıqları üzərində Azərbaycanda Qaraqoyunlu və Şirvanşahlar dövlətləri yüksəlməyə başladı.

Bəşər tarixinin qədim və orta əsrlər dövrü ayrı-ayrı dövlət xadimi və sərkərdələrin işğalçı yürüşləri nəticəsində yaradılmış yüzlərlə irili-xırdalı dövlət birləşməsinin adını qoruyub çaxlamışdır. Belə böyük feodal «imperiya»larından biri də XIV-XV əsrlərin hüdudunda meydana gəlmiş Teymuri dövləti idi. XIV əsrin 70-ci illərində Teymurləngin başçılığı altında Məvaraünnəhrdə yaradılmış feodal dövlətinin altında özünün və xələflərinin apardığı işğalçılıq müharibələri nəticəsində qərbdə Egey dənizi və Fələstinə, şimalda Dəşti-qınçaqa (Qıpçaq səhrasına), cənubda Misir sərhədlərinə, şərqdə isə Çin sərhəddini qədər uzanırdı.

Teymurilərin istilaları ərəfəsində Cənubi Qafqazda feodal pərakəndliyi hökm sürürdü. Belə ki,

Azərbaycanın Şirvanşahlar dövlətinin tərkibində olan Kür çayına qədər olan şimal torpaqların istisna olmaqla qalan ərazilərində feodal pərakəndliyi hökm sürürdü. Azərbaycanın cənubunda yüksəlməkdə olan Qaraqoyunlu tayfa ittifaqı hələ cənub torpaqlarının birləşdirmək ixtiyarında deyildi. Gürcüstanda yeodal pərakəndliyi hökm sürürdü. Tarixi torpaqları Cənubi Qafqazın hdudlarından kənarda yerləşən Ermənistan (Erməniyyəni) ayrı-ayrı şəhərlər təmsil edirdilər. XIV əsrin sonlarında Cənubi Qafqazda mövcud olan belə şərait ölkənin maddi ehtiyatlarının və canlı qüvvələsini teymurilərə qarşı birləşdirməyə imkan vermirdi. Yaranmış şəraitdə ayrı-ayrı feodal hökmdarların teymurilərlə itifaqa girərək vassal asılılığını qəbul etməsi onların hakimiyyəti altında olan ərazilərin teymurilərin talançı yürüşlərindən xilas olmasına imkan yaradırdı. Şirvanşah I İbrahim Dərbəndinin Teymurləngin müttəfiqinə çevrilməsi Şirvan dövlətinin talançı yürüşlərə hədəf olmaqdan xilas etdisə, Şirvanşahın vasitəçiliyi ilə Şəki hakimi Sidi Ədi və gürcü çarı Georginin Teymur tərəfindən tanınması Şəki və Gürcüstanın tarixi taleyində əhəmiyyətli rol oynadı.

Gürcü, erməni və rum mənbələri Teymurləngi «tanrının növbəti bəlası», onun istilaçı yürüşləri dövrünü isə fəlakət və faciələr dövrü kimi səciyyələndirirdi. Foma Metsopski yazırdı ki,, «Teymurləng gedəndən sonra fəryad səsləri göylərə ucaldı… Arçeşdən tutmuş İberiyaya- Ağvanın Kür çayınadək bütün ölkə əzab və işgəncələrə tutulmuş, (əhalisi) qırılmış və əsir edilmiş, günahsızların qanına boyanmışdı».

Teymuri işğalları əkinçilik mədəniyyətinin yüksək səviyyədə olduğu ölkələrin təsərrüfat həyatına və mədəni inkişafına ölümcül zərbə vurdu. Oturaq xalqların min illər boyu yaratdıqları köçərilərin zərbələri altında yerlə yeksan edildi. Məhsuldar zəmilər suvarma sistemləri, nadir mədəniyyət abidələri və bu abidələri yaradan xalqlar – bir sözlə, teymuri qoşunlarının atının ayağı dəyən yerlər xarabazara çevrilirdi, bütün yaxşı sənətkarlar, istila olunmuş ölkələrin var-dövlət Orta Asiyaya yola salınırdı. Bütün tarixi ədəbiyyatlarda XV əsr Orta Asiya xalqlarının mədəni inkişafının yüksək səviyyəsi ilə səciyyələndirilir. Əslində həmin mədəniyyət öz vətənlərindən didərgin salınmış adlı-sanlı ustaların, sənət adamlarının çiyinləri üzərində yüksəlmişdi. Teymuri işğallarından sonrakı dövrdə həmin işğallara məruz qalmış xalqların mədəni inkişafında, iqtisadi həyatında boşluq yarandığını görürük. Teymurləngin Orta Asiya tarixində müsbət rol oynadığını göstərən tədqiqatçılar onun ümumiyyətlə təbii-tarixi inkişaf prosesinə vurduğu zərərin üstündən sükutla keçirdilər.

Görkəmli şərqşünas tədqiqatçılardan B.Bortold və A.Yakubovski Teymurləngin «dünya xalqları qarşısında iki böyük xidmətini» xüsusi qeyd edirlər. Birincisi, 1395-ci ildə Teymurləngin Qızıl Ordanı darmadağın etməsi nəticəsində rus, Volqaboyu və Cənubi Qafqaz xalqlarının tatar zülmündən xilas olması, ikincisi, 1402-ci ildə Osmanlı Türkiyəsinin darmadağın edilməsi nəticəsində Avropa, Afrika və cənub-qərbi Asiyanın türk zülmündən nicat tapması. Şübhəsiz, Qızıl Ordanın darmadağın edilməsi mütərəqqi hadisə idi. Lakin Osmanlı Türkiyəsi haqında ikinci fikir düzgün deyil. Çünki Osmanlı Türkiyəsi göstərilən dövrdə özünütəsdiq uğrunda mübarizə aparırdı. Teymurləngin müdaxiləsi həmin prosesi ləngitsə də, onun qarşısını ala bilmədli.

Teymurləngin strateji planlarında «Hülakü ulusuna» - Cənubi Qafqaza xüsusi əhəmiyyət verilirdi. Təsadüfi deyildi ki, 1385-1405-ci illərdə Teymurləng Cənubi Qafqaza dörd yürüş etmişdi, Azərbaycan və Gürcüstan «3 illik», «5 illik» və «7 illik» yürüşlərin başlıca hədəfi idi. Ermənistan da fəlakətdən kənarda qalmamışdı. F.Metsopskinin yazdığına görə, teymurilərin yürüşləri nəticəsində minlərlə adam həlak olmuş, qul edilmiş, 40-dan yuxarı yaşayış məskəni yerlə-yeksan edilmiş, qalalar, müdafiə istehkamları uçulub yerlə yeksan edilmiş, ölkə kmmsəıizləşmişdi.

Teymurun istilaçı yürüşləri başqa yerlərdə olduğu kimi, Cənubi Qafqazda da kortəbii kəndli çıxışlarına səbəb oldu, xalq kütlələrinin azadlıq mübarizəsinin güclənməsinə Azərbaycan və gürcü xalqlarının yaxınlaşmasına gətirib çıxardı. Əlincə qalasının 14 ilədək davam edən müdafiəsi uğrunda döyüşlərdə gürcü xalqının oğulları da qurban getdi. Teymuri işğallarına qarşı mübarizə sonralar qoca şərqin bir çox ölkələrində özünə tərəfdar toplamış hürufilik dini-siyasi hərəkatının meydana gəlməsinə səbəb oldu, dahi Azərbaycan mütəfəkkirləri Fəzlullah Nəimi və İmadəddin Nəsimi bu yolda şəhid oldular.

Teymurilərə qarşı mübarizənin gedişində Azərbaycan dövlətçiliyinin əsasları qoyulmuşdu. XV əsrin əvvəllərindən etibarən tarixi Azərbaycan torpaqlarında tarix səhnəsinə müstəqil Qaraqoyunlu, Ağqoyunlu və Şirvanşahlar dövlətləri qədəm qoydu: müstəqil Azərbaycan dövlətinin yaranması ilə paralel olaraq Azərbaycan xalqının təşəkkülü, türk-azəri ədəbi dilinin formalaşması prosesləri gedirdi. Yerli türk etnosu Teymurləngin köçürmə siyasəti nəticəsində Cənubi Qafqazda yerləşdirilmiş köçəri türk xalqları hesabına daha da gücləndirildi. Cənubi Qafqazın təbii-coğrafi şəraiti çox tezliklə həmin tayfaların oturaqlaşmasına səbəb oldu. Nəticədə türk-azəri dili Cənubi Qafqaz və Yaxın Şərqin ümumişlək dilinə çevrildi.

Teymur və monqol istilaları Cənubi Qafqaz xalqlarına görünməmiş müsibətlər gətirərək onun ictimai-siyasi, mədəni və iqtisadi inkişafını azı iki əsr ləngitmiş, bütün orta əsr səyyahlarının dönə-dönə vəsf etdikləri Qafqaz şəhərlərini, onların təsərrüfat həyatını tənəzzülə uğratmışdılar.

**Mövzuya dair suallar**

1. Teymurilər dövlətinin yaranması və beynəlxalq nəticələri
2. Əmir Teymurun işğalları dövründə Yaxın Şərq və Cənubi Qafqazda beynəlxalq vəziyyət

3. İbrahimin Şirvanşahlar dövlətinin bütövlüyünü saxlamaq ugrunda diplomatik-siyasi mübarizəsi
4. Teymurilər dövlətinin beynəlxalq əlaqələri və Əmir Teymurun dünya imperiyası yaratmaq siyasəti.
5. Cəlairi və Qaraqoyunlu dövlətlərinin Teymurilərin işgalçılıq siyasətinə qarşı mübarizəsi
6. Cənubi Qafqaz ugrunda hərbi-siyasi mübarizə və beynəlxalq nəticələri
7. Teymurilər dövlətinin süqutundan sonra Mərkəzi Asiya- Cənubi Qafqazda vəziyyət.

**Ədəbiyyat**


1. Azərbaycan Sovet Ensiklopediyası, I cild, B., 1976
2. Azərbaycan Sovet Ensiklopediyası, IX cild, B., 1986
3. Azərbaycan tarixi, 1-ci cild, B., 1961
4. Babayev İ.A., Əhmədov Q.M. Qəbələ, B., 1981
5. Bünyadov T.Mərd qalalar, sərt qayalar, B., 1986
6. Əliyev R. Azərbaycan VII-XVI əsrlərdə, B., 1980
7. Həmdullah Qəzvəni. Zeyl-e tarix-e qazide («Seçilmiş tarix»ə Həmdullah Qəzvini əlavə) B., 1990
8. İbrahimova C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. B., 1956
9. Nemətova M.K. Şirvanın XIV-XVI əsrlər tarixinin öürənilməsinə dair, B., 1959
10. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. B., 1982
11. Mahmudov Y. Səyyahlar, kəşflər, Azərbaycan. B., 1985
12. Mestopski F. Teymurləngin və onun xələflərinin tarixi. B., 1957
13. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki, 1977
14. Məmmədov R., Piriyev V. Teymurləngin Əlincə səfəri, «Elm və həyat», 1977, №9
15. Məmmədov S. Azərbaycan VII-XVI əsrlərdə, B., 1980
16. Məmmədov S. Azərbaycan XV-XVIII əsrin birinci yarısındaB., 1981
17. Piriyev Z.V. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə, B., 1978
18. Ализаде А.А. Социально-экономическая и политческая история Азербайджана XIII-XIVвв. Б., 1956
19. Архив Маркса и Энгельса. T.VI, 1939
20. Ашурбейли С. Государство Ширваншахов (VI-XVвв.) Б., 1983
21. Гиясаддин Али. Дневник похода Тимура в Индию. М., 1958
22. История Армении, Ереван, 1981
23. История Грузии. Т.1, Тбилиси, 1962
24. История Ирана с древнейших времен до конца XVIII века. Л., 1958
25. История СССР, Т.II, М., 1966
26. История Узбекской ССР Т.1, кн.2, Ташкент, 1955
27. Муминов И. Роль и место Амира Теймура в истории Средней Азии. Ташкент, 1968
28. Новосольцев А.П. Об исторической оценке Теймура. «Вопросы истории», 1973, №2
29. Петрушевский И.П. Иран и Азербайджан под властью Хулагидов (1256-1353) и татаро-монголы в Азии и Европе. М., 1970
30. Сумбатзаде А.С. Азербайджанцы -этногенез и формирвание народа. В., 1990

## X Mövzu
## Ağqoyunlu dövlətinin xarici siyasəti və beynəlxalq əlaqələri

Beynəlxalq əlaqələrinin genişliyi baxımından Ağqoyunlu dövləti Azərbaycanın siyasi tarixində mühüm yer tutur. Oğuz tayfalarının bir qolu olan Ağqoyunluların Azərbaycana köçü miladi tarixin VI-VII əsrlərinə aiddir. Bu tayfalar Göyçə gölündən Diyarbəkirə qədər olduqca nəhəng ərazidə məskunlaşmış, Azərbaycan dövlətçilik ənənələrinin qorunmasında və yaşadılmasında əhəmiyyətli rol oynamışdır.

Ağqoyunlu tayfalarının siyasi birliyinin əsası Bayandur tayfasının başçısı Pəhlivan bəy (1370-1388) tərəfindən qoyulmuş, bu ittifaq XIV əsrin 80-ci illərində olduqca əzəmətli qüvvəyə çevilmişdi. Sülalənin görkəmli hökmdarlarından Qara Yuluq Osman bəyin, Əli bəyin, xüsusilə Uzun Həsən və Yaqub Mirzənin dövründə Ağqoyunlular kifayət qədər möhkənləmlənmiş, Qaraqoyunlularla, teymurilərlə və osmanlı Türkiyəsi ilə uğurla rəqabət aparmışdı.

Ağqoyunlu dövlətinin banisi Uzun Həsən hesab olunur. Onun 1453-cü ildən etibarən köçəri tayfaları, hərbi-feodal əyanlarım mərkəzi hakimiyyətə tabe etmək üçün başladığı mübarizə uğurla nəticələndi. Belə ki, Uzun Həsən feodalların müqavimətini qıra bildi. Lakin onların xeyrinə də bəzi güzəştlərə getməyə məcbur oldu. Çünki bunsuz ölkədə iqtisadi dirçəliş mümkün deyildi. Bununla belə, ayrı-ayrı müəlliflərin Uzun Həsənin müəyyən uğurlarına baxmayaraq, möhkəm mərkəzləşdirilmiş dövlət yarada bilmədi, həqiqətə uyğun deyil. Çünki müxtəlif etnosların yaşadıqları bu geniş ərazidə onları birləşdirmək siyasəti qısa müddətə olsa da uğur qazanmış, Ağqoyunlu dövləti beynəlxalq münasibətlər orbitinə daxil olmuşdu.

Ağqoyunlu dövlətinin başlıca rəqibi Fateh II Mehmet idi. Buna görə də Uzun Həsənin xarici siyasət xəttində başlıca yeri Osmanlı Türkiyəsi ilə münasibətlər tuturdu. II Mehmetin Kiçik Asiyanın şərqini istila etməsi Ağqoyunlu dövləti üçün ciddi təhlükə yaratmışdı. Türkiyə sultanı Cənubi Qafqazı, xüsusilə Azərbaycanı tutmağı planlaşdırırdı.

Ağqoyunlular Trabzon - yunan dövləti ilə hələ XIV əsrin ortalarından dostluq əlaqəsi yaratmışdılar. Trabzon imperatorları Osmanlı Türkiyəsinə qarşı Ağqoyunlu dövlətinin müttəfiqi idilər. Ağqoyunlu Tur Əlibəyin oğlu Qutluq bəy, Qara Yuluq Osman bəy və Uzun Həsən Trabzon sarayı ilə qohum idilər. Ağqoyunlu dövlətinin yaradıcısı olan Uzun Həsən Trabzon imperatoru IV İohann Homnenin qızı Feodra ilə (Şərq mənbələri onu Dəspinə xatun adlandırırdılar) evlənmişdi. Uzun Həsən Dəspinə xatundan doğulan qızı Aləmşah Bəyimi bacısı oğlu Şeyx Heydərə ərə vermiş, Səfəvi hökmdarı Şah İsmayıl bu izdivacdan doğulmuşdur.

Ağqoyunlular Trabzona öz mülkləri kimi baxırdılar. Məşhur türk səyyahı Evliyyə Çələbi Trabzondan bəhs edərkən vaxtilə bu şəhəri "Azərbaycan hakimi Sultan Uzun Həsənin genuyalıların əlindən aldığını", Ağqoyunlu hökmdarının bu şəhərdə "böyük bir daş körpü saldırdığını" yazırdı. Trabzonun Ağqoyunlular üçün böyük iqtisadi-ticarət əhəmiyyəti var idi. Bu şəhər Ağqoyunlu tacirlərindən ötrü Qara dənizə oradan da Avropaya əlverişli çıxış yolu idi. Ağqoyunlu tacirləri burada ipək və başqa şərq malları almağa gedən, venesiyali və genuyalı tacirlərlə görüşürdülər. Ağqoyunlu tacirləri Trabzon vasitəsilə aparılan ticarətdən böyük gəlir götürür, bu şəhər vasitəsilə Krımdakı ticarət faktorları ilə əlaqə saxlayırdılar. Məhz buna görə də II Mehmet 1461-ci ildə Ağqoyunlu dövlətinə qarşı müharibəyə başlamazdan əvvəl Ağqoyunluların müttəfiqi Trabzon-Yunan imperiyası üzərinə güclü qoşun göndərmiş, yaranmış şəraitdə Uzun Həsən Trabzon imperiyasını müdafiə etmək məcburiyyətində qalmışdı.

Ağqoyunlularla osmanlılar arasında ilk döyüş 1461-ci il yayın əvvəllərində Qoylühisar döyüşü olmuşdu. Ağqoyunlular Osmanlı qoşununa ciddi zərbə vursalar da, osmanlıların hərbi baxımdan üstünlüyü Uzun Həsəni sülh bağlamağa vadar etmişdi. Yaranmış şəraitdə Uzun Həsən bütün Yaxın Şərqdə diplomat qadın kimi məşhur olan anası Sara Xatunu sultanın düşərgəsinə göndərmək qərarına gəlmişdi. Qaynaqların məlumatına görə, danışıqlar zamanı Sara Xatun və II Mehmet bir-birilərinə "ana" və "oğul" deyə müraciət edirdilər. Uzun Həsən Sara Xatunu Sultan II Mehmetin hərbi düşərgəsinə göndərərkən, qarşısına iki çətin vəzifə qoymuşdu. Əvvəla o, Osmanlı Sultanını Ağqoyunlular üzərinə hücum etmək fikrindən daşındırmalı idi. Çünki müharibədən yeni çıxmış Ağqoyunlu dövlətinə öz qüvvələrini səfərbər etmək üçün vaxt lazım idi.

Ağqoyunlu dövlətinə arxadan Qaraqoyunlu və Teymurilərin hücumu gözlənilirdi. Buna görə də Uzun Həsən Türkiyə ilə sülh bağlamağa çalışırdı. Digər bundan başqa, II Mehmet qərbdə yarımçıq qoyduğu işğalçılıq planlarını həyata keçirməyə tələsirdi. Sara xatun danışıqlar yolu ilə bu məqsədə nail oldu. Ikinci vəzifə daha çətin idi. Belə ki, Sara Xatun Sultan Mehmeti Trabzonu fəth etmək fikrindən daşındırmalı idi. Lakin sultan Trabzon-Yunan dövlətini Türkiyəyə qatmaq fikrindən dönmədi, onun başlıca məqsədi Avropa ilə ipək ticarətini Türkiyənin əlində cəmləşdirmək idi. Azərbaycanlı tədqiqatçılardan ilk olaraq Ə.Şahmalıyev Osmanlı-Ağqoyunlu rəqabətində ipək təcarətinin izlərini, erməni tacirlərinin bu prosesdə mənfur rolunu araşdırmış, Avropa diplomatiyasının Osmanlı-Ağqoyunlu rəqabətini düşmənçiliyə çevirmək planlarının elmi izahını vermişdi.

II Mehmet Trabzon üzərinə yürüşə ciddi hazırlaşmışdı. Lakin o, Uzun Həsənin arxadan hücumundan ehtiyat etdiyinə görə Sara Xatun başda olmaqla, Ağqoyunlu elçilərini də özü ilə apardı. Sara Xatunun səyləri heç bir nəticə vermədi. İki tərəfdən mühasirəyə alınan Trabzon şəhəri bir aylıq mühasirədən sonra, türklər

tərəfindən zəbt edildi. Bununla da, Qara dənizdə Genuya ilə rəqabət aparan mühüm ticarət mərkəzi süqut etdi. Yaranmış şəraitdə Sara Xatun öz gəlininin - Dəspinə Xatunun Trabzon taxtına varislik hüququnu irəli sürdü və bundan istifadə edərək Trabzon xəzinəsini sultanla bölüşüb geri qayıtdı.

Trabzon şəhərinin fəthi ilə Ağqoyunlu dövləti təkcə öz müttəfiqini deyil, həm də Avropaya iki mühüm çıxış yolundan başlıcasını itirdı.

Yaranmış şəraitdə Osmanlı dövlətinə həm şərqdən və həm də qərbdən zərbə endirmək üçün Uzun Həsən Avropa dövlətləri ilə əlaqələri genişləndirmək yolu tutdu. Osmanlı imperiyasının siyasəti Azərbaycanla Avropa ölkələri arasında tranzit karvan ticarətinə mane olur, bu yerlərdən keçirilib aparılan mallardan böyük gömrük alınırdı. Əslində bu gömrüyü bilərəkdən erməni tacirləri yüksəldirdilər. Istanbulda güclü iqtisadi mövqeləri olan erməni tacirləri Roma papası və xristian Avropa dövlətləri agentlərinin tapşırığı ilə Türkiyəyə qarşı olduqca məkrli və çoxşaxəli iş aparır, iki türk dövlətini bir-birinə qarşı qoymaq üçün dəridən qabıqdan çıxırdılar. Osmanlı işğalları Avropada Macarıstan, Habsburq krallığı, Venesiya, Roma papası, Neapol, Polşa üçün ciddi təhlükə yaradırdı. II Mehmetin gömrük siyasəti Avropa-Asiya tranzit ticarətinə mənfi təsir göstərir, Avropa ölkələri bu iki türk dövlətinin yaxınlaşmasına mane olur, onların arasında ziddiyyət salmağa çalışırdılar. Uzun Həsən isə bu diplomatiyaya lazımi əhəmiyyət vermir, Türkiyənin iştirakı olmadan Avropa ölkələri ilə bilavasitə ticarət əlaqələrini möhkəmləndirməyə çalışırdı. Təsadüfi deyildi ki, Uzun Həsən osmanlılara qarşı mübarizə aparan Qaraman bəyliyi, Kipr krallığı və Rodos feodal dövləti ilə də sıx əlaqə saxlayır, həmin ölkələri öz başçılığı altında Sultana qarşı atatürk koalisiyasında birləşdirməyə çalışırdı.

Ağqoyunluların Qərblə-Şərq arasındakı ticarətdə vasitəçilik edən Venesiya respublikası ilə əlaqələri daha geniş idi. 1463-cü ildən 16 ilə qədər davam edən (1463-1479) Venesiya-Türkiyə müharibəsinin başlanması bu əlaqələrin müntəzəm şəkilə düşməsinə səbəb oldu. 1463-cü il dekabrın 2-də Venesiya respublikasının senatında Osmanlı Türkiyəsinə qarşı Ağqoyunlu dövləti və Qaraman bəyliyi ilə ittifaqa girmək haqqında xüsusi məsələ müzakirə edilmiş, Venetsiya dojunun məsləhəti ilə bu məqsədlə iki missiya yaradılmışdı.

Venesiya hökumətinin elçiləri 1471-ci ilin payızında Uzun Həsənin sarayına gəldilər. bunların içərisində Katerino Zeno, İosafat Barbaro, Ambroco Kontarini və başqaları var idi. 1472-ci ildə Katerino Zeno Uzun Həsənin düşərgəsində Polşa və Macarıstan diplomatları ilə görüşdü.

1475-ci il mayın 30-da A.Kontarini İtaliya katolik monaxı Lüdviqlə görüşdü. Aparılmış diplomatik danışıqlar göstərdi ki, Ağqoyunlu dövləti osmanlılara qarşı mübarizədə Avropa ölkələrinin etibarlı müttəfiqi ola bilər.

Uzun Həsən atatürk koalisiyasının yaratmaq üçün öz elçiləri İsaq, Xoca Mirak, Hacı Məhəmməd, Həsən Əzən və Murad bəyi Avropa ölkələrinə, xüsusən Venesiyaya, Roma, Almaniya, Polşaya göndərir və danışıqlar aparırdı. Venesiya diplomatlarının sıfır qeydlərində onlarla birlikdə Moskva, Neapol, Roma, Burqundiya, Macar, Çex və Polşa elçilərinin də Uzun Həsənin sarayında olduqları göstərilirdi.

Təbrizdə Venesiya hökuməti ilə aparılan danışıqlar nəticəsində 1472-ci ilin yazında Türkiyə əleyhinə iki dövlət arasında hərbi ittifaq bağlandı. Müttəfiqlərin müvafiq planına görə 1472-ci ilin yazında Uzun Həsən Osmanlı Türkiyəsi üzərinə hücuma keçməli idi. Istedadlı Ağqoyunlu sərkərdəsi Mirzə Yusif xanın başçılığı altında 12 minlik qoşun Ərzincandan Qaraman istiqamətində irəliləyərək bir sıra parlaq qələbələrdən sonra Aralıq dənizi sahillərinə çıxdı. Lakin burada Uzun Həsənin ordusu üçün silah və artilleriya mütəxəssisi gətirməli olanlar Venesiya gəmiləri ilə rastlaşmışdı.

Venesiya respublikası Uzun Həsənin qələbəsindən və Türkiyənin ağır vəziyyətindən istifadə edərək əvvəlcədən razılaşdırılmış hərbi planın əksinə olaraq, gizli surətdə İstanbuldakı səfirlərinin vasitəsilə, dinc yolla Türkiyədən ticarət üstünlüyünü qoparmaq ümidi ilə rəqib tərəflə diplomatik danışıqlar apardı və beləliklə də müharibənin bütün ağırlığını Ağqoyunlu dövlətinin üzərinə düşdü. Bununla da II Mehmet öz rəqiblərini bir-birindən ayırdı.

Hərbi kəşfiyyatın köməyi ilə Ağqoyunlu qüvvələrinin çox hissəsinin hələ Toqqatdan geri qayıtmadığını və hərbi əməliyyata Uzun Həsənin başçılıq etmədiyini öyrənən. Osmanlı Sultanı şahzadə Mustafanın başçılığı altında Ağqoyunlulara qarşı 80 min nəfərlik qoşun göndərdi. Nəticədə Ağqoyunlu süvariləri Beyşehir yaxınlığında türklər tərəfindən məğlub edildilər, Qaraman osmanlılar tərəfindən fəth edildi.

Qışın düşməsi ilə bağlı hər iki tərəf hərbi əməliyyatları dayandırdı. Sultan II Mehmet öz elçisi ilə Uzun Həsənə məktub göndərərək, 1473-cü ilin baharında Ağqoyunlulara qarşı hücuma keçəcəyini bildirdi. Sultan əmin idi ki, Qaramanın tutulması ilə Ağqoyunlu dövlətinin Avropa ölkələri ilə əlaqəsi kəsilmişdir. Venetsiya ilə əldə olunmuş gizli razılaşmaya əsasən Türkiyə qərbdən hücum almayacağına təminat almışdı.belə ki, Venetsiya doju Venetsiya ilə Ağqoyunlular arasında Türkiyəyə qarşı imzalanmış müqavilənin mətnini türk diplomatlarına göstərməklə Uzun Həsənə xəyanət etmişdi. Odur ki, Sultan Osmanlı dövlətinin bütün hərbi qüvvələrini Ağqoyunlulara qarşı çevirmək qərarına gəlmişdi.

Osmanlı Sultanı 1473-cü ilin baharında güclü artilleriyanın müşayiət etdiyi ordu ilə Ərzincana tərəf hərəkət etdi. II Mehmet Uzun Həsənin Venesiyadan göndərilmiş odlu silahları almaq üçün Qaraman istiqamətində hücuma keçəcəyini bildirdi. (Əslində Venetsiya Uzun Həsəni növbəti dəfə aldatmışdı). Iki qorxulu düşməni Aralıq dənizi sahilində birləşməyə qoymamaq üçün Sultan Uzun Həsəni Anadolunun elə

şərqindəcə əzmək istəyirdi. Ərzincanda Uzun Həsən sultana qarşı tədbirlər görmüşdü. Ağqoyunlu hökmdarı düş-mən qüvvələrini əlverişsiz təbii şəraiti olan yerdə haqlamaq üçün irəli buraxdı. Osmanlılar Fəratın sağ sahili ilə Malatiyaya qədər irəlilədilər. Burada, çayın sol sahilində Ağqoyunlu qüvvələrinin mövqe tutduğu aydın oldu.

Beləliklə, o dövrün bir-birilə rəqabət aparan iki məşhur türk sərkərdəsi Uzun Həsən və sultan II Mehmet öz qoşunları ilə Fərat sahillərin-də qarşı-qarşıya dayandılar. Uzun Həsən keçmiş döyüş təcrübələrindən istifadə edərək, oğlu Uğurlu Məhəmmədin başçılıq etdiyi əsas qüvvələr Fəratın sahilində pusquda qoydu, başqa bir atlı dəstə isə hücum edə-edə Fəratı keçməli idi. Düşmən bu dəstəyə hücum etdikdə onlar geri çəkilməli, düşmən qüvvələrini Fəratın sol sahilinə çəkməli və Uğurlu Məhəmmədin qoşunları onları mühasirəyə almalı idilər. Uzun Həsənin bu hiyləsi baş tutdu. 1473-cü il avqustun 1-də Uzun Həsənin seçdiyi düzgün döyüş taktikası nəticəsində Ağqoyunlu süvariləri Türkiyə qoşununun zərbə qüvvəsini aldadıb Fəratın sol sahilinə keçirdilər və Malatiya döyüşü adlanan bu vuruşmada Türkiyə qoşunlarının zərbə qüvvəsi məhv edildi.

Bu məğlubiyyət osmanlı qoşununda intizamın pozulmasına və böyük ruh düşkünlüyünə səbəb oldu. Qələbə ümidini itirən Osmanlı sultanı döyüşdən sonra öz zabitlərindən birini sülh bağlamaq üçün Ağqoyunlu hökmdarının yanına göndərdi. Lakin Uzun Həsən II Mehmetin sülh təklifini rədd etdi.

Malatiya vuruşmasından on gün sonra, yəni 1473-cü il avqustun 11-də Ağqoyunlu süvariləri Ərzincanla, Ərzurum arasındakı Üçağızlı dərəsi adlanan yerdə II Mehmetin qoşunlarını qabaqladılar. Döyüşün planına görə həm qarşıdan, həm də cinahlardan hücum edən Ağqoyunlu atlıları Türkiyə qoşununu qəflətən yaxalamalı, onu dərədən düzə çıxmağa qoymamalı idi. II Mehmetin qoşunu geri çəkildikdə isə onu Uzun Həsənin özünün başçılıq etdiyi süvarilər qarşılamalı idi.

Uzun Həsənin məqsədini başa düşən II Mehmet bütün diqqəti ön cəbhəyə verdi və Otluqbel döyüşü osmanlıların qələbəsi ilə qurtardı.

Otluqbeli məğlubiyyəti ilə Ağqoyunlu dövlətinə ağır zərbə vuruldu. Ağqoyunlu dövləti Uzun Həsənin öz rəqibləri üzə-rində bir-birinin ardınca əldə etdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində ərazicə genişlənmiş və müvəqqəti güclənmiş-di. Bu dövlətin mövcudluğu onun apardığı qəsbkarlıq müharibələrinin nəticəsi ilə sıx bağlı idi. Xarici dövlətlərlə toqquşmalardakı kiçik bir uğursuzluq belə ölkə daxilindəki narazı qrupların mərkəzi hakimiyyətə qarşı fəallaşmasına səbəb oldu və Ağqoyunlu dövlətinin süqutunu sürətləndirirdi. İri feodalların, xüsusilə hərbi köçəri əyanların mərkəzi hakimiyyətə qarşı mübarizəsi canlandı.

II Mehmet Otluqbeli döyüşündən sonra Avropa dövlətləri ilə əlaqələrini genişləndirməyə xüsusui fikir verən Ağqoyunlu dövlətinə qarşı növbəti müharibəyə hazırlaşırdı. O, Xorasan hakimi Hüseyn Baykaraya məktub yazaraq Ağqoyunlu dövlətini aradan qaldırmaq üçün iki tərəfdən hücuma keçməyi təklif etmiş, lakin cavab almamışdı. Buna görə də sultan atasına qarşı qiyam qaldırmış və məğlub olmuş Ağqoyunlu hökmdarının oğlu Uğurlu Məhəmmədi İstanbulda böyük təntənə ilə qarşıladı, qızı Gövhərxan sultanı Uğurlu Məhəmmədə ərə verdi. Bu izdivacdan Uğurlu Məhəmmədin Gödək Əhməd adlı bir oğlu oldu. II Mehmet Uğurlu Məhəmmədi bir qədər hərbi qüvvə ilə Sivasa Azərbaycan-Türkiyə sərhədinə hakim təyin etdi. II Mehmet bu izdivacla Ağqoyunlu hökmdarının ölümün-dən sonra sülalə qohumluğu vasitəsilə Azərbaycan taxtına sahib olmaq niyyətində idi.

Ağqoyunlu hökmdarının apardığı aramsız müharibələr dövlətin iqtisadi özülünü sarsıtmış, daxili ziddiyyətləri son həddə çatdırmışdı. Xalq kütlələri dövlətin xarici siyasətindən narazı idilər. Çünki müxtəlif ölkələrlə aparılan bu müharibələrin əsas ağırlığı ilk növbədə onların çiyinlərinə düşürdü. Ağır vergi və mükəlləfiyyətlərdən, habelə feodal özbaşınalıqlarından əziyyət çəkən kəndlilərdən tutmuş sənətkarlara, xırda tacirlərə və şəhər əhalisinə qədər hamı narazılıq edirdi.

Buna baxmayaraq, Osmanlı imperiyasının Avropadakı düşmənləri Ağqoyunlu dövlətinin Türkiyəyə qarşı müharibəyə qızışdırmağa və onu Uzun Həsənin əli ilə boğmağa çalışırdı. Ağqoyunlular Misir sultanlığı ilə münasibətləri səhmana sala bilmədilər ki, bu da onların qüvvəsinin iki hissəyə parçalanmasına səbəb oldu. Təsadüfi deyildi ki, Misir sultanı Uzun Həsənin Türkiyə əleyhinə ittifaq bağlamaq təklifini qəbul etmədi və Ağqoyunlu hökmdarına qarşı onun oğlu Uğurlu Məhəmmədə hərbi qüvvə ilə yardım göstərdi. Türkiyənin əleyhinə olmalarına baxmayaraq, Gürcü knyazları da Türkiyəyə qarşı Ağqoyunlu hökmdarı ilə əlbir hərəkət etməkdən boyun qaçırdılar. Uzun Həsən 1474-1477-ci illərdə Gürcüstana yürüş etdi, Tiflis və Qori, eləcə də ölkənin mühüm hissəsi Ağqoyunlular tərəfindən işğal olundu. Uzun Həsənin gürcü hakimi VI Baqratla bağladığı sülhə görə (1477), Tiflis daxil olmaqla Şərqi Gürcüstan Ağqoyunlu dövlətinin hakimiyyəti altına düşdü. Ağqoyunlu hökmdarı gürcü knyazlarından 16 nün dukat bac alaraq sərkərdə Xəlil bəy Bəktaşini Tiflisə canişin təyin etdi və Təbrizə qayıtdı.

Uzun Həsən Gürcüstan səfəri zamanı hərbi qüvvələrin mühüm bir qismini Misir sultanlığına qarşı göndərmişdi. Ağqoyunlular 1477-ci ildə Amid və Urfa (döyüşlərində) yaxınlığında məmlüklər üzərində parlaq qələbə çaldılar, Urfa Ağqoyunluların əlinə keçdi.

Uzun Həsənin ölümündən sonra, Yaqub Mirzənin dövründə (1478—1490) Ağqoyunlu ordusu Süleyman bəy Bican oğlunun başçılığı altında 1480-ci ildə osmanlıları məğlub etdi. Türkiyə sultanı II Bəyazid (1482-1512) sülh təklif etməyə məcbur oldu. Beləliklə, Misir və Osmanlı sultanları nəinki Cənubi Qafqazı heç

Azərbaycanı işğal edə bilmədilər.

Yaqub Mirzə Uzun Həsənin siyasətini davam etdirərək Şirvanla dostluq əlaqələrini saxlayırdı. Şirvanşah Fərrux Yasarın qızı ilə evlənərək bu əlaqələri daha da möhkəmləndirdi. Lakin atasının Səfəvilərin Ərdəbil hakimiyyətinə olan müsbət meylini qoruyub saxlamadı. Çünki getdikcə qüvvətlənən bu hakimliyi o özü üçün təhlükə hesab edirdi. Ona görə də Ərdəbil hakimliyi ilə də Ağqoyunlular arasında ziddiyyət başlamış və bu çox tezliklə hərbi-siyasi qarşıdurmanı şərtləndirmişdi.

Ağqoyunlu dövlətinin qüdrəti və nüfuzu nəinki Avropa dövlətlərini, habelə Şərqdə Teymurilərin və Misir Sultanlarının, Şimalda Rusiyanın diqqətini cəlb edirdi. Rus çarı III İvan Qızıl Ordaya qarşı mübarizə aparmaq üçün Ağqoyunlularla ittifaq bağlamağa çalışırdı. Mənbələrdə III İvanın Ağqoyunlu dövlətinə göndərdiyi 200 nəfərlik elçilik, Uzun Həsənin Polşa kralına göndərdiyi üç məktub haqqında maraqlı məlumatları qoruyub saxlamaqdadır. Bütün bunlar qısa, lakin keşməkeşli tarix yaşamış Ağqoyunlu dövlətinin beynəlxalq əlaqələrinin konturlarını müəyyənləşdirməyə imkan verir.

**Mövzuya dair suallar**

1. Ağqoyunlu dövlətinin meydana gəldiyi tarixi şəraitin səciyyəsi
2. Ağqoyunluların Qaraqoyunlulara, Teymurilərə və Osmanlı Türkiyəsinə qarşı hərbi-siyasi mübarizəsi.
3. Uzun Həsənin xarici siyasəti və Avropa diplomatiyası
4. Uzun Həsənin antitürk koalisiyasının yaradılması uğrunda mübarizəsi.
5. Ağqoyunlu-Rusiya münasibətləri
6. Ağqoyunlu-Türkiyə müharibələrinin Yaxın Şərqdə siyasi vəziyyətə təsiri
7. Avropa diplomatiyasının iki türk dövləti arasında düşmənçiliyin dərinləşdirilməsində rolu
8. Ağqoyunlu dövlətinin dünya siyasətində yeri

**Ədəbiyyat**


1. Azərbaycan tarixi. III cild, B., 1999
2. Beynəlxalq münasibətlər tarixi fənninin proqramı (bakalavr pilləsi üçün) B., Şirvannəşr, 2005
3. Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti. B., 1993
4. İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. B., 1958
5. Mahmudlu J. Azərbaycan diplomatiyası. B., 1996
6. Məmmədov C. Azərbaycan tarixi. Dərslik. B., 2004
7. Европа в средние века: экономика, политика, культура. Сб. статией. М., 1972
8. История Византии, т.III, М., 1983
9. Османская империя: могущество и гибель. Исторические очерки. М., Наука, 1990
10. Очерки истории Турции. М., 1983
11. Путещественники об Азербайджане. Вып. 1. Б., 1961


## XI Mövzu
## Son orta əsrlər və yeni dövrün əvvəllərində beynəlxalq münasibətlər

Məlum olduğu kimi, XIV-XVI yüzilliklər nəinki Avropada, habelə Şərqdə də mərkəzləşmiş feodal dövlətlərinin yaranmasında mühüm mərhələ hesab edilir. XVI əsrdə İngiltərə hələ ancaq adalardan ibarət olub, 3,5-4 mln əhaliyə malik idi. Ancaq burada mərkəzləşmiş feodal dövlətlərinin yaranması 1066-cı ilə aid edilir. Son dərəcə böyük əraziyə və əhaliyə malik Rusiya imperiyası beynəlxalq münasibətlərdə dominantlıq etmək imkanlarına malik deyildi və Avropa siyasətinə təsir göstərmirdi. XVI əsr Avropasının əsas dövlətləri Fransa və İspaniya sayıla bilər.

Habsburqlar imperiyasının ayrı-ayrı qolları Alman knyazlıqlarını da əhatə edirdi. Dünya siyasətinin müəyyənləşməsində Portuqaliyanın da rolu vardır. 1492-ci ildə Amerikanın kəşfi, 1498-ci ildə Ost-Hində gedən dəniz yolunun açılması tezliklə dünya ticarətinin yaranmasını şərtləndirdi. Dünya ticarəti ilə birlikdə isə təbii ehtiyatdan məhrum, qiymətli metalların təsadüfən müəyyənləşdiyi Avropada zənginləşmə prosesi başladı. Bu proses burjua istehsalını şərtləndirdi.

Tədqiqatçılardan Tarle qeyd edirdi ki, Avropanın beynəlxalq münasibətlərdə dominantlıq etməsi öz başlanğıcını coğrafi kəşflər nəticəsində yaranmış dünya ticarətindən götürür. Kapitalist istehsalı üsulunun ən qədim vətəni İtaliya hesab edilir. İlk burjua millətçilərinin vətəni də buradır. Burjua istehsalı nəticəsində tarixi vətən anlayışı və onun qorunması leksikona daxil olur. Dövlətlərin ticarət marağı meydana gəlir. Dəniz yollarının açılmasının digər nəticəsi dünya müstəmləkə sisteminin yaranması oldu. Lakin müstəmləkə siyasətində İngiltərə Portuqaliya, İspaniya və Fransadan sonra sonuncu yerdə gəlirdi.

XIV-XV əsrlərdə Portuqaliyanın tədricən Afrikanın qərb sahilləri boyu apardığı ekspedisiyalar artıq XVI əsrin ortaları üçün Portuqaliya mülklərinin Yaponiyanın sahillərinə qədər yayılmasına gətirib çıxardı.

1516-cı il də Habsburqlar sülaləsindən olan I Karlın hakimiyyətə gəlməsi Avropanın siyasi həyatına təsir göstərdi. Belə ki, Maksimilian Habsburqun nəvəsi olan I Karl nə özünə qədərki, nə də özündən sonrakı nəsillərin malik olmadığı şöhrəti qazandı və 1519- cu ildən etibarən Müqəddəs Roma imperiyasının imperatoru seçildi. Məhz bu dövrdə İspan imperiyasının şimal hüdudları İngiltərə və Skandinaviyaya qədər Avropa ölkələrini, qərb hüdudları isə qərb və Mərkəzi Amerikanın şərqini əhatə edirdi.

V Karl adını almış bu imperatoru "günəş kral" adlandırırdılar. XIX əsrin ortaları etibarən məlum oldu ki, iki qat diplomatiyadan istifadə və dini müharibələrin qızışdırılması V Karlın adı ilə bağlıdır. Dünya ticarəti meydana gəldikdən sonra onun mərkəzinə çevrilən Antverpen və Amsterdam şəhərlərini illik gəliri İspaniyanın tarixi ərazilirinin verdiyi illik gəlirə bərabər idi. 17 Niderland əyaləti isə İspaniyanın bütün müstəmləkələrinin verdiyi gəlirə bərabər gəlir verirdi.Habsburqların möhləknaməsində cənubi Almaniya burjuaziyasının və tacirlərinin böyük rolu olmuşdur.Almaniyanın ən qədim bankir evi sayılan Fuggerlər bankir evi İspan Habsburqları ilə qadın xəttilə qohum idi.

Cənubi Almaniya bankir evinin başçısı Yakov Fugger 1523-cü ildə V Karla yazmışdır:" İndi hamıya gün kimi aydındır ki, əgər mənim köməyim olmasaydı Siz Müqəddəs Roma imperiyasının imperatorunun tacını başınıza qoya bilməzdiniz." Müqəddəs Roma imperiyasının imperatoru o demək idi ki, İspaniyadan başlamış Almaniya, İtaliya, Amerika koloniyaları, Niderland, Neopolitankrallığı və Sardiniya onun hakimiyyətində idi.

Ancaq V Karl bununla kifayətlənmir, bütün katolik dünyasını birləşdirmək istəyirdi. Məhz onun dövründə inkvizisiya məhkəməsi bütün Avropada tüğyan etmişdi. Məhz onun göstərişilə, katoliklərlə protestantlar arasında başlamış dini müharibələr 20 ildən çox Avropada bütün dövlətlərarası münasibətlərə təsir göstərmiş, V Karlın yaratdığı intriqalar olduqca çətinliklə aradab qaldırılmışdı. Məhz V Karl bu nəhəng imperiyanı saxlamaq üçün başlıca diqqəti diplomatik işə və intriqaya vermişdi.

Lakin Roma papasının hesabdan silinməsi V Karl diplomatiyasına ağır zərbə vurdu. Papanın təhriki ilə həm Almaniyada, həm Fransada katoliklər öz fəaliyyətlərini İspan kralına qarşı çevirmişdilər. Lakin 1555-ci ildə dini müqavilə imzalanarkən məlum oldu ki, protestantları və katolikləri bir-birinin üzərinə salışdıran məhz V Karl olmuşdu.

Məlum olduğu kimi, müstəqilliyə can atan alman protestant feodalları 30-cu illərdən etibarən Şimali kalden ittifaqı adlanan ittifaq yaratmışdılar. V Karl bu ittifaqı dağıtmaq üçün protestant knyazlıqlarının ən qüvvətlisi saksoniyalı Morislə ittifaqa girmiş və nəticədə Şimal kalden ittifaqının üzvləri darmadağın edilmişdi. 1526-1555-ci illəri əhatə edən və dini müharibə adı altında tarixə düşən mübarizənin gedişində əvvəlcə nəticə V Karlın xeyrinə idi.Roma papası protestantları lənətlədiyinə baxmayaraq V Karlın güclənməsi müqabilində protestant alman knyazlarına dəstək verməyə başladı. Şimal Kalden ittifaqının qüvvələri dağıldıqdan sonra saksonlu Morisə əhəmiyyət verməyən V Karl çox tezliklə səhv etdiyini başa düşdü. Belə ki, V Karldan üz döndərən Moris yenidən köhnə ittifaqın üzvləri ilə birləşdi.Roma papasının maddi və hərbi yardımı ilə V Karla qarşı hərbi əməliyyatlara başladı. Beş ildən çox davam etmiş mübarizə 1555-ci il Ausburq dini müqaviləsi ilə başa çatdı.

Roma papasının protestantların tərəfinfində durması nisbi idi. Papa əslində onları yiretik – dindən dönmüş hesab edir və onlara qarşı mübarizədən imtina etmirdi. 1572-ci ilin avqustunda Varfolomey gecəsində iki min nəfərdən çox protestantın qırılması papanın protestantlara qarşı münasibətini göstərirdi.

Diplomatik leksikona "V Karlın sirri" adı ilə daxil olmuş ifadə onu iki qat diplomatiyadan və intriqadan istifadə etməsi ilə bağlı olmuşdur. Sonralar kardinal Rişelye tərəfindən son dərəcə geniş şəkildə tətbiq olunmuş bu siyasətin mahiyyəti- V Karl diplomatları seçərkən onlara etimad göstərmir, diplomatın fəaliyyətinə nəzarət etmək üçün mandatı I-dən daha güclü olan II şəxsi göndərirdi. Əgər I şəxs satqınlıq etsəydi, II – diplomat onu kənarlaşdıraraq danışıqları özü aparırdı. Əgər əksinə olsaydı, I göndərilən şəxs V Karlın etibarlı şəxslərindən olardı.

V Karlın diqqət verdiyi məsələlərdən biri də nigah diplomatiyası idi. Bu yolla İspan Habsburqları öz sülalərini digər sülalələrlə qohum edir və bu qohumluğu siyasi təsir vasitəsinə çevirirdilər. İspan kralının az yaşlı oğlu Filip bu məqsədlə özündən 16 yaş böyük İngiltərə şahzadəsi Mariya Mediçiyə nişanlamış, lakin nigah baş tutsa da, fransız səfirinin işə qarışması nəticəsində onun uğursuzluğu təmin olundu. İngiltərə parlamentinin hazırladığı nigah müqaviləsinə görə, İspaniya İngiltərədən Fransaya qarşı mübarizə üçün istifadə etməməli, İngiltərənin mənafeyinə zərər gətirməməli, Mariya Mediçi vəfat edərsə, İngiltərə taxt-tacına iddialı olmamalı idi. Nigah müqaviləsində İngiltərə kralı ifadəsi ingilis kraliçasının əri ifadəsi ilə əvəzlənmişdi. Bu da son nəticədə II Filippin və onun varisinin İngiltərə taxt-tacına olan iddiasına son qoymuşdu.

Ausburq sülh müqaviləsi imzalandıqdan sonra V Karl hakimiyyətdən əl çəkərək monastıra getmiş, oğlu II Filipdə xarici və daxili siyasətdəki uğursuzluqdan yaxa qurtara bilməmişdi. Çünki Fransanın beynəlxalq aləmdə qüvvələr müvazinətini pozması ona qarşı kontinental Avropanın birləşməsi ilə nəticələnmişdi.

İspaniyanın belə ağır vəziyyətə düşməsi ilk növbədə onun həddindən artıq dərəcədə qüvvətlənməsi və bu zəmində Avropa ölkələrinin koalisiyası ilə qarşılaşması nəticəsində yaranmışdı. V Karlın istifadə etdiyi üsullara üstünlük verən Rişelye xarici siyasətdə daha ehtiyatlı hərəkət etmiş, Fransaya qarşı düşmən dövlətlərin koalisiyasının yaranmasına imkan verməmişdi.

XIV-XVII əsrlər Fransız mütləqiyyətinin formalaşması dövrü kimi göstərilir. Belə ki, XI Lüdovik və onun varislərindən sayılan VIII Karl, XII Lüdovik, I Fransisko və II Henrnin hakimiyyəti illərində İspan Habsburqları tərəfindən sıxışdırılan Fransa yardım əldə etmək üçün alman protestant knyazları və türk sultanları ilə ittifaqa girməyə çalışırdı. Türk sultanı Süleyman Qanuninin 1526-1529-cu illər Viyana yürüşü bununla əlaqədar idi. Sultanın vəziri İbrahim paşa Fransa ilə yaradılacaq ittifaqa Türkiyənin Avropada uğurlarının başlanğıcı kimi baxdığını gizlətmirdi.

Məhz buna əsasən 1535-də Türk sultanı fransız kralı I Frasisklə sonralar “kaputiliyasiya müqaviləsi adını almış ittifaq və ticarət müqaviləsi” imzaladı. Müqaviləyə görə, Türkiyə boğazlarına gələn Avropa gəmiləri Fransız bayrağı qaldırmalı idilər. Kapitulyasiya müqaviləsi diplomatik leksikona qeyri-bərabər hüquqlu müqavilə kimi daxil olmuşdur. Kapitulyasiya iki fəsildən ibarət müqavilənin fəsillərinə verilmiş ad idi. Fransanın şərq ölkələri ilə ittifaqa böyük ehtiyacı var idi.

Məlum olduğu kimi IV Xaç yürüşündən sonra 1261-ci ilə qədər Konstantinopol Avropa səlibçiləri ilə mübarizə aparmış və onların qovulmasına nail olmuşdur. Elə bu dövrdə Anadoluda, Kiçik Asiya torpağında Osmanlı knyazlarının əsası qoyulur və 1299-cu ildə Osmanlı dövləti təşəkkül tapmışdı. Bu dövrdən Türkiyə Avropa siyasəti meydanına çıxmış, Ərəbistandan, sonra isə 2-ci dəfə Balkanlardan Prineyə qədər əraziləri nəzarəti altına aldı. Artıq XV əsrin II yarısı və XVI əsrdə Türkiyə Avropa siysətində əsas faktora çevrilmlşdi. Təsadüfi deyildir ki, Avropa monarxları bu faktorun təsiri ilə Fransaya münasibətdə mövqelərini dəyişmiş, Fransa da Antitürk koalisiyasına qatılmışdı.

Rüşelyenin hakimiyyətinə qədər Fransa ayrı-ayrı məqəmlara baxmayaraq Avropadakı siyasətdə o qədər də güclü rola malik deyildi. XVI əsr Avropa diplomatiyasında İngiltərə də özünəməxsus şəkildə rol oynayirdı. Artıq bu dövr üçün İngiltərədə 2 palatalı parlament monarxiya quruluşu bərqərar olmuşdu. Lakin İngiltərə mütləqiyyəti heç vaxt İspaniya və Fransadakı kimi qüvvətli olmamış, məhz buna görə İngiltərə parlamenti ilə Kral arasında daxili və xarici siyasət məsələlərində güclü siyasi antoqonizmə yol verilməmişdi. Kral həmişə xüsusi xarici siyasət məsələləri ilə bağlı problemlərə nəzarəti parlamentlə bölüşmüşdü.

XVI əsrin II yarısından etibarən İngiltirə ilə İspaniya arasında Avropa hegemonluğu uğrunda mübarizə kəskin xarakter aldı. İngilis dəniz quldurları İspaniyanın Amerikadan taladığı sərvətlərə şərik çıxırdı.

Ingilis diplomatiyası İspaniyanın Avropa hegomonluğunun köklərini qazırdı. Yaranmış şəraitdə İspaniyada dəfələrlə İngiltərəyə qarşı xaç yürüşü keçirilməsi ideyası baş qaldırmışdı. İspaniya bu mübarizənin əvvəlində diplomatik fəaliyyətə üstünlük vermiş və 1558-1603-cü illərdə İngiltərə kraliçası olmuş Yelizaveta Stüartı fiziki baxımdan məhv etmək üçün konkret plan hazırlamışdı. Məlum olduğu kimi, Yelizaveta Stüartın atası VII Henrix həm Şotlandiya varisinin qızına, həm də İngiltirə şahzadəsi Anna Bolyuna nigahlı idi və hər nigahdan bir qızı doğulmuşdu.

Şotlandiyada hakimiyyət uğrunda mübarizənin gedişində Yelizavetanın bacısı Mariya Mediçi Şotlandiyadan qaçmağa məcbur oldu. Londonda məskunlaşdıqdan sonra çox tezliklə II Yelizavetaya qarşı müxalifətin mərkəzi fiquruna çevrilmişdi. İspaniya ilə aparılan yazışmaların bir neçəsinin ələ düşməsi İngiltərədəki hakimiyyət uğrunda mübarizənin konturlarını müəyyənləşdirməyə imkan verdi. Bununla belə, nə xəfiyyə xidməti, nə də parlamentin müvafiq strukturları Yelizavetanı öz bacısını edam etməyə sövq edə bilmədi.

Yaranmış şəraitdə Mariyanın həqiqətən Yelizavetaya düşmən olmasını sübut etmək üçün parlament bir sıra diplomatları səfərbər etdi. Bunlardan biri də Uol Sinqem idi. Müxtəlif Avropa dillərində danışan, gözəl xəttatlıq qabiliyyəti olan diplomatik ustalığa malik Uol Sinqem tezliklə Mariyanın hazırladığı qəsdin üstünü açdı və Yelizavetanın göstərişi ilə Mariya Mediçi edam olundu.

Ingiltərə öz müstəsna mövqeyindən çıxış edərək Avropa siyasətinə fəal şəkildə təsir göstərməyə çalışırdı. Təsadüfi deyil ki, İspaniya tərəfindən sıxışdırılan Fransa bu məsələdə İngıltərənin müttəfiqinə çevrildi. 1588-ci ildə İspaniyaya məxsus məğlubedilməz Armadanın La-manş boğazında dağıdılması ilə Avropanın tarixində Fransanın hegemonluğu dövrü başladı.

XVI əsrdə dünya siyasi meydanına çıxan dölətlərdən biri də çar Rusiyası idi. 1480- ci ildə Monqol imperiyasının əsarətindən qurtaran Rusiyanın xarici siyasətində 3 əsas vəzifə dururdu:

- Baltik dənizinə çıxmaq;
- Qara dənizdən çıxmaqla isti dənizlərə çıxış əldə etmək;
- Avropa sərhədlərinə yaxınlaşmaq.

Qərb dövlətlərinin Rusiya haqqında məlumatları epizodik xarakter daşıyır. Monqollar Rusiyadan qovulandan sonra Sileziyalı tacir Nikolay Peppel Rusiyada olur və burada gördüklərindən heyrətə gəlir. O, geri qayıtdıqdan sonra gördüklərinə dair kitab yazmış və Avropada sensasiya yaratmışdı.O vaxta qədər Avropada hesab edilən Böyük Moskva knyazlığı Polşanın qəyyumluğu altındadır. Üç il sonra Moskvaya qayıdan Peppel Müqəddəs Roma imperiyasının agenti kimi imperatriçanın məktubunu gətirmiş və rus çarı III İvanla görüşmüşdür.Peppel III İvana təklif etdi ki, o, Roma papasından kral adı almaq üçün xahiş etsin. Lakin III İvan imtina etmiş,yalnız IV İvan Qroznı papadan çar titulunu almışdı.

Müqəddəs Roma imperiyası ilə münasibətlərin qurulması üçün hətta Bizans şahzadəsi Zoya Paleoqolun Rusiya sarayına gəlin köçməsi də Rusiya ilə imperiya arasında və ya Roma papası arasında münasibətlərə start

vermədi. Doğrudur, III İvan İtaliyaya-papanın yanına öz nümayəndəsini göndərdi. Onu burada elə "təmtəraqla" qarşılamışdılar ki, IV İvanın çar titulu aldığı dövrə qədər, Roma ilə Rusiya arasında münasibətlər kəsilmişdi.Müasir Avropa müəlliflərindən biri yazırdı ki, son 500 il ərzində Rusiya özünün Avropaya aid olub-olmamasını müəyyənləşdirə bilməmişdir. Xarici siyasəti qarşısında Avropa ilə bağlı konkret vəzifələr duran əski və müasir Rusiya özünü bu dilemmadan qurtara bilməmişdi.

Rusiyanın papa İtaliyası ilə diplomatik münasibətlərinin olmaması bu dövlətin heç də beynəlxalq münasibətlər orbitindən kənarda qalması demək deyildi. XVI əsr üçün Rusiyada xarici siyasət orqanları təşəkkül tapmış, Boyar dumasında bu sahə konkret fəaliyyət növünə çevrilmiş, Rusiyanın paytaxtında xaricilər üçün sonralar "Kitay qorod" adını almış məhəllə meydana gəlmişdi. Lakin Avripa ölkələrindən fərqli olaraq, Rusiyaya gələn səfirlər, elçilər, tacirlər əhalidən təcrid olunmurdular. Onların çar sarayında qəbulu, ticarət üçün imtiyazların verilməsi, cavab elçilik heyətlərinin göndərilməsi mərasim forması almışdı.

Avropadan fərqli olaraq Rusiyada qonşu ölkələrlə sülalə nigahlarına geniş yer verilirdi.Bir qayda olaraq elçi tacirlər Rusiyada olarkən onların gələcək xidmətindən istifadə edilməsi üçün təkliflər verilirdi. Məsələn: İngiltərənin Moskva şirkətinin agenti Antoni Cenkinson rus çarının yanında xidmətə götürülmüş və ona Rusiya adından Səfəilərlə danışıqlar aparmaq və müqavilə imzalamaq səlahiyyəti verilmişdi. Cenkinson analoji səlahiyyətləri Mərkəzi Asiya dövlətlərindən və Səfəvilərdən də almışdı.

Rusiyanın beynəlxalq aləmə çıxması İvan Qroznunun fəaliyyəti ilə sıx bağlıdır. Rusiyanın I Pyotrun hakimiyyətinin sonuna qədər xarici siyasət strategiyasından çıxmayan iki vəzifə vardır.

- Baltik dənizi vasitəsilə Avropaya çıxış əldə etmək.
- Qara dəniz boğazları vasitəsilə dünya okeanına çıxmaq.

Bu iki vəzifənin reallaşması Rusiyanı Avropanın ayrılmaz hissəsinə çevirdi.1547-ci ildə İvan Qroznı Roma papasından çar titulunu aldı. Bundan sonrakı rus çarlarının hamısı həmin titulu daşıyirdı. Rurikoviçlər sülaləsinin son nümayəndəsi olan IV İvan Qroznı Rusiyanın türk-tatar ünsüründən təmizlənməsində mənfur rol oynamış şəxsiyyətlərdən biri idi.Bu yolda o, yaxın məsləhətçisi və uşaqlıq dostu Andrey Kurpskini də qurban vermişdi. IV İvanın 1564-1572-ci illərdə həyata keçirdiyi "Opriçnina" siyasəti Rusiyanın xarici siyasətində olduqca böyük dəyişikliklərə gətirib çıxardı.Ancaq bu dəyişikliklər Rusiyanın xeyrinə olmadı.

Məlum olduğu kimi, Polab slavyanları vaxtilə Baltik dənizinin sahilində məskunlaşmış, sonralar bu ərazilər Kiyev Rus dövlətinin himayəsində olmuşdu.Lakin Rusiyanın zəifləməsi üzündən Baltik dənizinin sahillərində İsveçin, finlərin yaşayış məskənləri peyda olmuş və bu ərazi XIII-XIV əsrdən etibarən İsveç krallığının tərkibinə daxil olmuş və bu ərazilərin geri qaytarılması uğrunda mübarizə müharibəyə gətirib çıxarmışdı. Rusiyanın xarici siyasətində Livoniya müharibəsi mühüm yer tuturdu.

İvan Qroznunun dövründən etibarən Boyar dumasının içərisindən seçilmiç xüsusi istedada malik ayrı-ayrı adamlar Avropaya və şərq ölkələrinin sarayına elçi kimi göndərilirdi.Əsas məqsəd Rusiyanın kənd və meşə təsərrüfatı mallarına alıcı tapmaqdan ibarət olurdu. Bismark sonralar yazırdı ki, 3 ilə yaxındır ki, Rusiyanın aqrar sahələrinin məhsullarının başlıca alıcısı alman knyazlıqlarıdır. Sonralar Almaniya ilə Rusiya arasında başlanmış gömrük müharibəsi bu zəmində baş vermişdi.

IV İvanın dövründən etibarən meydana gəlməkdə olan prikazçılıq sistemi xarici siyasət və xarici ticarət məsələlərini əhatə edirdi. Xarici siyasətlə əsasən puşkar və yam prikazları paralel məşğul olurdular. Çox keçmədən bu sahəyə qoşulan və ordu quruculuğunu həyata keçirən daha iki prikaz meydana gəldi.

**Mövzuya dair suallar**

1. Son orta əsrlərdə dünyanın siyasi xəritəsi.
2. Böyük coğrafi kəşflər və beynəlxalq nəticələri.
3. Dünya ticarəti və ticarət marağının yaranması.
4.Dünya müstəmləkə sisteminin əsasının qoyulması.
5.XIV-XVI əsrlərdə Avropada dövlətlərarası münasibətlər
6.İspaniyanın dəniz hegemonluğuna son qoyulması.
7.V Karlın Avropa diplomatiyası. İkiqat diplomatiya.
8.Türkiyənin Şərq və Qərb siyasəti. (XV-XVII əsrlərdə)
9.Rusiyanın dünya siyasət meydanına çıxması.

**Ədəbiyyat**


1. Документы по истории внешной политики Франции. М., 1963
2. Европа в средний века. Экономика, политика, культура. Сб. статей. М., 1972
3. Гуревич А.Я. Походы викингов. М., 1966
4. История Византии. Т. 1, т.2, т.3. М., 1967
5. История Средних веков. Учеб. М., Просвещение, 1986
6. История Франции, т.1, М., 1972
7. Заборов М.А. Крестове походы. М., 1956

8. Люблинская А.Д. Франса в начале XVIIв.(1610-1620). Л., 1959
9. Люблинская А.Д. Французский абсолютизм первой трети XVIIв. М-Л., 1965
10. Сапрыкин Ю.М. Английская колонизация Ирландии в XVI – нач. XVIIв. М., 1958
11. Чистозванов А.Н. Нидерландская буржуазная революция XVIв. М., 1958
12. Штокмар В.В. Очерки по истории Англии XVIв. Л., 1957

## XII Mövzu
## Avropa diplomatiyası XVII əsrdə

Avropa ölkələri və Türkiyə XVII əsr üçün feodal monarxiyası mərhələsinin ən yüksək fazasına daxil olmuşdu. Formalaşmış mütləq monarxiyalar konkret xarici siyasət strategiyasına və taktikasına malik olurdu ki, biz bunu hazırda dövlət marağı adlandırırıq. XVII əsr üçün Avropa dövlətinin marağı və bunu həyata keçirmək üçün vasitələr öz rəngarəngliyi ilə seçilirdi. Bir tərəfdən bu sahə ilə bağlı nəzəri hüquqi baza formalaşır, digər tərəfdən isə Avropa monarxları sülalə nigahlarının geniş tətbiq olunduğu şəraitdə bu maraqlar daxilində çıxış edirdilər.

Fransa qarşısında Dövrün siyasi nəzəriyyəçilərindən və dövlət xadimlərindən sayılan Syulli ”Dövlət təsərrüfatının prinsipləri” əsərində aşağıdakı üç vəzifəni konkretləşdirirdi:

-dövlətin fəaliyyət mexanizmini müəyyənləşdirir;

-Fransanın ətrafında yaranmış siyasi tarazlığı qiymətləndirir,

-Fransanın xarici siyasəti qarşısında duran başlıca vəzifələrə diqqəti cəlb edirdi.

Bu dövrdə artıq Fransa kralı IV Henrixin hakimiyyəti illərində Fransa Avropa siyasətində liderliyi həyata keçirməyə müvəffəq olmuşdur.

1589-1610-cu ildə hakimiyyətdə olmuş IV Henrixin baş köməkçisi və strategi olan Syülli fəlsəfi - hüquqi traktadında belə bir məqama toxunurdu ki, Fransa Böyük Karl imperiyasının varisidir və buna görə də Avropa siyasətində liderliyi əldən verməməlidir. Lakin Syülli müşahidılərinə əsasən belə bir fikrə gəlirdi ki, ərazi iddiasında olmasından asılı olmayaraq Fransa öz ərazilərinin həddindən artıq genişlənməsi kimi təhlükəli risqə getməməlidir. Müəllifə görə, Əgər dövlətin qüdrəti müəyyən sərhəd daxilindən çıxarsa, düşmən dövlətlərinin koalisiyası ilə üzbəüz gələ bilər. Fransanın qüdrəti artıqca, onun Avropada hegemonluq mübarizəsi gücləndikcə problemin nəzəri-fəlsəfi cəhətləri müzakirə obyektinə çevrilirdi. Düşmən dövlətlərinin koalisiyasından ehtiyat edən Syülli “Böyük düşüncə”əsərində yazırdı ki, Avropa müharibələrdən,sarsıntılardan qurtulmaq istəyirsə, Fransanın bayrağı altında birləşməlidir. Bu ideya Fransa kral sarayının prokuroru Pyer Dübuanın irsindən bəhrələnirdi. Vaxtilə Dübua Avropada 12 dövlətin yaranmasını, bunların 6-nın respublika, 6-nın monarxiya olmasını arzu edirdi. O, həm də Avropa monarxlarının Fransa monarxının hakimiyyətini qəbul etməsini vacib şərt kimi göstərirdi.

Bu dövrdən etibarən “dövlət” marağı anlayışının konkret məzmunu formalaşmağa başlayırdı. “Dövlət marağı” dedikdə, elə bir ideya nəzərdə tutulur ki, bu ideyaya görə dövlətin sərhədləri xaricində elə bir şərait təmin olunmalıdır ki, bu həmin dövlətin mövcudluğu üçün təhlükə yaratmasın.

Fransa krallarından IV Henrix “dövlət marağını” son dərəcə ciddi şəkildə reallaşdıran hökmdarlardan biri kimi tarixdə qalmışdır.Onun xarici siyasət xəttində iki məqsəd güdülürdü:

- birincisi, Habsburqların qüdrətini sarsıtmaq.

- ikincisi, Fransanın ətrafında siyasi müvazinəti bərpa etmək və saxlamaq.

IV Henrix “siyasi müvazinət” dedikdə, “dövlət marağına” təhlükə törədən, sərhədlərə təhlükə törədən faktorların olmamasını nəzərdə tutmuşdur. Bu dövrdə Avropanı siyasi sarsıntılarla müşayət edən başlıca hadisələr: İspaniya vərəsəliyi və 30 illik müharibə ilə bağlı olmuşdur. Təsadüfi deyildir ki, fransız krallarının sonrakı nəsilləri də IV Henrixin siyasətini davam etdirmiş, lakin xarici siyasətdə Avropa və şərq istiqamətini ayırmışlar.

Fransız krallarından biri 1535-ci ildə Türkiyə ilə imzalanmış müqaviləni 1604-cü ildə təzələmiş və ona xüsusi bənd əlavə olunmuşdu.Həmin bəndə görə, Fransanın ticarət gəmiləri Qara dəniz boğazından keçə bilər və gömrük xərcləri ödənilərkən müəyyən imtiyazlar əldə edə bilər. Analoji müqavilə dörd il əvvəl İngiltərə ilə imzalansa da, lakin İngiltərəyə icarəyə götürdükləri ölkələrin gəmiləri ilə bağlı bu imtiyazlardan istifadə şamil edilməmişdi.

Fransanın xarici siyasəti öz klassik məzmununa kardinal Rişelyenin hakimiyyəti dövründə malik oldu. Rişelye öz dövrün müasirləri kimi kilsə təhsili almış, müxtəlif kilsə vəzifələrini yerinə yetirmiş və 1614-cü ildə Baş ştatlara nümayəndə seçildikdən sonra siyasi karyerası başlamışdı. Rişelye “Siyasi vəsiyyətnamə” əsərində hakimiyyətə gəlişinin məqsədlərini izah edərək yazırdı:”Mənim əsas məqsədim qədim Qalliya torpaqlarında yeni Qalliyanın, yəni Fransanın siyasi yüksəlişinə nail olmaqdı.” Öz məqsədlərini iki hissəyə bölən Rişelye yazırdı.“Mənim birinci məqsədim kralı yüksəltmək, ikinci məqsədim krallığı əzəmətli etməkdir.”

Artıq XVII əsrin əvvəlləri üçün fransız mütləqiyyətinin daxili və xarici siyasət məsələləri iki orqanın vasitəsilə həyata keçirilirdi. Başlıca orqan Kral Şurası idi.Kral buraya hər 3 təbəqənin seçilmiş adlı-sanlı nümayəndələrini daxil etmişdi. Ikinci orqan gizli Kral Şurası idi.Bu orqan müxtəlif vaxtlarda 5,7,9 nəfərdən ibarət olmuş, lakin onun üzvlərini heç kəs tanımırdı. Dövlətin daxili və xarici siyasəti ilə bağlı strategiya və taktika məsələləri gizli Kral Şurasının prereqativi idi. Bu orqan müttəfiqləri və rəqibləri müəyyənləşdirərək konkret fəaliyyət diapazonunu müəyyənləşdirirdi.

Yeddi illik müharibə dövrünə aid “diplomatik inqilab” Rişelyenin dövründə başladı. XVII əsrin I yarısımda Fransanın hərbi və siyasi uğurları Rişelyenin adı ilə bağlıdır. 1618-də hakimiyyət elitasına daxil olan

və gənc kralın regentinə hamilik edən Rişelye 1630 -cu ildən etibarən Birinci nazir postunu əlində cəmləşdirmiş və 1642-ci ilə qədər bu vəzifəni davam etdirmişdir. Rişelye Fransanın ərazi bütövlüyü uğrunda amansız mübarizəsi ilə məşhur idi.

Hələ XIV əsrdə Fransanın cənub əyalətlərinə Roma papasının təşkil etdiyi xaç yürüşlərindən sonra burada öz fəaliyyətini bərpa etmiş və tarixə Hugenot respublikası adı ilə daxil olan dövlət yaranmışdı. Hugenotların iqamətgahı okean sahilindəki Tulon şəhəri ingilis hərbi mütəxəsislərinin köməyi ilə alınmaz qalaya çevrilmişdi. Rişelye artıq mövcudluğu yüz ili keçmiş Hugenot respublikası ilə mübarizəyə bütün Fransanın qüvvələrini cəlb etmiş və özü 13 ilə yaxın bu ərazi uğrunda mübarizə aparmışdı. Rişelye siyasi "Vəsiyyətnamə"əsərində yazırdı:" Hugenont respublikası dövlət içərisində dövlət olub Fransanın ərazi bütövlüyünü parçalayır və onun dövlət maraqlarına təhlükə yaradır."

Dənizdən və qurudan alınmaz olan Tulon şəhərinin 1629 –cu ildə tutulması ona səbəb oldu ki, gizli Kral Şurası Rişelyeyə "generalisisimus" hərbi dərəcəsini verdi .

Rişelye Fransada duelin ən məşhur pərəstişkarlarından biri və eyni zamanda onu qanunla qadağan edən şəxs idi. Rişelye yazırdı ki, fransız zadəganları mütləqiyyətin şah damarıdır. Onlar müharibə meydanlarında qan tökməlidir. Dueli qadağan etdikdən sonra münasibəti müəyyənləşdirmək üçün yenidən həmin üsula müraciət edən öz yaxın dostu Butvili Paris meydanında yeddi metr hündürlükdə dar ağacından asdırmışdır.

Rişelyenin Fransanın mədəniyyətində və mətbuatında əvəzsiz xidmətləri olmuşdur. Onun dövründə "Fransa xəbərləri" adlı Avropada ilk qəzet çap olunub.Rişelyenin diplomatik yüksəlişində onun yaratdığı ənənələrin ,məktəbin çox böyük rolu olub .Rişelye diplomatik məktəbinin yetirmələri olan Fankan, Jozef Ata Şarnasse kimi diplomatlar bütün Avropada məşhur idilər.

İspan kralı V Karla məxsus olan diplomatik üslubdan istifadə edən Rişelye xüsusilə İngiltərə ilə münasibətlərdə kifayət qədər ehtiyatlı və ardıcıl idi. Onun diplomatik fəaliyyəti 30 illik müharibə dövründə xüsusi əhəmiyyətə malik olmuşdu. Mövcud tədqiqatlarda 1618- 1648-ci illəri əhatə edən 30 illik müharibə 5 dövrə bölünür.

1.1618-1624-cü illər
2.1624-1628-ci illər
3.1628-1631-ci illər. (İtalyan dövrü)
4.1631-1635-ci ilər.
5.1648-ci ilə qədər.

Rişelyinin diplomatik ustalığı nəticəsində bütün Avropanın bir-birinə qarşı vuruşduğu dövrdə Fransa hərbi əməliyyatların iştirakçısı olmamış, öz siyasətini hərbi sahədə İsveç vasitəsilə həyata keçirirmişdi. Yalnız IV mərhələnin sonlarına doğru vəziyyət dəyişmiş, Fransa daha çox dividend götürmək üçün hadisələrə müdaxilə etməyə başlasa da, hərbi əməliyyatlara yalnız 1640-cı ildən etibarən qoşulmuşdu. Rişelye bir strateq kimi, Fransanın ətrafında yaranmış siyasi müvazinətin taleyinin parçalanmış alman knyazlıqları ilə bağlı olduğunu görürdü və buna görə də həmin parçalanmanın saxlanmasında ondan istifadə etdi. Otuz illik müharibə dövründən etibarən Rişelye Avropadakı siyasi vəziyyəti öyrənmiş və dəqiq müəyyən etmişdi.

Rişelyenin İsveç kralı Qustav Adolfla siyasi ittifaqı təsadüfi olmamışdı.Müharibənin hər ili üçün Fransa İsveçə 1mln.livrə yaxın pul vermiş, üstəlik Hollandiyadakı silah emalatxanadan Fransa vasitəsilə alınmış silahlar İsveçə daşınmışdı. Müharibənin Rişelye dövrü diplomatik kombinasiyaların mürəkkəbliyi ilə xarakterizə olunurdu.Belə ki. Rişelyenin yeritdiyi siyasi xətt nəticəsində təkcə hərbi əməliyyatlardakı nəticələr müəyyənləşmirdi.Habelə siyasi müvazinət üzərində bərqərar olacaq gələcək Avropa yaradılırdı.

Otuz illik müharibə hələ dini müharibə dövründə ərazi dəyişiklikləri ilə müəyyənləşən Avropanın siyasi xəritəsini cızmışdı.Məlum olduğu kimi, Frank imperiyasının yerində yaranmış dövlətlərin ikisi - Almaniya və İtaliya feodal parçalanmaları dövrünü yaşayırdı. Rişelyenin əsas məqsədi Prusiyanın Almaniyanı birləşdirmək siyasətini dəfn etməkdən ibarət olmuş və buna da nail olmuşdu.

Müasir geosiyasətdə "Vestfaliya sistemiVII anlayışından geniş istifadə olunur. Haushoferdən - Frans Mandolfa qədər siyasi realizm nəzəriyyəçilərinə görə, Vestfaliya sistemi müasir dünya qaydasının beşiyi başında durur. 1644-cü ilin iyulundan etibarən başlanmış danışıqlar - Vestfaliya müqaviləsi iki müqavilədən ibarətdir. 1644-cü ildən 1648-ci ilə qədər davam etmiş danışıqlar nəticəsində Osna Bruyk və Vestminister şəhərlərində III Ferdinandla onun rəqibləri arasında iki müqavilə imzalandı.

Müqavilənin şərtlərinə görə, Prussiya bir sıra ərazilərdən imtina edir, Fransa dini müharibələr dövründə əldə etdiyi şəhərlərlə yanaşı Almaniyanın qərb ərazilərindəki yeni torpaqlara sahiblənir, Şərqi və Qərbi Pomeraniyanın bir sıra ərazilərini ələ keçirir, bununla da Avropanın şimalında bütün su yollarına nəzarət etdirdi. Fransa Strasburqla yanaşı, Mets, Tul, Verden qalalarını tutdu ki, bununlada Lotaringiyada həmişəlik möhkəmləndi.

Vestfaliya sisteminin qurulması Vyana konqresi çağırılana qədər beynəlxalq münasibətlərdə başlıca qayda hesab olunurdu. Vestfaliya sistemi 3 dəfə-Vyana konqresi dövründə, 1918-20-ci il Versal sistemi dövründə və Yalta sisteminə uyğun dəyişmişdi.

XVII əsrin II yarısı fransız mütləqiyyətinin apardığı və ona uğur gəyirməyən 4 müharibə ilə səciyyələnir. Bütövlükdə yüzillikdə Avropanın siyasi xəritəsində yeni burjua respublikalarının yaranmasını şərtləndirən Hollandiya və İngiltərə burjua inqilabları baş vermiş və bunun nəticəsində Avropanın siyasi həyatı dəyişmişdi.

**Mövzuya dair suallar**

1. Avropanın siyasi xəritəsi XVII əsrin əvvəllərində.
2. "Dövlət marağı" anlayışının meydana gəlməsi. Syulli.
3. Fransanın Avropada hegemonluğu.
4. Otuzillik müharibə dövründə beynəlxalq münasibətlər.
5. Rişelye diplomatiyası.
6. Vestfaliya sisteminin yaranması.
7. Türkiyənin Avropa siyasəti
8. İngiltərə burjua inqilabı dövründə beynəlxalq münasibətlər.
9. Rusiyanın Avropa siyasəti.
10. XVII əsrin II yarısında Avropada beynəlxalq vəziyyət.

**Ədəbiyyat**


1. Английская буржуазная революция XVII века.. Т.1-2. М.,1954
2. Вайнштейн О.Л. Россия и Тридцатилетняя война М-Л., 1947
3. Ерофеев Н.А. Империя создавалась так. Английский колониализм в XVIII в. М., 1964
4. Зимин А.А. Россия на пороге нового времени. М., 1970
5. Иванова И.И. История международных отношений от античности до конца первой мировой войны. Владивосток, 2001. ч.1
6. Ивонин Ю.И. У истоков европейской дипломатии Нового времени. Минск, 1984
7. Ивонина Л.И., Прокопьев А.Ю. Дипломатия Тридцатилетней войны. Учеб. пособие. Смоленск, 1996
8. История политических и правовых учений. Средние века и возрождение. М., 1986
9. История Франции. Т.1. М., 1972
10. Колесницкий Н.Ф. Священная Римская империя: притязания и действительность. М., 1977
11. Лозинский С.Г. История папства. М., 1986
12. Люблинская А.Д. Франция при Ришелье. Л., 1982
13. Павлова Т.А. Кромвель. М., 1980
14. Поршнев Б.Ф. Тридцатилетняя война и вступление в нее Швеции в Московского государства. М., 1976
15. Тарле Е.В. Очерки истории колониальной политики западноевропейских государств (конец XV-нач. XIX вв.) М., 1965
16. Щеголев П.П. Очерки из истории Западной Европы. XVI-XVII вв. Л., 1938
17. Эпштейн А.Д. История Германии от позднего средневековья до революции 1848 г. М., 1961

## XIII mövzu
## XVII əsr Ingiltərə burjua inqilabı dövründə beynəlxalq münasibətlər

XVII əsrin 40 illəri üçün İngiltərə əsasən aqrar ölkəsi olaraq qalırdı. Lakin burjua münasibətləri də inkişaf etməkdə idi ki, bu inkişaf sənayesinin bütün sahələrin əhatə edirdi. Monufakturalar meydana gəlir, xarici ticarət intensiv inkişaf edir, yeni-yeni müstəmləkələr ələ keçirilirdi. 1600-cı ildə Ost-Hind, 1606-cı ildə iki Virginiya, 1614-cü ildə «Avanvturist tacirlər» xarici ticarət kompaniyaları meydana gəldi. Lakin İngiltərə mütləqiyyəti yaranmaqda və inkişaf etməkdə olan burjua münasiəbtələrinin yolunda əngələ çevrilmişdi.

İngiltərənin siyasi tarixində Stüartlar sülaləsinin böyük rolu olmuşdur. Bu sülalə 1603-cü ildə hakimiyyətə gəlmiş vaxtilə kraliça Yelizaveta tərəfindən edam olunmuş kraliçanın bacısı Mariya Stüartın oğlunun adı ilə bağlıdır. I Yakov Stüart 1603-1625-ci illərdə, I Karl isə 1625-1649-cu illərdə hakimiyyətdə olmuş, məhz onların dövründə İngiltərənin Rusiyadan tutmuş Hindistana qədər nəhəng ərazilərdə agent və şirkətləri təsis olunmuşdu.

Burjua inqilabı ərəfəsində Avropada başlıca rəqabət İngiltərə ilə Fransa və İngiltərə ilə İspaniya arasında gedirdi. Məlum olduğu kimi, XVI əsrin II yarısında Fransa kralı XII Lüdovikin Avropa diplomatiyası bilavasitə İngiltərənin maraqlarına toxunurdu. Lakin "məğlubedilməz armadanın" süqutundan sonra İngiltərənin Avropa siyasətində rolu artdı.Belə ki, "məğlubedilməz armadanın" aradan qaldırılması sonrakı 400 illik dövr ərzində İngiltərənin xarici siyasətində kredo olan belə bir fikrin formalaşmasına səbəb oldu ki, ayrılıqda götürülmüş ingilis donanması 2 güclü Avropa dövlətinin donanmasının gücünə bərabər olmalıdır.Yalnız 1921-22-ci illər Vaşinqton konfransından sonra həmin qayda nisbi dəyişikliyə məruz qaldı.

Tüdorların xarici siyasət xətti XVII yüzilliyin əvvəlləri üçün İngiltərənin dəniz gücünün olduqca artmasına səbəb olmuşdu ki, sonrakı geosiyasət nəzəriyyəçiləri bunu İngiltərənin varlanmasının başlıca faktoru kimi qeyd edirdilər. Stüartlar sülaləsi hakimiyyətə gəldikdən sonra 1603-1614-cü illər arasındakı dövrdə 6 beynəlxalq şirkət təsis olunmuşdu ki, bunlar Qvineyadan Cənub-şərqi Asiyayadək müxtəlif ərazilərə yayılmışdı. İngiltərənin sürətlə varlanması gedişində Siti bankların dövlət siyasətinə təsiri güclənmişdi. Bu bankın ən güclü bankirlərindən biri Pimi kral Pim adlandırırdılar ki, bu şəxs parlament müxalifətinin başında dururdu.

İngiltərədə yeni və köhnə rejim arasında mübarizə kralla parlament arasında mübarizədə təzahür edirdi. Parlament müxalifətinin görkəmli nümayəndələri Q.Hempdon, Pim, C.Eliton, E.Kok və başqaları idi (İngiltərə parlamentinin 500 nümayəndəsi var idi).

Dövrün başlıca tələblərindən biri xarici siyasətin idarə olunmasında parlamentin səlahiyyətlərinin artırılmasindan ibarət idi. Yeni təsis olunmuş agent və şirkətlər bütün imtiyazları əldə etməyə çalışırdılar və bu məqsədlə hakimiyyəyə təsir göstərirdilər. İngiltərədə daxili vəziyyətə gərginlik gətirən problemlərdən biri də formalaşmış ənənəyə əsasən fəal xarici siyasət yeritmək üçün daxili vergilərin artırılmasının bilavasitə parlamentdən asılılığı məsələsi idi.

Parlamentin icazəsi olmadan yeni vergilər qoya bilməyən I Karl 1628-ci ildə paramentin hazırladığı «Hüquqlar haqqında petisiya»nı imzalamağa məcbur oldu. Bu sənddə hakimiyyət sturkturlarının vəzifələri müəyyənləşdirilirdi. Lakin petisiyanı imzaladıqdan sonra yaranmış şəraitdə 1629-cu ildə kral parlamenti buraxdı və 1640-cı illədək onu bir daha çağırmadı.

Burjua münasibətlərinin inkişafı gedişində anqlikan kilsəsinin avtokefallığı məsələsi ciddi narazılıq obyektinə çevrilmişdi. İngilis puritanizmi məhz bu zəmində yüksəlməyə başlamış və hakimiyyət sturkturunda özünə güclü tərəfdar toplamışdı. 1637-ci ildə baş vermiş Şotlandiya üsyanı İngiltərənin başını elə qatmışdı ki, bundan istifadə edən Kardinal Rişelye 1638-ci ildən etibarən Fransanın hərbi əməliyyatlar meydanına çıxması üçün öz planını reallaşdırmağa başladı. Bu andan etibarən Otuzillik müharibənin həlledici mərhələsi başlandı.

1637-ci ildə Şotlandiyada üsyan başladıqdan sonra kral I Karl vəsait əldə edib üsyanı yatırmaq üçün 1640-cı ilin aprelində yenidən parlament çağırmağa məcbur oldu. Lakin cəmi üç həftədən sonra buraxıldığı üçün Qısamüddətli parlament adı ilə tarixə daxil oldu. Ölkədə mütləq monarxiyaya qarşı genişlənən siyasi mübarizə tezliklə I Karlı geri çəkilməyə vadar etdi. Şotland üsyanının yatırılması məsələsində kral parlamentdən dəstək qazana bilmədi. Çünki yeni vergilərin təyin olunması məsələsinə parlament razılıq vermədi.

Şotland üsyanı İngiltərəyə iki tərəfdən ciddi zərər verdi:

- birincisi, İngiltərə diplomatiyasının Avropa siyasətində mövqeləri zəiflədi.
- ikincisi, Şotland üsyanı İngiltərə puritanizminin güclənməsinə ciddi şəkildə start verməklə hakimiyyət elitasında bir sıra dəyişikliklərin əsasını qoydu. Tori və viqlərin yerində yeni parlament partiyaları olan independentlər və presvetrianlar formalaşmağa başladı.

Qısamüddətli parlamentdən xarici və vergi siyasəti ilə bağlı heç bir yardım görməyən kral 1640-cı ilin sentyabrında təkrar parlament çağırmağa məcbur oldu və bu parlament 1653-cü ilədək mövcud olmaq üçün Uzunmüddətli parlament adı aldı. Beləliklə, ölkədə kral və parlament tərəfdarlarından ibarət iki siyasi düşərgə yarandı.

Kral tərəfdarları başlıca olaraq royalistlər idi. Parlament tərəfdarlarının tərkibi yekcins deyildi: iki başlıca partiya formalaşmışdı: presveterianlar və indenendentlər.

- presveterianlar ölkədə mərkəzləşmiş kilsəni saxlamağa tərəfdar çıxır, lakin kilsənin başında kraldan asılı yepiskopun deyil, seçilmiş başçının (peresviterin) olmasını istəyirdilər. Presviter sinod qurultayları qarşısında məsuliyyət daşıyırdı.

- indenendentlər (müstəqillər) isə mərkəzləşmiş kilsəyə qarşı çıxır, hər bir kilsə icmasının müstəqilliyi ideyasını yayırdılar. Bu kilsənin başında kilsə icmasının üzvləri tərəfindən seçilmiş və səlahiyyətləndirilmiş başçı durmalı idi.

1641-ci ilin yazında xalq kütlələrinin inqilabi çıxışlarının genişlənməsi ilə əlaqədar parlament müxalifəti 204 bənddən ibarət «Böyük remonstrasiya» adlı sənədlə çıxış etdi. Burada kralın cinayətləri sadalanır, müstəqil daxili və xarici siyasət yeridilməsi, burjua azadlıqlarının verilməsi, müstəqil puritan kilsənin yaradılması tələb edilirdi.

Məlum olduğu kimi, ingilis puritanlarının ilk dəstələrindən biri hələ 1629-cu ildə «May çiçəyi» gəmisində Amerika sahillərinə yan almış və Virginiya ştatının əsasını qoymuşdular. Puritançılığın əlehdarı olan I Karl Roma papası ilə münasibətlərin kəsilməsini, yəni ingilis kilsəsinin müstəqilləşməsini cinayət hesab edirdi və bu məsələdə qarşıdurma xüsusi ilə gərgin xarakter almışdı.

Kralın parlament müxalifətini həbs etmək və parlamenti buraxmaq cəhdi boşa çıxdıqdan sonra başlıca tərəfdarlarının toplaşdığı şimal qraflıqlarına qaçmağa məcbur oldu və 1642-cim ilin avqustunda I Karl Nottinqemdə qara rəngli müharibə bayrağını qaldırdı. Vətəndaş müharibəsinin I mərhələsi başlandı (1642-1647). Vətəndaş müharibəsi dövründə İngiltərədə baş verənləri İspaniya və Fransa diqqətlə izləyirdilər. Fransız kralları ilə qohumluq əlaqələrinə malik olan Stüartlar Fransanın dəniz gücündən İngiltərədəki rəqiblərinə qarşı mübarizədə istifadə etmək arzusunda olduqlarını gizlətmirdilər və bu məqsədlə fransız kardinalı Mazarini ilə müvafiq danışıqlar da başlanmışdı. Müharibənin əvvəlində üstünlük I Karlın tərəfindən idi.

1642-ci ilin payızında Echill döyüşündə parlament ordusu əzildi, ona prestveteranlardan qraf Mançester və qraf Esseks başçılıq edirdi. 1644-cü ilədək üstülük kral ordusunun əlində idi.

Müharibənin gedişində Oliver Kromvelin (1599-1658) hərbi istedadı parladı. Orta zadəgan ailəsində doğulmuş Kromvel tezliklə independentlərin liderinə çevrildi və ordunu yenidən qurmağa müvəffəq oldu. 1644-cy ildə Marston-Mur döyüşündə parlament ordusu ilk böyük qələbə çaldı. Bu döyüşdən sonra Kromvelin əsgərləri "dəmirböyürlü" adlanmağa başladı. Orduda əvvəlcə 22 min, sonradan 70 min döyüşçü var idi. Baş komandan Tomas Ferfaksın başçılığı altında 1645-ci il iyunda Yeyzbi döyüşündə parlament ordusu tam qələbə çaldı. 1646-cı ilin yazında Kral Şotlandiyaya qaçmağa məcbur oldu, onlar isə kralı pulla parlamentə satdılar. Royalistərin sonuncu istingahları 1647-ci ilin martında süqut etdi.

Neyzbi döyüşündən sonra I Karlın arvadı Generetta başda olmaqla qohumları Fransada sığınacaq tapmışdılar.İngiltərədə vətəndaş müharibəsi dövründə Fransanın buradakı səfiri Karulle və İspaniyanın səfiri Don Allon Karden Kromveli öz tərəfinə çəkmək üçün öz xidmətlərini təklif edirdilər. Fransız səfiri Karulle Mazarinin tapşırığı ilə Kromvelə ittifaqla yanaşı böyük miqdarda pul, edam olunmuş kralın qohum-əqrəbasını və dəniz siyasətində müttəfiqlik təklif edirdi.

Təsadüfi deyildi ki, Fransanın adı Kromvelin imzaladığı Naviqasiya Aktında öz əksini tapmışdı. Aktda öz əksini tapmayan dövlətlər sırasında Hollandiya və İspaniyanın da adı vardı. Kromvel İspan səfirinin qardaşını özünü yaxşı aparmadığına görə camaat qarşısında edam etdirmişdi.

1645-ci ildə baş vermiş Neyzbi döyüşü təkcə İngiltərədə deyil, Avropada da siyasi vəziyyətə ciddi təsir göstərdi. Bu döyüşdən sonra Kromvelin həm hərbi, həm də siyasi gücü artdı. Kral tərəfdarları royalistlərin də puritanlar kimi, Avropaya və Amerikaya axını başladı. Doğrudur, Kromvel ölkə daxilində bir sıra cərəyanların müqavimətini də aradan qaldırmaq məcburiyyətində idi. Vətəndaş müharibəsinin I mərhələsi başa çatdıqdan sonra parlament Avropa siyasətində İngiltərənin rolunun bərpasına çalışırdı və bu məqsədlə konkret tədbirlər görülürdü.

Neyzbi döyüşündən sonrakı dövr ərzində siyasi səhnəyə Levellerlər partiyası da çıxdı. Onun lideri Con Lilbern (1614-1657) idi. Bu partya xırda burjua ideloqu olub aşağı təbəqələri və əsgərləri əhatə edirdi. Lakin hərəkatın ömrü qısa oldu və 1649-cu ildə başa çatdı. Parlament Lilbernin qovulması haqqında qanun verdi və o, Şotlandiyaya getdi. Az sonra Cerard Uinstenlinin (1609-1652) başçılıq etdiyi həqiqi levellerler- diggerlər hərəkatı (digger- yerqazan deməkdir) başlandı.

Həbsdə saxlanılan kralın qaçması ölkədə vəziyyətin yenidən gərginləşməsinə səbəb oldu. Tampl qalasından qaçan kral yenidən öz tərəfdarlarını və parlamentdən narazı qüvvələri toplamağa müvəffəq oldu. 1648-ci ilin fevralında cəmi üç ay davam edən II vətəndaş müharibəsi başladı. I Karl şotlandları da öz tərəfinə çəkərək arxanı möhkəmləndirdi və mübarizəni davam etməyə başladı. Lakin Kromvel dərhal genişlənməkdə olan hadisələrə reaksiya verdi və parlament ordusu avqustda Preeton yaxınlığında royalistlərin və şotlandların birləşmiş qüvvələrini darmadağın etdikdən sonra müharbə başa çatdı. Kral I Karl əsir götürüldü və ciddi şəkildə mühafizə edilməyə başladı. Bu vaxtdan etibarən kralın taleyi ilə bağlı parlament müzakirələrinə start verildi.

Kromvelin kralın edam edilməsi ilə bağlə təklifi müqavimətlə qarşılandıqdan sonra parlamenti prestveterianlardan təmizləmək üçün 1647-ci il 6 avqustda və 1648-ci il 5 dekabrda sayı 140 nəfərə çatan presveterianlar parlamentdən qovuldu. Bu hadisə tarixə «Prayd təmizlənməsi» adı ilə daxil oldu.

Gərgin müzakirələrdən sonra 1648-ci ilin dekabrında parlament kralı mühakimə etmək üçün tribunal yaratdı. Tribunal kralı vətənə xəyanətdə ittiham edərək ona ölüm hökmü çıxardı və I Karl 1649-cu ilin yanvarın 30-da edam edildi. 1649-cu il mayın 19-da İngiltərə respublika elan edildi. 1653-cü ildə Uzunmüddətli parlamentin qalıqları qovulduqdan sonra xarici siyasət məsələləri başlıca olaraq Kromvelin əlində cəmləşdi.

İngiltərə tarixinin 1649-1653-cü illər dövrü I respublika (İndependent respublikası), 1659-1660-cı illər dövrü isə II respublika dövrü kimi səciyyələnir. Birinci respublikanın dövründə xarici siyasət məsələləri tam şəkildə Kromvelin əlində cəmləşmişdi. Onun Avropa siyasətində üç ölkə: Fransa, İspaniya və Hollandiya mühüm yer tuturdu.

Kromvel Hollandiyadan İngiltərəyə ilhaq olunmağı tələb edirdi. İspaniyadan isə inkvizasiyaya son qoyulmasını və Amerika qitəsi ilə ticarətə başqa ölkələrə, o cümlədən də İngiltərəyə də imkan yaradılmasını tələb edirdi.

Bu dövrdə İngiltərədəki İspaniya səfiri Don Alonso Karden və Fransa səfiri Karulle böyük diplomatik iş aparırdılar. Edam edilmiş kralın Fransaya qaçmış arvadı Qenrietta-Mariya və ona bağlı saray dairələri Fransanın İngiltərə ilə yaxınlaşmasına göstərdikləri müqavimətə baxmayaraq, uzun sürən danışıqlardan sonra 1655-ci ildə Fransa ilə müqavilə bağlandı. Çünki kardinal Mazerini Kromvelə pul, edan olunmuş kralın ailəsini və ittifaq təklif etmişdi.

Müqvilə hər iki ölkənin Avropa siyasətində ziddiyyətlərin yumşalmasına, İspaniya və Niderlanda qarşı isə birgə siyasətin yeridilməsinə imkan verirdi.

İngiltərə ilə fəal rəqabət aparan Hollandiyanı sıradan çıxarmaq üçün Kromvel Naviqasiya Aktı adlı sənəd imzaladı (1651-ci il 5 avqust). Sənədə görə, İngiltərəyə mallar ancaq ingilis gəmilərində və adı akta düşmüş ölkələrdən gətirilə bilərdi. Hollandiyanın aktdan ciddi narazılığı 1652-54-cü illər ingilis-holland müharibəsinə gətirib çıxardı ki, bu müharibədə Hollandiya əzildi və təslim oldu. Sülhün şərtinə görə, Hollandiyanın çoxsaylı ticarət donanması İngiltərə bayrağı altında hərəkət etməli idi. Birləşmiş əyalətlərin Baş ştatlarının iclasında dövlət xadimlərindən biri obrazlı şəkildə demişdi ki, bunban sonra biz də, dəniz də ingilislərin himayəsindəyik.

1651-ci il 5 avqust Naviqasiya Aktından sonra İspaniya ciddi şəkildə narazılıqlarını bildirdi. İspaniyanın Kromveldən Franasaya qarşı istifadə etmək cəhdləri uğursuzluqla nəticələnməsi iki ölkə arasında münasibətlərin gərginləşməsini şərtləndirdi. Kromvel Kardeniyadan inkivizasiyaya (kilsə məhkəməsi) son qoyulmasını və Vest-İndiyaya (Amerika) gedən dəniz yolundan maneəsiz istifadə olunmasını tələb etdikdə səfir cavabında - bu mənim hökmdarımın iki gözünü istəmək kimi şeydir, -cavabını vermişdi.

1656-cı ildə İspaniya ilə başlanan müharibə Kromvelin ölümündən sonra qələbə ilə başa çatdı. Qul alverinin mərkəzi olan Yamayka adası İngiltərənin əlinə keçdi. İspaniya Avropa siyasətindən sıxışdırılıb çıxarılmağa başladı.

İngiltərə burjua inqilabının 1653-1659-cu illər dövrü Kromvel protektoratlığı dövrü adlanır. 1653-cü il 16 dekabrda Kromvel respublikanın lord-protektoru (müdafiəçisi) elan olundu. Respublikanın konstitusiyası qəbul edildi. Ölkə başında general-mayor dayanan dairələrə bölündü. Respublikanı Dövlət Şurası və parlament idarə edirdi. 1657-ci ilin mayında protektorluq irsi elan edildi və lordlar palatası bərpa edildi. 1658-ci ilin payızında Kromvelin ölümündən sonra 1658-1959-cu illərdə oğlu Riçard Kromvel lord -protektor oldu.

1650-ci ildə İngiltərəni İspaniya və Fransa tanıdılar. 1649-1652-ci illərdə Kromvel İrlandiyaya yürüş edərək üsyanı qan içində boğdu, Dublin şəhəri qarət edilərək yandırıldı (üsyan İrlandiyada 1641-ci ildə başlamışdı).

Kromvel 1653-cü illərdə İsveç, Danimarka və Portuqaliya ilə ticarət müqavilələri imzalanmışdı.

1659-cu il mayından 1660-cı ilin may ayına qədər davam edən II respublika dövründə İngiltərəni parlament təkbaşına idarə edirdi. 1660-cı il fevralın 3-də Şotland ordusunun komandanı general Monk ordusu ilə Londona daxil oldu, dövlət çevrilişindən sonra yeni parlament seçkiləri keçirildi. Apreldə parlament I Karlın oğlu II Karlı taxt-taca bərpa etdi. (1660-1685). Oğlu II Yakov (1658-1688) katolik idi. II Yakov və oğlu II Karl Stüartların əvvəlki qeyri-məhdud hüquqlarını bərpa etməyə çalışırdılar. Lakin hər iki kralın yeritdiyi siyasi xətt çox tezliklə İngiltərər parlamentində və hakimiyyət elitasında yeni müxalifətin meydana gəlməsini şərtləndirdi, ölkədə ictimai-siyasi vəziyyət yenidən olduqca kəskin xarakter aldı.

Parlament partiyaları – torilər, viqlər və anqlikan kilsəsi Fransanın dəstəyindən istifadə edərək Stüartların qadın xətti ilə qohumlarından olan II Yakovun qızı Mariyanın əri protestant Oranlı Vilhelmə (o Hollandiyanın ştathalteri idi) müraciət edərək onu İngiltərəyə kral taxtına dəvət etdilər. 1688-ci il dekabr ayında Vilhelm (1688-1702) Londona daxil oldu və II Yakov tələsik şəkildə Londonu tərk etmək məcburiyyətində qaldı.

Hakimiyyəti tamamilə ələ aldıqdan sonra 1689-cu il oktyabr ayında Vilhelm «hüquqlar haqqında» bill adlı parlamentin və kralın hüquqlarını müəyyənləşdirən sənəd imzaladı. 13 bənddən ibarət billdə xarici siyasət fəaliyyətinin bütün sahələri parlamentin prereqativinə çevrilirdi. Həmin sənəd İngiltərə parlament monarxiyasının təsis aktı hesab edilə bilər. Beləliklə, 1688-ci il «şanlı inqilabı» adlanan bu hadisə ilə də İngiltərə burjua inqilabı başa çatdı. İngilis tarixşünaslarınının «şanlı inqilab» adlandırdığı epizod 1688-1689-cu

illərin hadisələri ilə bağlı olmuşdur.

İngiltərə burjua inqilabının qələbəsi İngiltərənin dünya birinciliyi yoluna çıxmasını təmin etmişdi. İngiltərə tarixşünaslığı belə bir məsələdə həmrəydir ki, XVII əsrin sonları üçün inqilabdan sonra keçən 40 il ərzində İngiltərə dünyanın ən böyük müstəmləkə dövlətinə çevrildi.

**Mövzuya dair suallar:**

1. İngiltərə burjua iqilabı ərəfəsində beynəlxalq vəziyyət
2. Stüartların xarici siyasəti
3. İrlandiyanın əsarət altına alınması və Şotlandiya üsyanının İngiltərənin siyasi həyatına təsiri
4. İngiltərə parlamentinin xarici siyasəti
5. I və II vətəndaş müharibələrinə Avropa dövlətlərinin münasibəti
6. İndependent burjua-zədagan respublikasının xarici siyasəti
7. Kromvelin xarici siyasət kursu və apardığı müharibələr
8. Stüartlar monarxiyasının bərpasına Avropa dövlətlərinin münasibəti
9. İngiltərənin ticarət və müstəmləkə maraqları
10. İngiltərənin dünya birinciliyinə nail olması və beynəlxalq nəticələri

**Ədəbiyyat**


1. Английская буржуазия революция. XVII в./ под ред. Е.А.Косминского и Я.Л. Левицкого: т.1-2, М., 1954
2. Барг М. А. Кромвель и его время. М. 1960
1. Законодательство Английской революции 1640-1660гг. / сост. Н.П. Дмитриевский М- Л., 1946
2. История Ирландии / под ред. Л.И. Гольмана - М. 1980
3. Лабутина Т. Л. Политическая борьба в Англии в период реставрации Стюартов. 1660 - 1681. М, 1982
4. Лавровский В. М., Барг М. А. Английская буржуазная революция. М., 1958
5. Лавровский В.И. Сборник документов по истории Английской буржуазной революции XVII века. М., 1973
6. Мортон А. Л. История Англии. Пер. с англ. М. 1950
7. Новая история стран Европы и Америки. ч.1, 1640-1870, М., 1978
8. Павлова Т. А. Вторая английская республика (1059-1660) -М, 1974
9. Павлова Т. А. Кромвель. М., 1980
10. Поршнев Б. Ф. Франция, Английская революция, европейская политика в середине XVII в. М. 1970
11. Сапрыкин Ю. М. Ирландское восстание XVIIв. М., 1967
12. Сборник документов по истории нового времени: Буржуазные революции XVII-XVIII вв. М., 1990

## XIV Mövzu
## 1775-1783-cü illər burjua inqilabı dövründə ABŞ diplomatiyası və beynəlxalq münasibətlər

### 14.1. Kolonilayarda müstəqillik uğrunda mübarizəni şərtləndirən amillər

Böyük coğrafi kəşflərin ən mühüm nailiyyətlərindən biri də Amerika qitəsinin dünyaya açılmasıdır. Məkum olduğu kimi ispan səyyahı Xilkovun 1492-ci ildə Amerika qitəsinin kəşf etsə də buranın Hindistan hesab etmiş yeni qitə kəşf etdiyini bilməmişdir. Florensiyada dəniz səyyahı Ameriqo Vespuççi 1499-1504-cü illərdə Cənubi Amerikanı kəşf etmiş və buranı Yeni Dünya adlandırmışdır. Qitə 1507-ci ildən etibarən onun şərəfinə Amerika adlandırılmağa başlamışdı.

XVI əsrdən etibarən İspaniya, Fransa, İngiltərə və Niderland dövlətləri tərəfindən Şimali Amerikanın məskunlaşmasına, burada kolonoyalar yaradılmasına başlandı.

Şimali Amerikada ilk daimi ingilis yaşayış məskəni 1607-ci ildə Ceyms çayı sahillərində meydana gəlmiş gələcək Virginiya ştatı idi. 1620-cı ildə Kod burnunda "May çiçəyi" adlı ingilis gəmisi Ingiltərədən qalmış puritanların ilk qrupunu sahilə çıxardı. Puritanlar Yeni Plimuş məskəninin əsasını qoydular.

Tədricən Atlantik okeanı sahillərində 13 ingilis koloniyası meydana gəldi: 1) Şimal koloniyaları (Yeni İngiltərə): Nyu-Hempşir, Maccaçusets, Konnektikut, Rod-Aylend; 2) Mərkəzi kolonilayar: Nyu-York, Pensilvaniya, Nyu-Cersi, Delaver; 3) Cənub koloniyaları: Virginiya, Merilend, Şimali Karolina, Cənubi Karolina və Corciya.

Koloniyaçılar özləri ilə buraya burjua münasibətləri gətirmişdilər. Şimal koloniyalarında burjua münasibətləri, cənub koloniyalarında isə feodal münasibətləri aparıcı rol oynayırdı. Amerikanın həqiqi sakinləri olan irokez və alqonkin qəbilələri (cəmi 200 min nəfərə yaxın) sıxışdırılırdı. Ucuz işçi qüvvəsi kimi zənci kölələrdən istifadə olunurdu. Zəncilərin qitəyə gətirilməsi 1619-cu ildən başlanmış və sonralar olduqca sürətlənmişdi.

Koloniyaların idarə edilməsi demək olar ki, ingilis kralı tərəfindən həyata keçirilirdi. O koloniyaların çoxuna qubernatorlar təyin edirdi ki, bütün icra və məhkəmə hakimiyyəti onların əlində olurdu.

Artıq XVIII əsrin ortaları üçün kolonistlərin əksəriyyəti özünü amerikanlı hesab edirdi. Burjua inqilabı ərəfəsində amerikan maarifçiliyi ideyaları geniş yayılmışdı. Bu maarifçilik ingilis və fransız maarifçiliyi ideyalarının təsiri altında formalaşmışdı. Amerikan maarifçiliyinin başlıca postolatı təbbi hüquqlar və ictimai saziş nəzəriyyələri idi ki, bu nəzəriyyələr koloniyaların müstəqillyinə haqq qazandırırdı.

Amerikan maarifçiliyinin görkəmli nümayəndələri Bencamin Franklin (1706-1790), Tomas Ceferson (1743-1826) və Tomas Peyn (1737-1809) idilər. B.Franklin maarifçi – filosof, siyasətçi və iqtisadçı idi. O, yaranmaqda olan cəmiyyətin fərdiyyətçiliyə əsaslanan əxlaq kodeksini əsaslandırmış, qul əməyini pisləmişdi. T.Ceferson və T.Peynin maarifçilik ideyaları isə inqilab illərində parlamışdı.

XVIII əsrin 60-cı illərində Şimali Amerika koloniyalarında kütləvi azadlıq hərəkatı başlandı. Ingiltərə hökumətinin aqrar və sənaye sahəsində qoyduğu məhdudiyyətlər, 1765-ci ildə verilmiş gerb rüsumu qanunu kolonistlərin səbrini tükəndirmişdi. Koloniyaçılar İngiltərədə gətirilmiş gerbli kağızları məhv etmiş, gerb rüsumu yığanları isə soyunduraraq qatranlamışdılar. Ingiltərə hökuməti gerb rüsumunu ləğv etməyə məcbur olsa da koloniyalarının istismarını gücləndirmək üçün müxtəlif vasitələrdən əl çəkməmişdi.

XVIII əsrin ortaları üçün Amerikan maarifçiliyi bazasında formalaşan milli mənlik şüuru, düşüncəsi, milli özünü təsdiq problemi qitədə müstəqillik hərəkatının başlanmasına təkan verdi. Amerikan koloniyalarının milli-azadlıq hərəkatının yüksəlişində əsası XVIII yüzilliyin ortalarında qoyulmuş "azadliq oğulları" təşkilatının əhəmiyyəti böyük oldu. Bu dövrdə hələ milli müstəqillik ideyası formalaşmamışdı. 1775-ci il üçün 13 ingilis koloniyasında 2,5 mln. nəfərdən yuxarı ingilis, 500 mindən çox zənci-kölə yaşayırdı və ingilis əhalisi bilavasitə ingilis hakimiyyət orqanlarının yaratdıqları maneələr zəminində tədricən müstəqilliyə meyl etməyə başlamış, hətta 1774-cü ilin sentyabrında Filadelfiyada I kontinental konqresin çağrılmasına nail olmuşlar.

Konqres koloniyada yaşayan insanların təbii hüquqlarını – yaşamaq, azadlıq və mülkiyyət hüquqlarını əsas götürərək xüsusi bəyannamə qəbul etdi ki, burada İngiltərə parlamentində koloniyaların nümayəndəliyinin təsisi olunması tələbi öz əksini tapmışdı ki, bu tələb İngiltərə tərəfindən qəbul edilmədi.

Koloniyaların müxtəlif təbəqələri içərisində seçilmiş I konqresin nümayəndələri ingilislər tərəfindən qovulduqdan sonra 1775-ci ilin mayında Finlandiyada II kontitental konqres fəaliyyətə başladı. Konqresin təşəbbüsi ilə 13 koloniya arasında yaradılmış əlaqələr tezliklə ittifaq sazişlərinə çevrilmiş və bu əlaqələrin sistemləşdirilməsi üçün gizli müxbir komitələri yaradılmışdır. Lakin ilk dövrlərdə koloniyalar İngiltərədən ayrılmaq yox, müxtar hüquqlar əldə etmək uğrunda mübarizə aparırdılar.

Koloniyaların müstəqillik hərəkatı öz başlanğıcını 1776-cı ilin əvvələrində yazılmış və müəllifi Tomas Peyn olan "Sağlam düşüncə" intibahnaməsindən (pamflet) başlanır. İntibahnamədə deyilir: "Artıq müzakirələr dövrü sona çatmışdır. Silah sonuncu vasitə kimi koloniyalarla İngiltərə arasında yaranmış mübahisəni həll etməlidir." Tomas Peyn çıxış yolunu müstəqil respublikanın yaradılmasında görürdü. Elə bir respublika ki, insanların təbii hüquqlarının müqəddəsliyi üzərində qurulmalı idi. Məhz belə şəraitdə II kontinental konqres 1776-cı il iyulun 4-də Tomas Ceffersonun hazırladığı "İstiqlaliyyət

bəyannaməsi”ni elan etdi. Bəyannamə 13 ingilis koloniyasının metropoliyadan ayrılmasını və sərbəst ştatlarda “ABŞ” adı altında vahid respublikada birləşməsini elan edirdi.

Respublikanın ilk günlərindən etibarən xarici siyasət məsələləri ilə kontinental konqresin plenumu məşğul olurdu. Həm I, həm də II kontinental konqres öz plenumu vasitəsilə «gizli müxbir komitələrini» təsis etmişdi. Gizli müxbir komitələri ilk dövrlərdə koloniyaların fəaliyyətinin əlaqələndirilməsində mühüm rol oynayırdı. Bu komitələr Kanadada da meydana gəlmişdi. İngiltərənin Kanadanın ərazisində 30 min nəfərlik hərbi qüvvə saxlaması Kanada ilə 13 koloniya arasında fəaliyyətlərin əlaqələndirilməsinə imkan vermədi.

İstiqlaliyyət müharibəsi dövründə Amerikaya ingilis generallarından Burqoynun, Karnoullisin və Xounun başçılığı altında 90 min nəfərlik hərbi qüvvə daşınmışdı, alman muzdularından ibarət 30 minlik hərbi qüvvvəni də bura daxil etsək, 120 min nəfərlik ordunun Amerika sahillərinə aparıldığı nəticəsini alırıq. Lakin bu ordunun fəaliyyətinin əlaqələndirilməməsi, həm də azadlıq mübarizəsinin vüsəti İngiltərənin planlarını puça çıxardı. Əgər əvvəllər xarici siyasət məsələləri bu sahə ilə o qədər də bağlı olmayan orqanlara həvalə olunsa da, 1777-ci ildə Saratoqi döyüşündən sonra bu məsədlə Dövlət departamenti yaradılmış və Dövlət Katibi postu təsis olunmuşdu. ABŞ-ın ilk Dövlət Katmbi Robert Lvinqston olmuşdu. Lakin Dövlət departementinin XIX yüzilliyin sonlarına qədər cəmi 80-ə qədər əməkdaşı var idi.

### 14.2. Istiqlaliyyət müharibəsinə Avropa dövlətlərinin münasibəti.

ABŞ-ın qarşısında duran əsas vəzifə Avropa dövlətinin dəstəyini əldə etmək və İngiltərənin təcridinə nail olmaq idi. Buna yeddi illik müharibədən çox az vaxt keçməsi və Avropa dövlətləri arasında ziddiyyətlərin qalması da imkan yaradırdı. Amerikan diplomatiyasının istiqlaliyyət ərəfəsində əsas diqqəti Fransaya yönəltməsi aşağıdakı faktorlarla bağlı idi:

- Fransa güclü idi və İngiltərə ilə rəqabət üzərində qurulan mqnasibətlərə malik idi;
- Fransa kral sarayı İspaniya və Avstiya ilə sülalə müqavilələrinə əsaslanan münasibətlərə malik idi. Bu isə Fransanın dəstəyinin qazanılacağı təqdirdə bir neçə Avropa dövlətləri tərəfindən müdafiə olunmağa imkan yaradırdı;
- Fransanın ABŞ-ı dastəkləməsi ehtimalı böyük idi. Çünki ABŞ-da genişlənmiş maarifçilik ideyalarının inkişafında Fransız maarifçiliyi mühüm rol oynayırdı. Fransız maarifçilərinin ingilis və amerikan maarifçiləri ilə əlaqəsinin tarixi böyük idi. Amerikan maariflərinin dahilərindən olan B.Franklin Fransada daha məşhur idi, hətta əsərləri iki dəfə fransız maariflərindən Bomarşe tərəfindən nəşr olunmuşdur;
- Fransa başda olmaqla Avropa dövlətinin koalisiyası İngiltərənin dənizlərində hegemonluğunun qarşısına almaq gücündə idi.

Məhz bu məqsədləri rəhbər tutan kontinental konqres Fransa ilə danışıqlara İstiqlaliyyət bəyannaməsi elan olunandan qabaq başlamaq qərarına gəldi. Amerika koloniyalarına hələ 1765-ci ildən Fransa xarici işlər nazirliyindən 2 ticarət agenti göndərilmişdi ki, bunlar qitədə baş verənləri diqqətlə izləyirdilər. Digər tərəfdən fransa maarifçilərinin bir çoxu, habelə koloniyalarda maarifçilik ideyalarını yaymaqla məşğul olan şəxslər sərgilərdə tez-tez görüşmək imkanına malik idilər. B.Franklin bir sıra fransız xadimləri ilə məhz İngiltərədə görüşmüşdü.

Bir qayda olaraq o dövrkü diplomatiya, səfir və yaxud nümayəndə kimi bir neçə nəfəri başqa ölkəyə göndərirdi. Iqtisadi ehtiyatların məhdudluğu üzündən 1775-ci ilin ortalarındaABŞ-dan Avropaya yalnız kontinental konqresin üzvü Saylaz Din göndərilmişdi. Onun başlıca vəzifəsi təkcə Fransada yox, həm də Fransada yerləşən xarici ölkə səfirlikləri ilə iş görməkdən, koloniyaların dəstəklənməsinə nail olmaqdan ibarət idi. S.Din Avropaya B.Franklinin iki məktubunu gətirirdi. Birinci məktub arxitektor Le Ruaya, ikincisi isə həkim Barbe Dübura ünvanlanmışdı. Amerika qitəsində baş verənlərdən məlumatı olan fransız mütləqiyyəti yaranmış imkana fürsət kimi baxsa da İngəltərə ilə münasibəti pozmamaq üçün S.Din rəsmi şəkildə qəbul olunmamışdı.

Lakin Fransa Amerikan koloniyalarında antiingilis əhval-ruhiyyəni düzgün qiymətləndirərək ABŞ-ın dəstəklənməsi üçün lazım olan bir sıra addımları atdı. Ilk növbədə formal şəkildə Amerika ilə ticarət əlaqələrini intensivləşdirmək məqsədi olan saxta «Rodriqo Qortales» ticarət firması təsis olundu. Həmin firmanın vasitəsi ilə qısa müddət ərzində Amerikaya 21 mln. livr dəyərində silah-sursat və hərbi ləvazimat göndərilmişdi. Sonralar C.Vaşinqton Fransanın bu köməyinin Amerikanın müstəqilliyi üçün böyük əhəmiyyət kəsb etdiyini söyləmişdi.

Saylas Din duymuşdu ki, «Rodriqo Qortales» firması hökumət tərəfindən dəstəklənir və istiqamətləndirilir. Lakin bu informasiyanı az sonra Fransaya gələn B.Franklinlə bölüşdürməmişdi. Bu ehtiyatlılıq sonralar İngiltərəyə Fransaya birbaşa müharibə etmə bəhanəsi verməmişdi. Ingilis gəmiləri «Rodriqo Qortales» firmasının bütün gəmilərini ya müsadirə edir, ya da batırırdı. Franklinin başçılığı altında 5 nəfərlik missiyanın Avropaya qədəm qoyması və istiqlaliyyət bəyannaməsinin qəbulundan sonra ABŞ-ın rəsmi nümayəndə kimi tanınması böyük əhəmiyyətə malik idi.

Fransadakı İngiltərə səfiri Stormont B.Franklinin Fransaya buraxılmaması haqqında Fransa Xarici İşlər Nazirliyinə məktub təqdim etmişdi. Lakin XİN Şarl de Ferfe Franklinin Parisə daxil olmasını belə

motivləşdirmişdi ki, Franklinə  Parisə gəlməməsi haqqında məktub göndərilmişdi. Lakin məktub ləngidiyinə görə Franklin Parisə daxil olmuşdu. Fransa kimi maarifçi dövlətin okeanın o tayından gəlmiş nümayəndəni Parisdən çıxarılması "mədəniyyətsizlık olardı" demiş və bununla da İngiltərənin tələbi yerinə yetirilmədi. Franklinin Fransa missiyasında iki məqsəd güdülürdü:

- Fransa ilə iqtisadi və hərbi sahədə ittifaqa nail olmaq.
- Ingiltərə ilə birbaşa danışıqlara nail olması.

İngiltərə ilə silahlı mübarizənin xüsusilə gərgin olan bu dövründə II məqsədə nail olmaq o qədər də asan deyildi. 1777-ci ildə baş vermiş Saratoqi döyüşü mübarizə meydanında çox şeyi dəyişdi. Təkcə ABŞ yox həm də İngiltərədə birbaşa danışıqlara maraq göstərməyə başlanmışdı. Şarl de Verjenin xəfiyyələri franklinin Parisdəki fəaliyyətini diqqətlə izləyirdi. Franklin isə Parisdə yerləşən bütün dövlətlərin səfirlikləri ilə əlaqələrə malik idi. Onun vaxtı ilə İngiltərə parlamentinin üzvü olması İngiltərə nümayəndələri ilə olan danışıqlara da imkan yaradırdı.

B.Franklin Bomarşe tərəfindən Şarl de Verjenə təqdim olunsa da xarici işlər naziri onu XVI Lüdovikə təqdim etməyə tələsmirdi. Bu da Franklini fəaliyyət diapazonunu genişləndirməyə vadar edirdi. Franklinin apardığı danışıqları diqqətlə izləyən Deverjen bu danışıqların birbaşa mərhələyə keçməsini gördükdən sonra Fransanı ABŞ-a dəstəyinə diplomatik status vermək qərarına gəldi. Çünki, Deverjenin danışıqları uzatması İngiltərə ilə birbaşa əlaqələrin yaradılmasına bununla da vasitəçilikdən götürəcəyi dividentləri əngəlləməsinə səbəb ola bilərdi.

Uzun sürən diplomatik danışıqlar 1778-ci iln fevralında ABŞ ilə Fransa arasında ticarət və hərbi ittifaq müqaviləsinin imzalanmasına səbəb oldu. Müqaviləyə əsasən  Fransa donanması ABŞ tərəfində hərbi əməliyyatlara girmək imkanı əldə etdi. Avropa sarayları heç də könüllü şəkildə Franklinin missiyasını qəbul etmək istəmirdi. Onlar baş vrmiş hadisəyə müstəmləkələrin metropoliyaya ağ olması kimi baxırdılar və öz müstəmləkələrinin taleyi üçün narahatlıq keçirirdilər. Avropa monarxlarının heç biri ABŞ istiqlaliyyətini tanımaq istəmirdi. Kəskin mövqedə Rusiya və İspaniya dayanırdı. İngiltərənin Avropa siyasətində yeritdiyi hegemonluq Avropa dövlətlərinin ona qarşı birləşməsini şərtləndirdi.

Əslində İngiltərə XI əsrdən sonrakı tarix boyu ilk dəfə Avropa dövlətlərinin diplomatik mühasirəsi ilə qarşılaşdı. İstiqlaliyyət bəyannaməsinin elan olunmasına münasibətdə kontinental konqresdə  ciddi ziddiyyət yarandı. Konqresin çoxluğu bilirdi ki, müstəqilliyin elan olunması Avropa dövlətləri tərəfindən qəbul olunmayacaq. Lakin ayrı-ayrı siyasi xadimlər İngiltərəyə qarşı Avropa dövlətlərinin mənfi münasibətini əsas götürərək istiqlaliyyətin elan olunmasını tələb edirdilər. Nə Saylas Din, nə də Franklin və onunla birlikdə gələn nümayəndə heyəti heç bir rəsmi sənəd göstərməmişdilər. Franklin isə yalnız istiqlaliyyət bəyannaməsi elan olunandan sonra rəsmi olaraq öz etimadnaməsini təqdim etmişdi.

### 14.3. İngiltərənin beyməlxalq aləmdən təcrid olunması.

Fransa-ABŞ  ittifaq və ticarət müqaviləsi imzalansa da ABŞ nümayəndə heyətinin başçısı kimi Franklin Fransadakı diplomatik korpusa təqdim olunmadı. Fransa hökuməti ittifaq müqaviləsi imzalandıqdan sonra da gözləmə mövqeyi nümayiş etdirdi. ABŞ diplomatlarından Con Cey, Saylas Din və Franklin Avstriya, İspaniya, Niderland və Rusiya ilə diplomatik danışıqlar apardılar. Ancaq bu dövlətlərin ABŞ-ın istiqlaliyyətinin tanınması üçün qoyduğu şərt o idi ki, ABŞ-ın istiqlaliyyəti əvvəlcə İngiltərə tərəfindən tanınmalıdır.

Təsadüfi deyil ki, Rusiyadakı ABŞ nümayəndələri 1815-ci ilə qədər rus çarına  audensiya əldə edə bilməmişdilər. Istiqlaliyyət müharibəsindəki uğursuzluqlarına baxmayaraq İngilis donanması dənizlərdə hegemonluğu saxlayırdı və cox vaxt Avropa dövlətlərinin ticarət gəmiləri bundan ziyan çəkirdi. Rodriqo Qonsales firmasının gəmilərinin təhlükəsizliyini təmin etmək üçün Fransa müdafiə tədbirləri görmüş və bu məqsədlə 8 hərbi gəmi ayrılmışdı. Ispaniya və Hollandiyanı İngiltərəyə qarşı təhrik edən başlıca səbəb hər iki ölkəyə məxsus ticarət gəmilərinin daha çox zərər çəkməsi idi.

Rusiyada yaranmış vəziyyət diqqətlə təhlil edildikdən sonra İngiltərə kralı III Georqun məktublarına baxmayaraq Rusiya dənizlərdə və okeanlarda naviqasiyanın təhlükəsizliyini təmin etmək üçün müdafiə tədbirlərinin görülməsi zərurətini Avropa dövlətlərinin və İngiltərənin nəzərinə çatdırdı. 1780-ci ildə Rusiyada bitərəflik bəyannaməsi meydana gəlmişdi. Üç mühüm şərti nəzərdə tuturdu.

- Hərbi əməliyyatlara qoşulmayan bitərəf dövlətlərin gəmiləri hərbi əməliyyatların getdiyi dövrlər istisns olunmaqla bütün limanlara maneyəsiz daxil ola bilərdi.
- Bu gəmilərdə kontrabandadan başqa hər cür mal daşına bilərdi.
- Bitərəf dövlətlərin gəmilərinin təhlükəsizliyi təmin olunmalı idi.

Təsadüfü deyil idi ki, 1780-83-cü illərdə bütün Avropa dövlətləri bəyannamənin şərtlərini qəbul etmiş və bu zəmində silahlı bitərəflik liqası adlanan bütün Avropa dövlətlərini birləşdirən cəmiyyət yaranmışdı. Bununla da İngiltərənin beynəlxalq aləmdən tam təcrid olunması başa çatmışdı. Artıq 1778-ci ildən etibarən İngiltərənin sülh danışıqlarına meyilli olması aydın şəkildə görünürdü.

Fransadakı İngiltərə səfiri Starmont Parisi tərk etdikdən sonra İngiltərə ilə ABŞ arasında diplomatik danışıqlar üçün Hollandiya və Rusiya seçilsədə Franklinin müqaviməti üzündən bu ideya reallaşa bilmədi.

Franklin hesab edirdi ki, İngiltərə ilə sülh müqaviləsi yalnız Fransanın vasitəsi ilə bağlanmalı idi. Gənc amerikan diplomatiyası daha çevik fəaliyyətə meyilli idi.

Təsadüfi deyildi ki, İngiltərə ilə danışıqlar sonralar xəyanətkar olması məlum olan Eduard Bankroft tərəfindən aparılmalı idi. Sonra bu işi Con Cey reallaşdırdı. ABŞ gələcək gərginliklərə yol verməmək üçün yalnız istiqlaliyyətin tanınması və İngiltərə ilə normal münasibətlərin yaranmasını şərt kimi irəli sürürdü. 1783-cü il Paris müqaviləsinin I bəndi də məhz bundan ibarət idi. Ingiltərə Amerika koloniyalarının istiqlaliyyətini tanıyırdı. Müqavilənin sonrakı bəndlərində ticarət, iqtisadiyyat sahəsində münasibətlər qaydaya salınır, siyasi baxımdan aktual olan bir sıra məsələlər nizamlanırdı.

ABŞ-ın istiqlaliyyətinin tanınmasından az sonra Avropada baş verən hadisələr ABŞ liderlərini ölkənin strateji inkişaf yolları haqqında düşünməyə vadar etdi. Ilk ABŞ prezidenti Vaşinqton ABŞ-ın Avropa işlərindən kənarda qalması haqqında tövsiyyə vermiş və sonralar panamerikanizm adını almış siyasi cərəyan bu zəmində köklənmişdi.

Məlum olduğu kimi, 1778-ci il müqaviləsinə əsasən Fransa ilə müttəfiqlik münasibətləri quran ABŞ Fransaya qarşı Avropa dövlətlərinin koalisiyasına qarşı mübarizədə iştirak etməli idi. Buna isə Amerikanın nə hərbi, nə də iqtisadi gücü çatmırdı.

Belə bir şəraitdən çıxmaq üçün 1791-ci ildə ABŞ-ın bitərəfliyi ilə bağlı ilk sənəd meydana gəldi. 1793-cü il bəyannaməsi isə həmin bitərəfliyə hüquqi status verdi. Təsadüfü deyil ki, Fransa inqilabının nümayəndəsi Edmond Jenenenin ABŞ missiyası məhz bununla əlaqədar olaraq uğursuzluqla nəticələnmişdi. ABŞ-ın götürdüyü siyasi kurs XIX əsrin 20-ci illərində Monro doktirinası ilə təsbit olundu və ABŞ bu strateji kursa 1939-cu ilin 14 noyabrına qədər sadiq qaldı. Monro doktrinası ilk dəfə olaraq dünyanın iki sistemə bölünməsini bəyan edirdi. "Panamerikanizm, Amerika amerikalılar üçün" şüarları və Amerikaarası konfranslar ideyası formalaşmış, Amerika dövlət təşkilatı II dünya müharibəsindən sonra buna əsasən yaradılmışdı.

**Mövzuya dair suallar**

1. İngiltərənin Şimali Amerikadakı müstəmləkələrində milli oyanış və metropoliyaya qarşı azadlıq hərəkatının başlanması.
2. Amerikan maarifçiliyinin müstəqillik ideyaları.
3. I kontinental konqres və koloniyaların fəaliyyətinin əlaqələndirilməsi. Gizli müxbir komitələri.
4. İstiqlaliyyət bəyannaməsinin qəbulu və amerikan diplomatiysının ilk addımları.
5. Amerikada istiqlaliyyat müharibəsinə Avropa dövlətlərinin münasibəti.
6. Franklinin Avropa missiyası.
7. ABŞ-ın hərbi uğurları və İngiltərənin Avropa diplomatiyasının uğursuzluğu.
8. ABŞ Fransa ittifaq və ticarət müqaviləsi.
9. İstiqlaliyyət müharibəsinə Rusiyanın münasibəti. 1780-cı il bəyannaməsi.
10. Silahlı Bitərəflik Liqasının yaradılması və İngiltərənin beynəlxalq aləmdən təcrid edilməsi.
11. Paris sülh müqaviləsi və ABŞ-ın istiqlaliyyətini tanıması.
12. XVIII əsrin sonu XIX əsrin əvvəllərində ABŞ-ın xarici siyasəti. Monro doktrinası.

**Ədəbiyyat**


1. Аптекер Г. Американская революция. М., 1962
2. Болоховитвинов Н.Н. Росия и война США за независимость (1775-1783). М., 1976
3. Болоховитвинов Н.Н. Становление русско - американских отношении. 1775-1815. М., 1996
4. Война за независимость и образование США. М., 1976
5. Ефимов А.В. Очерки истории США. От открытия Америки до окончания гражданской войны. (1492-1870). М., 1958
6. История внешней политики и дипломатии США. 1775-1867 / Отв. ред. Г.П.Куропятник. М., 1997
7. История США в 4.т. Т.1-2. М., 1983-1985.
8. Краснов Н.А. США и Франция: дипломатические отношения. 1775-1801 гг. М., 2000
9. Куропятник Г.П. Американская революция, М., 1961
10. Новая история стран Европы и Америки. Первый период. М., 1986.
11. Севастьянов Г.Н. Томас Джефферсон. М., 1976
12. Согрин В.В. Идейные течение в Американской революции XVIII в. М., 1980
13. Согрин В.В. Джефферсон. Человек, мыслитель, политик. М., 1989
14. Согрин В.В. Основатели США: исторические портреты. М., 1983
15. Степанова О.Л. 4 июля 1776. М., 1976
16. Франклин Б.Избранные произведения. М., 1956
17. Фурсенко А.А.. Американская револьюция и оброзования США. Л., 1978
18. Яковлев Н.Н. Вашингтон. М., 1976

19. Рявкин А.В. История международных отнашений в новое время. М., 2004.

# XV Mövzu
# Böyük Fransa burjua inqilabı ərəfəsi və dövründə Avropada beynəlxalq münasibətlər

XVIII əsrin 80-ci illərinin sonlarından etibarən Fransada feodal-mütləqiyyət quruluşunun böhranı olduqca kəskinləşdi. Fransanın dövlət borcu 1774-cü ildəki 1.5 milyard livrdən, 1788-ci ildə 4,5 mlrd livrə çatmışdı. Milli büdcənin kəsiri 126 mln. livr təşkil edirdi.

Yaranmış böhrandan çıxmaq üçün kral XVI Lüdovik 1614-cü ildən sonra çağrılmayan Baş ştatların çağırılmasına razılıq verdi. Baş ştatrlar maliyyə və vergi islahatlarının keçirilməsində krala yardımçı olmalı idi.

1788-ci ilin ortalarından etibarən güclənməkdə olan xalq hərəkatı 1789-cu ilin yazı üçün ən yüksək nöqtəyə qalxmışdı. Bu dövr xalq kütlələrinin 450 çıxışı olmuşdu. Xalq kütlələrinin təzyiqi altında 1789-cu il mayın 5-də Versalda Baş ştatlar işə başladı. Seçilmiş 1139 deputatın 578 nəfəri üçüncü silkin, 561 nəfəri isə birinci və ikinci silkin (ruhanilər – 291 deputat, zadəganlar -270 deputat) nümayəndələri idilər.

Mütləq monarxiya dövründə Fransa xarici işlər nazirliyi ərazi prinsipi üzrə bölünən iki siyasi idarəyə ayrılmışdı: birinci idarə Qərbi və Mərkəzi Avropra dövlətləri, habedə Amerika ilə diplomatik münasbətlərə rəhbərlik edirdi. İkinci isə –Şərqi və Cənubi Avropa və Skandinaviya dövlətləri ilə münasibətləri həyata keçirirdi.

XVIII yüzilliyin sonları üçün Fransız mütləqiyyət aparatında xarici işlər idarəsi müstəqil nazirliyə çevrilmiş və ona uzun müddət Şarl de Verjen rəhbərlik etmişdir. İnqliab ərəfəsində Fransa Avropanın bütün ölkələri və bir sıra şərq ölkələri ilə diplomatik əlaqələrə malik idi. Fransız kralları diplomatik münasibətlərin normal saxlanması üçün bir neçə vasitədən istifadə edir ki, bunların içərisində nigah və sülalə müqaviləsi mühüm yer tutur. Fransa 1761-ci ildə sülalə müqaviləsini İspaniya ilə bağlamışdı. İlk ziddiyət bilavasitə sülalə müqaviləsinin üstündə baş vermişdi.

1789-cu il 14 iyul üsyanından və Bastiliya qalası alındıqdan sonra, özünü Milli Məclis elan etmiş III silkin deputatları xarici siyasət məsələlərinə müdaxilə etməyə başladı. 1790-cü il mayında İngiltərəyə müharibə elan etmək məsələsi üstündə kralla Milli Məclis ilk dəfə kəskin şəkildə toqquşdu. 1790-cı il üçün İspaniya ilə İngiltərə arasında müharibə ehtimalı ortaya çıxmışdı. 1761-ci il sülalə müqaviləsinə görə Fransa İspaniyaya yardım etməli idi, lakin Milli Məclis qəti şəkildə buna qarşı çıxdı və xarici siyasət məsələləri ilə yaxından məşğul olmaq üçün başda qraf Mirabo olmaqla daimi «Diplomatik komitə» yaratdı. 1791-ci il dekabrda qəbul edimliş xüsusi dekretə görə, «fransız xalqı həmişəlik işğalçılıq müharibələrindən əl çəkir və başqa xalqların azadlıqlarına qarşı hərbi qüvvə istifadə etməyəcəyini» bəyan edirdi.

Xarici siyasət məsələləri əvvəllər bilavasitə kral sarayının əlində olduğu üçün səfir göndərilməsi məsələsini də saray həll edirdi. Həmin səfirlər isə yaranmış şəraitdə kralın göstərişi ilə Fransaya xarici müdaxilənin təşkili ilə məşğul olur, intriqa aparırdılar. Təsadüfi deyildi ki, kralla gizli əlaqədə olan qraf Mirobo özü də etiraf edirdi ki, xarici dövlətlərdəki Fransa səfirlərinin hamısı dəyişdirilməlidir. 1791-ci il martda 7 səfir dəyişdirilmişdi.

Mövcud tətqiqatlara görə, Fransa Burjua inqilabının tarixi və diplomatiyası 3 mərhələdən keçir:

I mərhələ-1789-cu ilin iyununda başlamış 1792-ci ilin 10 avqust üsyanına qədər. Bu mərhələdən xarici suyasət məsələləri bilavasitə kralın prereqativi olsa da baş ştatlar vəya qanun verici məclislə kral arasında xarici siyasət sahəsində səlahiyyətlilərin boşluğu baş verir.

II mərhələ-1792-ci ilin 10 avqustundan başlamış 1793-cü ilin 31 may üsyanına qədər davam edir. Bu mərhələ I respublikanın jirondist mərhələsi adlanır. Xalq siyasəti məsələləri jronda nümayəyəndələri tərfindən həyata keçirilir.

III mərhələ-1793-cü ilin 2 iyulundan 1794-cü ilin 27-nə qədər davam edir. III mərhələ inqilabın yakobin diktaturası dövrünün mərhələsi hasab olunur. Xarici siyasət məsələləri əvvəllər kralın tam şəkildə səlahiyyətlərinə daxil olduğuna görə səfirlərin göndərilməsi məsələsi də sarayın əlində idi. Bu mərhələdə xaricə göndərilən səfirlər, yalnız kralın göstərişini həyata keçirirdi. Qraf Merabo təsadüfi olaraq demirdi ki, Fransanı xaricdə təmsil edən səfirlərin hamısı olmasa da heç olmasa yarısı edam olunmağa layiqdir. 1791-c ilin martı üçün 7 ölkədəki səfir dəyişdirilmişdi.

Inqilabın I mərhələsində xarici siyasət məsələləri ilə diplomatik komitə məşğul olurdu. Milli məclisdə aparılmış müzakirələrdə sonra qərara alındı ki, xarici siyasətlə bağlı təkliflər diplomatik komitə tərəfindən hazırlanmalı, kral tərəfindən təsdiq edilməli odi. 1792-ci ilin avqustuna qədər sol qüvvələrin monarxiyanı devirmək fikri olmalıdır. Çünki bu Avropa dövlətinin Fransaya qarşı müharibəsinə səbəb olardı.

Diplomatik komitədə başlıca yeri Merabo və Toleyran tuturdu. Sonradan məlum olduki, hər ikisi XVI Lüdovikin göstərişlərinə əsasən fallıq göstərirdilər. Fransa ilə Roma Papası arasında münasibətlərin qırılmasına da məhz bu zaman start verilmişdi. Dini fəzifələrin bir sıra mərhələlərini keçmiş Toleyran kilsə torpaqlarının milliləşdirilməsi haqqında xüsusi qanun hazırlamlşdı ki, buna görə də Roma Papası Fransa ilə diplomatik münasibətləri kəsmiş və Toleyranı lənətləyərək kilsədən xaric etmişdi. Roma Papası ilə Fransa arasında münasibətlər 1801-ci ildə bağlanmış konqordata əsasən qaydaya salınmışdı. Toleyran 1789-1792-ci ilin iyununa

qədər milli məclisin deputatı olmuş, sonra isə öz təşəbbüsü ilə İngiltərəyə I koalisiya qüvvələrini diplomatik yolla dağıtmaq üçün göndərilmişdi. Toleyranın təkrar Fransaya qayıdışı 1796-cı ilin ortalarına aiddir. I Napoleonun konsunlluğunun yaradılmasında təşkilatçılardan biri kimi Toleyran konsulluq və imperiya dövrünün əvvəlłərində (1799-1807) Fransanın xarici işlər naziri postunu tutmuşdu.

Inqilabın I dövründə Fransanın qəbul etdiyi qərarların içərisində "İnsan və vətəndaş hüquqlarına dair bəyannamə" xüsusi yer tuturdu. Həmin bəyannamədə Fransa xarici siyasət vasitəsi kimi müharibələrdən imtina etmək öhdəliyi götürürdü. Bu ideya ABŞ-da qəbul olunmuş İstiqlaliyyət bəyannaməsinin nəticəsi kimi ilk Fransız konstitutsiysında öz əksini tapmışdı. Fransada hadisələrin gərginliyini artıran əsas məsələlərdən biri XVI Lüdovik və Mariya Antuanettanın qaçması ilə əlaqədar "Varen" böhranı adı almış epizod olmuşdu. Inqilabın hadisələrin ilk günlərində Fransız ordusu kralın itaətindən çıxmış, Anrinin başçılıq etdiyi Milli qvardiya isə inqilabın tərəfinə keçmişdi.

Yaranmış şəraitdə kral yalnız xarici dəstəklə Fransada hakimiyyətini bərpa edə bilərdi. Bu məqsədlə 1791-ci il iyunun 20-dən 21-nə keçən gecə kral və arvadı Mariya Antuanettanın paytaxtdan qaçışı təşkil olundu. Sonradan məlum oldu ki, krala və arvadına xarici pasportu rus səfiri vermişdir. Lakin kralın ehtiyatsızlığı üzündən Varen şəhərində poçt müdiri Jan Dürye onları tanıdı və hər ikisi tutularaq geri qaytarıldı. Doğrudur, kral özünün zorla qaçırılması haqqında Qanunverici məclisə məlumat versə də, yaranmış gərginliyi azaltmaq mümkün olmadı. Kralın qaçışını pozmuş poçt müdiri isə konvent tərəfindən mükafatlandırıldı və Paris perfekturalarından birinə rəis təyin olundu. Bu hadisədən sonra Milli Məclis xarici siyasət məsələlərini bütünlüklə öz əlinə aldı.

XVIII əsrin sonları üçün Avropa diplomatiyasında başlıca rolu iki dövlət – İngiltərə və Rusiya oynayırdı. İngiltərədə xarici siyasət məsələlərinə 1783-cü ilin dekabrından etibarən lord Çatamanın oğlu kiçik Uilyam Pitt rəhbərlik edirdi. O, bu vəzifədə 1783-1801 və 1804-1806-cı illər arasında (ölümünə qədər) olmuşdur. Pittin başlıca məqsədi İngiltərəni blokadadan qurtarmaq, Fransa və Rusiya əleyhinə Avropa dövlətləri ilə ittifaq yaratmaq idi. Məhz onun səyi nəticəsində 1787-91-ci illərdə rus-türk müharibəsi baş verdi. 1788-ci ildə İsveç kralı III Qustav Peterturqa hücum etdi. Lakin Fransa burjua inqilabı kontinentdə qüvvələr nisbətini pozduğu üçün İngiltərə Fransaya qarşı koalisiyanın təşkilatçılarından biri oldu.

Rusiya imperatoru III Yekaterinanın hakimiyyəti illərində (1762-1796) xarici işlər kollegiyasına qraf Osterman başçılıq edirdi. Kraliça xarici siyasət məsələlərində knyaz A.A.Bezborodko, Potemkinə daha çox üstünlük verirdi.

XVIII əsrinsonlarından etibarən Rusiyanın başlıca diqqəti Fransa inqilabına yönəlmişdi. II Yekaterina Fransada inqilab xəbərindən sonra 2 həftə xəstə yatmış, sonralar XVI Lüdovik və arvadının Parisdən qaçışını təşkil etmək üçün Fransadakı rus səfiri Simolinə müvafiq göstərişlər vermişdir. II Yekaterina Müəssislər məclisini 1200 başlı əjdaha adlandırır və göstərirdi ki, Fransaya sərsəm və canilər dəstəsi başçılıq edir.

Varen böhranı eyni zamanda Fransanın ətrafında hərbi diplomatik mühasirə həliqəsinin güclənməsinə səbəb oldu. Məlum olduğu kimi Fransa inqilabının ilk dövrləri də daxil olmaqla Avropada İngiltərə-Prussiya bloku ilə İspaniya, Fransa, Rusiya, Avstriya bloku arasında ziddiyyətlər güclü idi. Fransa burjua inqilabının monarxiya mərhələsində Rusiyanın Fransaya münasibəti dəyişməmişdi. Rus knyazı olan Potyomkin,Bezborotko və başqaları II Yekaterinanın Fransada baş verən hadisələrin daimi olmadığına inandırmağa çalışrdılar.

Buna baxmayaraq Fransız mühacirləri Rusiyada hörmətlə qarşılanır, dövlətin himayəsinə götürülür, vəzifə də verilirdi. Bir qədər sonra vəziyyət ciddi şəkildə dəyişdi. Rusiya –Prusiya və Avstriya –Rusiya ziddiyətlərinin mövcudluğuna baxmayaraq tədricən o, 2 dövlətlə münasibətlərin yaxşılaşmasına çalışırdı. Bəhs etdiyimiz dövr İngiltərə-Rusiya ziddiyətlərinin də kəskinliyi ilə səciyələnir. Hətta vəziyyət əgər İngiltərənin sənaye burjuaziyası işə qarışmasaydı müharibə aparacaqdı. İngiltərə burjuaziyası Rusiya ilə ticarətdə, Rusiya vasitəsi ilə Şərqölkələri ilə ticarətlərdən çox gəlir götürürdü. Buna baxmayaraq Böyük Pit nəyin bahasına olursa olsun Rusiyanın Qara dəniz sahillərində möhkəmlənməsini istəmirdi.

Bu dövrdə Rusiyanı İngiltərədə istedadlı səfir qraf Vorontsov təmsil edirdi. Vorontsov İngiltərədəki parlament müxalifətinin üzvləri ilə yaxın əlaqədə idi. II Yekatrina arxayın idi ki, İngiltərənin Rusiyaya müharibə elan etməsi baş tutmayacaq. Bəhs olunan dövrdə İngilis-rus ziddiyətlərinin kəskinləşməi Türkiyə ilə sıx bağlı idi. Cənuba və cənub-şərqə doğru irəliləyən Rusiya artıq Qara dənizin şərq sahilinə və Cənubi Qafqaza nüfuz etməkdə idi. İngiltərə isə Cənubi Qafqazın Rusiyanın əlinə keçməsinə razı deyildi.

Məhz İngiltərənin təhriki ilə 1787-1791-ci illər II Rus-Türk müharibəsi baş vermişdi. Lakin İngiltərənin hərbi-siyasi köməyinə baxmayaraq Rusiya Oçakov qalasını ələ keçirmiş, Qara dəniz sahillərinə çıxış yaratmış və burada donanma yerləşməsi üçün konkret tədbirlər görməyə başlamışdı. 1791-ci ilin yayında imzalanmış Yassı sülh müqaviləsini Rusiyanın Krımda möbqelərini gücləndirmiş, ümumiyyətlə Rusiya Şimali Qafqaza sahiblənməyə başlamışdı. Şərqi Gürcüstanla georgiyevsk traktatı imzalanmışdı. Lakin Fransada monarxiyanın devrilməsi İngilis-Rus rəqabətini arxa plana keçirdi. II Yekaterinanın dövründə Rusiya-Prussiya münasibətləri də gərginlik içində olmuşdur.

Prussiyanın İngiltərə ilə yaxınlığı Polşanın I bölgüsündə iştirak etmiş dövlətləri bir-birinə qarşı qoymuşdur. Rusiya-Avstriya münasibətləri kifayət qədər isti olmuşdu. Buna baxmayaraq təkrar bölgüsü

ərəfəsində Rusiya diplomatik çeviklik göstərmiş, Avstriya-Polşanın II bölgüsündən kənalaşdırılmışdı.Monarxiya dövründə xarici siyasət məsələləri ilə qraf Merabonun başçılıq etdiyi diplomatik komitə məşğul olurdu. Komitə 12 üzvdən təşkil olunmuş, lakin üzvlərinin 1/3-i bir neçə aydan bir dəyişdirilirdi. Smolinin qraf Merabo ilə yaratmağa çalışdığı münasibətlər Merabonun ölmü üzündən yarımçıq kəsildi.

1792-ci il fevralın 7-də Avstriya ilə Prussiya Fransaya şarşı ittifaq müqaviləsi bağladılar, beləliklə Fransaya qarşı I koalisiya meydana gəldi. Müqaviləyə görə, tərəflərin hər biri Fransaya qarşı 20 min nəfər əsgər çıxarmalı idi.

I koalisiyanın yaranması qannuverici məclisi qəti qərarlar qəbul etməyə sövq edirdi. 1792-ci il 15 marda kral məclisin tələb ilə general Dumuryeni (jirondistlərə yaxın idi) xarici işlər naziri təyin etdi. Yepiskop Taleyran koalisiyaya qarşı yardım əldə etmək ümidi ilə İngiltərəyə göndəildi, lakin nəticəsiz qaldı.

Qanunverici məjlis (1791-ci il oktyabrda açılmışdı) 12 nəfərdən ibarət Diplomatik komitə yaratdı ki, ona jirondist Briesso başçılıq edirdi.

1791-ci ilin sonlarına doğru Rusiya-Türkiyə müharibəsi başa çatdıqdan sonra Avropa dövlətlərinin Fransaya qarşı koalisiyası təşkilati xarakter almağa başlamış və 1792-ci ilin 7 fevralında Avstriya-Prussiya hərbi ittifaqını şərtləndirmişdi. Hərbi sazişin şərtlərinə görə tərəflərin hər biri Fransaya qarşı 20 minlik ordu çıxarır. Prussiya ordusunun təchizatını isə Avstriya öz üzərinə götürürdü. Mövcud tədqiqatlarda bu Fransaya qarşı birinci koalisiyasının yaradılması kimi təqdim olunmuşdu. Avstriya-Prussiya hərbi ittifaqının yaranmasından dərhal sonra Rusiya, İspaniya, İngiltərənin bu ittifaqa cəlb olunması ətrafıda diplomatik mübarizə yarandı.

Lakin Fransa, Avstriya,Prussiya hərbi ittifaqının qüvvələrinin təşkil olunmasına imkan verməmək üçün özü hadisələri qabaqlamaq qərarına gəldi. Fransa konventi 1792-ci il aprelin 20-də Avstriya iyunun 6-da Prussiyaya müharibə elan etdi. Lakin Fransa ordusunun vahid hərbi komandanlığa malik olmaması müharibə cıbhələrindıki uğursuzluqları şərtləndirdi. Fransız diplpmatiyası Avstriya-Prussiya ittifaqına İngiltərənin qoşulmasına imkan verməmək üçün Taleyranı xüsusi missiya ilə İngiltərəyə göndərdi.

Vəziyyətin ağırlığı 10 avqust 1792-ci il üsyanı ilə nəticələndi. Kral və ailəsi həbs edilib Tampl qalasına salındı. Sentyabrın 22-də Fransa Respublika elan edildi. Jirondist Lebren xarici işlər naziri təyin edildi. Ədliyyə naziri Danton xarici siyasət məsələlərində başlıca rol oynayırdı. 1792-ci ilin sonları üçün Fransa ərazisi müdaxiləçilərdən təmizləndi. Bu Fransa əleyhinə koalisiyanın güclənməsinə səbəb oldu. 1793-cü ilin martında koalisiyaya İngiltərə, Avstriya, Prussiya, Rusiya, İspaniya, Hollandiya, bir neçə alman knyazlığı, Sardiniya və Neapol daxil idilər.

Rusiya ilə Prussiya Polşanın ərazisini 1793-cü ilin yanvarında ikinci dəfə bölüşdürdülər.

Fransanin hərbi uğursuzluqları 1792-ci ilin 10 avqust üsyanını şərtləndirdi. Lakin bu zaman təsadüfən kral sarayındakıgizli arxiv aşkarlandı. Arxivdə parlamentin ayrı-ayrı üzvləri ilə kral arasındakı əlaqələrin olmasını müəyyənləşdirən sənədlər aşkarlandı. O, cümlədən qraf Merabonun krala 1, Taleyranın isə iki məktubu tapıldı. Konvent onları vətən xainləri adlandırsada Merabo ölmüş, Taleyran İngiltərəyə getmişdi. Konvent Taleyranın geri çağrılmasına nail olsa da, Taleyran Hollandiyadan sığınacaq istədi.

Ancaq buna nail olmayaraq 1792-ci ildə Amerikaya köçdü. 10 avqust üsyanından sonra Fransa ətrafında həm daxili, həm də xarici vəziyyət gərginləşdi. Doğrudur, monarxiyanı ləğv etmək üçün kifayət qədər sübutlar toplanmışdı. Lakin qanunverici məclis və ya konvent bütün Avropa ilə müharibə aparmaq iqtidarında deyildi. Lakin konventdəki siyasi mübarizə respublika tərəfdarlarının üstünlüyü ilə nəticələndi. 1792-ci il sentyabrın 21-də monarxiya devrildi, 22-də isə Fransada I Respublika yaradıldı (1792-1804).

Artıq Respublika elan olunandan sonra xarici siyasət məsələləri tam şəkildə konventin əlində cəmləşdi. Jirondist respublikası 1792-ci ilin sonu üçün müdaxiləçilərin Fransa sərhədlərindən uzaqlaşmasına nail oldu. 1793-cü ilin əvvəllərində etibarən Fransaya qarşı koalisiya qüvvələrinin sıraları da genişləndi. Ingiltərə və Rusiya Fransaya qarşı hərbi əməliyyatlarda birbaşa iştirak etməyə başladı. Lakin Jirondist diplomatiyası hərbi əməliyyatlardan daha çox siyasi mübarizəyə, diplomatik danışıqlara üstünlük verirdi. Təsadüfü deyil ki, Jirondistin dövründə xarici siyasət məsələlərinə rəhbərliyi öz əlinə alan Ədliyyə naziri Danton bütün danışıqları şəxsən həyata keçirirdi. Xarici işlər naziri Levren Dantonla yaxın əlaqəli şəkildə fəallıq göstərirdi. Lakin siyasi sabitliyi pozulmuş Fransada ölkənin siyasi həyatına tez-tez müxtəlif qüvvələr çıxırdı ki, bunlardan biri də Yakob monastırının yetirmələri olan yakobinçilər idi. Fransanın siyasi həyatına inqilabi terror siyasətin zor gücünə davam etməsi yakobinçilərin adı ilə bağlıdır.

1792-ci ilin hərbi əməliyyatlarının uğursuzluğu I koalisiya qüvvələrinin daha da güclənməsini şərtləndirdi, eyni zamanda bu Rusiya-İngiltərə, Rusiya-Prussiya arasında ziddiyətləri tam şəkildə arxa plana çəkdi. Rusiyanın Fransa sərhədlərin daha cox yaxınlaşmaq niyyəti bu dövrdə Fransada başlamış inqilabi hadisələri diqqətlə izləyən və onun təsiri ilə yeni ixtişaşların məkanına çevrilən Polşada baş verən hadisələr II bölüşdürməni şərtləndirdi. Polyak şlyaxtasının fəallaşması Polşanın müstəqilliyi ilə bağlı olmuşdu. Lakin bu fəallaşma Polşaya II faciənə gətirdi, belə ki, Rusiya-Prussiya diplomatiyası Avstriyaya bildirmədən Polşa ərazisinin II bölüşdürülməsini həyata keçirdi. Rus qoşunları Polşanın cənub-qərb vilayətlərinə daxil oldular. Yalnız bundan sonra Avstriya Polşanın ikinci bölüşdürülməsindən xəbər tutdu. 1792-ci ilin mart-apreli üçün qüvvətlənmiş koalisiya qüvvələrinin yenidən Fransanın ərazisinə daxil olması Jirondist hakimiyyətinin ömrünü

qısaltdı.

1793-cü il 31 may- 2 iyun hadisələri nəticəsində Jirondist hakimiyyəti devrildi, yakobin diktaturası devrildi. Ilk tədbir ümumi hərbi mükəlləfiyətin tətbiq edilməsi oldu. Diktaturanın əvvəlləri xarici hərbi müdaxilənin yenidən uğursuzluğu ilə səciyyələnir. Belə ki, bir sıra yüksək vəzifəli şəxsiyyətlərin xəyanətinə və vandiya qiyamçılarının tərəfinə keçmələrinə baxmayaraq umumi hərbi mükəlləfiyyətlər Yakobin diktaturasına yarım millyonluq ordu yaratmasına imkan verdi.

Yakobin diktaturasının əvvəllərində bir sıra dəyişikliklərin içərisində xarici siyasətlə bağlı dəyişikliklər mühüm yer tuturdu. Belə ki, diktaturanın ilk günlərindən liberal görüşlü Xarici işlər naziri Lebren həbs edildi və dövlətə xəyanətdə günahlandırılaraq qliyatinə verildi. Daha radikal görüşlərə malik Dantonun yaxın adamı Deforq Xarici işlər naziri təyin olundu. Lebrin həbs edildi.

Diktatura XVI Lüdovikin tərəfdarı olan adamların da dövlətə xəyanət məsələsinə xüsusi yer ayırdı. Hələ 1793-cü ilin yanvarın 21-də yakobinçilərin ad-baad səsverməsindən sonra XVI Lüdovik də qlyatinə verildi. Oktyabrın 16-da Mariya Antuanettda başda olmaqla bir qrup dövlət adamı da dövlətə xəyanətdə ittiham edildi.

Yakobinçilər inqilabi terrora elə vüsət verdilər ki, bu onların ətrafında boşluğun yaranmasına səbəb oldu. Yakobinçilərin xarici siyasət sahəsindəki uğurları I koalisiyanın qüvvələrini də artırdı. 1793-cü ilin 3 senyabırı üçün antifransız koalisiyasının tərkibində Avstriya və Prussiya ilə yanaşı İngiltərənin, Rusiyanın, Hollandiyanın bir neçə alman knyazlıqlarının, İtalyan knyazlıqları Sardinya və Neapolun hərbi qüvvələrindən istifadə edildi. 1793-cü ilin sonlarından etibarən koalisiya qüvvələrinin üstünlükləri yenidən özünü göstərməyə başladıqda, Jirondist deputatların bir çoxu öz vəzifə və həyatları ilə vidalaşmalı oldular. Xarici siyasət tam şəkildə ictimayi nicat komitəsinin əlində idi.

Bilavasitə xarici siyasət məsələləri ilə Robespyer və Barrer şəxsən məşğul oldular. Robespyer XİN-nin strukturlarında da dəyişiklik etdi. 1794-cü ilin əvvəllərində nazirlik komissar Byuşo başda olmaqla 12 komissiya ilə əvəz olundu. Komissiyanın hər biri konkret fəaliyyət sahələri ilə məşğul olurdu ki, bu da xarici siyasətə dinamik xarakter verirdi. Diktatura dövründə Fransa yalnız 8 dövlətlə o, cümlədən Türkiyə, İsveç, ABŞ, danimarka, İsveçrə, Əlcəzair, habelə iki şəhərlə: Genuya və Cenevre ilə diplomatik əlaqələrə malik idi. Yakobin diktaurasının süqutu yakobinçilərin keçirdiyi terror əməliyyatı nəticəsində şərtlənmişdi.

Fransada fəaliyyət göstərən xarici kəşfiyyat ayrı-ayrı yakobin liderlərinin ləkələnməsi üçün şantajdan məharətlə istifadə edirdilər. Elə liderlər məhv edildi ki, bunlar diktaturanın sosial dayağını zəiflətdi. Artıq 1794-cü ilin mayında diktaturanın İngiltərədəki nümayəndəsi öz əlaqə kanalları vasitəsi ilə Robespyerə Fransada hazırlanmış qəsd haqqında məlumat çatdirmış, onun reallığı isə 9 termidor çevrilişi ərəfəsində özünü göstərmişdi.

**Mövzuya dair suallar**

1. İnqilab ərəfəsində beynəlxalq şərait.
2. Monarxiya dövründə Fransada xarici siyasət orqanlarının yaradılması və fəaliyyəti.
3. İnqilabın I mərhələsində Fransanın xarici siyasəti.
4. Fransa inqilabının Avropada dövlətlərarası münasibətlərə təsiri.
5. Fransaya qarşı I koalisiyanın yaradılması.
6. Jirondistlərin xarici siyasəti.
7. Yakobin diktaturasının diplomatiyası.
8. Burjua inqilabı dövründə Fransanın beynəlxalq əlaqələri.
9. İnqilabın məğlubiyyəti və Termidor çevrilişinə Avropa dövlətlərinin münasibəti

**Ədəbiyyat**


1. Orucov M. 1789-cu il Böyük Fransa burjua inqilabının tarixi, B.,1974
2. Manfred A.Z. Napaleon Bonapart. B., 1993
3. Борисов Ю.В. Шарль Морис Талейран. М., 1989
4. Буржуазная и французкая революция. М., 1989 г.
5. Буржуазные революции XVII-XIX вв. в современной зарубежной историографии. М., 1986, 277 с.
6. Волгин В.П. Развитие общественной мысли во Франция в XVIII в. М., 1977
7. гордон А.В. Падение жиронжистов: Народное восстание в Париже 31 – мая – 2 июня 1793 г. М., 1988
8. Документы истории Великой французкой революции (сост. А.В.Адо и др.) М., 1990
9. История Франции / Под.ред. А.З.Манфреда и др. Т.1. М., 1972.
10. Короткин П.А. Великая французская буржуазная революция. М., 1983
11. Манфред А.З. Великая Французкая буржуазная револьюция. М., 1983.
12. Новая история стран Европы и Америки. Первый период. М., 1986.
13. Нарочницкий А.Л. Междунаородные отношения накануне и во время Французской буржуазной

революции XVIII в. (1763-1794). М., 1946
14. Ревуненков В.Г.Очерки по истории Великой французской буржуазной революции. Якобинская республика. Л., 1978
15. Ревуненков В.Г.Очерки по истории Великой французской буржуазной революции. Падение монархии. 1789-1792. Л., 1982
16. Рявкин А.В. История международных отнашений в новое время. М., 2004.
17. Собуль А. Первая республика 1792-1804. М., 1974
18. Стегний П.В. Разделы Польши и дипломатия Екатерины II. М., 2002
19. Талейран Ш.М. Мемуары. М., 1959
20. Трухановский И.Г. Адмирал Нельсон. М., 1980

## XVI Mövzu
## Fransada konsulluq və I İmperiya dövründə beynəlxalq münasibətlər

Yakobin diktaturası devrildikdən sonra başlanan dövr mövcud tədqiqatlarda Direktoriya dövrü (1794-1799-cü illər) kimi səciyyələnir və bu dövrdə Fransada xarici siyasət məsələləri 5 direktordan birinin səlahiyyətlərinə daxil idi. Lakin xarici siyasətlə bağlı hər hansı qərar ümumi razılığa əsasən qəbul olunurdu.

Direktoriyanın hakimiyyətə gəlməsi Fransa ətrafında koalisiya qüvvələrinin fəaliyyətini zəiflətdi. II Yekaterinanın tapşırığı ilə Rusiya donanması Peterburqa qayıtdı və imperatriça bəyan etdi ki, Fransanın ətrafında koalisiya saxlamağa ehtiyac yoxdur. Direktoriya özü inqilabı məhv edəcək. Doğrudan da, 1794-1795-ci illərdə Direktoriya inqilab dövründə qəbul edilmiş bir sıra qanunları, hətta Yakobin konstitusiyasını ləğv etdi. Fransada irticaçı rejim qurulmağa başladı. 1796-cı ildən etibarən Direktoriyanın özünün də mövqeləri zəiflədi. Çünki ayrı-ayrı sərkərdələrin Qanunverici məclis üzərində hakimiyyəti güclənməkdə idi.

Direktoriya vaxtilə Fransanın siyasi həyatında mühüm rol oynamış xadimləri geri qaytarmaqla öz mövqelərini möhkəmləndirməyə çalışırdı. Bunlardan biri də Taleyran idi. 1796-cı ilin iyununda Parisə qayıdan Taleyran Direktoriyanın xarici işlər naziri postunu tutur və çox tezliklə I Napoleonla yaxınlaşmağa müvəffəq olur. Lakin Direktoriya hakimiyyətini heç kimlə bölüşdürməyə hazırlaşmadığına görə, bir sıra siyasi xadimlər, o cümlədən Napoleon Fransadan uzaqlaşdırılır və Misir ekspedisiyasına göndərilir.

Məlum olduğu kimi, I koalisiya qüvvələri 1797-ci ilin əvvəlləri üçün sıradan çıxarılmışdı. Bunun nəticəsində 1797-ci il oktyabrın 17-də Kompo Fomino adlanan yerdə Fransa ilə koalisiya qüvvələri arasında sülh müqaviləsi imzalandı. Bununla da I koalisiya dağıldı. Fransa işğal etdiyi bir sıra ərazilərin ( Belçika, Reynsahili) sahibinə çevrildi və qısa müddətə olsa da fasilə əldə etdi. I koalisiya qüvvələrindən yalnız İngiltərə Fransa ilə sülh müqaviləsi imzalamadı və II koalisiyanın yaranması uğrunda siyasi mübarizəyə başladı.

II koalisiya tezliklə 1798-ci ilin yazından etibarən formalaşmağa başladı. Onun tərkibində İngiltərə, Rusiya, Avstriya, İsveç, Türkiyə və Neopolitan krallığı daxil idi. Lakin II koalisiyanın daxilində birlik yox idi və təsadüfi deyildi ki, 1800-cü ilin əvvəllərində dağıldı. 1801-ci ilin fevralında Fransa ilə Avstriya arasında Lyunevill sülh müqaviləsi, 1802-ci ilin martında isə Fransa ilə Ingiltərə arasında Amyen sülh müqaviləsi imzalandı ki, bununla da Napoleonun Avropada işğalları tanındı.

Fransanın siyasi həyatında XVIII əsrin 90-cı ilin sonunda baş vermiş hadisələrin əksəriyyəti Taleyranın adı ilə bağlı idi. Taleyran Direktoriyanın içərisində nifaq yaratmağa müvəffəq olmuşdu. Məhz Taleyranın fəaliyyəti nəticəsində Napoleon Fransada baş verən hadisələrdən xəbərdar olmuş, Direktoriyanın nüfuzunun zəifləməsini yeni hakimiyyətin yaradılması üçün şans kimi dəyərləndirmiş və 1799-cu ilin noyabrında 30 minlik qüvvəni Misirdə taleyin ümidinə buraxaraq Fransaya qayıtmışdı.

1799-cu il noyabrın 9-da Parisdəki silahlı qüvvələrin baş komandanı təyin edilən I Napoleon hərbi çevrilişi həyata keçirdi. Qanunverici korpusun iclasları Parisin yaxınlığındakı Sen-Klu şəhərciyinə köçürüldü. Hakimiyyət üç konsula verildi. Birinci həlledici, II və III konsullar isə məşvərətçi səsə malik idi. Icraedici hakimiyyət bütünlüklə, qanunverici və məhkəmə hakimiyyəti isə qismən I konsula məxsus idi.

Son dərəcə qısa müddətdə konsulluq dövlətinin konstitusiyası hazırlandı. Hər bir konsulun adı birinci dəfə üçün konstitusiyaya salındı. Konsulların səlahiyyət müddəti 10 il müəyyənləşdirildi və 1793-1795-ci illərdəki konstitusiyada olan demokratik bəndlərin hamısı 1799-cu il konstitusiyasından çıxarıldı. Konsulluq dövrünün xarici işlər naziri isə Taleyran Periqor oldu.

Konstitusiyaya görə, 21 yaşına çatmış bütün kişilər seçki hüququna malik olurdu, lakin seçicilər birbaşa deputat yox, deputatlığa namizədləri seçirdilər. Qanunıericilik Senata həvalə olunmuşdu. Onun üzvləri Napoleon tərəfindən təyin olunmuşdu. Bütün nazirlər I konsula tabe idilər.

Yeni Konstitusiya plebisit yolu ilə (ümumxalq səsverməsi) təsdiq olunmuşdu. Əslində xalq Napoleona səs verir, onu xilaskar kimi görürüdü. 1802-ci ildə keçirilən yeni plebisit Napoleonu ömürlük I konsul təyin etdi.

Napoleon özünə dayaq yaratmaq məqsədilə hələ 1802-ci ildə mühacir-zadəganlara amnistiya verdi. İnqilab illərində ölkədən qaçmış zadəganlar geri qayıtmağa başladı. I Napoleon həvəslə zadəgan titulları paylayırdı. Belə ki, təkcə 1808-1814-cü illər arasında 3600 zadəgan titulu verilmişdi.

1805-ci ildə Napoleon özünü İtaliyanın da kralı elan etdi.

Konsulluq və imperiya illərində mərkəzləşmiş bürokratik dövlət aparatı qəti şəkildə bərqarar oldu. İnqilab illərində yaradılmış seçkili idarə orqanları qəti şəkildə aradan qaldırıldı. Perfektura sistemi yaradılmışdı. Deportamentlərin polis idarələrinin başında perfektlər dururdu, departamentlərdəki icra və qanunvericilik funsiyaları onun əlində cəmləşmişdi.

Ölkədə tədricən hərbi-bürokratik diktatura qurulur, bütün demokratik təsisatlar ləğv edilirdi. 1800-ci ildə ölkədəki 73 qəzetdən 60-ı bağlanmışdı. Ali və orta təhsil, elm ocaqları nəzarətə götürülürdü, son dərəcə qüvvətli polis aparatı yaradılmışdı. Napoleonun yaxın adamı Buşye polis naziri təyin edilmişdi.

XVIII əsrin sornlarından etibarən Fransa sənaye inqilabının başlanması mərhələsinə daxil olmuşdu. 1800-cü ildə Fransa bankı, 1810-cu ildə isə iki şura: ticarət üzrə və fabrik-monufaktura üzrə şuralar yaradılmışdı.

1804-cü ildə vətəndaş kodeksi qəbul olunmuşdu ki, bu da sonradan Napoleon kodeksi adlandırıldı. Kodeks şəxsiyyət toxunulmazlığını, vicdan azadlığını, qanun qarşısında vətəndaşların bərabərliyini, xüsusi mülkiyyət toxunulmazlığını elan edirdi. 1807-ci ildə Cinayət kodeksi, 1811-ci ildə isə Kommersiya kodeksləri qəbul edildi.

I Napoleonun hakimiyyəti illərində bonapartizm bərqərar oldu. Bonopartizm- Napoleon diktaturası burjua dövlətçiliyinin elə xüsusi formasıdır ki. burada burjuaziya siyasi hakimiyyətdə iştirak etməkdən uzaqlaşdırılmışdı.

1800-1801-ci illərdə Napoleonun daxili və xarici siyasəti sahəsində həyata keçirdiyi tədbirlər onun daxili və beynəlxalq mövqelərini xeyli möhkəmləndirdi. 1802-ci ildə plebistit yolu ilə Napoleon Fransanın ömürlük I konsulu təyin olundu. Tədqiqiatçılar Fransanın qələbələrini də, faciəsini də I Napoleonun adı ilə bağlayırlar. O, 1769-cu il avqustun 15-də Korsika adasında doğulmuş, 1821-ci il mayın 5-də isə Müqəddəs Yelena adasında vəfat etmişdi. 24 yaşında – 1793-cü il dekabrın 17-də Tulon şəhərinin azad edilməsində göstərdiyi şücaətə görə, kapitan rütbəsindən briqada generalı rütbəsinə yüksələn Napoleon özünü qısa müddətə həm istedadlı sərkərdə, həm də yaşanmaqda olan hadisələrin mürəkkəbliyindən baş çıxaran siyasətçi və dövlət xadimi kimi göstərə bilmişdi. Myurat, Davu, Lan və Ney kimi istedadlı fransız generalları Napoleon hərb məktəbinin yetirmələri idi. Cənazəsi 1840-cı ildə Parisə gətirilmiş və öz vəsiyyətinə əsasən, Sena çayının sahillərində dəfn edilmişdi.

Napoleonun xarici siyasətində başlıca uğurları Roma Papası ilə razılığa gəlməsi və mühacir zadəganlara amnistiya verməsi olmuşdu. Napoleon 1800-cü ildə Roma Papası ilə diplomatik danışıqlara başladı və 1801-ci ildə onların arasında konkordat imzalandı. Sənədə görə, Napoleon katolik məzhəbini Fransanın dövlət dini elan edirdi, əvəzində Papa müsadirə olunmuş bütün kilsə torpaqlarını yeni sahiblərinin mülkiyyətinə daxil olmasını qəbul edir və onların lənətlənməsi fikrindən imtina edirdi.

Roma Papasının dəstəyi ilə Napoleon 1802-ci ildə özünün əbədi konsul seçilməsini reallaşdırmış, 1804-cü ilin mayında isə legitimliyi saxlamaq xatirinə Papanın razılığı ilə İmperator titulunu qəbul etmişdi. 1803-cü ildən etibarən Fransa pulları üzərində Napoleonun şəkilləri əks olunurdu, onun ad günü milli bayram elan edilirdi. Napoleon İmperiyanın və konsulluğun sosial dayağını möhkəmləndirmək məqsədi ilə mühacir zadəganların amnistiya almasına imkan yaratdı. 36 min nəfər amnistiya aldı və bir çoxu öz vəzifəsinə qaytarıldı.

Bununla belə, I Napoleonun Roma Papası ilə müttəfiqkiyi sonadək davam etmədi. Papa tədricən Napoleonun Avropada hegomonluq niyyətlərini məhdudlaşdırmağa çalışırdı. Buna görə də, I Napoleon 1809-cu ildə Roma Papasının 756-cı ildən bəri olan hakimiyyətinə son qoydu, Papa vilayətini Fransaya ilhaq etdi, bütün kardinalları Parisə köçürdü, Romanı imperiyanın ikinci şəhərinə çevirdi. Cavabında Papa VII Piy Napoleonu kilsədən xaric elan etdi və lənətlədi. Napoleon Papanı əvvəlcə Qrenobla, sonra isə Savona göndərdi ki, Papa burada nəzarət altında yaşamalı idi. Bu vəziyyət imperiyanın sonuna qədər davam etdi.

Konsulluq dövründən etibarən Napoleon hakimiyyətinin legitimliyini Avropa dövlətlərinə qəbul etdirmək üçün həm nikah, həm də sülalə ənənələrinə müraciət etmişdi. Lakin İspaniya ilə sülalə müqaviləsini bərpa etmək mümkün olmadı. Əvəzində 1810-cu ildə Jozefinadan ayrılan Napoleon Avstriya şahzadəsi Mariya Luiza ilə evləndi və ondan qanuni varis əldə etdi.

Napoleonun Avropa siyasəti güc və siyasətin sintezinə əsaslanırdı. Belə ki, artıq formalaşmış Bonapartizmin əsas xüsusiyyəti daxili və xarici siyasətdə inqilaba qədərki Fransanın mövqelərinin bərpa olunmasına yönəlmişdi. Inqilab dövründə yaranmış bir milyonluq Fransa ordusu Fransanın xarici siyasət uğurlarının başlıca vasitəsi idi. Məhz Napoleonun dövründə fransız respublikası öz mövcudluğunu Avropa dövlətlərinin hamısına qəbul etdirmişdi.

Napoleonun xarici siyasətində mərkəzi yerlərdən birini də antifransız koalisiyasına qarşı mübarizə tuturdu. Kompo Fomino sazişindən sonra Avstriya I koalisiyanın üzvləri sırasından çıxarıldı. Lakin Rusiya diplomatiyasının siyasi və iqtisadi yardımı nəticəsində Avstriya çox tezliklə II koalisiyanın üzvləri sırasında göründü.

Fransaya qarşı II koalisiyanın yaranması İngiltərənin fəaliyyəti ilə bağlıdır. 1798-ci ildə Napoleonun Misir ekspedisiyasına göndərilməsi İngiltərənin Fransaya qarşı mübarizə planlarına ümid və reallıq gətirmişdi. 1798-ci ilin iyunu üçün İngiltərə Rusiya və Avstriya ilə olduqca fəal diplomatik danışıqlar aparırdı. I koalisiyadan fərqli olaraq II koalisiyada İngiltərə donanmasının hərbi əməliyyatlarda fəal iştirakı nəzərdə tutulurdu.

Müttəfiqlik sazişi əvvəlcə İngiltərə və Rusiya arasında imzalandı. Sonra Avstriya, İsveç və Neapol krallığı bu sazişə qoşuldu. İtalyan knyazlıqlarını sazişə daxil etməklə İngiltərə Fransanın qüvvələrini parçalamağı nəzərdə tuturdu. Bu məqsədlə İtalyan knyazlıqlarına maliyyə yardımından və şantajdan istifadə olunurdu.

Türkiyənin II koalisiyaya qoşulması Fransız donanmasının Türkiyə üçün yaratdığı təhlükə ilə bağlı olmuşdu. Lakin Türküyə fəal hərbi əməliyyatlarda iştirak etmədi. Koalisiya iştirakçılarının ayrı-ayrılıqda fəaliyyət göstərməsi və daxili ziddiyyətlərin mövcudluğu 1802-ci ildə II koalisiyanın da dağılmasına səbəb oldu.

II koalisiyanın dağılması Napoleonun Avropa üzərində hərbi-siyasi üstünlüyü demək idi. Bu dövrdən

etibarən I Napoleon  Avropa hegemonluğu iddiasına düşmüşdü. 1803-1805-ci illər arasındakı dövrdə Napoleonun Avropadakı diplomatik uğurları və hərbi qələbələri yalnız İngiltərə və Rusiya tərəfindən etiraf olunmurdu. İmperiya dövrünün əvvəlindən etibarən Taleyranın məsləhəti ilə İngiltərənin Avropa kontinentindən təcrid olunması planı hazırlanmağa başlamışdı.

Napoleon 1805-ci il Trafalqar döyüşündən sonra xüsusilə açıq şəkildə İngiltərəyə qarşı iqtisadi blokada siyasətini yeritməyə başlamışdı. Bu dövrdə Avropanın cənubu və şimalındakı bir sıra ərazilər Napoleon imperiyasının tərkibinə qatılmış və bu imperiya 72 milyonluq əhalisi olan nəhəng bir dövlətə çevrilmişdi. Halbuki, Avropanın ən böyük ölkəsi olan Rusiyanın 36 milyon nəfər əhalisi var idi. Fransız siyasi xadimlərindən Syulli vaxtilə xəbərdarlıq edirdi ki, dövlət saxlaya biləcəyindən artıq əraziyə malik olduqda hökmən düşmən dövlətlərinin koalisiyası ilə üzləşir və yaranmış vəziyyətdən çıxış yolunu ancaq silah həll edir. Fransanın ərazisinə 1805-ci il üçün yalnız Avstriya və Prussiya, həmçinin Avropanın şimalındakı kiçik knyazlıqlar qatılmamışdı.

Fransanın çox sürətlə La-Manş boğazına yaxınlaşması İngiltərəni ciddi şəkildə təhlükəsizlik tədbirləri görməyə vadar edirdi. I Napoleon məhz bu dövrdə "üç dumanlı gecə və, 30 000-lik ordu kifayətdir ki, İngiltərənin taleyi həll olunsun" demişdi. Çox tezliklə İngiltərə III koalisiyanın yaradıcılarından birinə çevrildi.

Başlıca diplomatik danışıqlar yenə aralarındakı dərin ziddiyyətə baxmayaraq, Rusiya və İngiltərə arasında gedirdi. İngiltərə yaranmış şəraitdə Rusiyanın Cənubi Qafqaz ekspansiyası ilə barışmalı olmuşdu. İngilis diplomatiyası çalışırdı ki, Rusiyanın hərbi qüvvələri sürətlə öz mövqelərini dəyişərək Avropa sərhədlərinə keçirilsin. Rusiyanın hadisələrə müdaxiləsi xüsusilə rus sərkərdəsi A.Suvorovun 1799-cu ildə And dağlarından keçidi ilə əlaqədar xeyli güclənmişdi və bu Fransanın daimi narahatlıq mənbəyi idi. III koalisiyada Avstriya və Prussiyanın iştirakına imkan verməmək üçün Napoleon əsas diqqəti hərbi sahəyə yönəltməli olmuşdu.

Yaranmış şəraitdə ilk növbədə İngiltərə ilə Rusiya arasında yeni koalisiyanın yaradılması ilə bağlı danışıqlar intensivləşdi. Rusiya diplomatiyasının səyləri ilə 1804-cü ilin mart-aprelində Danimarka və Prussiya, ilin sonunda isə Avstriya və İsveçrə birgə müdafiə haqqında konvensiyalar imzalandı. 1805-ci ilin aprelində Peterburqda analoji konvensiya İngiltərə ilə Rusiya arasında imzalandı. 1805-ci ilin sentyabrında Türkiyə III koalisiyaya qoşuldu və Rusiya ilə müttəfiqlik müqaviləsi imzaladı. Səbəb Fransanın Misirə müdaxiləyə hazırlaşması ilə bağlı idi. Neopolitan krallığının qoşulması ilə bağlı koalisiyanın yaradılması prosesi başa çatdı. Koalisiya qüvvələrinin dislokasiyası I Napoleonu son dərəcə sürətli hərəkət etmək vəzifəsi qarşısında qoydu. Trafalqar döyüşündə (1805, oktyabr) məğlubiyyətinə baxmayaraq, Austerlis döyüşündə (1805. dekabr) müttəfiqləri məğlubiyyətə uğradan I Napoleon III koalisiyanı da dağıtmağa müvəffəq oldu.

1806-cı ilin sentyabrında I Napoleona qarşı IV Koalisiya yaradıldı. Onun tərkibində Prussiya, Rusiya, İngiltərə və İsveç daxil idi. Avropanın şimalına doğru Fransa qoşunlarının sürətli hərəkəti nəticəsində 1806-cı il noyabrın 19-da Berlin tutuldu. Noyabrın 21-də Napoleon burada 2 tarixi sənəd imzaladı:

1. Müqəddəs Roma imperiyasının buraxılması haqqında dekret. Bu sənədə əsasən 962-ci ildə yaranan və tarixi ədəbiyyata I Reyx adı ilə daxil olan imperiyaya son qoyuldu. Napoleon eyni zamanda özünü həmin imperiyanın varisi kimi apararaq bir sıra öhdəliklər götürdü, o xüsusi ilə parçalanmış alman knyazlıqları ilə bağlı idi.
2. Kontinental blokada siyasəti haqqında dekret imzalandı. Həmin dekretə görə, Avropa kontinentindəki müstəqil və yarımmüstəqil dövlətlərin hamısı İngiltərə ilə siyasi, iqtisadi və ticarət əlaqələrini kəsirdilər. Rusiya yalnız Tilzit sülhündən (1807, iyul) sonra həmin siyasətə qoşulmuşdu. İngiltərə mallarının əsas alıcıları Avropa dövlətləri idi. İngilis mahudu və kanatı Avropa dövlətlərinin hamısının hərbi bazasına daxil idi. Lakin Avropa tarixində qaçaqmalçılıq heç zaman 1806-1809-cu illər arasında olduğu qədər olmamışdı. Ona görə də, Kontinental blokada siyasəti İngiltərə mallarına görünməmiş yüksək qiymət gətirdi. Digər tərəfdən bu siyasət Rusiya tacirlərinə olduqca ağır zərbə endirirdi.

Napoleon Rusiyanın başının cənubda hərbi əməliyyatlara qarışmasından məharətlə istifadə edirdi. Məlum olduğu kimi, Avropada dramatik hadisələrin genişləndiyi dövrdə Rusiya cənubda İran (1804-1813) və Türkiyə (1806-1812) ilə müharibələr aparırdı, buna görə də, Avropa siyasətində hərbi əməliyyatlarla yanaşı, diplomatiyaya da ciddi fikir verirdi.

Aparılmış hərbi əməliyyatlardakı uğurlara, diplomatik danışıqlardakı üstünlüklərə (xüsusilə Tilsit sülhündən sonra) baxmayaraq, Napoleonun Avropa hegemonluğuna nail olması reallaşmadı. 1807-ci ilin sentyabrında imperatorların Erfrut görüşündən sonra Taleyran Rusiyaya Fransa ilə müttəfiqlik münasibətlərinə girməməyi tövsiyə etmiş, I Aleksandr bunu nəzərə almışdı. IV koalisiyanın hərbi əməliyyatlarda uğursuzluğunu çox tezliklə Rusiyanın Fransaya münasibətdə götürdüyü siyasi xətti dəyişməyə vadar etdi. Nəticələrindən asılı olmayaraq rus və fransız imperatorlarının Erfrut görüşü bunun siyasi təsdiqi idi. Koalisiya iştirakçılarından yalnız İngiltərə ona ayrılmış tale ilə barışmadı və aralarında ciddi ziddiyyətlərin olmasına baxmayaraq Rusiya ilə yaxınlaşmaq üçün müxtəlif faktorlardan istifadə etdi. İngiltərə Türkiyəyə təzyiq göstərərək Cənubi Qafqazdakı hərbi əməliyyatların başa çatmasında müəyyən rol oynadı. İngiltərənin Rusiya ilə danışıqlarının başlıca məqsədi Rusiya hərbi qüvvələrinin pərakəndəliyini aradan qaldırmaq və onları Napoleon Fransasına qarşı yönəltmək idi.

Yaranmış şəraitdə 1808-ci ilin sonu 1809-cu ilin əvvəllərində Fransaya qarşı V Koalisiya yarandı. Bu koalisiya Avstriya və İngiltərə hərbi-siyasi ittifaqına əsaslanırdı. Koalisiya qüvvələri demək olar ki, hərbi əməliyyatlarda iştirak etmirdilər. Bu Avstriyanın ağır məğlubiyyətinin başlıca faktoru idi. 1809-cu ilin oktyabrında Avstriya ilə Fransa arasında Şenbun müqaviləsi imzalandı. V koalisiya dağıldı.

Napoleon dönə-dönə qeyd edirdi ki, onun Avropa hegemonluğunun reallaşmasına mane olan Rusiyadır və Rusiyanın aradan qaldırılması üçün Napoleonun siyasi tədbirləri çox tezliklə hərbi təzyiqlə əvəzləndi. 1812-ci ilin yazı üçün Rusiya sərhədinə Fransanın 640 min nəfərlik ordusu toplaşmışdı. Halbuki, Rusiyanın hərbi qüvvələri I Aleksandrın komandanlığı altında 3 hissəyə parçalanmış və Rusiyanın qərb sərhədləri boyunca səpələnişdi. Rus ordusunun Baş qərargahına şotland mənşəli Barklay de Tolli başçılıq edirdi. General A.R.Tormasovun ordusu cənub cinahda idi. General Rumyantsevin ordusu isə şimaldan Fransaya qarşı əks cəbhədə yerləşmişdi. Hətta rus qoşunları vahid cəbhədə yerləşsəydi belə, cəmi 230-240 min nəfərlik heyətə malik idi ki, bu da Napoleonun qüvvələri ilə müqayisədə olduqca az idi.

Napoleonun Rusiyaya yürüşü 1812-ci ilin iyun-dekabr aylarını əhatə edir.

İyulun 24-də Neman çayını keçən fransız qoşunları böyük qələbələr əldə etsələr də üç cəbhəyə bölünmüş rus ordusunun M.İ.Kutuzovun rəhbərliyi altında birləşdirilməsinə mane ola bilmədilər. Borodino döyüşündən sonra rus qoşunlarının əks hücumu başladı. Tədricən I Napoleonun müttəfiqləri ondan uzaqlaşmağa başladılar.

1812-ci il dekabrın sonuna qədər davam edən döyüş əməliyyatlarından sonra Napoleonun Avropa cahangirliyinə meydan verən ordusundan cəmi 3000 nəfərlik dəstə Berezna çayını keçərək Fransaya qayıda bilir. Napoleon ordusunun Rusiyada məğlubiyyəti bütün Avropada mili-azadlıq hərəkatına təkan verdi. M.İ.Kutuzovun rus ordusuna komandanlığından sonra Borodino döyüşündə Rusiya qüvvələri ilə Fransa qüvvələri arasında tarazlıq yarandı və Rusiya Napoleon Fransasına qarşı yeni koalisiyaya rəhbərliyi öz əlinə götürdü. Rusiyanın Avropa yürüşünün başlanmasından sonra ilk növbədə Prussiya hərbi əməliyyatların iştirakçısına çevrildi. 1813-cü ilin yanvar-fevralı üçün Rusiya yeni antifransız koalisiyasının təşkilatçısına çevrildi, VI koalisiya yaradıldı. Onun tərkibinə İngiltərə, Rusiya, İsveç, Avstriya, Prussiya, İspaniya və Portuqaliya daxil idilər. Bu zaman koalisiyanı yaratmaqla Rusiya iki məqsəd güdürdü:

- Napoleon ilə mübarizəni sona çatdırmaq üçün hərbi qüvvələrin mərkəzləşməsi və vahid idarəçiliyə nail olmaq;
- Napoleon ilə Avropa dövlətlərindən hər hansı biri arasında separat danışıqların və sülhün bağlanmasına imkan verməmək.

I Aleksandr hər iki məqsədin reallaşması üçün Varşavada liderlərin görüşünün keçirilməsini planlaşdırırdı. Lakin M.İ.Kutuzovun vəfat etməsi onun planlarını dəyişdi. I Aleksandr şərt kimi I Napoleonla danışıqlara başlamamağı Prussiyanın, Avstriyanın və İngiltərənin nümayəndələrinə çatdırmışdı. 1814-cü ilin martında Fransaya qarşı qüvvələri vahid komandanlıqda birləşdirmək üçün tərkibinə İngiltərə, Rusiya, İsveç, Prussiya, İspaniya, Portuqaliya və Avstriyanın daxil olduğu Şamon ittifaqı yaradıldı. Bu ittifaqı Rusiyanın əvvəldə qeyd etdiyimiz niyyətləri şərtləndirirdi. Məhz Şamon ittifaqı Napoleona qarşı mübarizəni sona çatdırdı. 1814-cü il martın 31-də müttəfiq qoşunları Parisə daxil oldu. Fransanın cənubunda Napoleon əsir götürüldü və Elba adasına sürgün edildi.

1814-cü il mayın 30-da Fransa ilə I Paris sülh müqaviləsi imzalandı. Müqavilə Fransaya heç bir ağır şərt qoymurdu. Müttəfiqlər gözləmə mövqeyi tutaraq Fransada təkrar qisasçılığın baş qaldırmasının qarşısını almaq istəyirdilər. Lakin koalisiyanın təntənəsi uzun sürmədi. 1815-ci il martın 1-də Napoleon Elba adasını tərk edərək Fransada görünür və hakimiyyətini bərpa edərək müttəfiqlərlə son döyüşə hazırlaşır. Napoleonun aşkarladığı 1815-ci il 3 yanvar gizli sazişi də müttəfiqlərin arasını vura bilmir. 1815-ci il iyunun baş vermiş Vaterloo döyüşündə Napoleon əsir götürülür və Müqəddəs Yelena adasına sürgün olunur. I Paris sülhünün şərtləri Fransanın zərərinə olaraq II Paris sülhü ilə ağırlaşdırılır, ölkənin üzərinə 700 min frank təzminat qoyulur və ciddi nəzarət rejimi yaradılır.

Müharibənin nəticələrinin aradan qaldırılması və onun «bəhrələrinin» bölüşdürülməsi üçün Vyanada beynəlxalq konqres çağırılır. Vyana konqresinin qərarları Avropanın ictimai-siyasi həyatında silinməz izlər qoymuşdur.

**Mövzuya dair suallar**

1. Napoleon müharibələri ərəfəsində beynəlxalq münasibətlər.
2. I İmperiyanın İngiltərə və Rusiya siyasəti
3. Fransanın I koalisiya ilə mübarizəsi və beynəlxalq nəticələri
4. Fransanın Avropada hegemonluğu
5. I Napoleonun «kontinental blokada» siyasəti
6. I Napoleonun Avropa dövlətlərinin koalisiyalarına qarşı mübarizəsi
7. Fransa və Papalıq dövləti. I Napoleonun dini siyasəti
8. Fransa-Rusiya müharibəsi və beynəlxalq nəticələri

9. Şomon ittifaqının yaradılması.
10. Napoleon imperiyasının süqutundan sonra beynəlxalq şərait.

**Ədəbiyyat**


1. История Дипломатии. Т.1. М., 1959
2. История Франции. Т.1. М., 1972
3. Жилин П.А. Гибель Наполеоновский армии в России. М., 1974
4. Манфред А.З. Наполеон Бонапарт. М., 1980
5. Манфред А.З. Очерки истории Франции XVIII-XIX вв. М., 1961
6. Нарочницкий А.Л. Об историческом значении континентальной блокады / Новая и новейщая история, М., 1965, №6
7. Новая история стран Европы и Америки. Первый период. М., 1986
8. Освободительная война 1813 года против Наполеоновского господства. М., 1965
9. Собуль А. Первая республика .1792-1804. М., 1974
10. Талейран Ш.М. Мемуары. М., 1959
11. Троицкий Н.А. Александр I и Наполеон. М., 1994
12. Туган – Барановский Д.М. Наполеон и республиканцы. Саратов, 1980
13. Туган – Барановский Д.М. У истков бонапартизма. Происхождение режима Наполеона. Саратов, 1989
14. Тарла Е.В.Наполеон. Соч., т.7. М., 1959

## XVII Mövzu
## «Vyana sistemi» və Müqəddəs ittifaqın yaradılmasının beynəlxalq şəraitə təsiri

Napoleon imperiyası darmadağın edildikdən sonra Avropa dövlətləri arasında qüvvələr nisbəti əsaslı şəkildə dəyişildi. I fransız imperiyasının xərabələrı üzərində gedən bölüşdürmə prosesi Avropada beynəlxalq münasibətlərin yenidən qurulması ilə başa çatdı. Qalib dövlətlərin yaratdığı yeni sistem tarixə «Vyana sistemi» adı ilə daxil olmuşdur. Bu sistemi yaratmaqla qalib dövlətlər Avropa ölkələrinin yeni sərhədlərini müəyyənləşdirmək, qüvvələr nisbətinin yeni balansını yaratmaq, təqribən iyirmi beş ilə yaxın dövrü ərzində baş vermiş dəyişiklikləri qanuniləşdirmək kimi məqsədləri reallaşdırmaq istəyirdilər. Qalib dövlətlər «Vyana sistemi»ni yaratmaqla qarşılarına aşağıdakı üç başlıca vəzifəni qoymuşdular:

- Fransanı inqilabaqədərki sərhədlərə (1792-ci il 1 yanvar sərhədlərinə) qaytarmaq, Fransa taxt-tacında legitim Burbonlar sülaləsinin hakimiyyətini bərqərar etmək;
- Avropada qalib dövlətlərin – Rusiya, İngiltərə, Avstriya və Prussiyanın mənafelərinə cavab verən, bununla da qüvvələr nisbətininin yeni düzümünü tarazlayan ərazi bölgüsünü həyata keçirmək; Avropa siyasətinin yeni qaydalarını müəyyənləşdirmək;
- Avropanı yeni sosial sarsıntılardan, milli münaqişə və inqilablardan qorunmaq üçün lazım olan bütün siyasi, diplomatik və hərbi tədbirləri həyata keçirmək.

Göstərilən vəzifələrin reallaşdırılması üçün yaradılmş Vyana sistemi onlarla müqavilə, saziş və c. diplomatik sənədlərdən dən ibarət olub (Fransa ilə sülh müqavilələri, Fransaya qarşı -1814-cü il 1 martda bağlanmış Şoman müqaviləsinə əsasən –Rusiya, İngiltərə, Prussiya və Avstriyadan ibarət Dördlər ittifaqıның yaradılması, Müqəddəs ittifaq) müəyyən mərhələlərlə 1814-cü ilin mayında 1818-ci ilin noyabrınadək yaradılmışdı. Həmin müqavilə və sazişlər 4 beynəlxalq görüş nəticəsində təsdiq olunmuşdu:

– I Paris sülhü (1814, may);
– Vyana konqresi (sentyabr 1814 - iyun 1815);
– II Paris sülhü (iyul-noyabr 1815);
– Axen konqresi (sentyabr-noyabr 1818).

Vyana konqresində Avropanın bütün ölkələrindən (Türkiyədən başqa) 216 nümayəndə iştirak edirdi. Belə ki, konqresdə qalib dövlətlərdən Rusiyanın çar I Aleksandr, Avstriyanı – kansler Metternix, Prussiyanı – prezident-nazir Qardenбerq, İngiltərəni – lord Kestlri (xarici işlər naziri), Fransanı isə xarici işlər naziri Taleyran təmsil edirdi. F. Engels konqresin işi ilə əlaqədar yazırdı ki, «burada xalqlar alınıb satılır, birləşdirilib ayrılır…»

Konqres legitimizm siyasətini əsas götürərək Napoleon tərəfindən işğal olunmuş ölkələrdə istilaya qədərki - yəni 1792-ci ilin yanvarına qədər quruluşu bərqarar etdi. Bu siyasət Taleyranın parlaq dühasının məhsulu idi. Knyaz Taleyran- Periqar Vyanaya sentyabrın 23-də xüsusi səlahiyyətlərə malik olmaqla gəldi. Onun başlıca məqsədi müttəfiqlər arasında Avropanın gələcəyinə dair fikir müxtəlifliyindən istifadə edərək onların arasını vurmaq, bununla da Fransanın parçalanmasına dair onların planlarını pozmaq idi. Taleyron bu məqsədlə Polşa-Saksoniya məsələsindən məharətlə istifadə etdi. Həm müttəfiqlərin arasındakı ziddiyyətləri bir qədər də dərinləşdirdi, həm də yaxşı kapital qazanmaq imkanı əldə etdi.

I Aleksandr onu yaxşı tanıyırdı, Taleyran dəfələrlə çardan bəxşiş istəmiş və almışdı. Taleyran legitizm siyasətini irəli sürməklə Rusiya və Prussiyanın yeni əraziləri ələ keçirməsinə yol qoymurdu, çünki bu prinsip Avropanı 1792-ci il sərhədlərinə qaytarmağı və I Napoleon tərəfindən devrilmiş sülalələrin qanuni hakimiyyətini bərpa etməyi tələb edirdi. 1814-cü ilin oktyabrın əvvəllərində Taleyran I Aleksandrın qəbulunda oldu və çara legitim siyasəti haqqında məlumat verdi. Bu kifayət qədər iradəli olan I Aleksandrı olduqca hiddətləndirdi, çünki Erfurtda Napoleonun planlarını Aleksandra pulla satan adam indi qanunilikdən danışırdı.

I Aleksandrın Metternixi də görən gözü yox idi, çünki onuun nəfsi də yalanla gəlirdi. I Aleksandr lord Kestlrini isə «soyuq pedant» (xırdaçı, vasvası) adlandırırdı. Lakin çar eyni zamanda yaxşı başa düşürdü ki, həm Avstriya, həm də İngiltərə məcburiyyət üzündən I Aleksandrın tələblərini qəbul edirlər. Təsadüfi deyildi ki, Prussiya kralı III Fridrix Vilhelm Kestern və Metternixin Polşa ilə bağlı planlarının üstünü açarkən I Aleksandr bunu olduqca adi bir epizod kimi qəbul etmiş, lakin onların hər ikisini satqınlıqda günahlandırmışdı.

1814-cü il mayın 30-da imzalanmış I Paris sülhünə görə, Fransa ilə Dördlər ittifaqı öz münasibətlərini hələ 1805-ci ildə İngiltərə ilə Rusiya arasında imzalanmış konvensiya əsasında qurdular. Tərəflər xeyli müzakirədən sonra kompromis qərar qəbul edirlər: yeni və köhnə zadəganlar, mülkədar və burjuaziya hüquqca bərabərləşdirilirdilər. Bu o demək idi ki, tərəflər Fransada mülkiyyət məsələlərində dəyişikliklər etməyi öz öhdələrinə götürürlər. Dini siyasətdə də müttəfiqlər Napoleonla Papa arasında imzalanmış 1801-ci il Konkardatını əsas götürürdülər.

Lakin Napoleonun «100 günü» (O, Elba adasından qaçdıqdan sonra 100 günə öz hakimiyyətini bərqarar etsə də, 1815-ci il 18 iyunda Vaterloo döyüşündə müttəfiqləri tərəfindən məğlub edilərək bu dəfə Müqəddəs Yelena adasında sürgün edilmşidi) I Paris sülhünün şərtlərinin xeyli ağırlaşmasına səbəb oldu.

1815-ci il noyabrın 20-də imzalanmış II Paris sülhünə görə, Fransa mütəfiqlərə 700 mln. frank (qızıl)

məbləğində təzminat verməli, təzminat ödənilənə qədər Fransanın şimali-şərq departamentləri mütəffiq qoşunların nəzarəti altında qalmalı, ordu və dövlət aparatında təmizlik keçirməli, Fransa hökumətinin 1815-1818-ci illərdəki fəaliyyəti 4 müttəfiq dövlətin səfirlərinin nəzarəti altında olmalıdır.

Vyana sisteminin başlıca müddəalarından olan Avropada ərazi dəyişiklikləri məsələsi I Paris sülhünün diqqət mərkəzində olmuş, 1815-ci il iyunun 9-da Vyana konqersində qəti şəkildə həll edilmişdi. Konqresin qəbul etdiyi 121 bənddən və 17 əlavədən ibarət Yekun aktı Avropadakı sərhəd dəyişikliklərini qanuniləşdirirdi. Yekun aktına görə, Fransanın ərazisi 1792-ci ilin yanvarına olan sərhədlərlə məhdudlaşdırılırdı. Konqerasin gedişində Prussiyanın Elzas, Lotaringiya və Reyn çayının sol sahillərinə olan ərazi iddiaları rədd edildi.

Vyana konqresi Almaniya və İtaliyada feodal pərakəndəliyini bir qədər dəyişilmiş formada saxladı. Məlum olduğu kimi, I Napoleon III koalisiyanın qüvvələrini darmadağın etdikdən sonra 1806-cı il sentyabrın 12-də Reyn İttifaqının yaradılması haqqında dekret imzalamışdır ki, buna əsasən 16 Qərbi Alman dövləti vahid ittifaqda birləşdirdi. İttifaqın başında Fransa dururdu, I Napoleon isə Reyn İttifaqının ömürlük protektoru elan edilirdi. Müqaviləyə görə, yeni ittifaqın hər bir üzvü Napoleona müəyyən miqdar hərbi qüvvə ilə yardım etməli idi. İtalyan krallığının yaradıcısı da I Napoleon idi. Əldə edilmiş razılığa əsasən Alman İttifaqına Avstriya və Prussiya da daxil idilər. Yeni birliyə «İttifaq seymi» rəhbərlik etməli idi. Konqresin qərarına görə, «Alman ittifaqı» 34 dövlətdən və 4 azad şəhərdən ibarət idi. İtaliyan İttifaqı isə 7 müstəqil dövlətdən ibarət olmalı idi. Konqres İtaliyanın ərazisi olan Lombardiya və Venetsiyanı Avstriyaya verdi.

Vyana konqresi Napoleon əleyhinə olan VI koalisiyanın təşkilatçısı İsveçi də layiqincə mükafatlandırdı. Norveç uniya əsasında daxili muxtariyyatı saxlanmaq şərti ilə İsveçə verildi.

Konqres şahzadə I Oranlı Vilhelm başda olmaqda Hollandiyanın dövlət müstəqillyini bərpa etdi. Cənubi Niderland (Belçika) Hollandiyaya verildi və yeni dövlət Niderland krallığı adlandırılmağa başlandı.

İsveçrənin dövlət müstəqillyi də bərpa edilir və onun «əbədi bitərəfliyi» qanuniləşdirilirdi. Qərara alındı ki, Alp respublikası azad, müstəqil vaə bitərəf «kantonlar ittifaqı» əsasında təşkil olunsun.

Napoleona qarşı mübarizənin gedişində Prussiyanın və Avstriyanın xidmətlərini xüsusi qeyd edən konqres hər iki dövlətin ərazicə genişlənməsinə imkan verdi. Prussiya Rusiya ilə olan razılaşmaya əsasən Saksoniyanı (I Napoleonun müttəfiqi) tam şəkildə əldə edə bilməsə də Şm. Saksoniyaya sahibləndi. Reyn Vestfaliya vilayəti və Pomeraniya da Prussiyaya verildi.

Konqresin nəticələri Avstriyanın Avropa diplomatiyasında mövqelərini olduqca möhkəmləndirdi. Belə ki, Avstriya Habsburqlarının hakimiyyəti bütün İtaliyaya yayıldı. Tirol, Baltelina, Triyest, Dalmasiya, Avstriya imperatoru I Fransın qohumları hakim təyin edildilər.

Vyana konqresinin gedişində Polşa-Saksoniya məsələsi ciddi ixtilafa səbəb oldu. Varşava hersoqluğunu Rusiyaya birləşdirməyə can atan I Aleksandr Saksoniyanı Prussiyaya vəd etməklə onu öz tərəfinə çəkməyə nail olmuşdu. Bu məsələ ətrafında ixtilaf o dərəcədə dərinləşdi ki, Taleyranın təklifi ilə 1815-ci il yanvarın 3-də İngiltərə, Avstriya və Fransa Rusiya və Prussiaya qarşı gizli ittifaq bağladılar. Müqavilə üç nüsxədən ibarət idi. Müttəfiqlər Rusiya və Prussiyanın və Avstriyanın planlarını pozmaq qərarına gəlmişdilər. Taleyran Fransanın qonşuluğunda olan Prussiyanın güclənməməsi üçün bütün vasitələrə əl atmışdı. Gərgin mübarizədən sonra Saksoniyanın bir hissəsi Prussiyaya, Varşava hersoqluğunun 3,2 mln əhali yaşayan böyük hissəsi isə Rusiyaya verildi. Lakin 1815-ci il martın 20-də Napoleon Parisə daxil olduqdan sonra Burbonlar sülaləsindən olan kral XVIII Lüdovik elə tələsik şəkildə Parisdən qaçdı ki, 1815-ci il 3 yanvar müqaviləsinin Fransaya aid nüsxəsi yaddan çıxıb imperatorun stolunun üstündə qaldı və I Napoleonun əlinə keçdi. Napoleon isə koalisiyanı dağıtmaq üçün həmin gizli müqaviləni I Aleksandra göndərdi. I Aleksandr müqavilə ilə tanış olduqdan sonra onun Metternixə təqdim etdi. Müasrləri deyirdi ki, Metternix özünü elə itirdi ki, hətta yalan demək də yadından çıxdı. Lakin çar: bizim bir düşmənimiz var –o da Napoleondur-deyərək koalisiyanın dağılmasına imkan vermədi. Təsadüfi deyil ki, I Aleksandrın tədqiqatçıları bir məsələdə yekdildirlər ki, bu da Aleksandrın mahir diplomat və siyasətçi olmasının etiraf edilməsindən ibarətdir.

Vyana konqresinin qəbul etdiyi qərarlar içərisində qul alveri məsələsi xüsusi yer tuturdu. Konqres zənci qullarla ticarətin qadağan olunması ilə yanaşı, ümumiyyətlə köləliyi insanların «ilahi hüquqlarının pozulması» kimi qiymətləndirərək qanundan kənar elan etdi.

Konqres diplomatik fəaliyyəti, dövlətlərarası münasibətlərin tarixi təcrübəsinə əsasən 1815-ci il martın 19-da «Diplomatik nümayəndəliklərin dərəcələri haqqında Əsasnamə» təsdiq etdi. Əsasnamə aşağıdakı diplomatik dərəcələri müəyyənləşdiridi:

- I dərəcə: səfir, papa leqatı və kuntsiləri;
- II dərəcə: diplomatik nümayəndə-elçi;
- III dərəcə: nazir rezident (1818-ci il Aexan konqersinin qərarına əsasən təsdiq edilmşidir);
- IV dərəcə: müvəqqəti işlər vəkili.

Vyana sistemi və onun hüquqi bərkintisi olan «Müqəddəs ittifaq» yalnız Krım müharibəsi başa çatdıqdan sonra (1853-1856) siyasi səhnəni tərk etdi və dövlətlər «real siyasət» strateji kursuna uyğun xətt yeritməyə başladılar. Legitimliyə əsaslanan beynəlxalq münasibətlər sistemi sona çatdı.

Vyana sistemi ideoloji və hərbi-siyasi baxımdan «Xalqların və monarxların Müqəddəs İttifaqının»

yaranması ilə tamamlandı. Avropa monarxlarının siyasi sarsıntılara qarşı mübarizə ittifaqı olan bu birliyin yaranması ilə diplomatik leksikona «Pentarxiya» və «Avropa konserti» anlayışları daxil oldu..

Napoleonun «100 günü» Vyana konqresi iştirakçılarında belə bir fikir yaratmışdı ki, Fransada olduqca böyük imkanlara malik «gizli inqilabi komitə» fəaliyyət göstərir ki, həmin komitə hər şeyə qadirdir. Yaranmış şəraitdə, 1815-ci ilin sentyabrın 26-da Rusiya, Avstriya və Prussiya «Müqəddəs ittfaq» yaratmaqla nəinki Fransaya, ümumiyyətlə Avropaya qarşı strateji kursa imza atdılar. 1815-1817-ci illərdə Roma papası, İngiltərə və Türkiyədən başqa bütün Avropa dövlətləri «Müqəddəs ittifaqa» qoşuldular. İngiltərə də əvvəlcə faktiki onun bütün işində iştirak edirdi. İttifaq Avropada əmin-amanlıq xatirinə hər hansı inqilabi çıxışı silahlı şəkildə yatırmağa hazır idi. Bunu hadisələrin sonrakı gedişi əyani şəkildə göstərdi.

Tədqiqatçılar «Müqəddəs İttifaqın» mövcudluq və tarixini üç dövrə bölürlər:

- birinci dövr – 1822-ci ilə qədər davam edən 7 illik dövrü əhatə edir ki, bu «Müqəddəs İttifaqın» ən qüdrətli dövrüdür. Bu dövrdə «Avropa konsertinin» iştirakçıları arasında fikir birliyi və fəaliyyət həmrəyliyi özünü aydın şəkildə göstərir ki, Aexan, Troppou-Loybax və Verone konqresləri keçirilir.
- ikinci dövr – 1823-1830-cu illəri əhatə edir və Fransada İyul monarxiyasının qurulması ilə başa çatır. Dövrün başlıca epizodu fransız qasidlərinin İspaniyaya müdaxiləsi və kral VII Ferdinandın hakimiyyətinin bərqərar olmasıdır. 1822-ci ilin avqustunda Kestelrinin özünə qəsd etməsindən sonra, sentyabrda onun yerini istedadlı ingilis diplomatı və antirus görüşləri ilə məşhur olan Corc Kanpinq tutur.
- üçüncü dövr – 1830-cu il İyul monarxiyasının qurulmasından başlayır və Krım müharibəsi ərəfəsinədək davam edir, tədricən Avropa dövlətlərinin əvvəlki həmrəyliyi arxa plana keçir.

Ümumiyyətlə, XVIII əsrin sonlarından etibarən Fransada burjua inqilabının təsiri ilə baş verən hadisələr qlobal dəyişiklikləri şərtləndirməklə Vyana sisteminin qurulmasına yol açdı. Bununla belə, əsrin dörddə birində baş verən hadisələr dünyanın sonrakı ictimai-siyasi və iqtisadi inkişafında mühüm rol oynadı.

**Mövzuya dair suallar**

1. Napoleon imperiyasının süqutundan sonra beynəlxalq şərait
2. Vyana konqresinin çağırılması və məqsədləri
3. Legitimlik və Polşa-Saksoniya məsələsinə dair fikir ayrılığı
4. Taleyronun Vyana konqresi dövrü diplomatiyası
5. 1815-ci il gizli sazişi və məqsədləri
6. Vyana konqresində Almaniya və İtaliya məsələsi
7. Konqresdə ərazi dəyişiklikəri problemi
8. Napoleonun «100 günü» və Vaterloo döyüşünün beynəlxalq nəticələri
9. Fransada və I Napoleon tərəfindən işğal edilmiş ölkələrdə legitim sülalələrin bərpası
10. Müqəddəs İttifaqın təşkili və Avropada irticanın güclənməsi
11. Avropa dövlətlərinin nisbi həmrəyliyi və «Avropa konsertinin» dövrün hadisələrinə münasibəti

**Ədəbiyyat**


1. Галкин И.О. Создание германской империи (1815-1871). М., 1986
2. Германская история в новое и новейшее время. Т.1, М., 1970
3. Дебидур А. Дипломатическая история Европы. От Венского до Берлинского Конгресса (1814-1878), Т1, М.-Л., 1947
4. Жилин П.А. Гибель наполеоновский армии в России. М., 1974
5. Зек. А.А. Монархи против народа. Дипломатическая борьба на развалинах наполеоновской империи. М., 1966
6. История дипломатии. Т.1. М.,1959
7. История Франции. т.1. М., 1972
8. Монфред А.З. Великая французская буржуазная революция. М., 1983
9. Монфред А.З. Наполеон Бонапарт. М., 1980
10. Новая история стран Европы и Америки. Первый период. М., 1983
11. Собул А. Первая республика, 1792-1804. М., 1974
12. Талейрон Ш.М. Мемуары. М., 1959
13. Троицкий Н.А. Александр I и Наполеон. М., 1994
14. Эпштейн А.Д. История Германии от позднего средневек вья до революции 1848г. М., 1961

## XVIII Mövzu
## Xanlıqların yaranması və Quba xanlığının xarici siyasəti

XVIII əsrin ikinci yarısı Azərbaycan tarixinin ən az öyrənilmiş sahələrindən biridir. Doğrudur, həmin dövrün ayrı-ayrı məsələlərində bir sıra elmi-tədqiqat əsərlərində toxunulmuşdur. Lakin bu məsələlərin əksəriyyəti ümumi şəkildə qoyulmuş, bu və ya digər məsələnin ayrılıqda həllinə xüsusi yer verilməmişdir.

Məlum olduğu kimi, hələ XVIII əsrin birinci yarısında Azərbaycan uğrunda Rusiya, Türkiyə və İran dövlətləri arasında aparılan mübarizə sonda ölkəyə hərbi müdaxilə ilə nəticələnmiş və Azərbaycan ərazisi həmin dövlətlər arasında bölüşdürülmüşdür. Bu dövlətlərdən İran və Türkiyə arasında hərbi əməliyyatların gedişində Azərbaycanın şəhər və kəndləri xaraba qoyulmuş, xalqın var-dövlətiqarət edilmiş və ölkə ağır vəziyyətə salınmışdı.

Bəhs etdiyimiz dövrdə mühüm məsələlrdən biri də Azərbaycanda xanlıqların meydana gəlməsi, şimal-şərqi Azərbacyan xanlıqlarının birləşdirilməsi, İran və Türkiyəyə münasibətləri, habelə birləşmə ərəfəsində Quba xanlığının mövqeyidir.

Azərbaycan xanlıqlarının birləşdiriləsində cəsaprətlə mübarizə aparış qubalı Fətəli xanın fəaliyyəti haqqında H.Abdullayevin iki əsəri (Абдуллаев Г. "Азербайджан в XVIII веке и взаимоотношения его с Росиией". Б.,1965; Абдуллаев Г. "Из истории Северо-восточного Азербайджана в 60-80-х годах XVIII вв". Б., 1958) nəzərə alınmazsa xüsusi tədqiqat əsərləri yoxdur. Onun fəaliyytəi haqqında ancaq bir neçə kiçik məqalələr və kütləvi broşuralarla kifayətlənmişlər.

### 20.1. Azərbaycanda xanlıqların meydana çıxması.
### Quba xanlığı.

XVII əsrin ikinci yarısında Azərbaycanın gələcək inkişafında mühüm rol oynayan bir sıra mühüm hadisələr baş verdi ki, bunlar da Azərbaycana Rusiya təcavüzünün güclənməsi ilə bağlı idi.

XVII əsrin sonlarından etibarən Səfəvilər dövlətinin tənəzzülü daha da güclənmişdi. Səfəvilər dövlətinin əsarətində olan ölkələrdə baş vermiş kəndli hərəkatı və saray dairələri arasındakı çəkişmələr əsası 1502-ci ildə Şah İsmayı tərəfinədn qoyulmuş və uzun müddət qüdrətli dövlət olmuş Səfəvilər dövlətinin daha zəifləməsinə gətirib çıxardı.

Azərbaycanda və Səfəvilərin hakimiyyəti altənda olan digər ərazilərdə baş vermiş təsərrüfat dağınıqlığı bu dövlətin tənəzzülünü daha da sürətləndirirdi. Uzun müddət gizli və bəzən açıq surətdə yerli feodalların mərkəzləşdirilmiş şah hökumətinə qarşı mübarizəsi onların müstəqilləşməsinə imkan yaradırdı.

Zəhmətkeş əhalinin istismar edilməsi, vergilərin artması və İran feodallarının talançılıq siyasəti ölkənin məhsuldar qüvvələrini daha çox dağıdırdı. Bəhs etdiyimiz dövrdə, kəndli təsərrüfatı və sənətkarlıq daha çox tənəzzülə uğramışdı ki. bu da Səfəvilər dövlətinin iqtisadi əsaslarını sarsıdırdı. Yerli bəylər tərəfindən kəndli torpaqlarını özbaşına tutulması kəndlilərin narazılığını daşha da artırırdı.

Saysız-hesabsız vergilər şəhər zəhmətkeşlərini də boğur, var-yoxdan çıxarır və dilənçi halına salırdı. Feodal özbaşınalığı şəhərlərə və ticarətə böyük ziyan vururdu. Daxili çəkişmələrə qarşı mübarizədə zəif olan şah hökuməti azadlıq hərəkatlarını boğlmaqda da azic idi. Bunun nəticəsində ticarət əlaqələri zəifləyirdi, xarici ölkələrdən gələn ticarət karvanlarının istiqaməti dəyiçirdi.

XVIII əsrin əvvəllərində Rusiya ilə ticarətdə törədilən maneələrin artması da tacirlərin mənafeyinə uüğun gəlmirdi. Çünki, müharibələr qonşu dövlətlərə mal aparılmasına da mane olurdu.

XVIII əsrin birinci yarısında nadir şahın qurduğu dövlət daha ağır maliyyə böhranı keçirir və uzun sürən müharibələr, şah sarayında hərc-mərclik, məmurlar tərəfindən böyük məbləğlərin mənimsənilməsi dövlət xəzinəsini var-yoxdan çıxarmışdır.

İqtisadi və milli zülmün şiddətləndiyi və əsarətə düşmüş xalqların müqavimətinin artdığı bir şəraitdi mərkəzi hakimiyyət son dərəcə zəifləmişdi. Müstəqil olmağa çalışan bəylər, xanlar və digər iri feodallar şaha tabe olmaqdan boyun qaçırırdılar. Hətta vəziyyət o yerə çatmışdı ki, vaxtilə I Şah Abbasın və onun xələflərinin dayağı olan şahsevənlər şah hakimiyyyətindən üz çevirmişdilər. Adətən, Şahsevən xanları mərkəzdən kəndlilər və şəxsən şahın özü tərəfindən təsdiq olunurdular. Bu haqda XVIII əsr rus səyyahları və dövlət xadimləri maraqlı məlumatlar verirlər. Rusiyanın Cənubi Qafqazda agenti olan A.Volınski Səfəvilər dövlətində baş vermiş özbaşınalığı qələmə alaraq yazmışdır ki, 1717-ci ildə şahsevənlər «..şahın göndərdiyi adamı qəbul etmədilər və öz xalqları içərisində hakim seçdilər…, onlar şahın başqa əmrlərini də yerinə yetirmədilər. Onlar iranlılardan əsla qorxmurdular».

Daha sonra ölkədə baş vermiş özbaşınalığın şahidi olmuş A.Volınski I Pyotra göndərdiyi məktubunda yazmışdır. «… burada indi elə hakim vardır ki, o təbələri üzərində deyil, təbəlləri onun üzərində hakimdirlər».

XVIII əsrin ikinci yarısında Azərbaycanın xalq kütlələrinin vəziyyəti xüsusilə ağır idi. A.Volınski öz məktublarının birində yazmışdır ki, «Səfəvilər dövlətinin taxıl ambarı olan Azərbaycanda tarlalar 7 il ərzində əkilməmiş qalmış və ölkədə aclıqdır». Belə məlumalara rus səhhayhlarından Druvilinin, Qmelinin və başqalarının yazılarında də rast gəlmək olar.

Ümumiyyətlə, XVIII əsrin əvvəllərində Azərbaycanın demək olar ki, bütün ərazisi İran əleyhinə çevrilmiş hərəkatla əhatə olunmuşdu ki, bu hərəkət çox vaxt xanların qüvvətli antifeodal çıxışları ilə birləşirdi.

Əsrlər boyu siyasi azadlıq və vahid dövlət yaratmvaq uğrunda fədəkarcasına mübarizə aparan Azərbaycan xalqı XVIII əsrin ikinci yarısında obyektiv ictimai-iqtisadi səbəblərin nəticəsində bir neçə feodal xanlıqlara parçalandı.

Bütün tarixi boyu bu xanlıqlar arasında mənafe uğrunda uzun-uzadı müharibələr olmuş və bunun nəticəsində xalq təsərrüfatı dağılmış, kəndlilər talan olunmuş, ticarət zəifləmiş və kəndli kütləsi yoxsul hala düşmüşdü.

XVIII əsrin ikinci yarısında Azərbaycan iqtisadi tənəzzül dövrü keçirirdi. Bu dövrdə feodal münasibətləri Azərbaycanda məhsuldar qüvvələrin inkişafına daha çox əngəl törədirdi.

Natural təsərüatın hökm sürməsi, ölkənin ayrı-ayrı vilayətlərinin iqtisadi dağınıqlığı, ictimai əmək bölgüsünün hələ də aşağı səviyyədə olması, feodalların xeyrinə çoxlu məhsul rentası toplanması - bütün bunlar əmtəə istehsalının inkişafına və daha yüksək istehsal formalarına keçməyə mane olurdu.

Bəhs etdiyimiz dövrdə Azərbaycanda məhsuldar qüvvələrin ümumi durğunluğu şəriatində kənd təsərrüfatı hələ də ağır vəziyyətdə qalmaqda idi. Xaricilərin basqınları və daxili vuruşmalar nəticəsində suvarma şəbəkəsi dağılmış, becərilən torpaqların sahəsi xeyli azalmışdı.

XVIII əsrin ikinci yarısında Azərbaycan iqtisadiyyatında əvvəllərdə olduğu kimi əhalinin əsas məşğuliyyəti yenə də əkinçilik və maldarlıqdan ibarət idi. Əhalinin əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olurdu.

Təsərrüfatda əmələ gəlmiş ixtisaslaşma zəif olsa da, hələ XVIII əsrdə də davam edirdi. Məsələn, buğda və apra becərilməsi üçün əlverişli şəraitə malik olan Quba, Qarabağ, Şamaxı xanlıqlarında əkinçilik nisbətən yaxşı vəziyyətdə idi. Talış və Bərgüşad düyü becərilməsi ilə məşğul olurdu.

İqlim şəraiti çətin olan Abşeronda əkinçilik və maldarlıq zəif inkişaf etmişdi. Ona görə də, Abşerona dənli bitkilər başqa yerlərdən gətirilirdi. Mənbələrin verdiyi məlumata görə o zaman Abşeronda zəfəran yetişdirilməsi daha geniş yayılmışdı. Abşeronda həmçinin üzümçülük və ipəkçilik də geniş yayılmışdı. Nadir şahın hakimiyyətinin sonlarına doğru burada neft daşınması dəniz yolu ilə Rusiya istiqaməti istisna olmaqla demək olar ki, dayanmışdı.

Gəncə, Şamaxı, Təbriz, Şəki və Qəbələ ipəkçiliyin əsas mərkəzi kimi qalmaqda idi. Salyanda əhalinin həyatında balıq ticarəti mühüm yer tuturdu. Bu rayonlarda pambıqçılıqla son dərəcə məhdud miqyasda məşğul olurdular.

Balıqçılıqdan daha çox mənfəət götürülürdü. XVII əsr səyyahlarından M.Biberştyen uol qeydlərində göstərirdi ki, «Kürdə balıq tutulmasından əldə edilən gəlir… 50 min gümüş manat təşkil edir».

Əkinçilikdə isə bu dövrdə Ön Asiya üçün xarakterik olan bəsit texnikadan istifadə olunurdu. Əsas əkinçilik alətləri xış və ketman idi; torpaq əsasən öküzlərin vasitəsilə becərilirdi. Kəndlilərin çoxunun iş heyvanının olmaması, süni suvarma imkanlarının son dərəcə məhdudluğu, əkinçilik texnikasının olduqca geri qalması - bütün bunlar Azərbaycanın kənd təsərrüfatının inkişafına ciddi əngən törədirdi.

Qubanın təbii şəraiti əkinçiliyin, maldarlığın və xüsusilə bağçılığın inkişafı üçün böyük imkanlar yaratmışdı. M.Biberşteyn Quba xanlığının ərazisində məhsuldarlığın qismən yüksəlişinin səbəbi kimi dağ ətəyi sahələrə malik olduğunu göstərmişdir.

XVIII əsrin ikinci yarısında Azərbaycanın iqtisadiyyatında maldarlıq əkinçilikdən sonra ikinci yer tuturdu. Ancaq bir çox yerlərdə maldarlıq əhalinin məişətində əsas yer tuturdu.

Köçərilərin arasında feodallaşma prosesi çox ləng gedirdi. Azərbacyan kəndlilərinin əksər hissəsi eyni zamanda «… həm maldarqıla və həm də əkinçiliklə məşğul olurdular. Bu kimi təsərrüfat sahələri əsasən Qarabağ, Şamaxı, Təbriz və Naxçıvan xanlıqlarında geniş yayılmışdı.

XVIII əsrin ikinci yarısında Azərbaycanın feodal xanlıqlara parçalanması təsadüfi hal olmayıb, əksinə dərin iqtisadi, ictimai köklərə malik olmuşdur. Tədqiqatçılar yazırlar ki, əgər iki yüz ildən çox davam etmiş (1502-1736) Səfəvilərin dövründə güclü idarə sistemi yaradılmışdısa, Nadir şah dövründə (1736-1749) möhkəm mərkəzləşdirilmiş idarə sistemi kiçik bir mərhələ təşkil etmişdir.

XVIII əsrin 40-cı illərndə İranda və Cənubi Qafqazda feodal parçalanma prosesinin ən kəskin vaxtı idi. belə tarixi prosesin nəticəsində Azərbaycan xanlıqlarının meydana gəlməsi üçün də zxəmin yaradılmışdı.

İlk Azərbaycan xanlıqlarının meydana gəlməsi XVII əsrin sonralarına təsadüf edilir. O zaman Quba və Talış xanlıqları mövcud idi. Həmin xanlıqlar irsi hakimlər tərəfindən idarə olunur və ölkə adlanırdı.

Azərbaycan İran əsarətindən xilas olandane sonra yəni XVIII əsrin ortalarına yaxın bir çox xanlıqlar, kiçik feodal hökmdarlıq, sultanlıq və məliklər var idi.

Kürlə Araz arasında olan ərazi də Qaraba xanlığı, Zəngəzurdan Araza kimim olan sahədə Naxçıvan, Murovdağla Kür çayı vadisində gəncə xanlığı yaranmışdı.

Şirvan ərazisində mərkəzi Şamaxı olan Şamaxı, Kür çaüyı boyunca isə Cavab xanlıqları yarandı. Bunlardan əlavə Xəzər dənizinin qərb sahillərndə Dərbənd, Quba, Bakı, Salyan və Talış xanlıqları meydana çıxdı.

Xanlıqlarla yanaşı Azərbaycanda daha kiçik feodal hokmdarlıqlar – İlisu-Ərəş, Qurtqaşen, Qazax və Şəmsəddil sultanlıqları, Dağlıq Qarabağda isə Bərənd və Xaçın, Qrabert, Gülüstan, Dizaq malikanələri var idi.

Sultanlıqlar və məliklər, adətən xanlıqlardan asılı idilər. Məsələn, Qutqaşen, Ərəş və İlisu sultanlıqları Şəki xanından, Dağlıq Qarabağın məlikləri Qarabağ xanlığından asılı idilər.

Azərbaycan xanlıqları İran hakimləri ilə mübarizə nəticəsində meydana çıxmışdı. Nadir şahın ölümündən sonra, Azərbaycanda olan İran hakimləri qovuldular. Xalq kütlələrinin çıxışından istifadə edən hakimlər hakimiyyəti öz əlarinə keçirərək özlərini xan adlandırırdılar: özlərinə məxsus pulları, çəkiləri, ölçüləri olan bu xanlar öz bildikləri kimi də xanlığı idarə edirdilər.

A.Bakıxanov yazır ki, Nadir şahın ölümündən sonra hətta şahdan nəslən asılı olan hökmdarlar da müstəqillik əldə etdilər. Məsələn, Quba xanı Hüseynəli xan və Gəncə xanı Şahverdi xan əvvəllər İran feodallarından asılı olduqları halda, Nadir şahın ölümündən sorra müstəqil, tam hakimiyyətə malik xanılıqlar yaratdılar.

Azərbaycan xanlıqları içərisndə ən qüvvətlisi Şəki, Qarabağ və Quba xanlıqları idilər. Azərbaycanda belə çox xanlıq və digər feodal hökmdarlığın meydana çıxması ölkənin ayrı-ayrı vilayətləri arasıda sabit ictimai əlaqələrin olmaması, natural təsərrüfatın hökm sürməsi, habelə iri feodalların bu və ya digər ərazi üzərində öz hakimiyyətini qurmağa cəhd etmələri idi.

Tarixi sənədlərə əsaslanaraq Azərbaycanda xanlıqların meydana gəlməsi səbəblərini araşdırmaq xüsusi əhəmiyyət kəsb edir. Diplom işində əsas vəzifə Azərbaycanda qüvvətli xanlıqların biri olan Quba xanlığının tarixini tədqiq etməkdir.

Azərbaycanın zəngin vilayətlərindən biri olan Qubanın münbit torpaqları müxtəlif kənd təsərrüfatı bitkiləri becərməyə imkan verirdi. Onu da qeyd etmək lazımdır ki, Quba Azərbaycan, Dağıstan, Şimali Qafqaz və Cənubi rus torpaqları ilə birləşdirən mühüm ticarət yolu üzərində yerləşmişdi.

Bu xanıq hələ XVII əsrin sonlarında yarı müstəqil ölkə halında fəaliyyət göstərmişdi. Həmin vaxt onun tabeliyində Salyan və Kulqan ərazisi də var idi. İlk Quba xanı Hüsenəli olmuşdu.

Tarixi sənədlərdə onun anadan olduğu il 1689-cu il qeydə alınmışdı. Hüseynəli xan Nadir şaha xidmət edərək, mənbələrin tədqiq etdiyi kimi, «öz ata-babalarının irsini və ləyaqətini» saxlaya bilmişdi. Nadir şahın ölümündən sonra İranda feodal çəkişmələri başlandığı dövrdə o öz hakimiyyətini daha da möhkəmləndirmişdi. Həmin dövrdə Quba xanları böyük hüquqa- səlahiyyətə malik idi. Onlar hətta müstəqil fərmanlar da verirdilər.

1721-1722-ci illərdə Quba xanlığının müvəqqəti olaraq Qazı qumuqlu Surxay xan və Müşkürlü Hacı Davud tərəfindən tutulmuşdu.

Türkiyə xanlığının bir hissəsi Nügədi, Rustav, Xınalıq və s. kəndlərə keçdi.

Quba xanlığının sonrakı tarixi Rusiya ilə sıx əlaqəli bir şəriatdə keçmişdi. I Pyotrun dövründə olan səfərlərin nəticəsində Quba xanlığı Rusiyanın himayəsində olmuşdur. 1727-ci ildə Rusiya ilə Türkiyə arasında sərhəd məsələlərinin nəticəsinə görə Şabran, Rustav, Beşbarmaq, Müşkür, Xudat Rusiyanın himayəsinə keçdi. Həta çar hökuməti Rustavda qarnizon saxlamaq üçün bir qala da tikdirmişdi.

Rusiya himayəsinə keçəndən sonra Hüseyəli xan xanlığı idarə etmək üçün naib təyin edilir. Ölkənin vergiləri xanın adamları tərəfindən yığılırdı. Lakin tərəflər arasında şərtləşməyə görə xan Rusiyanın müharibələrinə də hər şeylə kömək etməli idi. Belə bir fatk isə Quba xanlığının Rusiyadan vasallıq asılılığna sübutdur.

Tarixi mənbələrdə Quba hakimləri tərəfindən ticarət haqqında Rusiya ilə bağlanmış müqavilənin necə yerinə yetirilməsi haqqında çoxlu faktlar vardır.

Genişlənmiş Quba xanlığına Samur ətrafı sahələr də daxil edilmişdi. Həmin yerlərdə olmuş Qmelin Gülqan və Axtıpara kimi yerlərin də Quba xanlığına məxsus olduğunu göstərmişdi. 1756-cı ildə Quba xanlığının himayəsinə keçmiş Salyan XVIII əsrin ikinci yarısında xanlığın əsas siyasi dayağı və gəlir mənbəy idi. Salyanın Quba xanlığı ilə b irləşdirilməsi nəticəsində həsənabad, Rüdbər, Səfi xan, Salyan limanı kənd təsərrüfatı rayonları xalqın ixtirarına keçdi.

Şamaxı xanlığı üsündə Quba və Şəki xanları arasında mübarizə başlandı. Hüseynəli xan Şabran vilayətində Muğandan, Dərbənddən və Şirvandan çoxlu əhali köçürdü. Quba xanlığı hər vasitə ilə möhkəmlənməyə və geniş əraziyə malik olmağa çalışırdı.

Quba xanlığının yaranması və onun möhkəmlənməsində onun mərkəzinin, yəni xanın iqamətgahının harada yerləşməsinin böyük əhəmiyyəti vardı. Mənbələrdə və səyyahların verdiyi məlumatlarda müxtəlif fikirlər vardır.

Məsələn, xan iqamətgahının Xudatdan Quba qalasında köçürülməsi haqqında «Qafqaz təqvimində» belə məlumata rast gəlirik. «Qubalı Hüseynəli xan 1747-ci ildə iqamətgahını Qudyal çayının sahilinə keçirdi».

İ.P.Petruşevski isə Quba xanlığının iqamətgahının Xudat olduğunu, sonra isə 1735-ci ildən yenidən əsası qoyulmuş Qubanın olduğunu, Bakıxanov isə iqamətgahın Xudatdan Qubaya köçürülməsinin 1748-ci ilə aid olduğunu göstərir.

Beryozin yazır ki, quba xanlığının iqamətgahı Xudatdan başqa bir yerə köçürülməmişdi. Quba şəhəri çoxdan tikilmiş və balaca idi. Hüseynəli xan şəhəri yenidən bərpa edərək onu şmali-şərqi Azərbaycanın siyasi

və inzibati mərkəzinə çevirə bilmişdi.

Beləliklə, quba haqqında olan məlumatlar onun əsasının qoyulma tarixini müəyyənləşdirməyə imkan vermir. Lakin östərdiyimiz faktlar şəhərin nə Nadir şah, nə də Hüseynəli xan dövründə deyil, ondan da çox-çox əvvəl əsası qoyulduğunu söyləməyə əsas verir.

1770-ci ildə Qubada olmuş Rusiya Elmlər Akademiyasının akademiki S.Q.Qmelin şəhərin və xan sarayının quruluşunun qısa şəkildə təsvirini vermiş və yerli əhalinin dediynə əsaslanaraq 30 il əvvəl, yəni 1740-cı ildə şəhərin ətrafı daş hasarla hörüldüyünü göstərmişdi.

A.V.Suvorovun məktublarından birində çayın sahilində möhkəm Quba şəhərinin olduğu göstərilir. Mənbələrdə həmin dövrdə Qubada 2000-dən çox yaşayış binasınnı və 7000-dən çox əhalinin yaşadığı göstərilir. Onu da qeyd etmək lazımdır ki, XVIII əsr üçün bu qədər əhalisi olan şəhərlər xarakterik idi. Quba eyni zamanda ticarət əhəmiyyətli şəhər idi.

XVIII əsrin ikinci yarısında Qubada bir neçə məşhur rus səyyahı olmuş və onlar şəhər haqqında müxtəlif təsəvvürlər vermişdər. M. Biberşteynin yazdığına görə «… Quba xanlığına Şirvannı bir hissəsi və Ləzgistana qədər olan münbit torpaqlar bağlar aid idi. Şərq üslubunda bəzədilmiş qüllələri olan divarlar möhkəmləndirilmişdir».

Hüseynəli xan dövründə tixilmiş xan sarayı sonralarq bərpa olunmuş və yenidən bəzədilmişdi. Azərbaycanın memarılıq abidələrini tədqiq etmiş İ.Şeblıgin qəşəng bəzəkləri, quruluşu etibarı ilə XVIII əsr saray tikililərinə xas olan xüsusiyyətləri özündə cəmləşdirmişdi.

XVIII əsrin ikinci yarısında Quba hərbi-siyasi sahədə möhkəmlənmiş və o, Azərbaycanın daxili və xarici siyasətində əsas rol oynamağa başlamışdı. Onu da qeyd etmək lazımdır ki, Quba Şimali Azərbaycanın iqtisadi təsərrüfat mərkəzinə çevrilə bilmişdi.

### 20.2. Quba xanlığının xarici siyasəti

Quba şəhəri öz tarixi kecmişi ilə Azərbaycanın ən qədim şəhərlərindən biri hesab olunur. Zəngin bir kecmişə malik olan bu şəhər Azərbaycan tarixində mühüm rol oynayan bir çox tarixi simalar, görkəmli alimlər və bacarıqlı dövlət xadimləri yetişdirmişdir.

Qubanın XVIII əsrdə yetişdirdiyi qabaqcıl adamlarından biri də məşhur dövlət xadimi Fətəli xandır. Quba xanlığının ən parlaq dövrü Fətəli xanın hakimiyyəti illərinə təsadüf edir.Onun babaları uzun illər qanlı carpışmalarda iştirak edərək Qubada xanlıq etmişlər.

Fətəli xanın babası Hüseynxan Qubaya tabe olan Məclis kəndində yaşamış və şah sarayında böyük hörməti olmuşdur. Tarixi vəsiqələr göstərir ki, Süleyman Səfəvi (1667-1694) şahlığnın sonuncu illərində Yeni kənd feodalları Məclis kəndinin torpaq və sərvətinə sahib olmaq ücün oraya basqın edib kəndi talan edirlər. Əhalisinə divan tutur. Kicik Hüseyn bu qarışıqdan özünü xilas edib Salyana qacır, oradan da İsfahana gələrək şəxsən şah sarayına təqdim olunmaq və şahla görüşmək ücün vasitələr axtarmağa başlayır.

Həmin bu vaxtlar İsfahan feodallarından birisinin qızı Zəhra xanım Hüseyn xanın cəsarət və mərdliyini görüb ona məhəbbət bağlayır. Hüseyn xan bir müddət şah sarayında qaldıqdan sonra doğma vətənə qayıdır və rəsmi fərmanlarla Qubaya xan təyin olunur.

Həmin vaxtdan Xudat qalası Quba xanlığanın mərkəzi elan olunaraq möhkəm bir istinadgaha cevrildi. Hüseyn xan ölənə qədər Quba xanlığının siyasi azadlığı uğrunda fədakarcasına mübarizə aparıb onu feodal basqınlarından qorumuşdur. Fətəli xan onun üçüncü nəvəsi idi.

1758-ci ildə atası Hüseynəli xan öləndən sonra Quba xanlığına oğlu Fətəli xan keçdi. 23 yaşlı Fətəli xan (o, 1735-ci ildə anadan olmuşdur) hakimiyyəti əlinə alar-almaz birinci növbədə əz ərazisini mökəmləndirmək, sərhəddini möhkəmləndirmək və qonşu xanlıqları özünə tabe ötmək fikrinə düşür.

Fətəli xan həqiqətən öz əsrinin bacarıqlı və tədbirli dövlət xadimi, də yaxşı sərkərdəsi idi. Məşhur Azərbaycan tarixicisi A.Bakıxanov onun haqqında belə yazır: "Fətəli xan Qafqaz tarixində diqqətə layiq bir şəxsiyyətdir. O, öz ağlı, səxavəti və bacarığı nəticəsində yüksəlmişdi. O, hakimiyyət başına keçəndən sonra ağıllı və çalışqan hakim olduğunu göstərdi, bütün ətrafındakı adamları özünə cəlb etdi, düşmənlərinin fəaliyyətini zəiflətdi və ən çətin vəziyyətdən çıxa bildi.

Qafqaz tarixindən yazan Butkov isə onun barəsində "Fətəli xan ağıllı, igid, tədbirli, şöhrət sevən idi, yorulmaq nə olduğunu bilməzdi deyə tərif edir. Fətəli xan hər vasitə ilə Quba xanlığını möhkəmləndirməyə çalışırdı. O, mahal naiblərinin hakimiyyətini məhdudlaşdırdı, vergi yığılmasını nizama salaraq, xəzinənin gəlirinin artmasını təmin etdi. Muzdlu qoşunun sayı artırıldı. S.Qmelinin verdiyi məlumata görə Quba xanlığının xeyli qoşunu və topu var idi. Kicik topların bir hissəsi arabalarda yerləşdirilmişdi və xanlığın paytaxtı Quba qala halına salınmışdı».

Qubalı Fətəli xan bununla yanaşı öz sərhədlərini möhkəmləndirmək məqsədilə Muğandan döyüşkən şahsevən köcərilərinin bir hissəsini xanlığın ərazisinə köcürmüşdü.

Fətəli xan Azərbaycanın qonşu xanlıqlarını ilhaq etmək yolu ilə öz torpaqlarını genişləndirməyə calışırdı.

Fətəli xan öz məqsədinə nail odmaq üçün birinci növbədə ona müqavimət göstərən Şəki və Şirvan

xanlıqlarını özünə tabe etməyi qərara alır. Şirvan feodalları onun cavanlığından istifadə edərək tez-tez Qubaya talancı basqınlar edirdilər.

1758-ci ildə Fətəli xan Şamaxı yaxınlığındakı ilk vuruşmasında Şirvan xanlarına qalib gəlib öz güsücünü onlara göstərdi. Lakin bu qalibiyyət onu arxayın edə bilməzdi. Hər tərəfdən Fətəli xana qarşı baş qaldıran feodalların səsini kəsmək və onlara qalib gəlmək üçün etibarlı adamlar tapmaq lazım idi.

Hələlik Fətəli xan Şəki xanlığının taleyi ilə maraqlanırdı. Həmin bu vaxtlar, yəni 1759-cu ildə Şəki xanı Ağa Kişi bəy öz qaynatası olan Qazıqumrlu Məhəmməd xan tərəfindən xaincəsinə öldürülür. Məhəmməd xan Şəki xanlığının sərvətini Ərəş sultanı ilə bölüşdürür və özünü Şəkidə hakim elan edir. Lakin Məhəmməd xanın ağalığı 40 gün davam edə bildi.

Şəki əhalisi bu qırx gün ərzində hədsiz vergilər, qanunsuz cərimələr verməklə, zülmkar hakimə qarşı üsyana hazırdaşdılar. Hüseyn ağa (Şəkili Hacı Çələbinin nəvəsi) Ağa Kişi bəy öldürüləndən sonra Fətəli xana pənah aparıb ondan kömək istədi. Əlverişli bir şəraitin yaranmasını görən Fətəli xan qoşun çəkib Şəki üzərinə hərəkət etdi.

Qazıqumux talanlarından təngə gələn əhali bu xəbəri eşidən kimi Quba xanının qarşısına cıxdı və onu böyük təntənə ilə qarşıladı. Cağırılmamış qonaq ev sahibindən hörmətsizlik görüb öz yerinə çəkildi. Fətəli xan Hüseyn ağanı Şəkiyə xan təyin etdi və Şəki xanlığı həmin vaxtdan Fətəli xanın vassalı oldu.

Həmin il Fətəli xana başqa bir xoşbəxtlik də üz verdi. Dərbənd camaatı öz xanlarından narazı olduqları üçün elcilər göndərib Fətəli xanın onlara xan olmasını arzu etmişdilər.

Dərbənd qalasının böyük siyasi və strateji əhəmiyyəti var idi. Hələ ilk orta əsrlərdə Dərbənd Qafqaz tarixində mühüm rol oynamış və həmin vaxtlarda məşhur idi. Cənubi Rusiyaya və Ön Asiyaya gedən ticarət karvanları «Dəmir qapı» Dərbənddən keçməli idi. Uzaqgörən Fətəli xan bütün bu üstünlükləri başa düşmüş və ona görə də dərbənddilərin təklifini qəbul etmişdi.

XVII əsrdə və XVIII əsrin birinci yarısında Dərbənd sultanlıq idi. XVIII əsrdə Dərbənd o qədər də böyük olmayan bir şəhər idi. Onun əhalisi əsasən əkinciliklə, bağçılıqla, ticarət və sənətkarlıqla məşğud olurdu. Böyük strateji əhəmiyyət kəsb edən Dərbənd Rusiyanın, Türkiyənin və İranın diqqət mərkəzində idi.

Azərbaycanın başqa xanlıqları kimi Dərbənd də XVIII əsrdə İran zülmündən azad olur və Dərbənd sultanlığı müstəqil xanlığa çevrilir.

Xanlığın mərkəzi olan Dərbən qalası uzunluğu 6 verst 400 sajen olan qalın daş divarla hörülmüşdü. Həmin dövr üçün xarakterik üslubda müdafiə olunmuş Dərbənd cox möhkəm dəmir qapılara malik idi.

XVII əsr səyyahlarının verdiyi məlumatdan aydın olur ki, Dərbənd cox möhkəm hərbi nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir. Dərbənd xanı istədiyi zaman «...5000-dən 6000-dək piyada və süvari» toplaya bilərdi.

Dörd hissədən ibarət olan şəhərin narın qala guşəsində xan sarayı yerləşmişdi.

XVIII əsrin 50-ci illərində Dərbənd hakimi Məhəmməd Hüseyn xan idi. Onun dövründə xanlığın daxili və xarici vəziyyəti möhkəm deyildi. Əhalinin cox hissəsi ağır vergilərə tab gətirə bilmirdilər.Əhali Məhəmməd Hüseyn xanın zülmündən qurtarmaq üçün yollar axtarırdı və tezliklə buna nail olurlar».

Mənbələrdə Məhəmməd Hüseyn xandan gizlin Quba xanı Fətəli xana müraciət etdiyi göstərilir. Şəhərin əhalisi Fətəli xanın simasında...ədalətli, yaxşı hakim arzulayırdılar.

Quba xanlığı ilə xalq kütlələrindən başqa, feodallar və varlı təbəqənin nümayəndələri də birləşmək fikrində idilər. Bəhs etdiyimiz dövrdə Dərbənddə iki qrup əmələ kəlmişdi.Birinci qrupa iri feodallar daxil idi və Məhəmməd Hüseyn xan tərəfindən müdafiə olunurdu. Onlar Quba xanlığı ilə birləşməyin əleyhinə idilər.

Quba xanlığına rəğbət bəsləyən ikinci qrupa sənətkarlar, tacirlər, əhalinin yoxsul təbəqəsi və xırda feodallar daxil idilər.

Dərbənd xanlığında əmələ kəlmiş belə bir vəziyyətdən Fətəli xan məharətlə istifadə etdi. Fətəli xan birdən-birə Dərbəndə hücum edə blməzdi. Çünki, belə hərəkət Dağıstanın cənubundakı feodalların narazılığına səbəb olacaqdı...Feodallar Quba xanlğının Dərbəndi tutmasına razı olmazdılar. Çünki, onlar yaxşı bilirdilər ki, Dərbəndi ələ keçirən Quba xanlığına sonradan gücləri çatmadacaqdır.

Fətəli xanın qarşısında duran çətin məsələlərdən biri də Dərbəndə hakim olmağın düzgün yolunu axtarmaq idi.Quba xanlığı Dərbəndə hucum etməklə özunə qarşı cənubi Dağıstan feodallarının blokunun meydana çıxmasına yol verməк istəmirdi.

Digər tərəfdən, Quba xanlığının bu məsələnin həllində vəziyyətin çətinləşməsində Şamaxı xanı ilə pis münasibətdə olması idi. 1758-ci ildə Şamaxı xanın Beşbarmaq yaxınlığıandakı məğlubiyyətindən sonra Quba xanlığına qarşı mübarizə ücun özünə sərfəli imkan axtarırdı.

Belə bir gərgin vəziyyətdən qələbə ilə çıxmaq üçün xüsusi məharət, bacarıq və siyasətçi olmaq lazım idi. Belə bir siyaəət antiquba blokunun yaranması qarşısını ala bilərdi.

Quba xanı cənubi Dağıstan feodadları arasındakı narazılıqdan məharətlə istifadə edir və cənubi Dağıstan hakimlərindən Tarku-Şamxalı Murtuzəli, Qaraqaytaq Usmisi Əmir Həmzə və Taba-soran hakimi ilə əlaqəyə girib, 1752-ci ildə Dərbəndə yürüş etdi.

Həmin ittifaq Dərbənd xanlığına qarşı yaranmışdı. Fətəli xan ən əvvəl dağlarla Kaspi dənizi arasında

Samur çayının sağ sahilindəki Müşkürü, Niyazabada, Şabranı, Rustovu və Beşbarşğı tabe etdi. Sonra öz müttəfiqlərinin köməyi ilə Dərbəndi mühasirəyə aldı və iki aydan sonra onu ələ kecirdi.

Xüsusi hazırlıqdan sonra müttəfiqlərin orduları təyin olunmuş vaxtdan tez hücuma keçir və şəhərin əhalisi Dərbənd darvazalarını müttəfiqlərin üzünə acır.

Şəhər tamamilə alındıqdan sonra müttəfiqlər Fətəli xana göstərdikləri kömək müqabilində Quba və Dərbənd xanlıqlarının bir sıra kəndlərindən gəlir toplamaq hüququnu aldılar. Dərbənd xanlığının var-dövləti Quba xanlığının ixtiyarına kecdi.

Qafqazşünasların əsərlərində Dərbəndin Quba xanlığı tərəfindən tutulması haqda az məlumat vardır. Mənbələrin verdiyi məlumata görə Dərbəndin tamamilə tutulması 2 ay davam etmiş və şəhər 1759-cu ilin noyabrında təslim olmuşdur.

Dərbəndin Quba xanlığına birləşdirilməsi haqda olan məlumatları iki qrupa ayırmaq olar. Bir sıra mənbələrdə deyilir ki, birləşmə hər şeydən əvvəl Dərbənd feodallarının və hakimlərinin xahişi nəticəsində, digər qrupu isə Quba xanlığının «...cox incə siyasəti» nəticəsində başa catdırıldığını göstərirlər.

Əlbəttə, Dərbəndin Quba xanllığına birləşdirilməsində silah gücündən cox yuxarıda göstərdiyimiz əhali təbəqəsinin Quba xanlığına olan rəqbəti olmuşdur. Əsas amillərdən biri də Quba xanlığının cənubi Dağıstan feodallarına qarşı yeritdiyi incə, bacarıqlı siyasəti olmuşdur.

Dərbəndi birləşdirəndən sonra Quba xanlığının Azərbaycan siyasi həyatında tutduğu mövqeyi daha da artdı. Fətəli xan Dərbəndə yaxınlaşan zaman belə bir siyasətə əl atdı.O, danışıq bahanəsi ilə ilə Məhəmməd Hüseyn xanı öz düşərgəsinə cağırdı, onu həbsə aldı, gözlərini cıxartdı, əvvəl Qubaya, oradan isə ömürün sonuna kimi saxlandığı Bakıya göndərdi. Dərbənd hakimi Məhəmməd Hüseyn xan Bakıya köcürüləndən sonra Dərbənd naiblərlə idarə olunmağa başlanır. Artıq, Dərbənd Quba xanlığının ikinci siyasi, hərbi əhəmiyyətli mərkəzinə cevrilir.

M.Biberşteynin yazdığına görə "...Fətəli xan və onun xələfləri Dərbəndə ən vacib, əsas mülki kimi baxmış və onun daimi iqamətgahı olmuşdur.

Beləliklə, Dərbənd xanlığının ilhaqı ilə Quba xanlığının ərazisi xeyli genişləndi və o qüvvətli bir xanlıq kimi şöhrət qazanmağa başladı. Doğrudan da dərbəndlilərin Fətəli xana ayrıca bir hüsni rəğbəti var idi. Bu münasibəti hiss edən və şəxsən Fətəli xanı görən məşhur rus alimi Qmelin belə yazır: «Dərbənd əhalisi onu sevirdi...Şamaxı təbəələri Fətəli xandan razı idilər». 1759-cu ilin axırlarında Fətəli xanın şöhrəti hər tərafə yayılmışdı. Onun qüvəətlənməsindən qorxuya düşən irticaçı xanlar birləşmək və Fətəli xana ağır zərbələr vurmaq üçün müxtəlif vasitələr axtarırdılar. Hamıdan cox Şirvanlı Ağası xan və onun köməkcisi Məhəmməd Səid xan əl-ayağa düşürdülər.

Dərbənd Quba xanlığı ilə birləşdirildikdən sonra Quba xanlığı Bakı xanlığı haqqanda fikirləşməyə başladı. Bakı xanlığı iqtisadi cəhətcə varlı, onun mərkəzi Bakı isə Kaspi dənizinin ən yaxşı möhkəş1əndirilmiş ticarət limanlarından biri idi.

XVII əsrin ortalarında ingilis səyyahı C.Xanvey «…Bakının ətrafında hündür yərlərdə nəzarət etmə qüllələrinin olduğunu qeyd edir.

XVII əsrin ikinci yarısında Bakı xanlığının Abşeron yarımadasının Maştağa və Binəqədi naibliklərini əhatə edirdi. Əgər Bakı xanlığını başqa xanlıqlarla müqayisə etsək onun həm ərazi, həm də əhali cəhətcə kiçik olduğunu görərik. Bundan istifadə edən qonşu feodallar Bakı xanlığına tez-tez basqınlar edərdilər. Belə yürüşlər təsərrüfatın əsas sahələrinə xüsusilə, neft, duz istehsalına, zəfəran becərilməsinə böyük zərər vururdu. Bakı xanlığında olan tacir və feodallar böyük zərər çəkdiyindən xana öz narazılıqlarını acıq-aydışn bildirirdilər.

Belə şəraitdə Bakı xanlığının onu qonşu feodalların basqınlarından qoruyan güclü müttəfiqlərə ehtiyacı vardı.

Bakı xanlıqanın bu zəif hissəsindən Quba xanlığı məharətlə istifadə etdi.

Bir tərəfdən Fətədi xan Bakı xanlığını iqtisadi cəhətcə sıxdı, digər tərəfdən feodalizm dövrünə xas olan «nigah siyasətini» tətbiq edərək Qaraqaytaq usmisi Əmir Həmzəyə vəd edilmiş bacısı Xədicə Bikəni Bakı xanı Məlik Məhəmmədə ərə vərir. Möhkəm və amiranə xarakterə malik Xədicə Bikənin vasitəsi ilə Fətəli xan zəif iradəli Bakı xanını özünə tabe etdi. Xədicə Bikə qardaşının sözünə möhkəm qulaq asaraq Bakı xanlığının daxili işlərin qarışır və məsələləri Quba xanlığının xeyrinə yönəldirdi.

.Səyyahların yazdığına görə… «Bakı xanı bütün ömrü boyu Fətəli xana sadiq olduğunu bildirmişdi». Bunun da əsas səbəbi Xədicənin ərini özünə tabe edə bilməsi idi.

Hətta, Məlik Məhəmməd xan olmadıqda xanlığı Xadicənin özü idarə edirdi. Bakı xanlığı Quba xanlığının vassalı olmuş və onun hərbi səfərlərində dz iştirak etmişdir. Əhməd bəy Cavanşir yazır ki,... «Quba xanı Dərbəndin, Qubanın və Bakının hakimidir».

Beləliklə, yuxarıda qeyd etdiyimiz faktlar göstərir ki, Bakı xanlığı formal olaraq özünün idarə üsulunu saxlamasına baxmayaraq, faktiki olaraq, vassal hüququna malik idi.

Fətəli xan Bakını silah gücünə dəyil, incə həmlə nəticəsində özünə tabə edə bilmişdi.

Quba xanı iqtisadi cəhətdən mühüm əhəmiyyətə malik olan Kaspi sahillərinin bir hissəsini Dərbənddən Kürün mənsəbinə qədər olan yerləri öz hakimiyyəti altına aldı. Fətəli xan Dərbəndi ələ keçirdikdən sonra, öz

mövqeyini möhkəmləndirdikdən sonra Şirvan xanlığı idə hesablaşmaq haqqında düşünməli oldu.

Şamaxı xanlığı iqtisadi cəhətcə gəlirli sahələrə və təbii sərvətləri olan bir əraziyə malik idi.O, şimal-şərqdən Quba, şərqdən Bakı, şimali-qərbdənn Şəki, cənubi-qərbdən Qarabağ xanlıqları ilə həmsərhəd idi.

Mənbələrdə göstərilir ki, müharibə vaxtı Şamaaxı xanı 10-12 minə qədər əsgər toplaya bilərdi. Faktdan göründüyü kimi XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqları sırasında hərbi cəhətcə mühüm yerlərdən birini tuturdu.

Şamaxı xanlığı uzun müddət Quba xanlığına qarş müharibələr aparmış və güclü müqavimət göstərmişdir.

Lakin, Dərbənd və Bakı xanlıqlarını özunə tabe etdikdən sonra Quba xanlığının hərbi qüvvəsi daha da artdı. Belə bir şəraitdə Şamaxı xanlığına qarşı açıq və geniş planların həyata kecirilməsi işinə başlamaq olardı.

Quba xanlığı Şamaxı xanlığına böyük əhəmiyyət verirdi. Onların fikrincə Şamaxı xanlığı gələcəkdə Şəki və Qarabağ xanlıqlarına qarşı mübarizə üçün hərbi meydan olmalı idi. XVIII əsrin 60-cı illərindən Şamaxı xanlığı iki tərəfdən Quba xanlığı ilə mühasirə olunmuş və dənizlə əlaqəsi tamamilə kəsilmişdi. Quba xanlığına qarşı mübarizəyə hazırlaşmaq məqsədilə 1763-cü ildə köhnə və yeni Şamaxı birləşdirilir. Lakin bu Şamaxı xanlığının müdafiəsi üçün kifayət deyildi. Fətəli xan Şirvanda baş verən hadisələri izləyirdi. Fətəli xan Şirvan xanı Ağası xandan onun torpaqlarını Dağıstan feodallarının basqınlarından müdafiə etmək əvəzinə də bac istədi. Lakin Ağası xan bundan imtina etdi, bu da tərəflər arasındakı ziddiyyətləri daha da kəskinləşdirdi.

1765-ci ildən Quba xanlığı ilə Şamaxı xanlığı arasında 4 il müddətinə cox kəskin mübarizə getdi.

Uzun müddət Quba xanlığının ordusu müvəffəqiyyət qazana bilmərdi. Bunun əsas səbəbi «...Şəki xanı Hüseyn xan Şamaxı xanına köməklik edirdi". S.Qmelinin məlumatına görə «...Hüseyn xanın köməyi ilə Şamaxının müdafiəsi elə möhkəmləndirilmişdi ki, Quba xanı bundan dəhşətə gəlirdi».

Fətəli xan tezliklə onların arasına nifaq sala bildi. Bunun nəticəsində mübarizə meydanında qüvvələr Quba xanlığının xeyrinə oldu. Şəki xanı Şamaxı xanının məğlubiyyətindən sonra «...ona Şamaxının gəlirlərindən bir hissəsinin ayrılacağına ümid bəsləmişdi».

Belə hadisədən təşvişə düşən Şamaxı xanı Məhəmməd Səid xan köhnə Şamaxıya çoxlu miqdarda ordu toplayaraq, Quba xanlığı tərəfindən olacaq təhlükəsinin qarşısını almazağa hazırlaşmağa başladı.

Şamaxının özündə də iki tirəlik əmələ gəldi. Məhəmməd Səid mübarizəsiz Quba xanlığı ilə birləşmək fikrini irəli sürmüş qüvvələrə qarşı mübarizə aparır.

Quba xanlığı 1765-1767-ci illərdə Şamaxı xanlığına qarşı geniş mübarizəyə başlayır və 1767-ci il vəziyyət tamamilə gərginləşir. Şamaxı xanlığının birləşdirilməsi üçün real imkanlar yaranır.

Bir çox xanların təklifini qəbul edən «Fətəli xan Şamaxı xanı ilə mübarizəni dayandırmağı, sülh danışıqları aparmağa razı olduğunu bildirir». Şamaxı xanı da mübarizə aparmağa cürət etmirdi. Cünki, Şamaxının bir çox hakimləri ona sadiq deyildilər.

Şirvan xanlığını tək başına məğlub edə bilməyəcəyini yaxşı bilən Fətəli xan öz vassalı olan şəkili Hüseyn xanı öz tərəfinə çəkdi. Tərəflər arasında dostluq ittifaqı yarandı.1767-ci ildə birləşmiş qüvvə Şamaxını mühasirəyə aldı. Bir tərəfdən də Quba xanlığının köhnə müttəfiqləri Qazıqumux və Qaraqaytaq muzdlu dəstələri də Şamaxı üzərinə hərəkət etdilər. Beləliklə, çox çətin vəziyyətə düşən Şirvan xanı təslim oldu.

Şirvan qaliblər arasında bölüşdürüldü. Şirvan xanlığının az bir hissəsi - Saadan və Kassan mahalları Şəki xanlığına, xanlığın iqamətgahı daxil olmaqla Şirvanın böyük bir hissəsi Quba xanlığının əlində qaldı. Fətəli xan əsir düşmüş Şamaxı hakimlərinin boyük sərvətini ələ keçirdi.

Şirvan qələbəsindən sonra Fətəli xanın nüfuzu nəinki bütün Azərbaycanda və Qafqazda, habelə bütün İranda artdı. Lakin Fətəli xanla Hüseyn xan arasındakı ittifaq cox cəkmədi ki, pozuldu. Vahid mərkəzləşdirilmiş Azərbaycan dövləti yaratmaq məqsədində olan Fətəli xan Hüseyn xanın Şirvandakı naibini qovdu və onun da hissəsini öz hakimiyyəti altında birdəşdirdi.

1763-cü ilin avqustundan etibarən Şamaxı xanlığı bütün mahalları ilə birlikdə Quba xanlığının tabeliyində olan şimali şərqi Azərbaycanın tərkibinə daxil edildi. Beləliklə, 1768-ci il Şamaxı xanlığının Quba xanlığı ilə birləşdirilməsinin ilk dövrü sayılır.

Bundan sonra Fətəli xan Hüseyn xanı özünə barışmaz düşmən etmiş olur. Şamaxı xanlığının tamamilə tabe edilməsindən sonra Cavad xanı da Qubanın vassalığını qəbul etdi.

Cavad xanlığı kicik bir tarixi dövrü əhatə etməsinə baxmayaraq, o XVII əsr Azərbaycan xanlıqları ilə birlikdə Quba xanlığının tərkibinə daxil olmuş və şimal-şərqi Azərbaycanın birləşdirilməsində iştirak etmişdir.

Mənbələrdə göstərilir ki,Cavad xanlığı haqqanda cox az məlumat vardır. Şamaxıdan aşağıda Kürlə Araz arasında yerləşən Cavad hələ XVI əsrdən də əvvəl mövcud idi. Onun əhalisi maldarlıqla və əkinçiliklə məşqul olurdu. XVI əsrdə Cavadda «...yaxşı tiklmiş evərin və bağların» olduğu göstərilir. Cavad Şamaxı xanlığına tabe idi.

XVIII əsrin ortalarında Nadir şah dövlətinin zəifliyindən istifadə edən Cavad yarı asılı xanlığa çevrilir.

Xanlığın mərkəzi olan Cavad isə ətrafı möhkəm hasarla əhatə olunmuş qalaya çevrilmişdir. Mənbələrdən aydın olur ki, Cavad xanlığı hazırkı Azərbaycanın Sabirabad, Şirvan (köhnə Əli –Bayramlı) kimi rayonlarının ərazisini əhatə edir.

Lakin, onu da qeyd etmək lazımdar ki, Cavad xanlığı XVIII əsrdə baş vermiş hadisələrlə ayaqlaşa bilmirdi. Belə ki, Cavad xanlığı nə döyüşkən şahsevən koçəriləri ilə, nə də Qaradaq, Ərdəbil köçərilərinə qarşı mübarizə apara bilmirdi. Tez-tez onların hücumlarına məruz qalan Cazad xanlığının möhkəm bir müttəfiqə ehtiyacı var idi. O, belə bir müttəfiqi Fətəli xanın şəxsində görürdü. Beləliklə, yuxarıda göstərildiyi kimi, 1768-ci ildən Cavad xanlığı Quba xanlığının vassalığanı qəbul etməli olmuşdur.

Muğanın Cavadla birlikdə Quba xanlığına birləşdiriməsini Fətəli xanın II Yekaterinaya göndərdiyi məktubundan da aydın görmək olar.

Quba xanlığına birləşdiriləndən sonra Cazad xanlığı Fətəli xanın hərbi yürüşlərlərində fəal iştirak edir. O, hətta 1769-cu ildə Şamaxıda Fətəli xana qarşı hazırlanmış bir sui-qəsdin qəsdin ləğv edilməsinə xüsusi xidmət göstərmişdir..

Cavad xanı Quba xanın ən inanılmış adamlarından biri idi O, hətta Quba xanlığının gizli məclislərində də iştirak etmək hüququnu qazanmışdı.

Şamaxı, Cavad xanlıqlarının va Muğanın Quba xanlığına birləşdirilməsini Fətəli xanın gələcək planlarının həyata keçirilməsi işində böyük əhəmiyyəti olmuşdur,

Şamaxı və Cavad Azərbaycanın şimal və cənub xanlıqları üzərinə gələcəkdə olacaq yürüşlər zamanı əsas dayaq nöqtəsi təşkil etməli idi.

Şamaxı xanlığı Quba xanlığına uzun sürən müharibələrin nəticəsində silah gücünə tabe edildiyi halda, Cavad xanlığının birləşməsi isə tamamilə başqa xarakterdə olmuşdur. Yəni o, könüllü birləşmişdi.

Göründüyü kimi, XVIII əsrin ikinci yarısında Quba xanlığı Dərbənddən Cavada qədər Azərbaycanın şimal-şərq torpaqlarını öz hakimiyyəti altında birləşdirilşdi. Qubalı Fətəli xan öz torpaqlarını genişləndirmək uğrunda mübarizədə əsas eitibari ilə xırda və orta feodallara arxalanırdı.

Fətəli xanın siyasəti həm də feodal ara müharibələrinə nifrət edən oturaq əkinçi əhali tərəfindən müəyyən dərəcədə müdafiə olunurdu.

Tacirlər də Fətəli xanın belə xarici siyasətinə tərəfdar idilər. Çünki, onlar başa düşürdülər ki, ölkənin qüvvətli bir hökmdar hakimiyyəti altında birləşməsi həm daxili, həm də xarici ticarətin inkişafı üçün geniş imkan yaradar.

Bələliklə, XVII əsrin ikinci yarısında şimali-şərqi Azərbaycan torpaqlarının birləşdirilməsi işində Qubalı Fətəli xanın xüsusilə böyük xidmətləri olmuşdur.

XVIII əsrin ikinci yarısında feodal müharibələrinin qızğın bir dövründə və xarici vəziyyətin belə bir gərgin vaxtında heç kəs Fətəli xan kimi bu cür qalibiyyət əldə edə bilməzdi. Fətəli xan bu müvəffəqiyyətilərə ancaq öz bacarığı, zəkası və cəsarəti sayəsində nail ola bilmişdi. Ona görə də xalqımız onu sevir və adını tarixlərlə iftixarla qeyd edir.

Doğrudur, Fətəli xan Azərbaycanı tam mənası ilə birləşdirə bilmədi, ancaq o, bu işdə ilk dəfə böyük bir təşəbbüs göstərdiyindən onun fəaliyyəti mütərəqqi hesab olunur.

Bəzi tarixçilər onu bir zülmkar kimi qələmə verməyə çalışırlar. Fətəli xan həqiqətən də öz düşmənlərinə qarşı qədar idi. Əgər onda bu sifətlər olmasaydı, onun xanlığı bu qədər geniş sahəyə malik ola bilməz və ya 20 -yə qədər böyük, xırda feodalları itaətdə saxlamay bilməzdi.

O, belə hərəkət etməsəydi, xain və hiyləgər düşmənlər onu tezliklə aradan qaldıra bilərdilər. Fətəli xan ehtiyatla dolandığından düşmənlərin düzəltdiyi sui-qəsd də baş tutmurdu.

Fətəli xan bəzi feodal hakimlərdən fərqli olaraq dini məsələlərə fikir vermirdi. O, yəhudi, sünni və şiə məzhəblərinə mənsub olanların hamısı bir gözdə görür və akademik Qmelinin yazdığı kimi «sünniləri də şilərəi sevdiyi qədər sevir. Hər ikisinə də meyl edir… Fətəli xanın rəftarına görə yaxın tanışlar onun bu məzhəblərə aid olan qanunları qəbul etmədiyini təsdiq edirlər».

Fətəli xan Azərbaycan tarixində unudulmaz bir simadır. Azərbaycanın birləşdirməyə və müstəqil bir dövlət yaratmağa təşəbbüs edən Şirvanşah İbrahim və Şah İsmayıl Səfəvi kimi məşhur dövlət xadimlərinin sırasında qubalı Fətəli xanın da adı hörmətlə göstərilir.

Beləliklə, Fətəli xan Azərbaycanın Dərbənd, Bakı, Salyan, Şəki, Şirvan kimi mahallarını Quba ətrafında birləşdirərək möhkəm və vahid bir Azərbacyan dövləti yarada bildi. Bundan başqa vaxtilə Dərbəndə tabe olan Müşkür, Şabran, Beşbarmaq və Qazıqumux və Tabasaran hökmdarları, Talış və Gilan xanları, Avar, Şamaxı feodalları Fətəli xana tabe oldular.

Cənubi Azərbaycanın Təbriz, Qaraba, və Ərdəbil kimi qüvvətli xanlıqları, Fətəli xanla hesablaşmalı oldular. Beləliklə, Fətəli xan otuz illik mübarizə nəticəsində şimal-şərqi Azərbaycan torpaqlarını vahid bir dövlət ətrafında birləşdirməyə müvəffəq oldu.

**Mövzuya dair suallar**

1. XVIII əsrin ortalarında Cənubi Qafqazda beynəlxalq şərait
2. Osmanlı, İran və Rusiya dövlətlərinin Cənubi Qafqazla bağlı planları
3. Azərbaycan xanlıqlarının yaranması və beynəlxalq nəticələri
4. Quba, Şəki və Qarabağ xanlıqlarını Azərbaycanı birləşdirmək siyasəti

5. Quba xanlığının Rusiya və Osmanlı dövlətləri ilə münasibətləri
6. İki rus-türk müharibəsinin Cənubi Qafqazda siyasi vəziyyətə təsiri
7. İranın Azərbaycanı ilhaq etmək siyasəti və uğursuzluğu
8. Qubalı Fətəli xanın Şimal-şərqi Azərbaycan torpaqlarının birləşdirilməsi və beynəlxalq nəticələri
9. Parçalanmanın Azərbaycan faciəsində yeri

**Ədəbiyyat**


1. Azərbaycan tarixi üzrə qaynaqlar. B., 1989
2. Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri. B., 1956
3. Bakıxanov A.. Gülüstani-İrəm. B., 1951
4. Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti. B., 1993
5. Əliyev F. XVII əsrin birinci yarısında Azərbaycanda ticarət. B., 1985
6. Hacınski İ. Qubalı Fətəli xanın həyatı. B., 1969
7. Həsınaliyev Z.M. Səfəvi dövləti (XVII əsrin I yarısı). B., Altay, 2000
8. Mahmudov Y. Səyyahlar, kəflər, Azərbaycan. B., 1985
9. Mirzə Camal Cavanşir. Qarabağ tarixi. Bakı, 1959
10. Mirzə Adıgözəlbəy- Qarağanamə. B., 1950
11. Nəcəfli G.C. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVİİİ əsrin II yarısı). B., 2002
12. Абдуллаев Г. - Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Б.,1965
13. Абдуллаев Г. Из истории Северо-восточного Азербайджана в 60-80-х годах XVIII вв. Б., 1958;
14. Дружинин Е. Кючук- Кайнаржинский мир. М., 1955
15. Петрушевский И.П. Очерки по истории феодальных отношение в Азербайджана и Армении в XVI в. начале XIXв. Л., 1949
16. Рахмани А.А. Азербайджан в конце XV и XVII веке (1590-1700). Б., Элм, 1991

## XIX Mövzu
## Azərbaycanın Rusiya tərəfindən işğalı və beynəlxalq nəticələri

XVIII yüzilliyin sonu-XIX yüzilliyin başlanğıcında Azərbaycanda siyasi vəziyyət çox mürəkkəb idi. Əvvəlcə Şəki, sonra isə Quba və Qarabağ xanlıqlarının Azərbaycan torpaqlarını öz ətrafında birləşdirmək və vahid dövlət yaratmaq cəhdləri baş tutmadı. Buna bir tərəfdən ölkənin sosial-iqtisadi inkişafının geriliyi, digər tərəfdən isə xarici istilalar - İranının və çar Rusiyasının bu yerləri ələ keçirmək üçün Azərbaycana yürüşləri mane oldu.

Ayrı-ayrı xanların öz xanlığını qoruyub saxlamaq istəməsi və bir-birinə güzəştə getməməsi birləşmə prosesinə əsaslı surətdə mane olurdu. Yaranmış şəraitdə Azərbaycanı istila etməyə çalışan İranın, Sultan Türkiyəsinin və çar Rusiyasının işğalçı planlarına qarşı dura biləcək vahid qüvvə mövcud deyildi.

I Pyotr dövründə başlamış, II Yekaterina zamanı davam etdirilmiş Azərbaycanı ələ keçirmək cəhdlərindən sonra XIX yüzilliyin başlanğıcında çar Rusiyası bütün Cənubi Qafqazı istila etməyə hazırlaşırdı. Rus əsilzadələrinin və tacirlərinin mənafeyi çar Rusiyasının yeni torpaqlar zəbt etməyə, Rusiya sənayesi üçün xammal mənbələri və satış bazarları əldə etməyə sövq edirdi. Çarizm Xəzər dənizini öz daxili dənizinə çevirmək və Cənubi Qafqazı zəbt etməklə daha cənuba – İran körfəzinə doğru yol açmaq, Yaxın Şərqin iqtisadi ehtiyatlarına, habelə bazarlarına sahiblənməklə İngiltərəni sıxışdırmaq planları mövcud reallıqlara əsaslanırdı.

Hindistanda sipahilər üsyanını yatırdıqdan sonra İngiltərənin də Rusiyaya münasibətdə ehtiyatlı olmağa vadar edirdi. Xarici siyasət maraqları baxımından Cənubi Qafqaz Rusiya üçün hərbi-strateji əhəmiyyətə malik idi. Yaranmış şəraitdə I Napoleon bilərəkdən İngiltərə və Rusiyanın Qafqaz maraqlarını qıcıqlandırmaqda idi. Məqsəd II koalisiyanı diplomatik yolla dağıtmaqla yanaşı Fransaya qarşı gələcək koalisiyaların yaranmasına yol verməmək idi. 1800-ci ildə İngiltərənin İranla bağladığı müqaviləyə cavab olaraq Fransa 1801-ci ilin oktyabrında Türkiyə ilə müqavilə imzaladı vəMisiri Türkiyəyə qaytardı. 1805-ci ilin dekabrında olmuş Austerlis döyüşündəki qələbədən sonra türk sultanı III Səlim I Napoleonu «Fransanın padişahı» və özunun «ən qədim, sadiq və vacib dostu» elan etdi. Təsadüfi deyil ki, Fransa bundan Rusiyanın qüvvələrini parçalamaq və onu Türkiyə ilə müharibəyə girmək kimi fakt qarşısında qoymaq məqsədilə istifadə etdi. I Napoleon çox tezliklə İranla münasibətlərdə də diplomatik üstünlüyə nail oldu və Rusiya-İngiltərə ziddiyyətlərinə barışmaz xarakter verdi.

XVIII əsrin sonu-XIX əsrin başlanğıcında belə bir ziddiyyətli və qeyri-sabit beynəlxalq şəraitdə Cənubi Qafqaz, məsələləri, xüsusilə Azərbaycan məsələsi mühüm yer tuturdu.

Vahid Azərbaycan dövlətinin olmaması xarici siyasətdə də özünü göstərirdi. Azərbaycan xanlıqları özlərini qoruyub saxlamaq üçün vahid mövqe nümayiş etdirə bilmir, bir tərəfdən İran və Türkiyəyə, digər tərəfdən isə Rusiyaya meyl edirdilər. Bunu xanlıqların 1768-1774-cü illər rus-türk müharibəsi ərəfəsi və dövrünün siyasəti bariz şəikldə göstərir. Hətta müharibədən sonra - 1775-ci ildə Azərbaycan xanlıqlarının böyük bir qisminin əvvəlcə Türkiyəyə, sonra isə Rusiyaya istiqamətlənməsi də açıq şəkildə nümayiş etdirilirdi. Xüsusilə yaranmış şəraitdə İran və Türkiyə Azərbaycanın istiqlaliyyəti üçün təhlükəli deyildi, çünki bu dövlətlər bəhs edilən dövrdə istilaçılıq siyasəti yeritmirdilər. Avropa dövlətləri isə, əksinə, müstəmləkələr ələ keçirmək uğrunda geniş müharibələrə başlamışdılar. İngiltərə və Fransanın Cənubi Qafqaz, habelə, Azərbaycana münasibətləri onların bilavasitə İrandakı mövqeləri ilə müəyyən edilirdi. XVIII əsrin sonlarından etibarən Azərbaycana qarşı əsas təhlükə şimaldan çar Rusiyası idi. Məhz bu zəmində Rusiya-İran münasibətləri pisləşməkdə idi, buna isə həm İngiltərə, həm də Fransa çalışırdı.

Xeyli davam edən ciddi diplomatik-siyasi və hərbi hazırlıqdan sonra Georgiyevsk traktatına əsasən 1801-ci ildə Şərqi Gürcüstan (Kartli-Kaxetiya) Rusiyaya birləşdirildi. O dövrdə Qazax və Şəmşəddil sultanlıqları Gürcüstandan asılı vəziyyətdə olduğundan Şərqi Gürcüstanla birlikdə onlar da Rusiyaya ilhaq edilmişdi. Azərbaycanın işğalına bununla da start verilmiş oldu. Rusiya Gürcüstanın ardınca Azərbaycanı ələ keçirməyə hazırlaşırdı. Bu məqsədlə 1802-ci ilin sentyabrında P. D. Sisianov Rusiyanın Qafqaz ordusunun baş komandanı təyin edilmişdi. I Aleksandrın bu vəzifəyə knyaz P.Sisianovu təyin etməsi təsadüfi deyildi. Mənşəcə gürcü olan bu knyaz II Yekaterinanm göstərişilə vaxtilə V. Zubovun yürüşündə iştirak etmiş, 1796-1797-ci illərdə Bakı qalasının komendantı olmuşdu.

İran bu siyasətlə razılaşmayaraq, Avropa dövlətlərinin köməyinə arxalanmaqla Gürcüstanı Rusiya hakimiyyətindən qurtarmağa çalışır, antirus hərəkatına yardım göstərirdi.

Azərbaycan xanlıqları ilə dil tapmağa xüsusi diqqət verilirdi. 1802-ci ildə İrana tabe olmaq haqqında Qarabağ və Ba-kı xanlıqlarına təkliflər edildi.

I Aleksandrın tapşırığı ilə Sisianov 1802-ci ilin dekabrında Georgiyevskdə xanlarla danışıqlara başladı. Görüşə Quba, Dərbənd, Talış xanları və Dağıstanın bəzi hakimləri gəlmişdilər. Bakı xanı görüşə gəlmədi. Dekabrın 26-da imzalanmış müqaviləyə görə onu imzalayan xanlar və hakimlər aralarındakı düşmənçiliyi, narazılığı, mübahisələri və s. kənara qoymalı və ara müharibələri aparmamalı, ortaya çıxan mübahisələr yalnız dinc yolla həll edilməli idi. İranın hücum edəcəyi halda ona qarşı birgə çıxış etmək ayrıca göstərilirdi.

Müqavilədə ticarətin inkişaf etdirilməsindən, dənizçiliklə bağlı məsələlərdən və s. bəhs olunurdu.

1803-cü ildə Bakı xanlığı ilə belə bir müqavilə imzalandı.

Georgiyevsk müqaviləsi bağlandığı vaxtdan əhəmiyyətsiz bir sənədə çevrildi. Müqaviləyə qoşulan xanlıqlar İranın deyil, məhz Rusiyanın təcavüzünə məruz qaldılar. Ona görə Georgiyevsk müqaviləsi qüvvəsini itirdi.

Çar Rusiyası ayrı-ayrı xanları öz tərəfinə çəkmək, onları himayəsi altına almaqla yanaşı, işğalçı qoşundan da istifadə etmək fikrindən daşınmamışdı. Gürcüstandan Şərqə Azərbaycanın əsas xanlıqlarına doğru qoşunların irəliləyəcəyi yolun üzərində böyük hərbi-strateji əhəmiyyəti olan Car-Balakən camaatları idi. 1803-cü ilin yazında rus qoşunları general Qulyakovun komandanlığı altın-da Alazan (Qanıq) çayı keçidində və Balakən yaxınlığında da Car-Balakən camaatını məğlubiyyətə uğratdılar. Balakəni tutub viran etdilər. Sonra isə Car camaatı müqavimət nəticə-sində Balakənin başına gətirilmiş fəlakəti nəzərə alaraq, martın 29-da müqavimətsiz təslim oldu. Aprelin 12-də Tiflisdə Rusiya və Car-Balakən arasında "andlı öhdəlik" imzalandı. Car-Balakən camaatının nümayəndələri Tiflisə gələrək Rusiyanın ali hakimiyyətini qəbul etmək barəsində müqaviləni imzaladılar. Bu müqaviləyə görə Car-Balakənlilər hər il çar xəzinəsinə 220 pud ipək verməli, Tiflisə girovlar göndərməli, Car-Balakəndə rus qoşunlarını yerləşdirməli idilər. Rusiya hökuməti Car-Balakən camaatının daxili idarə işlərinə qarışmayacağını vəd etmişdi.

Car-Balakənin tutulması Azərbaycanın sonrakı işğalını nisbətən asanlaşdırdı. Təsadüfi deyildir ki, Sisianov Xarici işlər kollegiyasına bu qələbənin "xüsusi diqqətəlayiq olduğunu" yazmışdı.

"Andlı öhdəliyin" şərtləri Car-Balakən üçün ağır olduğundan onu yerinə yetirmək çətin idi. Rusiya müəyyən edilmiş ipəyi vaxtında ala bilmirdi. Bu da Sisianovun Car-Balakən camaatına hədələyici məktublar yazmasına səbəb oldu. Lakin bu onunla kifayətlənməyərək yenidən hərbi müdaxiləyə əl atdı. Qulyakov 2500 nəfərlik qüvvə ilə 1804-cü il yanvarın əvvəllərində yenidən Car-Balakənə yürüşə başladı. Əhalinin tərk etdiyi Car tutuldu. Qulyakov camaatın müqavimətini qırmaq üçün təqiblərə başladı. Lakin 1804-cü il yanvarın 15-də carlılar tərəfindən öldürüldü. Vəziyyəti belə görən Sisianov Car-Balakən camaatı ilə barışıq bağladı. Car-Balakəndən sonra İlisu sultanlığı da Rusiyanın təbəəliyinə keçməyə məcbur oldu.

Cavad xan Rusiyaya birləşməyin əleyhinə idi, o xanlığı müstəqil idarə etməyi israr edirdi. Bu isə Rusiya hökumətini təmin etmirdi. Cavad xanın dövründə Qazax, Şəki, Şəmşəddil və başqa yerlər Gəncə xanlığına daxil edildi. O, Qarabağ ilə münasibəti sahmana saldı. Cavad xan sədaqət rəmzi olaraq bir qızını və oğlunu İbrahimxəlil xanın yanına göndərdi. II İrakli daim Gəncəyə sahib olmağa can atırdı, yerli feodallar isə onu sıxışdıranda, Cavad xandan imdad gözləyirdi. Gürcüstan Rusiya dövlətinin himayəsinə keçəndə Şəmşəddil barədə general Georgi ilə Cavad xanm sözləri çəp düşdü. Lazerevin başçılığı ilə Gəncəyə qoşun gəl-di. Cavad xan bildirdi ki, həm ruslarla, həm də gürcülərlə dostluq münasibətləri saxlamaq istəyir, bircə şərtlə-gərək rus qoşunu Şəmşəddildən çıxıb getsin. Sonra P. D. Sisianov gəldi. Qafqazdakı rus qoşunlarının başçısı təyin edilmiş və burada çarizmin müstəmləkə siyasətini zor gücünə həyata keçirən general P.D. Sisianov Gəncəni zəbt etməyə xüsusi əhəmiyyət verirdi. O, Gəncəyə yürüş üçün məqam axtarırdı. Lazarev iki nəfər erməninin məktubuna əsaslanaraq 1803-cü il yanvarın 9-da Sisianova yazırdı ki, "Bütün Gəncə erməniləri rus ordusunun gəlişini səbirsizliklə gözləyirlər. Gəncə xanının ehtiyat tədbiri yalnız ondan ibarətdir ki, əmrlə hər gün Şəmkirədək on nəfərlik süvari mühafizə dəstəsi yola nəzarət edir". Deməli, Lazarev rəsmi şəkildə bildirirdi ki, ermənilər Gəncəyə yadların gəlişini səbirsizliklə gözləyirlər. Üstəlik xəbər verirdi ki, qorxmayın yollarınız açıqdır, vur-tut onca nəfər yola göz qoyur.

Onda Cavad xan hələ ruslarla səmimi qonşuluq, dostluq arzusunda idi. Öz sözünü Sisianova açıqca bildirmirdi. 1803-cü il fevralın 25-də Sisianov Cavad xana ilk məktubunda yazırdı:"...Sizi və sizin xalqı rus imperatoru öz himayəsinə götürür. Şərafətli etimadmızın...ən gözəl zəmanəti o olardı ki, xahişimizi nəzərə alaraq yüksək mənsəbli böyük oğlunuzu - Uğurlu ağanı bir əmanət kimi Tiflisə göndərəydiniz". Cavad xan ona ikibaşlı bir cavab yazdı. Sisianov gördü ki, Cavad xan xoşluqla ipə-sapa yatmayacaq, Gəncəyə yürüşə hazırlaşdı. 1803-cü il noyabrın 29-da Şəmkirə çatdı və Cavad xana təcili məktub yazdı:"...Gəlmişəm ki, şəhərini Avropa adəti üzrə tutam... Sizdən ikicə söz tələb edirəm, birini seçin:"Hə", yaxud "yox".

Cavad xan elə həmin gün Sisianova ətraflı cavab yolladı. (29 noyabr, 1803-cü il). Məktubda deyilirdi:"...Müharibə etmək istəyirsənsə mən hazır. Mənə müharibəyə hazır olmaq təklif edirsən? Sən Şəmşəddilə girən gündən döyüşə hazıram. Savaşmaq istəyirsənsə savaşaq, hədələyirsən ki, təklifini qəbul etməsəm bəlaya düçar olaram. Əslində bədbəxtlik səni Peterburqdan izləyə-izləyə bura çəkib gətirib. Bunu zaman, bir də davanın özü göstərəcək".

1803-cü il noyabrın 30-da Sisianov Gəncə ermənilərinə müraciət etdi:"... Hamımızı əmin edirəm ki, Ümumrusiya tac-taxtının müdafiəsi üçün qalxan hər kəs özünün və əmlakının təhlükəsizliyinə tam təminat alacaq, müsəlmanların soyğun çuluğundan, hər cür təqib və sıxışdırmalardan canımız qurtaracaq. Sizə Gürcüstanın hər hansı bir guşəsində Rusiya dövlətinin sakini kimi asudə yaşamaq hüququ veriləcəkdir". ...Sisianov az sonra 1803-cü ilin dekabrında təslim olmaq barədə Cavad xana ultimatum verdi. Cavad xan dərhal məktub yazdı; bildirdi ki, şəhərin təhvil verilməsi barədə xam xəyal-dan əl çək. Gəncəyə yalnız meyidinin üstündən keçə bilərsən. Bildin? Mən öləndən sonra. Özgə cür yox". Rus qoşununun tərkibində 11 topu olan 6

piyada batalyonu, 3 eskadron və 200-dək kazak vardı. İlk döyüş Gəncənin iki verstliyindəki Quluqobu adlı yerdə baş verdi. Cavad xan düşmənə ciddi müqavimət göstərdi. Lakin düşmən onu sıxışdırmağa başladı. Cavad xan Gəncə qalasına çəkildi. Sisianov 1804-cü il yanvarın 3-də səhər qalaya hər tərəfdən od yağdırmağa başİadı. Qarabağ qapısı tərəfdən hücum edən general S.A.Portnyakin qoşuna komandanlıq edirdi. Cavad xanın burada toplanan əsas qüvvələri iki dəfə Portnyakinin hücumunu dəf edə bildi, yalnız üçüncü hücumda ruslar şəhərə daxil ola bildilər.

Düşmənin digər hissəsi Tiflis qapıları səmtdən hücum edirdi. Onlar əsas qülləni tutduqdan sonra döyüş daha da şiddətləndi. Gəncəlilər şir kimi müqavimət göstərir, rusların üzərinə dolu kimi güllə, daş və ox yağdırdılar. Hücum zamanı xanın döyüşçülərindən 500 nəfəri öldürüldü, 500 nəfəri əsir ahındı.

Qala bürclərinin birində Cavad xan topun üzərinə qalxaraq əlində siyirmə qılınc rusların hücumunu fövqəladə mətanətlə dəf edirdi. Lakin mətanətli Cavad xanı ruslar qətlə yetirdilər. Elə həmin gün oğlu Hüseynqulu ağa da döyüş meydanında vuruldu. Şəhər çar qoşunları tərəfindən zəbt edilib dairəyə çevrildi.

Gəncə işğal edildikdən sonra qalanın müdafiəçiləri arasında olan Cavad xanın arvadı Bəyimxanım ərinin və oğlunun meyitlərini döyüş yerindən saraya gətirilməsinə nail olmuşdu. Bu zaman Sisianov ağlaşma səsinə xanın cənazəsi olan otağa gəlib çıxdı. Sisianovu görən Bəyimxanım onu qılıncla öldürməyə cəhd göstərdi. Bu hadisənin şahidi olan bir rus generalı yazırdı ki, "Pavel Dmitriyeviçin yanında yavəri olmasaydı, o qəhrəman tatar (azərbaycanlı-red.) xanın qəhrəman zövcəsinin qılıncından salamat qurtarmayacaqdı. Biz qalanı zəbt etmişdiksə də, bu tatar qadını özünü qalib kimi aparırdı və əmr etdi ki, onun otağından çıxaq. O nə ərinin, nə də oğlunun meyitləri üstə ağlamırdı. Yanaqlarında bir qətrə də olsun göz yaşı görmədim. Ağlayanlar saray adamları idilər... İgid xanın dəfnindən bir gün sonra biz onun zövcəsinə başsağlığı verməyə gəldik. O, başdan-başa qara paltar içində idi, bizə qatil kimi baxırdı. Buna onun haqqı vardı..."

Xan və onun oğlu yanvarın 5-də Şah Abbas məscidinin həyətində dəfn edildilər. Amansız düşmənlə qeyri-bərabər döyüşdə həlak olmasına baxmayaraq, Cavad xanın qəhrəman-lığı Azərbaycan tarixinin unudulmaz səhifələrindəndir. Gəncənin işğal edilməsi çar Rusiyası üçün böyük əhəmiyyətə malik oldu. Azərbaycanın digər xanlıqlarının taleyi də faktik olaraq həll edildi. Rus qoşunlarının Xəzər sahillərinə çıxıb Həştərxanla əlaqələri təmin etməsinə şərait yarandı. Cənubi Azərbaycana da yol açıldı.

Ona görə də çar hökuməti Gəncə xanlığı üzərində qələbəni yüksək qiymətləndirərək, onu xüsusi qeyd etmişdi. Bu qələbəyə həsr edilmiş medal təsis olundu. Gəncə xanlığı ləğv edildi. Qədim Azərbaycan şəhərinin adı I Aleksandrın arvadı çariça Yelizaveta Alekseyevnanın şərəfinə Yelizavetpol adlandırıldı. Gəncə sözünü dilinə gətirənlər isə cərimə edilməyə başlandı. Gəncə xanlığından asılı olan Samux hökmdarı Şirin bəy də Rusiyanın hakimiyyəti altına gəlməyə məcbur oldu və ildə Rusiyaya 1000 çervon xərac verməyi öhdəsinə götürdü.

Rus qoşununun işğalçılıq hücumları sultan Türkiyəsi və şah İranını narahat etdi. Rusiyanın Cənubi Qafqazda güclən-məsi İngiltərənin və Fransanın mənafelərinə zidd idi. Türkiyənin və İranın vasitəsilə rus qoşunlarını Cənubi Qafqazdan çıxarmaq məqsədilə onları Rusiyaya qarşı müharibəyə təhrik edirdilər. Bu məqsədlə onlar Türkiyəyə və İrana hərbi yardım edirdilər. İngiltərə tərəfindən qızışdırılan şah İranı 1804-cü ilin mayında Rusiyadan öz qoşunlarını Cənubi Qafqazdan çıxarmağı tələb etdi, rədd cavabı aldıqdan sonra 1804-cü ilin iyunun 16-da Rusiya ilə İran arasında müharibə başlandı. Müharibə hər iki tərəfdən ədalətsiz idi, çünki özgə torpaqlarının ələ keçirilməsi uğrunda gedirdi. Eyni vaxtda İranla bərabər Rusiya Azərbaycan xanlıqlarına qarşı da müharibəni davam etdirir, onların ərazisini işğal edir, yerli xal-qın mənafeyini tapdalayırdı. Rusiyanın ələ keçirdiyi torpaq-ların etnik mənsubiyyətə görə vahid inzibati ərazidə birləşdirilməsi də Balkanlarda olduğu kimi, dövlət qurumları yaratmağa səy etməmək idi. Beləliklə, İran öz qoşunlarmı, əsasən, Ermənistanın şərq torpaqlarında cəmləşdirmişdi. General Sisianov öz qoşunlarını həmin istiqamətə apardı. Onun məqsədi İrəvan qalasını ələ keçirmək idi. Çoxsaylı İran qoşunları ilə toqquşmada qələbə qazana bilməyən Sisianov geri çəkilməyə məcbur oldu. İran qoşunu da itkiyə məruz qaldığından hücumu davam etdirmədi.

1805-ci ilin yazında Gəncə yaxınlığında düşərgə salmış Sisianov İbrahimxəlil xandan, onun öz xarici siyasətində kimə arxalanması haqqında son sözünü deməsini tələb etdi. Xanlığın siyasi taleyi həll olunurdu. Ya Rusiya ilə, ya da İranla birləşməli idi. İbrahimxəlil xan Rusiyanı seçməyə məcbur oldu. 1805-ci il mayın 14-də Gəncə yaxınlığında Kürəkçay adlı yerdə Sisianovla İbrahimxəlil xan arasında müqavilə" ("andlı öhdəlik") imzalandı. Bu müqaviləyə görə, Qarabağ xanı Rusiya çarının vassalı olmağa razılıq verir, xarici dövlətlər ilə müstəqil münasibətlər saxlamaq hüququn-dan Rusiya çarının xeyrinə imtina edir, çar xəzinəsinə hər il 8 min çervon bac verməyi öhdəsinə götürürdü. Şuşa qalasın-da və xanlığın ərazisində Rusiya qoşun dəstələri yerləşdirilirdi, İbrahimxəlil xan öz nəvəsini Tiflisə baş komandanın qərargahında girov saxlanmaq üçün göndərməli idi. Çar qoşunları general-leytenantı hərbi rütbəsi alan İbrahimxəlil xan birbaşa çar baş komandanına tabe edilirdi. Bununla ya-naşı, çar hökuməti xanın və onun qanuni varislərinin daxili idarə etmək hüquqlarına heç vaxt toxunmayacağım öhdəsinə götürürdü.

Şəkidə hakimiyyət uğrunda mübarizədə Rusiyanın köməyinə arxalanmaq istəyən Səlim xan Kürəkçay sahilində düşərgə salmış Sisianovun iqamətgahına gəldi, yeznəsi İbrahimxəlil xandan bir həftə sonra, 1805-ci il mayın 21-də Şəki xanlığı da Rusiyanın hakimiyyəti altına keçmək barədə müqavilə imzaladı. Bu müqavilənin

də şərtləri Qarabağ xanlığı ilə bağlanan müqavilənin, demək olar ki, eyni idi.

Az sonra Səlim xan öz əvvəlki qeyri-məhdud hakimiyyətini bərpa etməyə çalışdı. 1806-cı ilin iyununda Şuşa qalasında çar zabiti Lisaneviçin əmri ilə Səlim xanın bacısı və əri İbrahimxəlil xan, bütün ailəsi ilə birlikdə qətlə yetirildi. Qara-bağda gözlənilmədən baş vermiş bu faciə Səlim xanın Rusiya himayəsindən imtina etməsinə səbəb oldu. O, Şəkidə yerləşən rus qarnizonuna basqın etdi. Rus qoşun dəstəsi Gəncəyə qayıtmalı oldu. Tezliklə, Abbas Mirzə Şəkiyə 300 sərbaz və ləzgilərdən muzdlu qoşun yığmaq üçün Səlim xana 30 min çervon pul göndərdi. Sisianov 1806-cı il sentyabrın 9-da general Bulqakova yazırdı ki, Bakım ələ keçirəndən sonra "Kür boyu irəliləyərək xəyanət etmiş Şəki xanını cəzalandırsın". Həmin ildə Şamaxı xanı Mustafa xan da ona kömək etməli, müqabilində Şəki xanlığı ərazisinin bir hissəsi Mustafa xana verilməli idi. Səlim xan nəyin bahasına olursa-olsun öz hakimiyyətini saxlamağa çalışırdı. Lakin çarizm Səlim xanı kənar etməyi qət etdi və general Nebolsinin başçılığı altında Şəkiyə qoşun göndərdi.

Abbas Mirzədən aldığı pul ilə avar və ləzgilərin topladığı qoşunun Səlim xana köməyi olmadı. 1806-cı il oktyabrın 22-də Şəki yaxınlığında baş vermiş döyüşdə Səlim xan basıldı və ailəsi ilə birlikdə xanlıqda olan Gəldək kəndinə qaçdı. Səlim xanın nəsli xan olmaq hüququndan məhrum edildi. Xanlığı idarə etmək üçün 4 bəydən ibarət müvəqqəti idarə yaradıldı. Səlim xan hər şeyin əldən çıxdığını görərək Abbas Mirzənin düşərgəsinə qaçdı. Çar hökuməti İran şahından üz döndərərək Rusiyaya köçmüş Cəfərqulu xanı Şəkiyə hakim təyin et-di. Lakin yenə də Şəki əhalisi sakitləşmədi. Aşağı və Yuxarı Göynük kəndlərinin əhalisi üsyan etdi və Cəfərqulu xana tabe olmayacaqlarmı bildirdi. Ələ keçmiş 40 nəfər üsyançı öldürüldü. Başqa kəndlərdə də narazılıq artdı. Əhalinin bu çıxışı obyektiv olaraq çarizmin müstəmləkə siyasətinə qarşı, habelə ona can-başla qulluq edən satqın yerli feodal hakimlərə qarşı yönəldildi. 1807-ci ilin sonuna yaxın Cəfərqulu xana qarşı müvəffəqiyyətsiz sui-qəsd oldu. Çar hökuməti əhalini qorxutmaq üçün Şəkiyə əlavə bir batalyon qoşun göndərdi. Beləliklə, Şəkidə də çar idarə-üsulu bərqərar oldu.

Şamaxı, Bakı və Quba xanlıqlarının işğal edilməsi. Qarabağ yə Şəki xanlıqlarının Rusiyaya qatılmasından bir ay sonra İran qoşunu Tiflis üzərinə yeridi. Onlar yolüstü İrana tabe olmaq təklifini rədd etmiş Qazax camaatmı tənbeh etmək fikrinə düşdülər. Qazaxlılar İran vəliəhdi Abbas Mirzəyə təkcə ciddi müqavimət göstərmir, hətta hücuma keçib onu qaçmağa məcbur etdilər. Bir İran tarixçisi yazır ki, "Qazax əhalisi İrəvana doğru gedən farslara müqavimət göstərdi. Qazaxlılar İrəvan düzünə qədər olan 18 fərsəxlik (hər fərsəx 6 km bərabərdir-red.) məsafənin hər fərsəxində İran qoşun-larına tələ düzəldirdilər. Onlar şahzadəyə (Abbas Mirzəyə-*red.)* silahdan atəş açdılar". General Sisianov Rusiya-İran müharibəsində Rus qoşunları tərəfindən iştirak etmək üçün yerli əsilzadələrdən atlı dəstələr təşkil edirdi. Bu atlı dəstələrə nökərlər və maaflar da daxil idilər.

İranla müharibə aparan çar qoşunları Azərbaycanın digər xanlıqlarmı da tabe etmək üçün ölkənin içərilərinə doğru irəliləməkdə davam edirdi. Sisianov Şamaxı, Bakı və Quba xanlıqlarını tezliklə ələ keçirmək fikrində idi. "Qarabağnamə"nin müəllifi yazır ki, "Sisianovun indi qarşıda duran başlıca məqsədi dənizlər (Kaspi və Qara) arasmdakı yerləri ələ keçirməkdən ibarətdir. Sisianovun qoşunları Şamaxı üzərinə yeridi. Şamaxı xanı tərəddüd edirdi. Hələ 1804-cü ildə və 1805-ci ilin yazında Şirvanın Rusiyanın hakimiyyəti altına keçməsi barədə Sisianovla Şamaxı xanı Mustafa xan arasında danışıqlar olmuşdu. Sisianov Mustafa xandan Qarabağ və Şəki xanlıqlarının qəbul etdikləri şərtləri eyni ilə qəbul etməsini tələb edirdi. Lakin Mustafa xan gəlirinin bir hissəsinin Rusiya xəzinəsinə verilməsi tələbindən əl çəkməyi və Şəki xanlığı torpaqlarının Şirvana qatılmasında ona kömək etməyi Sisianova təklif etdi. Şamaxı xanı eyni zamanda Qarabağ xanlığına qatılmış Cavad torpaqlarının geri qaytarılacağı haqqında təminat verməsini və həm də ona Rusiyadan daimi maaş verilməsini xahiş edirdi. Lakin xanın bu tələbləri çar hökumətini təmin etmirdi. Ona görə də 1805-ci ilin noyabrında Sisianovun qoşun dəstəsi Mingəçevir yaxınlığında Kürü keçib Şamaxı istiqamətində hərəkət etdi. Mustafa xan Sisianovun şərtlərini qəbul etməyə məcbur oldu. Lakin o, Şamaxı xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi barədə müqaviləyə qol çəkmək üçün Sisianovun düşərgəsinə getmədi. Belə olduqda, Sisianov qoşunlarmı Şamaxı yaxınlığındakı ərazidə cəmləşdirməyə başladı. Mustafa xan, öz növbəsində, Fitdağdakı qalada gizlənərək hücumu dəf etməyə hazırlaşırdı. Lakin dekabrın ortalarında tərkibində Qarabağ erməniləri olan rus qoşunu ilə Şamaxı xanının qoşunu arasında elə bir ciddi hərbi əməliyyat olmadı. Mustafa xan xanlığın Rusiyanın hakimiyyəti altına keçməsinə razılıq verməli oldu. Öz şəxsi təhlükəsizliyini nəzərə alan xan müqaviləni Sisianovun düşərgəsində yox, Fitdağla düşərgə arasındakı çöldə imzalamağa razı oldu. Bu müqaviləyə görə, Şamaxı xanı başqa dövlətlərlə əlaqələrini kəsməyi, öz gəlirindən Rusi-ya xəzinəsinə 8 min çervon ayırmağı, rus hökuməti üçün Kürün mənsəbində istehkam tikilməsinə şərait yaratmağı, rus qoşununu ərzaqla təchiz etməyi, yolların təhlükəsizliyini təmin etməyi öhdəsinə götürdü. Beləliklə, 1805-ci il dekabrın 25-də Şamaxı xanlığı Rusiyanın tərkibinə qatıldı. Şimali Azərbaycan xanlıqları içərisində ən böyük və zəngin xanlıqlardan biri olan Şamaxı xanlığının Rusiya tərəfindən işğalının Rusiya üçün böyük iqtisadi-siyasi və hərbi-strateji əhəmiyyəti var idi. Sisianov Şamaxı xanlığını tutduqdan sonra, 1805-ci ilin qışında Bakıya doğru hərəkət etdi. Sisianov öz dəstəsini geri Zavalşinin desant dəstəsi ilə birləşdirərək, 1806-cı ilin yanvarında Bakıya yaxınlaşdı və Rusiyanın hakimiyyəti altına keçmək haqqmda müqavilə layihəsini Hüseynqulu xana gön-dərdi. Hüseynqulu xan Sisianovun təklif etdiyi şərtləri qəbul etdiyini, Bakı qalası darvazalarının açarlarını Sisianova vermək istədiyini və "bir neçə məxfi söz demək istədiyini" bildirdi.

Söhbətin səmimi qurtaracağını güman edən Sisianov ordunu kənarda saxlayaraq podpolkovnik E. Eristavinin müşayiəti ilə xanın görüşünə getdi. 1806-cı il fevralın 8-də Bakı qalası darvazası qarşısında açarları təhvil verərkən Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy güllə ilə Sisianovu vurdu və həmin gecə Sisianovun başmı kəsərək Təbrizə Abbas Mirzəyə apardı. Bu xidməti müqabilində şah İbrahim bəyə xan titulu verdi və onu İran qoşun dəstəsinin komandiri təyin etdi. Bu hadisədən sonra general Zavalşin rus qoşunu ilə birlikdə Bakıdan geri çəkildi, Sarı adasında yerləşdi. 1806-cı ilin yazda Abbas Mirzənin komandanlığı altında 20 minlik İran ordusu Şuşaya hücum etdi. Lakin tezliklə rus ordusunun mövqeyi möhkəmləndirildi, Xanaşin aşırımında İran qoşunu məğlubiyyətə uğradı.

1806-cı il iyunun 22-də Dərbənd işğal edildi. Şəhərin idarəsi Rusiyaya rəğbəti olan mayor rütbəsi verilən Əlipənah bəyə tapşırıldı.

1806-cı il sentyabrın 5-də general Bulqakovun komandanlığı ilə rus qoşunu Bakıya tərəf hərəkət etdi və əhalinin təslim olmasını tələb etdi. Bulqakov yerli əhaliyə toxunmayacağını bildirmək üçün öz oğlunu Bakıya göndərdi. Lakin Sisianovun intiqamından qorxan şəhər əhalisi şəhəri tərk etdi. Hüseynqulu xan əvvəlcə Qubaya, oradan da İrana qaçdı. Beləliklə, 1806-cı il oktyabrın 3-də Bakı işğal olundu, Bakı xanlığı ləğv edildi. Bundan bir qədər sonra Quba xanlığı da döyüşsüz təslim oldu. Şeyxəli xan dağlara qaçdı.

Bakı və Quba xanlıqlarının işğalından sonra rus qoşunu Şəkidəki üsyanı yatırtmaq üçün oraya göndərildi. 1806-cı il oktyabrının 22-də Səlim xanın silahlı qüvvələri darmadağın edildi, Səlim xan İrana qaçdı. Bunun ardınca ruslar Car-Balakən camaatları üzərinə hücuma keçdilər. Rus qoşunu car-balakənlilərin köməyinə gəlmiş Avar xanını mühasirəyə aldılar, tezliklə carlılar və onların müttəfiqləri təslim oldular.

Azərbaycanın şimal xanlıqlarında baş vermiş üsyanları yatırtdıqdan sonra rus qoşununun baş komandanı general Qudoviç bir sıra yerli feodal hökmdarları dəyişdi. Məsələn, Dər-bənd və Quba xanlıqları müvəqqəti olaraq Tərki şamxalına verildi. Bir qədər sonra isə bu yerlər imperiyanın əyalətlərinə çevrildi. İbrahimxəlil xanın oğlu Mehdiqulu xan Qarabağa xan təyin olundu. Cəfərqulu xan Xoylu Şəki xanlığının hakimi təyin edildi. Xoydan Şəkiyə köçürülmüş əhali yeni salınmış Yenikəndə, Cəfərabad və s. kəndlərdə məskunlaşdılar.

Gülüstan sülh müqaviləsi. 1806-cı ilin sonlarında Türkiyə Rusiya əleyhinə müharibəyə başladı. Hərbi əməliyyat Balkan yarımadasında və Qafqazda gedirdi. İran qoşununun təhlükəsini dəf etmək üçün general Nebolsinin dəstəsi Tərtər çayı ətrafında yerləşdirildi. Arpaçay sahilindəki döyüşlərdə rus qoşunu türkləri məğlubiyyətə uğratdı.

Napoleon Fransa, İran və Türkiyənin iştirakı ilə Rusiya-ya qarşı Üçlər ittifaqı yaratmaq haqqında 1807-ci ilin yanvarında Fətəli şaha məktub yazdı. Mayın 9-da Finkenşteyndə bağlanmış Fransa-İran müqaviləsinə görə Fransa İrana hərbi kömək göstərməyə başladı. 1807-ci ilin yayında Rusiya ilə Tilzit müqaviləsinin imzalanması İranda Fransanın mövqeyini zəiflətdi. İngilis diplomatiyasının səyi nəticəsində İngiltərə İranla yaxınlaşdı.

Rus-İran cəbhəsində döyüşlər ara vermirdi. İrəvan xanlığının tutulması ruslar üçün əvvəlki kimi başlıca vəzifə olaraq qalırdı. 1808-ci ilin payızında İrəvan şəhəri mühasirəyə alındı. General Qudoviç Naxçıvanı tutmağı general Nebolsinə həvalə etdi. 1808-ci il oktyabrın sonunda Naxçıvan tutuldu. Lakin ruslar İrəvandakı uğursuzluqdan sonra Naxçıvanı da tərk etməli oldular. Müvəffəqiyyətsiz 1808-ci il kompaniyasından sonra Qudoviç istefaya çıxdı general Tormosov baş komandan təyin edildi.

1809-cu ildə Rusiya ilə İran arasında yeni toqquşmalar baş verdi. Avqustun ortalarında Abbas Mirzə Arazı keçərək Gəncə yaxınlığındakı Ağbulağa yaxınlaşdı. Lakin Gəncəni tuta bilməyərək İrəvana çəkildi. Bu zaman Əsgəranda yenidən sölh danışıqları başlandı. Hər iki tərəfin Talış xanlığının kimə çatacağı barədəki mübahisəsi bir nəticə vermədi. 1809-cu ilin sentyabrında İran qoşunları Talış xanlığına soxuldu və Lənkəranı dağıtdı.

Beləliklə, Türkiyə və İranın Rusiyaya qarşı hərbi əməliyyatları bərpa etmək təhlükəsi yarandı. 1810-cu ilin avqustunda İran və Türkiyə arasında hərbi ittifaq bağlandı. Lakin bu ittifaqın da İrana real köməyi olmadı və İran sülh danışıqlarına başlamağı qərara aldı. 1810—1811-ci illərdə Rusi-ya Balkan və Qafqaz hərbi əməliyyat meydanlarında yeni qələbələr əldə etdi. Bu, Sultan Türkiyəsini 1812-ci il mayın 16-da Buxarestdə Rusiya ilə möqavilə imzalamağa məcbur etdi. Həmin müqaviləyə əsasən Türkiyə Cənubi Qafqazın böyük bir hissəsinin Rusiya tərəfindən işğal edilməsi faktım təsdiq etməli oldu.

1812-ci ilin yayında rus xalqı Napoleonun ordusuna qarşı müharibəyə qalxdı. Napoleon yalnız fransız qoşunlarım deyil, ona tabe edilmiş bir sıra Avropa dövlətlərinin hərbi qüvvələrini də Rusiya üzərinə yeritmişdi. Rusiyanın bütün qüvvələrinin Napoleon qoşununa qarşı döyüşə cəlb olunmasından istifadə edən İran ordusu Cənubi Qafqazda fəal əməliyyata başladı. 1812-ci ilin iyununda Abbas Mirzənin 20 minlik qoşunu Xudafərindən keçib Qarabağa girdi və Şahbulağı tutdu. Lakin P. Kotlyarevskinin qoşun dəstəsi tezliklə İran ordusunu geri çəkilməyə məcbur etdi. Həmin ilin iyulunda iki min nəfərlik Iran süvari dəstəsi Gəncəyə basqın etmək istədi, lakin yerli ermənilərin silahlı dəstələri ilə birlikdə ruslar tərə-findən məğlubiyyətə uğradıldı. Azərbaycanlılar iranlıların sürüb apardığı bütün qaramalı geri aldılar və çoxlu qənimət ələ keçirdilər. Həmin ilin avqustunda 10 min nəfərlik İran dəstəsi fransız polkovniki Druvilin komandanlığı altında Talış xanlığına basqın

edərək, Lənkəran qalasını tutdu. Bunun ardınca 4 minlik İran qoşunu Şəki xanlığına hücum etdi. Lakin oktyabrın 19-dan 20-ə keçən gecə general P. Kotlyarevski 2 min nəfərlik ordu ilə Aslanduz təpəsində Abbas Mirzənin böyük ordusuna hücum edib, tam qələbə əldə etdi. Bu döyüşdə İran qoşunundan ölənlərin və yaralananların sayı 120 nəfər idi; 16 nəfər isə zabit əsir alındı. Rus ordusundan da xeyli ölən və yaralanan var idi. 1813-cü il yanvarın 1-də Lənkəran qalası ruslar tərəfindən hücumla alındı.

Rusların qələbəsi Fətəli şahı Rusiyanın qəddar düşməni olan Abbas Mirzəni ordu komandanlığından kənar etməyə məcbur etdi. İngilis məsləhətçiləri rus qüvvələrinin İranın içərilərinə doğru irəliləməsindən qorxuya düşərək şahı sülh bağlamağa təhrik etdilər. Beləliklə, birinci Rusiya və İran müharibəsi İranın tam məğlubiyyəti ilə qurtardı.

1813-ci il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində sülh müqaviləsi imzalandı. Bu müqaviləni İran tərəfindən şahın vəkili Mirzə Əbdülhəsən xan Şirazi və Rusiya tərəfindən Qafqazın yeni baş komandanı Rtişşev imzaladılar. Gülüstan sülhünün şərtlərinə görə:

Talış Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki xanlıqları Rusiya imperiyasının tərkibinə qatıldı. Bununla vahid Azərbaycan iki yerə bölündü. İran Şərqi Gürcüstana, Qazax və Şəmşəddil sultanlıqlarına və Dağıstana olan iddialarından əl çəkdiyini bildirdi. Irəvan və Naxçıvan xanlıqları hələlik şahın hakimiyyəti altında qalırdı. Xəzər dənizində yalnız Rusiya hərbi donanma saxlaya bilərdi. Rusiya-İran ticarəti üçün əlverişli şərait yaradıldı. Rusiya tacirləri daxili gömrük vergisindən azad edilirdilər.

Gülüstan sülh müqaviləsi Azərbaycanın Rusiya tərəfindən iki yerə bölünməsinin başlanğıcını qoydu.

Beləliklə, birinci Rusiya-İran müharibəsinin başa çatması və Gülüstan sülh müqaviləsinin bağlanması ilə Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının əslində birinci mərhələsi başa çatdı.

Birinci Rusiya-İran müharibəsində məğlubiyyətə uğramış, Gülüstan sülh müqaviləsini imzalamağa məcbur olmuş İran Cənubi Qafqazı əldən verməsi ilə heç cür razılaşmaq istəmirdi, Rusiya ilə yeni müharibəyə hazırlaşırdı. Bu işdə İngiltərə bütün vasitələrlə İrana kömək edirdi. O, 1814-cü il-də İranda Rusiyaya qarşı müqavilə bağladı. Bu müqaviləyə əsasən İngiltərə hökuməti Iran qoşunlarını nizama salmaq üçün İrana ingilis zabitləri göndərir, bu qoşunları silahla təchiz edir, başqa şəhərlərdə silah zavodları tikdirir və s. Şah hökuməti özünü dirçəlmiş hesab edib, Gülüstan sülh müqaviləsinin şərtlərinə yenidən baxmağı Rusiya hökuməti-nə təklif etdi. Lakin danışıqlar nəticə vermədi. İran Türkiyəni Rusiyaya qarşı sövq etmək, Rusiya ilə birgə mübarizə aparmaq üçün Türkiyə hökuməti ilə danışıqlara girdi, Türkiyənin Rusiya ilə münasibətlərmi kəskinləşdirmək üçün bütün vasitələrə əl atdı. Şah hökuməti öz xanlıqlarını itirdikdən sonra İrana qaçmış xanlardan da istifadə etmək, onların vasitəsilə Azərbaycan əhalisini Rusiyaya qarşı qaldırmaq fikrində idi.

1826-cı ilin əvvəlində Şah sarayı Rusiyada-Peterburqda dekabristlərin üsyanı xəbərini aldı. Şah hökuməti bu üsyanın Rusiyada daxili çəkişmələrə gətirib çıxaracağını, bunun isə Rusiya dövlətinin zəifləməsinə səbəb olacağını zənn edərək müharibəyə hazırlığı sürətləndirdi. 1826-cı il iyulun 16-da 60 minlik İran ordusu Azərbaycanın Şimal torpaqlarına soxuldu. İkinci Rusiya İran müharibəsi başlandı. İran şahı, həmişə olduğu kimi, bu dəfə də birinci Qarabağa soxuldu. Yenə də ilk həmlə obyekti Şuşa qalası oldu. İran qoşunlarının bir-birinin ardınca edilən həmlələrinə, şəhərin top atəşinə tutulmasına baxmayaraq, Şuşanı tutmaq mümkün olmadı. Qalanın müdafiəsinə Rus qarnizonu ilə birlikdə, şəhər əhalisinin bir hissəsi də qalxmışdı. Qadınlar və qızlar qalanın müdafiəsində ərlərinə, atalarına, qardaşlarına kömək edirdilər. Şah qoşunları Şuşanı 48 gün mühasirədə saxladılar, lakin onu ala bilmədilər. İran qoşunları Azərbaycanın başqa torpaqlarına da hücum etdilər. Lənkəranı, Salyanı aldılar, əhalinin xeyli hissəsini əsir apardılar. İran qoşunları ilə Azərbaycana gəlmiş keçmiş xanlıqların İrana qaçmış xanları Gəncə, Şamaxı, Şəki və s. kimi şəhərləri ələ keçirib öz xanlıqlarını bərpa etdilər. Həmin yerlərdə olan az saylı rus qoşun dəstələri geri çəkilməyə məcbur oldular. Azərbaycan ərazisinə girmiş şah qoşunları əhaliyə amansız divan tutur, cavan kişiləri, qız-gəlinləri əsir aparırdılar. Bir müşahidəçi yazırdı ki, "Şirvan əyalətini tamamilə dağıdılmış gördüm. İran süvariləri dəhşətli qarətlər törətmişdilər... Bir çox kəndlər boşalmışdı". Fürsətdən istifadə edən rus komandanlığı pərakəndə vəziyyətdə olan qüvvələri birləşdirərək, strateji təşəbbüsü ələ aldı və əks hücuma keçdi. Ümumən, İran qoşunu Şimali Azərbaycana daxil olan kimi çarizm əleyhinə üsyan dalğası genişləndi. XIX əsrin başlanğıcından etibarən işğal olunmuş Azərbaycan torpaqlarında çarizmin həyata keçirdiyi müstəmləkə siyasəti, ictimai və milli zülm həddini aşmışdı. Bütün bunlar ölkədə çar hökumətinə qarşı güNdən-günə nifrəti artırdı. Hərəkatın əhalinin müxtəlif zümrələrini əhatə etməsinə baxmayaraq, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizə əsas məqsədə çevrilmişdi. Ona görə do üsyanlar bütün ölkəni əhatə edirdi. 1826-cı il iyulun 28-nə keçən gecə Gəncədə üsyan başlandı. Şəhərdəki Rus qoşunu darmadağın edildi. Uğurlu xan Gəncəyə daxil oldu.

Talış xanlığında da azadlıq uğrunda mübarizə genişlənirdi. Xanlıqda yerləşən Xəzər dəniz batalyonunun komandanı mayor Ilyinskinin özbaşınalığı nəticəsində 1826-cı il iyunun 4-də Mir Həsən xan İrana qaçmışdı. Onun qayıtması ilə Lənkəranda da üsyan baş verdi.

Bakı xanlığında da həyəcanlar başlanmışdı. Lakin möhkəm qala divarları rus qoşununa keçmiş Bakı xanı Hüseynqulu xanın hücumlarını dəf etməyə imkan verdiyindən, şəhərdə həyəcanlar asanlıqla yatırılırdı.

Şirvanda, Qubada, Şəkidə və digər yerlərdə baş vermiş üsyanlar Ölkəni təlatümə gətirmişdi. Geniş xalq kütlələrinin üsyanlarda fəal iştirakı qələbələrin rəhni idi.

Müharibə başlanandan bir neçə ay sonra Rusiyadan Cənubi Qafqaza yeni qoşunlar gəldi. I Nikolay A. P. Yermolovu, İ.F.Paskeviçlə əvəz etdi və rus qoşunu əks hücuma keçdi. 1826-cı il sentyabrın 3-də Şamxor yaxınlığındakı döyüşdə İran qoşunları ağır məğlubiyyətə uğradı, xeyli tran sərbazı öldürüldü və yaralandı, sağ qalanlar qaçmaqla canlarım qurtara bildilər. Rus qoşunlarının hücumu Abbas Mirzəni Şuşa qalasını mühasirəsindən əl çəkməyə, Şamxor tərəfə hərəkətə məcbur etdi. Bu qoşunlarla rus qoşunları Gəncə yaxınlığında üzləşdilər. Bu dəfə də rus qoşunları üstünlük qazandılar. İran qoşunu darmadağın edildi. Bu qələbə üsyançıların vəziyyətini də ağırlaşdırdı. Rus hərbi cəza dəstələri üsyanları qəddarlıqla yatıraraq üsyançılara divan tuturdular. Döyüşdə Azərbaycan feodallarından və onların nökərlərindən təşkil edilmiş süvari dəstələri də iştirak edirdi. Bu döyüş barəsində Qarabağnamə müəllifi Mirzə Adıgözəl bəy yazırdı:"...Qızılbaşlar basıldılar, məğlubiyyətin qabağını almaq mümkün olmayıb, qaçdılar. Bir gün bir gecə Arazdan keçdilər. "'Rus qoşunları Gəncəni yeni-dən ələ keçirdilər. İran qoşunlarının köməyi ilə öz torpaqlarını geri qaytarmış keçmiş xanların da müqəddəratı faktiki olaraq həll edilmişdi. Lənkəran xanlığı hələlik İran qoşununun əlində qalırdı. Az sonra Rus qoşunları İrəvan və Naxçıvan xanlıqlarına hücum etdilər, xanlıqları tutdular. 1827-ci ilin sonlarında buradan Azərbaycanın cənub torpaqlarına girdilər. Rus qoşunlarının köməyi ilə hakimiyyəti ələ keçirmək istəyən feodallar, həmçinin İran şah hakimiyyətinin zülmündən cana gəlmiş əhalinin bir qismi, xüsusilə xristianlar onların Xoy və Təbrizə yürüşünə kömək edirdilər. Rus qoşunları dəstələrin-dən birinin başçısı yazırdı ki, "əhali hər yerdə öz yerində alıb qoşunlarımızı düşmənlər kimi deyil, öz himayəçiləri kimi qəbul edərək, onları qarşılamağa çıxırdı". Camaat qacarların zülmündən o qədər cana doymuşdu ki, sonralar nələr ola biləcəyinin, bir zülmkarın digər müstəmləkəçi ilə əvəz olunacağını nəzərə almadan şəhərlərin darvazalarını rus qoşunlarının üzünə açırdılar. Rus qoşunları Təbrizə yaxınlaşanda Təbriz ruhanilərinin başçısı Mir Fəttahın çıxışı ilə əhali onları qarşılamağa çıxdı. Təbrizlilər Qacar zülmündən o qədər Əziyyət çəkmişdilər ki, rus qoşununu Tehrana hücum etməyə çağırır, 12 min nəfərlik qoşunla kömək etməyə hazırlaşdıqlarım bildirirdilər.

Rus qoşunu 1827-ci il aprelin 27-də Xudafərin körpüsünü ələ keçirdi. Hələ aprelin 23-də əsas qüvvələr İrəvana doğru irəlilədi, qala mühasirəyə alındı. Rus qoşunu böyük strateji əhəmiyyəti olan Abbasabad qalasına hücum etdi. Abbas Mirzə iyulda 16 minlik qoşunla qalaya köməyə gəldi. Lakin iyulun 5-də Cavadbulaq döyüşündə məğlub olandan sonra iyulun 7-də təslim oldu. Avqustun 13-də Alagöz dağının ətəklərində baş vermiş döyüşlərdə do ruslar qalib gəldilər. Sentyabrın 20-də Sərdərabad təslim oldu, ayın 26-da yenidən İrəvan qalası mühasirəyə alındı. 1827-ci il oktyabrın 2-də ruslar mərkəzə daxil oldular, 1828-ci ilin yanvarında Qaradağın mərkəzi Əhəri tutdular. Hələ buna qədər Təbrizə yol açılmışdı və oktyabrın 13-də Təbrizə daxil oldular, Az sonra Urmiyya və Ərdəbili tutdular. Tehrana yol açıldı. Şah İranı danışıqlara girməyə tələsdi. Təbrizdən bir qədər Cənubda olan Türkmənçay kəndində, 1828-ci il fevralın 10-da İranla Rusiya arasında sülh müqaviləsi imzalandı. Türkmənçay danışıqlarında rus yazıçısı A.S.Qriboyedov və A.A.Bakıxanov da iştirak edirdilər. Müqaviləyə görə, çar qoşunları Azərbaycanın cənub torpaqlarından çıxırdı, yenicə tutulmuş İrəvan və Naxçıvan xanlıqları isə Rusiyanın tərkibinə qatıldı. İran şah hökuməti bu müqavilə ilə Şimal xanlıqlarının Rusiya tərəfindən zəbtini təsdiq etdi. Bu müqavilə hələ Gülüstan müqaviləsi ilə Rus tacirlərinə verilmiş imtiyazların, həmçinin Xəzər dənizində yalnız Rus hərbi donanmasının saxlanması hüququnu da təsdiq etdi. Müharibədə məğlub olmuş İran Rusiyaya 20 milyon manat gümüş pulla təzminat verməli idi. İran hökuməti təzminatı ödəyib qurtarana qədər zəbt edilmiş Cənubi Azərbaycan vilayətləri Rusiyanın himayəsində qalırdı.

Rusiya-İran müharibəsi qurtarana yaxın Rusiya-Türkiyə münasibətləri kəskinləşdi. Bu iki dövlət arasında 1828-ci ilin aprelində müharibəyə gətirib çıxardı. Qafqaz cəbhəsində Rus qoşunlarının tərkibində dörd Azərbaycan süvari alayı iştirak edirdi. Bu alaylar çar Rusiyasına can-başla qulluq edib torpaq sahələri, vəzifələr almağa can atan bəylərdən, onların nökərlərindən və maaflardan ibarət idi. Çar hökuməti onları eyni zamanda müharibənin gedişində qənimət ələ keçirib varlanmaqla şirnikləndirmişdi, Bir sıra şəhərlərin ələ keçirilməsində bu alayların mühüm rolu olmuşdu. Bir rus yazıçısı alayların döyüşlərini belə mədh edir: "Bu alaylar barəsində mühakimə yürütmək üçün onları döyüşdə görmək hazıradır: bunlar şimşəyi xatırladır, bunlar qəzəblənmiş Allahın birdən-birə düşmənlər içərisinə ölüm və dəhşət saçan atəşinə bənzəyirdi. Müsəlman alaylarının gözlərim önündə törətdikləri igidlik xarüqələrini hələ də heyrətlə yad edirəm".

Türkiyə hökuməti rus qoşunlarının ölkənin içərilərinə yeriyəcəyindən ehtiyat edərək sülh müqaviləsi bağlamağa tələs-di. 1829-cu ildə Ədirnədə müqavilə imzalandı. Türkiyə Cənubi Qafqazın çar Rusiyası tərəfindən zəbt olunmasını təsdiq etməli oldu.

Azərbaycanın Rusiya tərəfindən zəbt edilməsinə münasibət birmənalı olmamışdır, onun mənfi nəticələri ilə yanaşı əhəmiyyətli cəhətlərinin olmasına da diqqət verilmişdir. İlk növbədə də qeyd etmək lazımdır ki, Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən zəbt edilməsilə Azərbaycan xalqı öz dövlət müstəqilliyini itirdi. Xalqı onun dövlət müstəqilliyindən məhrum etmək ən mürtəce hadisədir. Şimali Azərbaycanın işğalı nəticəsində Azərbaycan xalqının zorla iki hissəyə bölünməsi kimi tarixi ədalətsizlik baş verdi. Bu tarixi ədalətsizlik nəticəsində vahid xalq bölündü, bir-birindən fərqli sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna düşməyə məcbur oldu. İşğal nəticəsində Azərbaycan çar Rusiyasının xammal bazasına və satış bazarına çevrildi. Azərbaycan iqtisadiyyatı müstəmləkə iqtisadiyyatı xarakteri aldı. Bu isə, o demək idi ki, ölkə yalnız Rusiya sənayesi üçün xammal istehsal etməli, öz sənayesi də buna xidmət etməli idi. Bununla da

Azərbaycan çar Rusiyasının müstəmləkəsinə çevrildi.

Azərbaycanın çar Rusiyası tərəfindən işğal edilməsi nəticəsində faciənin başlanğıcı qoyuldu, ölkə iki hissəyə bölündü və bir-birindən fərqlənən ictimai-siyasi inkişaf yolu götürdü, Azərbaycanın torpaqları hərraca qoyuldu, ermənilərin, rusların, almanların və digər xalqların ölkəmizə köçürülməsi başlandı, təbii sərvətlərimiz talan edilidi, tariximiz sistemli şəkildə saxtlaşadırılmağa başlandı. Bununla belə, on illər boyu davam edən ara müharibələrinə son qoyuldu, xanlıqları dövrünün sərhədləri aradan götürüldü, müharibələrə son qoyulması sabit iqtisadi inkişafı şərtləndirdi, kapitalist istehsalının əsasları qoyuldu, xüsusilə neft Bakısının sürətli inkişafı başlandı. Bununla belə, işğal faktorunun mənfi nəticələri, Azərbaycanın iki hissəyə parçalanması (bu siyahını kifayət qədər uzatmaq mümkündür) onun müsbət nəticələrinin üzərinə kölgə salsa da, unutmaq olmaz ki, bugünkü müstəqil Azərbaycan Respublikası məhz Rusiyanın tərkibində olan Şimali Azərbaycanın varisidir.

**Mövzuya dair suallar:**

1. XIX əsrin əvvəllərində beynəlxalq şəraitin mürəkkəbləşməsi
2. Çar Rusiyasınnı Azərbaycan torpaqlarının işğalına diplomatik-siyasi hazırlığı
3. Cənubi Qafqazın Rusiyaya ilhaqının başlanması və problemlə Qərb dövlətlərinin (İngiltərə və Fransa) münasibəti
4. Şimali Azərbaycanın işğalının I mərhələsi
5. Cənubi Qafqaz uğrunda Rusiya-İran və Rusiya-Türkiyə müharibələri
6. Çarizmin Azərbaycanda müstəmləkə və dini ayrı-seçkilik siyasəti
7. Şimali Azərbaycanın işğalının II mərhələsi və beynəlxalq nəticələri
8. Gülüstan və Türkmənçay müqavilələri

**Ədəbiyyat:**

1. Məmmədov S. Azərbaycan tarixi. Dərslik, B., 2004
2. Azərbaycan tarixi üzrə qaynaqlar. B., 1989
3. Sadıqov H. XIX əsrin əvvəllərində Rusiyanın xarici siyasətində Qafqaz problemi // Azərbaycan EA-nın xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1990, №3, s. 28-35
4. Cənubi Azərbaycan tarixinin oçerkləri (1828-1917).
5. Azərbaycan tarixinin çağdaş problemləri toplusu. B., 2000
6. Şükürov K. Azərbaycanın bölüşdürülməsi // Kitablar aləmində, 1990, №3
7. Babayev A. Rusiyaya qovuşmaq ərəfəsində. B., 1988
8. Şükürov K. Azərbaycan tarixi. II hissə, B. 1998

## XX Mövzu
## Krım müharibəsi ərəfəsi və dövründə beynəlxalq münasibətlər

Avropa dövlətləri arasında həmrəyliyin pozulmasında mühüm əhəmiyyətə malik 1848-1849-cu illər inqilabları Vyana sisteminin çökməsində də böyük rol oynadı. əsrin ortalarında Avropanın yaşadığı ictimai-siyasi sarsıntılar dövlətləarası münasibətlərdə «real siyasət» adını almış strateji xəttin meydana gəlməsinişərtləndirdi. Vyana sisteminə sonuncu zərbə isə 1853-1856-cı illər Krım müharibəsi oldu. Onun başlanmasında Fransa, Rusiya və Ingiltərə ilə yanaşı Avstriya və Prusisiya da maraqlı idilər və hər biri konkret məqsədlərə malik idilər.

Avropa dövlətləri «real siyasət» kursuna birdən-birə keçmədilər. əsrin ortaları üçün kontinentdə yeni geosiyasi durum formalaşmaqda idi. Fransa onilliklər boyu davam edən müharibənin nəticələrinin aradan qaldırmış, III Napoleon hakimiyyətə gəlmiş (1853-1870) və II imperiya qurulmuşdu. Fransanın başlıca məqsədi Vyana sisteminin buxovlarından qurtulmaq idi ki, Macarıstanda baş vermiş 1848-1849-cu il hadisələri bunun üçün əlverişli imkan yaratmışdı. Avstriya impetorunun xahişi ilə I Nikolay rus qoçunlarının Macarıstanda baş verən inqilabi çıxışların yatırılmasında iştirakına göstəriş vermiş, macar inqilabı boğulduqdan sonra inqilabi çıxışlarda iştirak edənlərin bir qismi Türkiyədə sığınacaq tapmışdılar.

Yaranmış şəraitdə Rusiyanın əlinə Qara dəniz boğazlarına müdaxilə etmək üçün fürsət düşmüşdü və III Napoleon bundan istifadə edərək Müqəddəs İttifaqın parçalanması üçün müxtəlif üsullara əl atdı. I Nikolay Türkiyədən inadla macar inqilabçılarının geri qaytarılmasını tələb edir, sultan isə bundan qəti olaraq imtina edirdi. Məhz bu zəmində «Şərq məsələsi»yenidən kəskinləşməyə başladı ki, bu da müharibəyə gətirib çıxardı.

Şərq məsələsinin kökləri tarixin dərinliklərindədir, konseptual əsaları isə rus çarı I Pyotrun «Vəsiyyətnaməsinə» əsasən qoyulmuşdur. Avropa dövlətləri bu məsələdən istifadə etməklə aşağıdakı məqsədlri reallaşdırmağa çalışırdılar:

- Türkiyənin Avropa qitəsində yerləşən torpaqlarının onun əlindən alınması.
- Qüds və Vifleym şəhərindəki xristian müqəddəslərin qəbrlərinin müsəlmanların hakimiyyətindən azad edilməsi.

Şərq böhranının qızışdırılmasında iki dövlət xüsusilə maraqlı idi: Fransa və Rusiya.

- Fransa onu iflic vəziyyətinə salmış Müqəddəs Ittifaqın dağıdılmasına çalışırdı.
- I Nikolay isə Qara dəniz boğazında Rusiyanın ağalığına nail olunmasını istəyirdi.

Avropa dövlətlərindən İngiltərə Qara dəniz boğazında qüdrətli Rusiyadansa, zəif Türkiyənin olmasına üstünlük verirdi. Avstriya isə şərq böhranından Balkanlarda möhkəmlənmək üçün bir vasitə kimi istifidə etməyə çalışırdı. K.Marks yazırdı ki, «Avropa müharibə tufanlarından, siyasi sarsıntılardan qurtaran kimi, ənənəvi məsələ ilə qarşılaşır. Bu qurtarmaq bilməyən şərq məsələsidir».

I Nikolay Müqəddəs Ittifaqın meydana gəlməsindən sonra Avropada əminamanlığı qorumaq adı altında rus qoşunlarının bir neçə dəfə Avropada görünməsinə nail olmuşdu və Rusiyaya "Avropanın jandarmi" adını qazandırmışdı.

Artıq XIX əsrin ortaları üçün I Nikolayda belə bir fikir yaranmışdı ki, Türkiyə «xəstə adam» timsalıdadır və tezliklə «öləcəkdir». Buna görə də, Türkiyə imperiyasının ərazisini bölüşdürmək və Qara dəniz planını reallaşdırmaq olar. Halbuki bu dövrdə beynəlxalq şərait kəskin şəkildə Rusiyanın əleyhinə idi.

Avropa dövlətlərinin hamısı Rusiyanın cahangirliyindən bezmişdi və ona qarşı çıxış etmək üçün fürsət axtarırdı. Belə fürsəti isə rəqiblərinə I Nikolay özü verdi. 1853-cü il yanvarın 9-da ingilis diplomatik korpusu Çar sarayında olarkən I Nikolay İngiltərənin Rusiyadakı səfiri Seymur Hamiltona yaxınlaşaraq Türkiyənin gələcəyinə İngiltərənin münasibətinin necə olacağı fikrini öyrənmək istədiyini bildirdi. Səfir Rusiyanın mövqeyini İngiltərə hökumətinə çatdırmağa söz verdi. Bir aydan sonra, fevralın 9-da İngiltərənin stats katibi Con Rosselin imzası ilə Rusiyanın mövqeyinə İngiltərənin kəskin mənfi münsibətini bildirən cavab gəldi. Fransa və Avstriya da analoji mövqe nümayiş etdirdilər.

Artıq bu dövr üçün Rusiyanın Xarici İşlər naziri Nesselrode I Nikolayı inandırmışdı ki, Türkiyə Avropa dövlətlərinin gözündən düşmüşdür. Rusiyanın Fransadakı səfiri Kiselyov, İngiltərədəki səfiri Brunnov və Avstryadakı səfiri Meyndorf I Nikolayı arxayınlaşdırmışdılar ki, Rusiya Türkiyəyə müdaxilə edəcəyi təqdirdə Avropa diplomatiyasının dəstəyini qazanacaqdır. Çar elə hesab edirdi ki, 1848-49-cu il inqilabından sonra Avstiya Rusiyaya müttəfiq olmaq üçün onun tərəfindən çıxış edəcəkdir. Fransa isə 1852-ci il dövlət çevrilişindən sonra özünə gəlməyib, buna görə də Avropada hamı Rusiyanın tərəfində duracaq. Çar bununla olduqca ciddi siyasi səhvə yol verirdi. Çünki Fransa keçmiş müttəfiqlərin arasını vurmaq üçün belə fürsəti çoxdan gözləyirdi.

Xaricdəki rus diplomatlarından yalnız A.Qorçakov əvvəlcə Vyanadan, sonra isə Alman knyazlarından I Nikolayın adına göndərdiyi təqdimatda göstərirdi ki, Avropadakı beynəlxalq şərait Rusiyanın əleyhinə çevrilmişdir. Avstriya Rusiyanın hegemonluğundan çıxmaq üçün fürsət axtarır. III Napoleon isə «Avropa konsertini» dağıtmaq üçün bəhanə gəzir. Təsadüfü deyildi ki, Fransa Avropa dövlətlərindən ilkini kimi, 1853-cü ildə hələ 1740-cı ildə imzalanmış Fransa-Türkiyə müqaviləsinin şərtlərini bərpa etməyə müvəffəq olmuşdu.

Müqavilənin şərtlərinə görə, Fransa Yaxın Şərqin katolik xristianları üzərində Türkiyədən qəyyumluq hüququ alırdı. Bundan xəbər tutan I Nikolay türk sultanına etirazını bildirərək analoji hüququn 1829-cu il Ədirnə sülhü ilə Türkiyənin pravoslav xristianlarına aid olduğunu bildirmişdi. Fransanın həqiqi məqsədlərindən bəhs edən Xarici İşlər Naziri Druyen de Lyus sonralar qeyd edirdi ki, «Müqəddəs yerlər» məsələsinin Fransa üçün heç bir əhəmiyyəti yoxdur. Bu qədər hay-küy salmış «Şərq məsələsi» III Napoleona ona görə lazım idi ki, o artıq yarım əsrə yaxın Fransanı iflic vəziyyətinə salmış «Konstantinopol İttifaqının» (Müqəddəs İttifaq nəzərdə tutulur – S.J.) dağıda bilsin. Yalnız bu yolla İngiltərə, Avstriya və Prussiyanın Rusiyadan ayırmaq mümkün idi. I Nikolayın belə mövqeyi üzündən 1853-cü ilin əvvəllərindən etibarən Rusiya-Türkiyə münasibətləri kəskinləşməyə başladı. Rusiyanın aparıcı Avropa dövətləri ilə münasibətləri də yaxşı vəziyyətdə deyildi. Fransız diplomatiyasının qəsdən təhriki ilə Tütk sultanı Əbdül Məcid Rusiyaya münasibətdə daha az barışdırıcı mövqe tutmağa başlamışdı. Istambuldakı İgilis səfiri də Türkiyənin Rusiyaya qarşı mövqeyinin pisləşməsində az rol oynamamışdı.

Məhz belə vəziyyətə I Nikolayın əmri ilə Hərbi Dəniz Naziri knyaz A.J.Menşikov Rusiyanın Türkiyədə fövqaladə səlahiyyətli səfiri təyin edildi. Onun isə nəinki diplomatiyadan, normal danışıqlar aparmaqdan xəbəri yox idi. A.Menşikov 1853-cü il 10 martın 10-da XİN Rüfət paşaya Rusiyanın aşağıdakı məzmunda notasını təqdim etdi:

- Rusiyanın Türkiyədəki pravoslav kilsəsi və pravoslav əhalisi üzərində qəyyumluq hüququ təsdiq edilsin.
- Bu hüqüq fərmanla yox, Sultan sənədi ilə (divani-humayun) təsdiq olunmalıdır.

Çünki fərman yerli xarakter daşıyır, sultan sənədi isə beynəlxalq hüquqi qüvvəyə malik olurdu. O dövrki mətbuat yazır ki, əgər Türkiyə həmin fərmanı qəbul edərsə, onda I Nikolay Türkiyənin II Sultanı olar. Şübhəsiz bu ilk növbədə fransız diplomatiyasının səyi ilə ortaya atılmış şayə idi, lakin, türk-rus münasibətlərinin pisləşməsində əsas rol oynadı.

1853-cü ilin aprelində İngiltərə hökuməti Rusiyaya qarşı barışmaz mövqeyi ilə məşhur olan Stratford Kanninq (Lord Redklif) İstanbula səfir təyin etdi. Kaninq rus səfiri ilə ilk görüşündən sonra müəyyənləşdirdi ki, Menşikovun baçlıca məqsədi Türkiyə ilə müharibəyə nail olmaqdır və çox ustalıqla iki işi reallaşdırdı:

- Türkiyənin Xarici İşlər Naziri Rüfət paşanın Rəşid paşa ilə əvəz olunmasına nail oldu. Rüfət paşa ruspərəst mövqeyə malik idi, Rəşid paşa isə Rusiyaya düşmən münasibət bəsləyən şəxslərdən idi.
- Rusiya ilə Türkiyə arasında diplomatik münasibətlərin qırılmasına nail olmaq, bu isə müharibə demək idi.

Məlum olduğu kimi, çar knyaz Menşikova verdiyi məxfi göstərişdə notanın qəbul edilməyəcəyi təqdirdə Türkiyə ilə diplomatik münasibətləri kəsməsi səlahiyyətini vermişdi. Mayın ortalarına qədər davam edən diplomatik mübarizə Türkiyənin notanı rədd etməsi ilə nəticələndi.Yaranmış şəraitdə Menşikov mayın 21-də Türkiyə ilə diplomatik münasibətləri kəsdi və Odessaya qayıtdı.

Rusiyanın xarici nümayəndəliklərinin susduğu dövrdə Vyanadakı səfir A.Qorçakov sonuncu dəfə Rusiyanı Türkiyə ilə müharibəyə getməkdən çəkindirmək üçün xarici işlər naziri Nessellroda təqdimatı göndərdi. Lakin buna əhəmiyyət verilmədi. Çünki heç kəs çarın arzusunda olduğu müharibənin əleyhinə getməyə cəhd etmirdi. Müharibə dövründə Rusiyada Avropada təcrid vəziyyətinə düşmüşdü. Bu da çox tezliklə Rusiyanı böyük fəlakət qarşısında qoydu.

Ingiltərədəki rus səfiri Brunnov Türkiyə tərəfindən nota rədd edildikdən sonra yenə XİN-ə müraciət edərək İngiltərə və Fransanın hadisələrə müdaxilə etməyəcəyini Nesselrodun və I Nikolayın diqqətinə çatdırmışdı. Bundan sonra I Nikolay bildirdi ki, qanuni tələbləri yerinə yetirilməyənədək Dünayboyu knyazlıqları işğal edib girov götürür və iyunun 21-də general M. Qorçakovun komandanlığı altinda 80 minlik rus ordusu Prut çayını keçərək Moldava və Valaxiyanı işğal etdi.

Lakin I Nikolayın arzuları ürəyində qaldı. Belə ki, hələ mart ayında III Napoleon knyaz Menşikovun İstanbul səfərindən xəbər tutduqdan sonra Tulon limanında dayanmış fransız donanmasına İstanbul boğazına hərəkət etmək əmri verildi. Analoji addım İngiltərə tərəfindən də atıldı və ingilis donanması Qara dəniz boğazlarına yeridildi. Yalnız Avstriya və Prussiya vahid mövqeyə gələ bilmirdilər. Amma Rusiyanın məğlub olması nəticəsində heç nə qazanmayacaqlarından ehtiyatlanırdılar.

Türkiyə İngiltərə və Fransanın mövqelərindən arxayınlaşdığı üçün nə quru qoşunlarında, nə də dəniz qüvvələrində ciddi hazırlıq görmədi. Uzun sürən diplomatik mübarizədən sonra 1853-cü il oktyabrn 16-da ingilis səfiri Stratford və fransız səfiri Lakurun təhriki ilə Türkiyə Rusiyaya müharibə elan etdi. Noyabrın 2-də I Nikolayın Türkiyə ilə müharibə haqqında manifesti elan olundu.

Müharibə başladıqdan az sonra noyabrın 18-də rus admiralı Naximovun başçılığı altında 8 gəmidən ibarət rus donanması Sinop buxtasında dayanmış 16 gəmi və çoxlu sursata malik türk donanmasını darmadağın etdi, komandan Osman paşanı əsir götürdü.

Sinop məğlubiyyəti Avropada sensasiya yaratdı. Müasirləri deyirdilər ki, türk donanmasının məğlub edilməsindən sonra Avropada Rusiyaya qarşı müharibədən daha populyar heç nə tapmaq olmazdı.

Sinop epizodundan sonra ingilis və fransız donanması Qara dəniz boğazlarına daxil oldu və 1854-cü ilin

yanvarında admirallar bildirdilər ki, Qara dənizə daxil olmaqda əsas məqsədləri Türkiyənin sahil məntəqələrini rusların qəfil hücumundan qorumaqdır. Çətin vəziyyətə düşmüş I Nikolay Fransa və İngiltərədəki səfirlərindən generalların bəyanatının Rusiyaya aid olub-olmamasını öyrənməyi tələb etdi. Məlum oldu ki, generalların bəyanatı ancaq Türkiyə ilə bağlıdır və çarın əmri ilə Londondakı rus səfiri Brunnov İngiltərə ilə diplomatik münasibətləri kəsərək geri qayıtdı. Anoloji addım Parisdəki rus səfiri Kiselyov tərəfindən də atıldı.

1854-cü il yanvarın 29-da Fransanın hökumət orqanı olan «Monityer» qəzetində III Napoleonun I Nikolaya açıq məktubu dərc olundu. İlk dəfə idi ki, bir monarx digər monarxa mətbuat vasitəsi ilə açıq müraciət edirdi. Müraciətdə Sinop döyüşünün təkcə Türkiyənin yox, İngiltərə və Fransanın da ləyaqətini təhqir etdiyi göstərilirdi. Ancaq müraciətdə Türkiyə ətrafında baş verənlərin daha çox İngiltərə ilə bağlı olması öz əksini tapmışdı.

Bununla belə, III Napoleon tələb edirdi ki, nə qədər Rusiya Avropa ilə üz-üzə qalmayıb rus donanması Qara dənizdən çıxarılmalı, Türkiyəyə qeyd-şərt irəli sürülmədən danışıqlar başlamalıdır. III Napoleonun bəyanatına I Nikolayın Rusiya XİN-nin mətbuat orqanı olan "Jurnal De Sen-Peterburqda" cavab məktubu dərc olundu. Jurnalda dərc edilməklə yanaşı, I Nikolay cavab məktubunu rəsmi sənəd kimi Fransanın Rusiyadakı səfirinə də təqdim etdi.

Məktubda Sinop döyüşünün günahı I Nikolay tərəfindən həm Türkiyə, həm də İngiltərə və Fransa üzərinə qoyulurdu. Burada göstərilirdi ki, İngiltərə və Fransa diplomatiyasının təhriki ilə Türkiyə-Rusiya münasibətləri müharibə həddinə çatmışdır. Hər iki hökmdar məktubun sonuna "Siz əlahəzrətin yaxın dostu" kunu imza qoymuşdular.

Fransa və Rusiyanın qarşılıqlı münasibətləri səfirlərə münasibətdə də özünü aydı göstərirdi. Belə ki, İngiltərə və Rusiya arasında diplomatik münasibətlər kəsildikdən sonra Rusiyadakı İngilis səfiri Seymur Hamilton heç bir xəbərdarlıq edilmədən ölkədən xaric edilmişdi. Lakin Fransa səfiri general Kastelbajaka Rusiyanı tərk etməsi üçün kifayət qədər vaxt verilmiş, o Rusiyanın ali mükafatı olan Aleksandr Nevsk ordeni ilə təltif olunmuşdu. Fransadakı rus səfiri general Kiselyov da eyni hörmətlə Parisdən yola salınmışdı.

Mövcud tədqiqatlarda Krım müharıbəsi üç mərhələyə bölünür və hər mərhələnin diplomatiyası öz xarakterik əlaməti ilə seçilir. Ingiltərə və Fransa martın 27-28-ə qədər Rusiya ilə diplomatik danışıqlar aparmış və həmin tarixdə Rusiyaya müharibə elan etmişdirlər. Müharibə başlandıqdan sonra 1855-ci ilin noyabrına qədər İngiltərə və Fransa Avstriya və Prussiyanı hərbi əməliyyatlara cəlb etmək üçün böyük diplomatik səylər göstərmişdilər.

Ingiltərədə lord Ebert hökümət kabinetində XİN postunu tutan Palmerston Rusiyanı gücdən salıb parçalamaq planı tərtib etmişdi. Plana görə, Moldova, Valaxiya və Dunay boyu ərazilər müttəfiqlərin qalib gələcəyi təqdirdə Avstriyaya vəd edilmişdi. Ingiltərədə xarici siyasət məsələləri üzrə stats-katib lord Klarendon Rusiya əlehinə müharibəni sivilizasiyanın barbarlara qarşı müharibəsi adlandırmışdı.

Ingiltərə və Fransa kimi, Rusiya da Avstriya və Prusiyanı öz tərəfinə çəkmək üçün müxtəlif danışıqlar aparırdı. Lakin Rusiya müttəfiqlərdən fərqli olaraq nə Avstriyaya, nə də Prusiyaya heç nəyi vəd etmirdi. Avstriyaya Moldova, Valaxiya və Dunay boyu knyazlıqlarda Rusiyanın təklifinə görə birgə idarəçiliyin həyata keçirilməsi vəd edilirdi. Bu isə Avstriya diplomatiyasının arzu etmədiyi bir iş idi. I Nikolay səhv olaraq belə hesab edirdi ki, 1848-49-cu il inqilabından sonra Frans İosif hökmən Rusiyanı müdafiə edəcək.

Diplomatik mübarizə son nəticədə Avstriyanın da müttəfiqlərin tərəfinə keçməsi ilə nəticələndi. Frans İosif rus çarından Moldova və Valaxiyanı tərk etməyi tələb etdi. 13 minlik Avstriya ordusu Transilvaniya ərazisinə daxil oldu və iyunun ortalarında çar hökuməti öz qoşunlarını Dunay boyu ərazidən çıxardı.

I Nikolayın Prussiyanı öz tərəfinə çəkmək səyləri də nəticə vermədi. Sərhədlərinin yaxınlığında 200 minlik rus ordusu yerləşməsinə görə ehtiyatlanan Prussiya əvvəlcə tərəflərdən heç birinə qoşulmaq istəmirdi. Hətta Bismark demişdi ki, biz heç vaxt Rusiyanın müttəfiqi ola bilmərik, ancaq müharibənin gətirdiyi xeyirdən istifadə etmək məsələnin başqa tərəfidir və Prussiyanın bundan imtina etməsi ağılsızlıq olardı. Çox keçmədən hadisələrin gedişi Prussiyanın müttəfiqlərin tərəfinə keçməsini şərtləndirdi. 1854-cü il aprelin 20-də Prussiya da Avstriyaya qoşuldu və Rusiyaya qarşı Avropa dövlətlərinin koalisiyası yarandı.

Rusiyanın Avropadan təcrid olunmasını göstərən əsas faktorlardan biri III Napoleonun "4 bəndindən" ibarət notasi olmuşdu. 1854-cü il iyulun 18-də Rusiyaya təqdim edilən nota aşağıdakı şərtləri əks etdirirdi:

- Dunay boyu knyazlıqlar Fransa, İngiltərə, Avstriya, Rusiya və Prussiyanın birgə protektoratlığı altına keçir və müvəqqəti olaraq Avstriya qoşunları tərəfindən işğal edilir;
- Bu beş dövlət Türkiyə xristianlarının kollektiv qəyyumu hesab edilir;
- Bu beş dövlət Dunay boyu knyazlıqlarda ali nəzarəti həyata keçirirlər;
- Türkiyə ilə göstərilən dövlətlər arasında bağlanmış 1841-ci il müqaviləsinə yenidən baxılır.

Məlum olduğu kimi, 1841-ci ildə beş dövlət arasında imzalanmış London müqaviləsinə görə, Qara dəniz boğazlarında gəmiçilik reqlamenti nizamlanırdı. Çar notanı qəbul etdi, lakin onu cavabsız qoydu. Çünki notada cavab üçün vaxt qoyulmamışdı. 1855-ci ilin fevralında I Nikolayın vəfatı, avqustun 27-də Sevastopolun müttəfiqlər tərəfindən tutulması, müharibənin gedişində müttəfiqlər arasında yaranmış ziddiyətdən istifadə edən A.Qorçakovun Vyanada fəaliyyəti hərbi əməliyyatların çox tezliklə başa çatmasını şərtləndirdi.

1855-ci ilin oktyabrında Fransa ilə Rusiya arasında qeyri-rəsmi və qeyri-leqal danışıqlar başladı. Lakin rus diplomatlarının ehtiyatsızlığı üzündən danışıqlar çox tezlilə qırıldı. Hadisələrin kulminasiya nöqtəsi 1855-ci il dekabrın 2-də Avstriyanın Rusiyaya "5 bənddən ibarət ultimatumu" oldu.

Ultimatumun şərtləri III Napoleonun 4 bəndindən daha ağır idi. Lakin notadan fərqli olaraq ultimatuma vaxt qoyulmuşdu. Onun qəbul edilməyəcəyi təqdirdə Avstriya Rusiyaya qarşı müharibəyə başlaya bilərdi. Hakimiyyətə yeni gələn I Aleksandr 1856-cı il yanvarın 1-də ultimatumun Dövlət Şurasında müzakirəsini keçirdi. 9 nəfərin iştirakı ilə keçirilən müzakirələr zamanı general Buludovdan başqa bütün üzvlər ultimatumun qeyd-şərtsiz qəbul edilməsinə razılıq verdilər.

Rus diplomatiyasının gərgin səyi nəticəsində Avstriyanın müharibənin nəticələri ilə bağlı Vyanada beynəlxalq konqresin keçirilməsi təşəbbüsü baş tutmadı. Konqresin 1856-cı il fevralın 25-dən Parisdə keçirilməsi qərara alındı. Paris konqresinə sədrliyi I Napaleonun qrafinya Valevskyadan olan oğlu qraf Valevski başçılıq edirdi ki, bu da Rusiyanın mövqelərinin möhkəmlənməsinə böyük təsir göstərmişdi. Rus nümayəndə heyətinə qraf Orlov və Brunnov daxil idilər.

Paris sülh konqresi bir neçə sənədin imzalanması ilə başa çatdı. Bunların içərisində sülh müqaviləsinin mətni, Rusiya ilə Türkiyə arasında konvensiya əsas yer tuturdu. Sülhün şərtlərinə görə, Qara dəniz neytrallaşdırılır, müharibə və sülh dövründə boğazlar ticarət və hərb gəmilərinin üzünə açıq elan olunur, Rusiyanın sahil istehkamları sökülür, Rusiya və Türkiyəyə Qara dənizdə hərbi donanma saxlamaq qadağan edilirdi.

Xüsusi konvensiyaya görə, Rusiya və Türkiyəyə qaçaqmalçılığa qarşı mübarizə məqsədilə 10 kiçik hərbi gəmidən ibarət hərbi dəniz qüvvəsi saxlamağa icazə verilirdi. Əslində Paris konqresi İngiltərə və Avstriyanın nəzərdə tutduqlarının reallaşmasına imkan vermədi. Çünki nə Balkanlarda, nə də Türkiyənin Avropa hissəsində ciddi ərazi dəyişiklikləri həyata keçirilmədi. Bununla belə, A.Qorçakov Paris sülh müqaviləsini «Rusiyanın tarixində ən biabırçı ləkə» adlandırmışdı.

**Mövzuya dair suallar:**

1. Krım müharibəsi ərəfəsində beynəlxalq vəziyyət.
2. Knyaz Menşkovun Türkiyəyə səfəri və nəticələri.
3. Krım müharibəsinin başlanması. İngiltərə və Fransanın planları.
4. Krım müharibəsinə Avropa diplomatiyasının münasibəti.
5. Rusiyanın beynəlxalq aləmdən təcrid edilməsi və bunun müharibənin gedişinə təsiri.
6. Avstriya və Prussiyanın müharibəyə cəlb edilməsi ətrafında diplomatik mübarizə.
7. Qraf Orlovun Vyana səfəri.
8. III Napoleonun «dörd bəndi» və Avstriyanın ültimatumu.
9. Rusiyanın məğlubiyyəti və Paris sülh konqresinin çağırılması.

**Ədəbiyyat:**


1. Виноградов В.Н. Британский лев на Босфоре. М., 1991
2. Виноградов К.В. Мировая политика 60-80-х годов XIX века. События и люди. Л., Изд. ЛГУ, 1991, 168 с.
3. Восточный вопрос во внешней политике России. Конец XVIII – нач. XX в. М.,1978.
4. Дебидур А. Дипломатическая история Европы. От Венского до Берлинского конгресса. Т.I (1814-1878). Ростов на Дону, 1995
5. Ибрагимбейли Х.М. Кавказ в Крымской войне 1853-1856 гг. и международные отношения. М., 1971
6. Иванова И.И. История Международных отношений от античность до конца первой мировой войны. Владивосток, 2001, ч. I
7. История внешней политики России. Первая половина XIX века. М., 1995
8. История дипломатии. Т. I М., 1959
9. Международные отношения на Балканах. 1830-1856. М., 1890
10. Нарочницкая Л. Россия и отмена нейтрализации Черного моря 1856-1871 гг. К истории восточного вопроса. М.,1989.
11. Российская дипломатия в портретах. М., 1992, ч. II
12. Тарле Э. В. Крымская война. Соч., т. VIII-IX. М.,1959.

## XXI Mövzu
## Almaniyanın birləşdirlməsi ətrafında diplomatik mübarizə və beynəlxalq nəticələri

XIX yüzilliyin ortaları üçün Avropada iki dövlətin birləşdirilməsi prosesi-Almaniya və İtaliyanın birləşdirilməsi öz həllini gözləyən problemlərdin sırasında idi. 1815-ci il Vyana konqresinin məlum qərarına əsasən təsis olunmuş Alman İttifaqı Avstriya və Prussiya arasındakı rəqabət ucbatından bir neçə dəfə dağılmaq təhlükəsinə məruz qalmışdı. XIX yüzillyin ortalarında Almaniyanın birləşdirilməsi ətrafında Avstriya-Prussiya rəqabəti kifayət qədər kəskinləşmişdi. Lakin Rusiyanın Avstriyanı dəstəkləməsi problemin yenidən Avstriyanın xeyrinə həll olunması ilə bitmişdi. Avropa hökmdarlarının da iştirakçısı olduqları 1851-ci il Olmyuts müqaviləsinin şərtlərinə görə, Alman İttifaqında Avstriyanın birinciliyi bərpa olunmuşdu. Rusiyanın hadisələrə təsiri Avropada tarazlığın saxlanıması məqsədi ilə edilmşidi.

Bununla belə, Olmyuts müqaviləsindən sonra da Prussiyanın Almaniyanı öz ətrafında birləşdirməsi prosesini həyata keçirməsi ciddi maneələrlə qarşılaşırdı. Artıq məlum idi ki, Rusiya Almaniyanın birləşməsi prosesinə imkan verməyəcək. Buna nə Avstriya, nə Fransa, nə də İngiltərə imkan yaratmaq fikrində deyildi. Çünki Avropada yaradılmış tarazlıq Almaniyanın birləşdirilməsi prosesinin başa çatması ilə yenidən pozula bilərdi. Bunu isə ilk növbədə İngiltərə və Fransa istəmirdi. Çünki əks təqdirdə Fransanın milli maraqlarına təhlükə kimi onun sərhədləri yaxınlışında böyük dövlət yarana bilərdi.

Almaniyanın birləşməsi Otto Eduard Leapold fon Bismark Şenhauzenin adı ilə bağlı idi. O, XIX yüzilliyin yaşıdı idi, 1815-ci ildə yunker ailəsində anadan olmuş, yaxşı təhsil görmüşdü. 1848-49-cu illər inqilabı ərəfəsində siyasət meydanına qədəm qoyan Bismark Avropa diplomatiyasının incəliklərini mənimsəmiş və Avropa siyasətində elə dəyişikliklər etmişdi ki, F.Engelsin ifadəsinə görə, Bismarkdan sonra Avropa dövlətləri arasında ancaq qarşılıqlı etimadsızlıq qalmışdı. 1849-59-cu illərdə Bismarkın "tülkü yuvası" adlandırdığı İttifaq Seymində fəaliyyəti ona Avstriya, Fransa, İngiltərə və Rusiya diplomatiyasının incəliklərini öyrənməyə imkan vermişdi.

Bismark Almaniyanın qarşısında duran ağır vəzifələrdən danışarkən hələ 1859-cu ildə rus diplomatı qraf Orlovla söhbətində demişdi ki, onu Almaniyaya qarşı Avropa dövlətlərinin «koalisiyaya koşmarı» ciddi narahat edir. Bismark öz son məqsədini ifadə edərək deyirdi: «Tarixdə alman xalqı deyilən şey yoxdur, bizim məqsədimiz Almaniyanı Prussiyanın içərisində əritmək və Prussiyanı Almaniyaya çevirməkdən ibarətdir».

Almaniya İttifaqında birincilik uğrunda mübarizə 60-cı illərin əvvəllərindən etibarən Prussiyanın xeyrinə dəyişməkdə idi. Krım müharibəsindən sonra Avstriya Rusiya kimi etibarlı müttəfiqini itirmişdi ki, bu da Almaniyanın gələcək taleyində mühüm rol oynadı. Almaniya tarixində «İndemnitet haqqında qanun»un qəbulu prosesi kifayət qədər ağrılı məsələlərdən biri idi. Prussiyaya Almaniyanın birləşməsini həyata keçirmək üçün hərbi islahatın keçirilməsi vacib idi. Lakin İttifaq Seymi hərbi nazir Albrext fon Roonun təklif etdiyi ordu quruculuğu layihəsini iki dəfə rədd etmişdi. Yaranmış şəraitdə prus imperatoru I Fridrix Vilhelm 1861-ci ildə istefa verməyə hazırlaşdığını bəyan etdi. Bismark bu dövrdə Peterburqda diplomatik poçtla bağlı problemləri öyrənirdi. Hətta rus çarı II Aleksandr ona Rusiyada qalıb xidmət göstərməyi təklif etmişdi.

Hərbi nazirin təklif etdiyi layihənin uğursuzluğu Prussiyada bir sıra dəyişikliklə şərtləndirdi. O.Bismark Prussiyanın kansleri vəzifəsinə 1862-ci il sentyabrın ortalarında hərbi nazir Roonun təklifi ilə gətirildi. Onun gördüyü ilk iş isə «Septenant haqqında qanun»un İttifaq Seymindən keçirməsi oldu. Bismark Prusiyanın birinci naziri kimi fəaliyyətə başladıqdan dərhal sonra hərbi büdcə üçün seymin razılışını almadan kiçik bir məbləğ ayırdı. Son nəticədə seym Bismarkın təklif etdiyi qanun lahiyəsini qəbul etdi. Həmin qanuna görə, parlament 7 illik dövr üçün qabaqcadan hərbi büdcəni təsdiq edir, sonra isə bu büdcə Bismark tərəfindən 1-2 ilə xərclənirdi.

Otto fon Bismark Prussiyanın kansleri vəzifəsinə gəldiyi dövr Avropada dramatik hadisələrin cərəyan etdiyi dövr idi. Dövlətlər arasında müstəmləkə rəqabəti güclənmiş, mənafe ayrılığı Avropa dövlətlərini üz-üzə qoymuş, Qorçakov «sirkulyarının» (tövsiyə məktublarının) yayılması nəticəsində Rusiya Qara dənizdə itirilmiş hüquqlarını dinc yolla bərpa edilməsi uğrunda mübarizəyə başlamış, 1863-cü ildə baş vermiş Polşa üsyanı Avropa dövlətlərinin diqqətini bir müddət Almaniyanın birləşdirilməsi məsələsindən yayındırmışdı. Yaranmış şəraitdə Rusiya, İngiltərə və Fransa arasında münasibətlər yenidən kəskinləşmiş, lakin Avropa dövlətləri Polşa ilə bağlı Rusiyaya qarşı vahid cəbhə yarada bilməmişdi.

Zaman Prussiyanın xeyrinə işləyirdi. Bismark qısa müddətə hərbi quruculuqla bağlı ciddi yeniliklər etmiş, orduya 43 minə yaxın alman gənci çağırılmış, xaricdən silah və sursat alınmışdı. Artıq Bismark Almaniyanın birləşdirilməsi prosesinə nədən və necə başlamaq üzərində düşünürdü ki, bu fürsəti Danimarka yaratdı. Belə ki, 1863-cü il noyabrın 15-də Danimarka kralı VII Fridrixin ölümündən sonra IX Xristian taxt-taca sahib oldu. Onun ilk gördüyü iş isə Danimarka konstitusiyasının Şlezviq və Qolşteynin ərazisinə yayılması ilə bağlı sərəncam verməsi oldu. Bu ərazilər hələ Vyana konqresi dövründən Danimarkanın tərkibinə qatılsa da, bir neçə dəfə müzakirə obyekti olmuşdur.

XIX əsrin ortalarında Alman İttifaqında siyasi mübarizə yenidən qızışarkən Almaniyaya məxsus tarixi ərazilərin taleyi yenidən gündəliyə çıxdı. 1851-ci ildə imzalanmış Olmyuts müqaviləsinə əsasən, Alman

İttfaqında birincilik Rusiyanın dəstəyinə əsasən yenidən Avstriyaya verildi. Az sonra, 1852-ci ildə Şlezviq-Qolşteyn məsələsi üzərində müzakirələr təzələnsə də, London protokoluna əsasən Prussiyanın özünün də razılığı ilə Danimarkanın xeyrinə həll olunmuşdu. Lakin bu məsələni öz dövrü üçün tam şəkildə anlayan və həlli yolunu göstərə biləcək heç kəs qalmamıdı. Belə ki, lord Polmerstan həmin məsələ ilə əlaqədar bir dəfə etiraf etmişdi ki, «bütün Avropada bu məsələnin mahiyyətini cəmi üç nəfər bilirdi: şahzadə Albert (kraliça Viktoriyanın əri), qoca bir danimarkalı və mən. Albert bu yaxınlarda ölmüş, qoca danimarkalının ağlı çaşdığı üçün dəlilər evinə salınmışdı. Mən isə bu məsələni artıq unutmuşam». Bismark bu məsələdə dördüncü adam olmaq fikrində deyildi. O bilavasitə Almaniyanın birləşdirilməsi işini öz əlinə almaq istəyirdi.

1863-cü il Polşa üsyanından sonra Rusiyanın Prussiyaya münasibəti tamamilə başqa idi, çünki həmin üsyan zamanı Bismarkın məsləhəti ilə Rusiyanın tərəfində duran I Vilhelm bacısı oğlu II Aleksandrın məhəbbətini qazanmışdı. Bismark sonralar da dönə-dönə deyirdi ki, «siyasi xidmətə görə hökmən siyasi haqq verilməlidir».

II Aleksandrın Bismarka münasibəti olduqca yaxşı idi. Yalnız Qorçakov Bismarkın planlarını duyduğu üçün ona inanmırdı. Bismark yazırdı ki, «bu qoca sarsar» sonralar çarın mənə olan inamını dəyişdirməyə müvəffəq olmuşdu.

Bismark 1863-cü ilin sonundan 1864-cü ilin yazınadək III Napoleonun fikrini öz xeyrinə dəyişdirməyə müvəffəq olmuşdu. İngiltərə isə belə hesab edirdi ki, Bismark Şlezviq-Qolşteyn məsələsini öz xeyrinə həll etməyə çalışsa, Danimarka ordusu tərəfindən məğlub ediləcəkdir. Bismark bu məsələdə Avstriya ilə hələlik birlikdə hərəkət etmək niyyətində idi, buna görə də Bismark Frans İosifə birgə hərəkət etməyi məsləhət görürdü ki, Avstriya-Prussiya blokunun zəhmi qarşısında İngiltərə təkbaşına Danimarkanı müdafiə etməsin. Fransanın başı Meksika ekspedisiyasına qarışdığı üçün İngiltərə ilə birlikdə hərəkət etməyəcəkdir. Lord Rossel Fransa xarici işlər naziri Druen de Lyusiə müraciət edərək bu məsələyə müdaxilə etməyi xahiş etsə də, Druen cavabında nəzakətlə ona Poşla məsələsində Fransa və İngiltərənin müvəffəyqiyyətsiz ittfaqının xatırlatmış və xahişdən imtina etmişdir.

Rusiya isə Krım müharibəsindən sonra beynəlxalq nüfuzunu kəskin şəkildə itirmiş və Avstriyanın satqınlığını hələ bağışlamamışdı. Məlum olduğu kimi, hələ Krım müharibəsi zamanı - 1854-cü il mayın ortalarında I Nikolay Avstriyanın hərəkətindən hiddələnərək Paskeviçə yazmışı ki, «artıq elə vaxt gəlib çatmışdır ki, türklər və onların müttəfiqləri ilə vuruşmaq yox, Avstriyanı satqınlığına görə cəzalandırmaq lazımdır». Rusiyanın bu məsələ müdaxiləsinin çətinləşdirən başqa bir amil də Polşada baş verən 1863-cü il üsyanı və Rusiyanın başının buna qarışması idi.

Prussiyaya birləşdirmək məsələsini qaldırmaq imkanı verdi. Hər iki əyalət almanlarla məskunlaşmışdı. VII Fridrixin ölümündən sonra.

Danimarkada hakimiyyətə yeni gəlmiş kral IX Xristianın verdiyi yeni konstitusiyaya görə Şlezviq qəti şəkildə Danimarkaya birləşdirilirdi, halbuki bu vilayət əsasən almanlarla məskunlaşmışdı. Bismarka da elə bu lazım idi, o, dərhal elan etdi ki, Danimarkanın belə bir konstitusiya verməyə ixtiyarı yoxdur. Danimarka dərhal yardım üçün İngiltərəyə müraciət etdi və baş nazir Palmerston Danimarkanın əmin etdi ki, müharibə baş verəcəyi təqdirdə İngiltərənin tərəfdaşlığına arxayın ola bilər.

Bismark diplomatik hazırlıqdan sonra Danimarkaya qarşı qəti fəaliyyətə başladı. 1864-cü il yanvarın əvvəllərində Prussya Avstriya ilə birlikdə IX Xristiana ultimatum təqdim etdilər. Ultimatumda yalnız bir tələb vardı: 48 saaat müddətinə elan edilmiş konstitusiyanı ləğv etmək. İngiltərə tərəfindən arxayınlaşdırılmış Danimarka ultimatumu rədd etdi və hərbi hazırlığa başladı.

Ultimatumdan xəbər tutan İngiltərənin baş naziri Palmerston verdiyi sözdən yayınaraq kraliçanın və parlamentin razılığı olmadığı üçün Danimarkaya hərbi yardım etməyin mümkün olmadığını bildirdi. Beləliklə, yaranmış şəraitdə Danimarka təkləndi, Fransa da ona yardım etməkdən qəti imtian etdi. Yanvarın ikinci yarısı birləşmiş Avstriya-Prussiya qoşunları Danimarkaya daxil oldu. IX Xristian 1864-cü il aprelin 18-də baş vermiş Düppel döyüşündə ağır məğlubiyyyə uğradı və ən ağır şərtlərlə sülh müqaviləsinin imzalanmasına razılıq verdi. Mayın 12-də barışıq, oktyabrın 30-da isə sülh müqaviləsi bağlandı. Müqaviləyə görə, Şlezviq, Qolşteyn və kiçik Lauenberq hersoqluğu qaliblərin əlinə keçdi.

Uzun sürən diplomatik danışıqlardan sonra 1865-ci il avqustun 14-də Qaşteyn konvensiyası imzalandı. Konvensiyaya görə kiçik Lauenburq hersoqluğu Prussiyaya ilhaq edilir, əvəzinə Avstriya 2, 5 mln taler məbləğində qızıl pulla ödənc alırdı. Şlezviq Prussiyanın, kiçik alman knyazlıqların ilə əhatə edilmiş və Avstriyadan xeyli aralı olan Qolşteyn isə Avstriyanın idarəçiliyinə keçirdi. Ərazi bölgüsü zamanı Bismark böyük ustalıqla Avstriyadan xeyli kənarda olan Qolşteyni Avstriyaya verməyə müvəffəq oldu, halbuki ərazicə Lauenberq və Şlezviqə bərabər olan Qolşteyn Prussiyanın qonşuluğunda idi. Bismark belə bölgünü keçirməklə gələcəkdə Qolşteyni çətinlik çəkmədən Prussiyaya birləşdirməyi planlaşdırırdı. Əslində hər iki dövlət uzun müddət davam edən danışıqların nəticəsində yaranan bölgüdən narazı idi.

Təsadüfi deyildi ki, hər iki dövlət məsələni bitmiş hesab etmədiyi üçün fəal şəkildə müharibəyə hazırlamağa başlamışdılar. Bismark tezliklə Rusiyanın və Fransanın bitrəfliliyinə nail olmuş, İngiltərəni isə, ümumiyyətlə hesabdan silmişdi. F.Engels yazırdı ki, «Bismark I Napoleonun şagirdidir, Almaniyanın III Napoleonudur» - Bismark bu xaratkeristikanı tamamilə doğruldurdu. Daxili siyasətdə Bismarkın və III

Napoleonun siyasəti doğrudan da üst-üstə düşürdü, lakin xarici siyasətdə Bismarkın III Napoleondan öyrənməli olacağı heç bir şey yox idi.

Avstriyanın qüvvələrini iki cəbhəyə parçalamaq üçün Bismark 1866-cı il aprelin 8-də İtaliya ilə gizli ittifaq müqaviləsi bağladı. Müqaviləyə görə, İtaliya Prussiyanın tərəfində müharibəyə girməyin əvəzində Venetsiyanı əldə etməli, Bismarkdan pul yardımı almalı, habelə Avstriya ilə seperat müqavilə bağlamamalı idi.

1866-cı il iyunun 16-da Prussiya ordusu kiçik alman knyazlıqlarına daxil oldu. Orduya istedadlı prus generalı Helmut fon Moltke başçılıq edirdi. Lakin cənub-qərbdən hücuma başlayan italyan ordusu elə müharibənin ilk günlərindən darmadağın edildi. İyulun 3-də Çexiyada Sadova kəndi yaxınlığında alman ordusu Avstriya generalı Benediktin başılıq etdiyi Avstriya qoşunlarını ağır məğlubiyyətə uğratdı. Deyirlər ki, həmin gün Bismark cibində zəhər gəzdirmişdi, məğlubiyyət olacağı təqdirdə onu içib həyatla vidalaşmalı idi. Qələbədən sonra I Vilhelm və onu əhatə edən generallar müharibəni davam etdirməyi, Avstriyanı diz çökdürməyi və Vyananı tutmağı tələb edirdilər. Lakin Bismark qəti surətdə bildirmişdi ki, müharibə davam edəcəyi təqdirdə o, istefa verəcəkdir. Çünki Bismark gələcəkdə Avstriya-Almaniya İttifaqının yaradılmasını planlaşdırırdı, buna görə də Avstriya ictimai fikrində Prussiyaya qarşı qisasçılıq əhval-ruhiyyəsinin qalmasına imkan verməк olmazdı. Yalnız bundan sonra Bismarkın təkidi ilə sülhh danışıqlarına başlanıldı və avqustun 14-də Praqada Avstriya ilə sülh müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə görə, Avstriya həmişəlik Alman İttifaqından çıxır və öz hegomonluğundan imtina edirdi.

Müharibəqnin gedişində yalnız Fransanın qüvvələrini parçalamaqla Prussiyaya xidmət göstərmiş İtaliya isə Venetsiyaya sahib olurdu. İtalyan kralı II Viktor Emmanuel Triyesti və Triyenti də tələb etdikdə Bismark məsləhət görmüşdü ki, müharibəni özü təklikdə davam etdirsin. İtalyan diplomatiyası yalnız bu zaman Bismarkın uzağagedən məqsədlərində bir vasitə olduğunu dərk etmişdi.

Beləliklə, Avstriya üzərində qısa müddətə çalınan qələbə həm ordunun sürətli hücumu, həm də Bismarkın diplomatik fəaliyyəti ilə bağlı idi. Bismark diplomatiyasının böyük uğurları Almaniyanın birləşdirilməsi yolunda iki başlıca maneənin qısa müddətə aradan qaldırılmasına gətirib çıxardı. Almaniyanın birləşməsi yolunda əldə edilən uğurlar, bu birləşmənin perspektivləri, Almaniyanın Avropa geosiyasi xəritəsində yeri və əhəmiyyəti ilk növbədə Bismarkın xidmətləri ilə bağlı idi.

Knyaz Otto Eduard Leonold fon Bismark Şenhauzen XIX yüzillyin yaşıdı idi. O, 1815-ci il aprelin 1-də Almaniyanın şimalında - Şenhauzendə anadan olmuş, uşaqlıq illərini burada keçirmişdi. Məhz həmin il Avropa I Napoleon zülmündən xilas olmuş, xalqların və monarxların «Müqəddəs İttifaqı» meydana gəlmişdi. Bismarkın atası mülkədar, anası isə çinovnik ailəsindən çıxmız professor qızı idi. Bismark sonralar hərbi işi seçmədiyinə təəssüf edir və buna görə anasını günahlandırırdı, anası həmişə onu diplomatik xidmətdə görmək istəyirdi. Bismarklar ailəsinin yaşadığı bölgədə onu kifayət qədər dalaşqan, cod xasiyyətli gənc kimi tanıyırdılar. Təsadüfi deyildir ki, Bismark «vəhşi yunker» adını məhz Şenhauzendə yaşadığı illərdə qazanmışdı.

Məktəbi bitirdikdən sonra Bismark Hettinin və Berlin universitetlərində hüquq təhsili almış, bir müddət məhkəmə və mülki idarələrdə işləmişdi. Lakin «ipə-sapa yatmayan» gənc yunker tezliklə xidmətdən imtina etmiş və atası Ferdinanddan Pomeraniyada ona miras qalmış mülkdə işləməyə başlamışdı. 1848-ci ilin martında başlanmış inqilabi hadisələr zamanı Bismark artıq kifayət qədər təcrübəyə və uğura malik mülkədar idi.

XIX yüzillyin ortaları üçün Bismarkın siyasi görüşləri də kifayət qədər kamilləşmişdi. O, gənclik illərindəki yarım respublikaçıdan qatı monarxistə çevrilmiş, prus monarxiyasının ideoloqu olmaq səviyyəsinə yüksəlmişdi. Təbiətən bir qədər kobud, güclü xarakterə malik insan, mahir ovçu və duelyant kimi ad çıxarmış Bismarkla yaşadığı bölgədə kifayət qədər ehtiyatla rəftar edirdilər. Bu dövrdə Bismarkın ailə həyatında da dəyişikliklər baş vermiş, ailə qurmuş və nəticədə kral ailəsi ilə qohumluq münasibətəlri yaranmış, hətta şahzadə Vilhelmlə dostluq münasibətləri qurulmuşdu ki, bu onun gələcək həyatında mühüm rol oynamışdı.

Bismarkın siyasi səhnədə ilk çıxışı 1847-ci il mayda Birləşmiş landtaqın iclasında olmuşdur. O burada «ehtiyat deputatı» kimi iştirak edirdi. Birləşmiş landtaq Prussiyada 1847-ci il aprelin 11-də yaradılmış və feodal təbəqələrinin yığıncağından ibarət idi. Buraya 8 əyalət landtağının nümayəndələri daxil idilər. Landtaq iki kuriyadan ibarət idi: yuxarı kuriya – buraya zadəgan təbəqəsinin yüksək dairələri daxil idilər; aşağı kuriya – buraya kiçik zadəganlar, şəhərlilər və kənd varlıları daxil idilər. Bismarkın ilk çıxışı kral IV Fridrix Vilhelmin müdafiəsinə həsr olunmuşdu. O, həmin çıxışında zadəgan müxalifətini kraldan hətta xırda hüquqlar istəmək üstündə rüsvay etmişdi.

1848-ci ilin martında Almaniyada inqilab başladıqdan sonra Bismark şahzadə Vilhelmə yaxınlaşmağa müvəffəq olur. Şahzadə Vilhelm (1797-1888) 1848-ci ilin martında inqilabi top atəşləri ilə yatırmağa çağırdığına görə «top şahzadə» ləréəbi qazanmışdı. Bu dövrdən etibarən Bismarkla sıx münasibətlərə malik olan şahzadə Vilhelm 1858-ci ildə regent, 1861-ci ildə isə IV Fridrix Vilhelmin ölümündən sonra Prussiyanın kralı, 1871-ci ildə Alman imperatoru- II Reyxin başçısı olmuşdu. Bismarkın Vilhelmlə yaxınlaşması onun sonrakı həyatında və yüksəlişində böyük rol oynadı.

Bismarkın Almaniyanın gələcəyi ilə bağlı görüşləri məzmunca Prusiya hakimiyyət elitasının baxışlarından o qədər də fərqlənmirdi. Lakin nəzərdə tutulmuş planın həyata keçirilməsi yolları məsələsində mövqklər tamamilə fərqli idi. Hələ 60-cı illərin əvvəllərində Bismark öz mövqeiyni konkret olaraq aşağıdakı

şəkildə müəyyənləşdirmişdi: «Almaniya Prussiyanın liberalizminə yox, qüudrətinə möhtacdır. Zamanın böyük məsələləri parlament qətnamələri və çıxışlarla həll olunmur – bu 1848-49-cu illərin səhvləri idi – «dəmir və qanla» həll olunur».

Bismark bir qədər sonralar - 1864-cü ildə daha qəti mövqedən çıxış edərək yazırdı ki, «dövlət quruculuğu məsələləri son anda süngülərin köməyi ilə həll olunur». Tarixi – politoloji ədəbiyyatda Bismarkın «dəmir kansler» ləqəbini nə zaman qazandığı mübahisəlidir, lakin bir məsələ şubhəsizdir ki, bu ifadə Bismarkın Almaniyanın birləşdirilməsinə «dəmir və qanla» nail olmaq anlamı ilə bağlıdır. Buna oxşar ifadəni Bismark hələ 1858-ci ildəki məktublarından birində latınca «odla və dəmirlə» şəklində işlətmişdi.

Təsadüfi deyildi ki, Prussiya kralı IV Vilhelm hələ 1848-ci ildə Berlində baş vermiş iğtişaşlar yatırıldıqdan sonra Bismarkın şəxsi işinin üzərinə öz əlilə aşağıdalkı məşhur qeydi etmişdi: «Bismark qatı mühafizəkardır, qan iyi verir, sonralar istifadə etmək üçün qoruyub saxlamaq lazımdır».

1851-ci ilin mayında Bismark Frankfurtda-Maynda yerləşmiş İtsifaq Seyminə Prussiyanın əvvəlcə müşaviri, sonra isə elçi sifətilə göndərilmiş, onun buradakı fəaliyyəti 1851-1859-cu illər arasındakı 8 illik dövrü əhatə etmişdir.

İttifaq Seymi Vyana konqresini qərarı ilə 1815-ci ildə yaradılmışdı. Bu 38 alman dövlətini birləşdirən Alman ittifaqının mərkəzi aparatı idi. İttifaq Seyminə Avstriya başçılıq edirdi, Alman ittifaqı 1848- 1849-ci illər inqilabları dövrünə qədər mövcud olmuş, 1850-ci ildə Olmyuts sazişinə əsasən fəaliyyətini bərpa etmiş və 1866-cı ildə isə ləğv edilərək əvəzində yeni birlik yaradılmışdı. İttifaq Seymini «tülkü yuvası» adlandıran Bismark burada fəaliyyət göstərdiyi 8 il ərzində diplomatik işin bütün incəliklərini öyrənmiş, Avropa diplomatiyasının ənənələri ilə tanış olmuş, Vyanada olduğu qısa müddət ərzində isə Metternix diplomatik məktəbinin bütün intriqalarına yiyələnmişdi.

Bismark diplomatiyasında Rusiya və İngiltərəyə xüsusi diqqət yetirilirdi.Təsadüfi deyildi ki, 1850-1862-ci illərdə Prussiyanın Rusiyada səfiri olmuş Bismark rus diplomtiya məktəbinin ənənələri ilə yaxından tanış olmuş, görkəmli natiq və diplomat, Rusiyanın Xarici İşlər Naziri A.M.Qorçakovdan dərs almışdı. Qorçakovun inamını qazanan Bismark gündəlik diplomatik poçtla (depeyşa ilə) tanış olmaq imkanı qazanmışdı. Peterburqda olduğu zaman Bismark II Aleksandrın da hörmətini qazanmış, hətta çar ona Rusiyanın xidmətinə keçməyi təklif etmişdi.

1862-ci ildə Parisə səfir göndərilmiş Bismark fransız diplomatiyasının da bütün nailiyyətlərindən bəhrələnmişdi. Təsadüfi deyildi ki, F.Engels Bismarkı Prussiyanın Lui Napoleonu adlandırırdı. Beləliklə, Bismark Almaniyanın əhatəsinə olduğu dörd böyük dövlətin –Avstriyanın, Fransanın, İngiltərənin və Rusiyanın diplomatiyasını öyrənməklə böyük təcrübə qazanmış oldu ki, bu təcrübə Almaniyanın birləşdirilməsi prosesində böyük rol oynamışdı.

Tarixi və diplomatik ədəbiyyatlarda Bismark tez-tez Taleyran Periqorla müqayisə edilir, doğrudur, hər iki diplomatın ümumi cəhətləri çoxdur, lakin onları şəxsi keyfiyyətləri bir-birindən qəti şəkildə ayırır. Taleyran pula kifayət qədər həris adam idi, I Napoleonun sirlərini və planlarını satmaqla əvəzində pul alırdı. Məs., Rusiyadan – I Aleksandrdan bir neçə dəfə belə xidmətlərin əvəzində iri məbləğdə «bəxşişlər» almışdı. Bismarkı isə pulla satın almaq qeyri-mümkün idi. Xarici dövlətlərin diplomatlarının onu ələ almaq cəhdləri dəfələrlə boşa çıxmışdı. Bismark I Vilhelmi ona, yəni Bismarka həmişə bəraət qazandırmaq qabiliyyətinə malik idi. İmperatorun razılaşmadığı vaxtlar da Bismark istefa tələb edir və beləliklə onu razı salmağa müvəffəq olurdu.

Bismark Avropa diplomatiyasının ənənələrini bütün incəliklərinə qədər bilir və lazım gəldikdə kifayət qədər səbrli olmağı da bacarırdı. Belə ki, Avstriya ilə müharibəyə hazırlaşdığı zaman Fransanı neytrallaşdırmaq üçün Bismark əvəzində Lüksemburq və Belçikanı Fransaya təklif etdi (söhbət 1866-cı ildən gedir), III Napoleon dərhal buna razılıq verdi. Həmin təklifi əsas tutan Fransa səfiri Benedetti bir neçə dəfə Berlində Bismarkın qonağı oldu. Bismark görüş zamanı həmin təklifin sənəd şəklində imperatora təqdim edilməsinin zəruri olduğunu bildirdi və belə bir sənədi səfirdən aldıqdan sonra onu özündə saxladı. Az sonra səfirə bildirdi ki, I Vilhelm Fransanın təklifinə razıdır, lakin onun həyata keçirilməsi İngiltərənin mövqeyindən asılıdır. Bismark yaxşı bilirdi ki, İngiltərə Belçika və Lüksemburqun Fransaya verilməsi ilə heç vaxt razılaşmayacaq. Fransız diplomatiyası çox tezliklə Bismark tərəfindən aldanlıdığını başa düşdü, lakin artıq Avstriya Almaniya tərəfindən məğlub edilmiş, Avstriya diplomatiyasının Fransanın dəstəyini əldə etmək cəhdi isə uğursuzluqla nəticələnmişdi.

Fransa səfirinin verdiyi sənədi isə Bismark yalnız 1870-ci ildə Fransa Prussiya qarşı müharibə elan etdikdən sonra seyfdən çıxardı və onun surətini bütün dövlətlərə göndərdi, sənədin bir surəti isə İngiltərənin «Tayms» qəzetində nəşr edildi və Fransanın hörmətdən düşməsində az rol oynamadı. Təsadüfi deyildi ki, 1870-ci il iyunun 19-da Prussiya topları Fransanın ərazilərini atəşə tutarkən, Prus orduları fransız qarnizonlarını yerlə yeksan edərkən Avropa diplomatiyası susur və hadisələri yalnız müşahidə etməklə kifayətlənirdi.

Başqa diplomatlardan, o cümlədən də Metternixdən və Taleyrandan Bismarkı fərqləndirən başlıca cəhət onun mətbuata xüsusi fikir verməsi idi. Bismark qəzeti sevmir, hətta ona nifrət edirdi. «Mətbəə rəngləri ilə ləkələnmiş kağızın» satqın, yalançı və prinsipsiz olduğu dönə-dönə qeyd edən Bismark onun ictimai rəyə göstərdiyi təsiri düzgün qiymətləndirməyi bacarır və mətbuat ilə sıx əlaqə saxlayırdı. Ətrafındakılardan heç kəs

bilmirdi ki, hələ landtaqın deputatı olduğu vaxtlardan gizli təxəllüsdən istifadə edən Bismark jurnalistika fəaliyyəti ilə məşğul olurdu. Hakimiyyət başına gəldikdən sonra Bismark burjua-yunker mətbuatının əsas hissəsinin dövlətin xidmətinə keçirməyə müvəffəq olmuşdu. Məlumdur ki, qəzet redaksiyalarına göndərilən materiallar bəzən xüsusi məktubla müşayət olunurdu ki, həmin məktubda da materialın dövlət sənədi kimi dəyişdirilmədən çap edilməsi tələb edilirdi. Qəzet vasitəsilə Bismark ictimai rəyi müəyyən bir məsələ üzərinə yönəltməyi və ya həmin məsələdən yayındırmağı bacarırdı. Hətta istefaya çıxdığı dövrdə belə Bismark mətbuatın xidmətindən məharətlə istfadə edir, 1888-ci ildə hakimiyyətə gəlmiş Alman imperatoru II Vilhelmin xarici siyasət sahəsində «yeni kursunu», onun Rusiyadan uzaqlaşması və İngiltərə ilə yaxınlaşması siyasətini amansız tənqid edərək bu siyasətin Almaniyaya fəlakət gətirəcəyini irəlicədən proqnozlaşdırırdı.

Bismark hakimiyyətə hərbi nazir, feldmarşal Albrext fon Roonun tövsiyyəsi ilə gətirilmişdi. Avstriyanın müqavimətı üzündən Almaniyanın birləşdirilməsi məsələsini öz əlinə ala bilməyən Prussiya hökuməti ordunun yenidən qurulması məsələsini ortaya atdı. Xüsusilə, 1859-cu il səfərbərliyi pruss ordusunun hazırlıqsızlığını göstərirdi. Buna görə, hərbi nazir Roon ordunun yenidən qurulması üçün landtandan kredit almaq üçün 1861 və 1862-ci illərdə iki dəfə layihə təqdim etmişdi. Lakin landtaq hər dəfə bunu rədd etmiş və kral da hər dəfə landtaqı buraxmaq haqqında fərman verməyə məcbur olmuşdu. Yaranmış şəraitdə I Vilhelm özü də istefa verməyi planlaşdırırdı. Lakin hərbi nazir Roonun təklifi ilə I Vilhelmi nazir-prezident postuna 1862-ci il 23 sentyabrda «vəhşi yunker» Bismarkı dəvət etdi.

Bismark isə qısa müddətə hakimiyyət böhranını aradan qaldırldı, landtaqın mövcudluğuna ümumiyyətlə əhəmiyyət verməyərək hərbi büdcəni yuxarı palatadan keçirdi və onu həyata keçirməyə başladı. Xarici siyasət sahəsindəki uğurlar Bismarka imkan verdi ki, 1862-1866-cı illər «konstitusiya münaqişəsini» öz xeyrinə həll etsin. 1866-cı ildə parlament «İndemnitet haqqında» qanun qəbul etdi, yəni hökumət silahlanma və hərbi işlə əlaqədar dövlət vəsaitini büdcələşdirmədən xərcləmək hüququ qazanmış oldu, parlament isə bu büdcəni 7 ildə bir dəfə təsdiq etməli idi.

Bismark aydın görürdü ki, hərbi-bürokratik monarxiya şəraitində kralın və hərbi elitanın yardımı ilə hər hansı tədbiri həyata keçirmək mümkündür. O zaman Almaniya hərbi elitasında iki sima xüsusi nüfuza malik idi: adını qeyd etdiyimiz hərbi nazir feldmarşal Albrext fon Roon və Prussiya Böyük baş qərargahının rəisi qraf Helmut fon Moltke.

Qraf Moltke Prussiya taxt-tacını varisinin – I Vilhelmin tərbiyəçisi olmuş, buna görə də müasirləri tərəfindən «saray rəqqası» adlandırılmışdı. O, 1875-ci ildə Böyük baş qərargahın rəisi təyin edilmiş, bu zaman onun «Hərbi təlim» əsəri ortaya çıxmışdı.Həmin əsər bu günədək alman militarizminin başlıca ideya mənbəyi hesab edilir. Moltke yazırdı ki, «Bizim diplomatlar həmişə bizi bəlaya salmış, bizim generallar isə həmişə bizi xilas etmişlər».

Bismark hakimiyyətə gəldikdən az sonra və onun səyi ilə Prussiya kralı başda olmaqla hərbi elitanın da daxil olduğu «militarist triumvirat» – I Vilhelm-Bismark-Moltke «üçlüyü» yaradıldı ki, Almaniyanın bütün daxili və xarici siyasəti məsələləri bu «üçlüyün» əlində toplanmışdı.

1863-cü il Polşa üsyanı və Prussiyanın Rusiyaya bu üsyanı yatırmaqda etdiyi yardım Şlezviq-Qolşteyn məsələsində Rusiyanın bitərəfliyinə səbəb oldu. Fransanın Meksika avanturasına qoşulması (1862-1867-ci ildə III Napoleon Meksika respubliksına qarşı müdaxilə təşkil etmiş, lakin müvəffəqiyyətsizliyə uğramışdı) isə Almaniyanın vəziyyətini daha da yüngüləşdirdi. Bismark xatirələrində dönə-dönə qeyd edirdi ki, siyasi xidmətə görə haqqa verilməlidir. Bu mənada Bismarkın Rusiyadan bitərəflik tələb etməyə hüququ var idi. İri dövlətlərdən yalnız İngiltərə Bismarkın fəaliyyətinə qarşı çıxırdı, lakin Avropada yerləşən iri dövlətlərin heç birindən yardım almayan İngiltərənin etirazının heç bir praktiki əhəmiyyəti yox idi. O. Bismark məhz bununla əlaqədar Qorçakovla söhbətdə açıq surətdə etiraf etmişdi ki, Avropa siyasəti baxımından hər şey Rusiyanın mövqeyindən asılıdır, o, ya böyük hersoqu (yəni Danimarkanı) müdafiə etməli, ya da mübahisədən yayınmalıdır.

Beləliklə, Rusiya və Fransanın bitrəfliyinə nail olan Prussiya İngiltərənin etirazına baxmayaraq Avstriyanı da öz arxasınca sürükləməklə Şlezviq və Qolşteyni Danimarkanın əlindən vurub çıxardı. Bismark həmin qayda ilə Avstriyanın da Alman ittifaqından vurub çıxardı. Hələ müharibə ərəfəsində Bismark öz xarici siyasətinin başlıca nəticəsi kimi Almaniyanın birləşdirilməsini son məqsəd elan etmişdi.

Danimarka və Avstriya ilə müharibədən sonra 1866-cı ildə yaradılmış Şimali Alman ittifaqından kənarda yalnız Bavariya, Vyurtemberq, Baden və Hessen kimi alman dövlətləri qalmışdı. Bismark aydın görürdü ki, bu dövlətlərin Alman ittifaqına daxil edilməsi üçün Fransa ilə müharibə etmək lazım gələcək, çünki bu kiçik alman knyazlıqları milli baxımdın alman olsalar da, dini baxımdan katolik idilər (Fransa da katolik idi) və Fransa ilə Prussiya arasında bufer knyazlıqlar rolunu oynayırdılar. Fransa bu knyazlıqlar vasitəsilə lazım gəldikdə Alman ittifaqına təsir etmək üçün istifadə edirdi.

Məhz bu dövrdən etibarən alman baş qərargahı preventiv müharibə (müharibəyə hazırlaşan düşmənin hücumunun qarşısının almaq məqsədi daşıyan müharibə – önləyici müharibə) strategiyasının hazırlanmasına başladı ki, bu strategiyada Bismarkın və Moltkenin böyük rolu olmuşdu. Priventiv müharibə strategiyası Almaniyaya imkan verdi ki, Fransa ilə qarşıdakı müharibəyə hazırlığı daha tez başa çatdırsın. 1870-ci ilin

iyununda «hərbi triumvirat» (Bismark, Roon, Moltke) müharibə ilə əlaqədar məsləhətləşmə keçirdi. Moltke və Roon Almaniyanın müharibəyə tam hazır olduğunu bildirdilər. Yalnız bundan sonra Bismark ehtiyatda saxladığı sonuncu vasitəni işə saldı.

Fransa ilə qarşıdakı müharibə üçün bəhanə İspaniya taxt-tacını uğrunda mübarizə oldu. Məlum olduğu kimi, İspaniyada 1868-ci il hadisələri nəticəsində ispan kraliçası İzabella hakimiyyəttən salındı və ölkədən qovuldu. Beləliklə, ispan taxtı bir müddət boş qaldı. 1870-ci il iyulun 1-də vakant yerə Habsburqların Qoqenloe - Ziqmarinqen sülaləsindən olan şahzadə Leopoldun namizədliyi məlum olduqdan sonra III Napoleon buna qəti etiraz edərək bildirdi ki, Fransa eyni zamanda həm şərqdə, həm də cənubda Avstriya sülaləsindən olan adamların hökmranlığına razı ola bilməz. Tərəflərin hər ikisi tərəfindən qızışdırılan diplomatik münaqişə müharibəyə doğru kəskinləşməkdə idi. Məsələ burasında idi ki, prus imperatoru I Vilhelm Leopoldun namizədliyini dəstəkləyən ilk hökmdarların siyahısında idi.

Yaranmış vəziyyətdən qorxuya düşən Prussiya kralı I Vilhelm Bismarka və Moltkeyə bildirmədən III Napoleonla birbaşa danışıqlara başladı və şahzadə Lepoldun namizədliyini geri götürməyə razılıq verdi. Lakin Prussiyanın geri çəkilməsindən onun müharibəyə hazır olmaması nəticəsinə gələn III Napoleon Fransanı müharibəyə sürükləməklə sonuncu diplomatik səhvi etdi. Tyer hələ Meksika avantürasından sonra III Napoleonu açıq şəkildə günahlandıraraq demişdi ki, «Sizin bir hökmdar kimi artıq edə bilməyəcəyiniz səhv qalmayıb». Fransız hakimiyyət elitasından yalnız Tyer Fransanın müharibəyə hazır olmadığını bilir və onu müharibədən çəkindirməyə çalışırdı.

III Napoleon şahzadə Leonordun namizədliyini geri götürməyə nail olduqdan sonra mübahisəni daha da uzadaraq fransız səfiri Benedetti vasitəsiylə I Vilhelmdən Leopoldun bir daha öz namizədiyini irəli sürməməsi haqqında təminat verməsini tələb etmişdi. Həm də imperotorun tələbinə görə I Vilhelm Leopoldun bir daha dəstəklənməməsinə dair yalızı şəkildə təminat verməli idi.

İmperatorların yazışmalarını diqqətlə izləyən Bismark müəyyən vaxtdan sonra hadisələrə qarışmaq qərarına gəldi. Kralın cavabını saxtalaşdıran Bismark onu elə bir formaya saldı ki, «guya I Vilhelm III Napoleonun yazılı öhdəlik götürmək tələbinə cavab olaraq fransız səfirinə qapını göstərmişdir». Bismark saxtalışdırılmış məktubu əlinə götürərək «bu Qall öküzünə qarşı əla qırmızı örpəkdir» demiş və məktubu dərc edilmək üçün mətbuata göndərmişdi.

Beləliklə, Bismark bir gülləyə iki hədəfi vurmuş oldu. O, hadisələri elə şəklə saldı ki, Fransa əvvəlcə qəbul edilməsi mümkün olmayan tələblər irəli sürür, həmin tələblər rədd edildikdə isə Prussiyaya müharibə elan edir və bununla da Fransa təcavüzkar vəziyyətində qalır. Mətbuatın qaldırdığı «şivən-qiyamət» təkcə Prussiyada yox, həm də bütün Avropada mərmi partlayışı ab-havası yaratdı.

Özünü təhqir edilmiş hesab edən Fransa imperatoru III Napoleon 1870-ci il iyulun 19-da Prussiyaya müharibə elan etdi. Hərbi hazırlığı vaxtında başa çatdırmış Prussiya ordusu avqustun 4-də Veysenburq döyüşündə, avqustun 6-da Verte döyüşündə marşall Mak-Maqonun qoşunlarına ağır zərbə vurdu. Avqustun 6-da başqa bir ordu qrupu Şpixarne döyüşündə marşal Bazeni ağır məğlubiyyətə uğratdı. Avqustun ortalarında Bazenin başçılıq etdiyi fransız orduları Mets qalasına sığınmağa məcbur oldu. Mak-Maqonun ordusu isə III Napoleonla birlikdə məğlubiyyətdən sonra Sedan qalasına çəkildi və sentyabrın 2-də almanlara təslim oldu.

Fransanın belə sürətli məğlubiyyəti onun həm hərbi hazırlığı başa çatdırmaması, həm də diplomatik təcrid vəziyyətində olması ilə bağlı idi. III Napoloenun müharibə ərəfəsinədək antirus siyasəti yeritməsi Fransanı Rusiyanın yardımından məhrum etmişdi. İngiltərə isə öz daimi rəqibinin belə ağır məğlubiyyətindən son dərəcə razı qalmışdı. Diplomatik təcrid və hərbi məğlubiyyət Bismarka arzu etdiyi kimi, Almaniyanın birləşdirilməsini «dəmir və qanla» başa çatdırmağa imkan verdi. 1871-ci il yanvarın 18-də I Vilhelm Versalda XIV Lüdovikin parad zalında Alman imperatoru elan edildi, Almaniya tarixində II Reyx (1871-1918) meydana gəldi.

III Napoleonun özünə güvənməsi, Prussiya ilə və ona qarşı diplomatiyadan daha çox hərbi gücə arxalanması Fransanın ağır məğlubiyyətini şərtləndirən başlıca faktorlar idi. 1867-ci il uniyası nəticəsində yaradılmış Avstriya-Macarıstan imperiyası ilə Fransanın müharibə ərəfəsində başlamış olduğu danışıqlar nəticəsiz qaldığına görə, Avsriya 1866-cı il in əvəzini çıxmaq üsün Fransa ilə hərbi ittifaq bağlaya bilmədi. Macarıstanın baş naziri qraf D.Andraşi də inadla belə bir ittifaqın əleyhinə çıxırdı. Bismarkın primitiv müharibə diplomatiyası «zamanın sınağından» zəfərlə çıxdı.

Müharibə ərəfəsində Fransa ilə İtaliya arasında aparılan danışıqlar nəticəsiz qaldı. Səbəb kimi aradakı ziddiyyətlərin kəskinliyini və Bismarkın buna imkan verməməsini göstərmək olar. Digər səbəb isə italyan kralı I Viktor-Emanuilin İtaliyanın ərazisinin birləşdirilməsini başa çatdırmaq üçün papa dövlətinin ərazisini tələb etməsi idi. Çünki İtaliyanın birləşdirilməsi yalnız bu zaman tam şəkildə başa çata bilərdi. Halbuki Fransa buna razılıq vermək fikrində deyildi. Papa III Napoleonun ən etibarlı müttəfiqi hesab olunurdu. Fransız ordusu Sedanda məğlub olduqdan sonra 1870-ci il sentyabrın 20-də italyan qoşunları Romaya daxil oldular, Appenin yarımadasındakı pərakəndəliyə son qoyuldu və beləliklə İtaliyanın birləşdirilməsi prosesi başa çatdı.

Avropanın iri dövlətlərindən yalnız Rusiya Fransa-Rusiya ziddiyyətlərinə baxmayaraq Fransanın həddindən artıq zəifləməsini istəmirdi.Vestfalya sistemi və 1815-ci il Vyana konqresinin qurduğu sistem Avropada qüvvələr müvazinətinin yeni qaydasını formalaşdırmışdı. Bu qayda - «pentarxiya» Avropa siyasətində

beş dövlətin maraqlarının bölüşdürüməsini nəzərdə tuturdu. Tarixən İngiltərə və Rusiya Fransaya tarazlayıcı qüvvə kimi baxmış, nə həddindən artıq dərəcədə qüvvətlənməsini, nə də tamamilə zəiflədilməsini qəbul etməmişdilər. Buna görə də Rusiya Fransa-Prussiya müharibəsi nəticəsində Almaniyanın Avropada hegomon qüvvəyə çevrilməsinə Avropada yaranmış qüvvələr nisbətinə təhlükə kimi baxmağa başlamışdı.

1870-ci il 4 sentyabr inqilabı nəticəsində Fransada III respublika (1870-1940) quruldu və Milli Müdafiə hökuməti yaradıldı. Həmin hökumətin işlər müvəkkili de Qabriak inadla M.Qorçakovun Fransa-Prussiya münaqişəsinə müdaxiləsini tələb etsə də, ciddi bir köməyə nail olmamışdı. Belə ki, çar II Aleksandr bir neçə dəfə yazılı şəkildə I Vilhelmə müraciət edərək Fransanı son dərəcə ağır vəziyyətə salmamağı tövsiyyə etməklə kifayətlənmişdi ki, çarın belə hərəkəti onun Krım müharibəsinin nəticələrini hələ unutmadığını göstərirdi.

Tyer Milli Müdafiə hökumətinin təklifi ilə 1870-ci il sentyabr-oktyabr aylarında Vyanada, Romada, Londonda və Peterburqda oldu. Yalnız bundan sonra II Aleksandr sülh danışıqlarına başlamaq üçün vasitəçilik rolunu öz üzərinə götürməyə razılıq verdi. Alman ordusunun Parisdə ciddi müqavimətlə qarşılaşması, yeni fransız ordusunun yaradılmağa başlaması Bismarkı da sülh danışıqlarına sövq edirdi. 1871-ci il yanvarın 28-də - Almaniyanın imperiya elan edilməsindən 10 gün sonra Milli Müdafiə hökuməti Almaniya ilə barışıq imzaladı.

Müharibə başa çatdırdan dərhal sonra Bismark Rusiyanın bitrəfliyi müqabilində 1856-cı il Paris sülhünün şərtlərinə yenidən baxılmasına razı olduğunu bildirdi. Napoleon Fransasının məğlubiyyəti bu sülhün şərtlərinin dəyişdirilməsinə tam imkan yaratmışdı. Yeni beynəlxalq şərait M.Qorçakovun ardıcıl olaraq apardığı siyasi kursun diplomatik yolla realaşmasına imkan yaratdı. Rusiya 1870-ci il oktyabrın 31-də 1856-cı il Paris sülhünün iştirakçısı olan bütün dövlətlərə müraciət edərək bildirdi ki, Paris sülhünün şərtləri həmin dövlətlər tərəfindən mütəmadi olaraq pozulduğuna görə, həmin sülhün Qara dənizdə Rusiyanın hüquqlarını məhdudlaşdıran bütün bəndləri etibardan salınmış hesab edilir. M.Qorçakov xüsusi olaraq qeyd edirdi ki, Rusiya hökumətinin qərarı qətidir və heç bir komprmisə yol verilməyəcəkdir.

Rusiyanın müraciəti İngiltərə və Avstriya-Macarıstan tərəfindən böyük narazılıqla qarşılandı. Lakin İngiltərə-Prussya danışıqlarından sonra, İngiltərə öz mövqeyini dəyişdirmək məcburiyyətində qaldı. O.Bismarkın təklifi ilə 1871-ci ilin yanvarında Londonda Paris sülh müqaviləsinin imzalanmasında iştirak edən dövlətlərin beynəlxalq konfransı çağırıldı. Konfransda Rusiyanı Brunov təmsil edirdi. İngiltərə hökuməti Bismarkı bu məsələdə günahlandırsa da, Bismark qəti şəkildə bildirdi ki, problemin qoyuluşu ilə bağlı heç bir öhdəliyə malik deyildir. 1871-ci il matrın 13-də konvensiya imzalandı.

London Konvensiyasına görə, Paris sülhünün üç bəndi (Qara dəniz boğazlarının bağlanması, hərbi gəmilərin sayı, sahilboyu müdafiə tikililərinin ləğv edilməsi) yeniləşdirildi. Rusiyanın tələbi ilə Qara dəniz boğazları sülh və müharibə dövründə hərbi gəmilərin üzünə bağlanır (sultan əgər istəsəydi «dost və müttəfiq hesab etdiyi dövlətlərə» boğazları aça bilərdi), Rusiya Qara dənizdə hərbi donanma saxlamaq hüququ qazanır, habelə sahilboyu istehkamların tikintisinə başlamaq hüququ qazınırdı.

Rusiyanın vasitəçiliyi ilə aparılmış danışıqlar nəticəsində fevralın 26-da Versalda ilkin saziş bağlandı. Sazişə görə, Almaniya Elzası və Şərqi Lotaringiyanı ilhaq edir, Fransadan 5 mlrd frank məbləğində təzminat alırdı. O.Bismark Fransadan 7 mlrd frank təzminat tələb etməklə əslində diplomatik oyun oynayırdı. O yaxşı bilirdi ki, Rusiya təzminatın məbləğinin azaldılması ilə bağlı I Vilhelmdən xahiş edəcək. Buna görə də 7 mlrd frank təzminat tələb etmişdi ki, Rusiyanın xahişindən sonra həmin məbləği 5 mlrd franka endirsin, buna da nail olmuşdu.

Uzun müddətli diplomatik danışıqlardan sonra 1871-ci il mayın 10-da Frankfurt-Mayında Fransa ilə Almaniya arasında sülh müqaviləsi imzalandı. Müqavilə 26 fevral sazişinin şərtlərini təsdiq edirdi. Bismark aydın şəkildə görürdü ki, 1870-ci illər müharibəsi Fransa ilə Almaniya arasında əsrlər boyu davam edən antoqonizmi zəiflətmədi, əksinə daha da qüvvətləndirdi, belə bir şəraitdə bu iki dövlət arasında gələcək müharibə labüd idi. Bunu nəzərə alan Alman Baş qərargahı Almaniya üçün daha əlverişli strateji mövqelər qazanmaq istəyirdi.

Frankfurt-Mayn sülhündən üç ay sonra, Peterburqdan Berlinə keçirilmiş işlər müvəkkili Qabriakla söhbətində Bismark açıq şəkildə bildirmişdi ki, «Mets qalasını Almaniyanın əlində saxlamaq bizim tərəfimizdən ağılsızlıq olardı. Lakin baş qərargah məndən Fransanın əvəz çıxmayacağına təminat istədiyi zaman mən bildirdim ki, belə bir təminatdan söhbət gedə bilməz, 1870-ci illər müharibəsi gələcək Almaniya- Fransa müharibələrinin ilkinidir. Belə olduqda müharibədə yüz min nəfərə bərabər Mets qalasını özümüzdə saxlamalıyıq. Elzas və Lotaringiya haqqında da eyni sözləri demək olar, əgər bizim aramızda sülh əbədi olsaydı, bu vilayətlərin bizdə saxlanılması səhv olardı, çünki bunlar bizə əlavə yükdür». Qabriak cavabında «bu əyalətlər arxasında Fransanın durduğu yeni Polşaya çevriləcəklər» demişdir.

Strateji əhəmiyyətinə görə Elzas müdafiə, Lotaringiya isə hücum əməliyyatların üçün mühüm əhəmiyyətli platsdarm idi. Digər tərəfdən Lotaringiya dəmir filizi ilə zəngin rayonlardan biri idi. Frankfurt-Mayn sülhü əslində I dünya müharibəsinin təməl daşlarını qoymuş oldu.

Almaniyanın birləşdirilməsi başa çatdıqdan sonra Bismark ittifaqlar siyastəinə xüsusi əhəmiyyət verməyə başladı ki, bu təsadüfi deyildi. Çünki Almaniyanın birləşdirlməsi Avropada yeni qüvvələr nisbəti yaratmışdı. Yaranmış şəraitdə Avropa dövlətlərinin Almaniyaya qarşı ittifaq yaratması ehtimalı həqiqətə yaxın

idi. Buna görə də Bismark ilk növbədə Rusiyaya, Avstriyaya və İtaliyaya analoji müraciətlər etmiş, son nəticədə «Üç impertaor ittifaqı» adını almış siyasi məsləhət birliyinin–Rusiya-Almaniya-Avstriya-Macarıstan ittifaqının yaradılmasına nail olmşudu. Bu ittifaq 1873-cü il iyunun 6-da Vyanada meydana gəlmişdi. Əvvəclə Rusiya ilə Avstriya arasında müqavilə bağlanmış, daha sonra - 1873-cü il 3 oktyabrda Almaniya da bu məsləhət paktiına qoşulmuşdu. İttifaq müqaviləsi 1884-cü ildə daha üç illiyə uzadıldı və 1887-ci ildə ikitərəfli Rusiya-Almaniya gizli hərbi-siyasi paktına çevrilmişdi. Paktın başlıca məqsədi Fransaya qarşı gələcək müharibədə onun tam şəkildə təcrid edilməsinə nail olmaq idi. Təsadüfi deyildir ki, sonuncu müqavilənin politoloji ədəbiyyatda «təkrar sığorta müqaviləsi» adlandırırlar.

Fransaya qarşı ittifaqlar siyasətini davam etdirən Bismark 1879-1882-ci illərdə yeni hərbi-siyasi birliyin - Üçlər ittifaqının yaradıcısı oldu. Bu birlik 1879-cu il sentyabrın 7-də Almaniya ilə Avstriya-Macarıstan arasında imzalanmış ittifaq müqaviləsinə əsasən təşəkkül tapmışdı. 1882-ci ilin mayın 20-də Almaniya, Avstriya-Macarıstan və İtaliya arasında Vyanada hərbi ittifaq haqqında gizli müqavilə imzalandı ki, nəticədə Avropada ilk qüdrətli, müharibə hazırlığını qarşısına məqsəd kimi qoyan hərbi-siyasi birlik yarandı.

Fransa-Prussiya müharibəsindən sonra Fransa 1873-cü il üçün təzminatı bütünlüklə ödədi və alman qoşunları Fransanın şimal vilayətlərini tərk etdi.

Beləliklə, Bismarkın «preventiv müharibə» diplomatiyası Almaniyanın birləşdirilməsi prosesinin hərbi-siyasi və diplomatik yolla başa çatmasına gətirib çıxardı.

**Mövzuya dair suallar**

1. Almaniyanın birləşdirilməsi ərəfəsində beynəlxalq vəziyyət
2. Bismarkın Almaniyanın birləşdirilməsi planı
3. Şlezviq, Qolşteyn və Lauenberq məsələsinə Rusiyanın, İngiltərənin, Avstriya və Fransanın münasibəti
4. Prussiya-Danimarka müharibəsi və Qaşteyn konvensiyasının imzalanması
5. Bismarkın diplomatik fəaliyyəti və Avstriya-Prussiya müharibəsi
6. Fransa-Prussiya müharibəsi ərəfəsində Avropa ölkələri arasında diplomatik mübarizə
7. Fransa-Prussiya müharibənin gedişi və beynəlxalq nəticələri
8. 1856-cı il Paris sülh müqaviləsinin şərtlərinin ləğvi
9. Versal sazişi və Franskfurt-Mayn sülhü
10. Almaniyanın birləşdirilməsi və beynəlxalq nəticələri
11. O.Bismarkın «Üç imperator ittifaqı» və Üçlər ittifaqının yaradılması uğrunda mübarizəsi

**Ədəbiyyat**


1. Бисмарк О. Мысли и воспоминания. Т. 1-3, М., 1940
2. Галкин И.С. Объединение Германии М., 1951
3. Галкин И.С. Создание германской империи. М., 1986
4. Ерусалимский А.С. Бисмарк: дипломатия и милитаризм. М., 1968
5. Ерусалимский А.С. Внешняя политика и дипломатия германского империализма в конце XIXв. М.. 1951
6. Ерусалимский А.С. Германский империализм: история современность. М., 1964
7. Нарочницкая Л.И. Россия и война Пруссии в 60-х годах.
8. Ревуненков В.Г. Приход Бисмарка к власти (Польша и борьба в Пруссии 1859-1862.), Л., 1941
9. Ревуненков В.Г. Польское восстание 1863г. и европейская дипломатия. Л., 1957
10. Ростс Л.К. Шлезвиг-Голштинский вопрос и политика европейский держав в 1863-1864гг.
11. Ротштейн Ф.А. Международные отношения в конце XIXв. М., 1960
12. Ротштейн Ф.А. Из истории Прусско-Германиской империи. М-Л., 1948
13. Хвостов В.М. Франск-русской союз и его историческое значение. М., 1955

# NƏTİCƏ

Dünya tarixinin qədim, orta əsrlər, yeni və ən yeni dövrlərə bölünməsi müasir elmi düşüncə baxımından müxtəlif sivilizasiyaların inkişaf və əvəzlənmə tarixidir. Oxuculara təqdim edilən dərslikdə sivilizasiyanın müxtəlif mərhələlərində dövlətlər arası münasibətlər yaranma, inkişaf və yeniləşmə prosesində araşdırılır, Misir və Mesopotamiyadan tutmuş, ərəb və Frank dövlətləri arasındakı münasibətlərə, Otuzillik mühüribədən tutmuş müstəmləkə müharibələrinə, Vyana sisteminin yaradılmasından Almaniyanın birləşdirilməsinə qədər diplomatiya tarixinin müxtəlif hadisə və proseslərinə müasirlik yönümündən işıq salınır. Dövlətlərarası münasibətlərin sivilizasiyasının müxtəlif mərhələlərində aparıcı rola malik olması həmişə etiraf olunmuşdur ki, bunun idraki, nəzəri və praktiki kökləri minilliklərin dərinliklərindədir.

Tarixin orta əsrlər dövründə alimlər dünya tarixini dörd monarxiyanın inkişaf tarixinə bölürdülər: a) Asuriya - Babilistan monarxiyası; b) Midiya - İran monarxiyası; v) Yunan-Makedoniya monarxiyası; q) Roma monarxiyası. Qədim hətta Bibliya ənənələrindən bəhrələnən bu bölgü tarixi bilgilərin ö dövrkü səviyyəsini əks etdirməsinə baxmayaraq elmi fikir bir həqiqəti dərk etmişdi. Bu tarxi inkişafın dövlətlərin və dövlətləarası münasibətlərin inkişafı ilə bağlanması idi.

Sivilizasiyanın ən qədim dövrlərdindən monarxiyalar və cəmiyyətlərarası münasibətlər adət-ənənələr və yeni normalar üzərində formalaşan dünya qaydasını şərtləndirirdi. Dövlətlərin yaranmasına, inkişafına və məhv olmasına, cəmiyyətlərin bir-birini əvəz etməsinə baxmayaraq dünya qaydası təkamül prosesini yaşayırdı, mərhələdn-mərhələyə zənginləşir, təkmilləşir və formaca dolğunlaşır, əhatə dairəsi genişlənirdi. Məhz bu prosesdə elmi-ictimai fikir də zənginləşir, yaranmaqda olan yeniliklərə uyğun olaraq ümumiləşdirmələr aparır, fərdi-tipik münasibətləri müəyyənləşdirir, qanunauyğunluq və kateqoriyaların mahiyyəti açılıb göstərilirdi.

Bəşər tarixinin qədim və orta əsrlər dövrü ayrı-ayrı dövlət xadimi və sərkərdələrin işğalçı yürüşləri nəticəsində yaradılmış yüzlərlə irili-xırdalı dövlət birləşməsinin adını qoruyub çaxlamışdır. «Dövlət həmişə cəmiyyət içərisindən meydana gələn və yalnız… idarəetməklə məşğul olan bir qrup adamlardan ibarət müəyyən bir aparat olmuşdur» - deyən V.İ.Lenin səhv etmirdi.[1]Tarix boyu dövlətlər imperiyalar siyasət meydanında görünmüş, beynəlxalq münasibətlərdə öz sözün demiş, silinib getmişlər. Belə böyük imperiyalara Makedoniyalı İskəndərin imperiyasını, Qədim Roma imperiyasını, Monqol imperyasını, XIV-XV əsrlərin hüdudunda meydana gəlmiş Teymuri imperyasını, Müqəddəs Roma imperyasını və s. göstərmək olar.

Orta əsrlərin dərinliklərində yaranmaqda olan humanist dünyagörüşü dövlətlərarası münasibətlərin inkişafına dair baxışları ilə yeni epoxanın əsaslarını qoydular. Təsadüfi deyildi ki, Qərb politoloji fikri yeni tarixi mərhələnin yaranmasını məhz humanizm ideyalarının pərvəriş tapdığı dövrdən götürürlər. Avropa monarxları humanistlərin xidmətindən məmnuniyyətlə istifadə edirdilər. Qədim dünmyanın zəngin təcrübəsini, elmi-ictimai fikrini dirçəldən, ona yeni məzmun verən humanistlər dövlətləararası münasibətlərin protokol qaydalarına öz möhürlərini vurdular. Dövlət xadimləri, rəsmi şəxslər nəinki geyimləri, davranış normaları, hətta ədaları ilə də cəmiyyətdən seçilirdilər. Dövlətlətarası əlaqələr isə daha mütəmadi xarakter daşımağa başlayır, tədricən xarici əlaqələrin aparılması hər hansı dövlətdə bir qrup adamın peşə məşğuliyyətinə çevrilirdi.

Dövlətlərarası münasibətlərin genişlənməsində qlobal dəyişikliklər böyük coğrafi kəşflərlə bağlıdır. Bu nəinki istehsal münasibətlərində köklü dəyişikliyi şərtləndirdi, dövlətlərarası əlaqələr intensivləşdi, habelə müstəmləkələrin ələ keçirilməsi uğrunda o dövrkü dünyanın cahangir dövlətləri arasında ölüm-dirim savaşı başladı, dünya müstəmləkə sistemi yarandı, dünya kapitalist inkişafı yoluna qədəm qoydu, əmtəə istehsalı və ixracı tarix etibarı ilə olduqca qısa müddətə az qala ümumplanet miqyası aldı.

Dünya miqyaslı qlobal dəyişikliklər elmi-ictimai fikrin də diqqətindən yayınmırdı. XIX yüzilliyin dünya şöhrətli alim-sosioloqlarından L.İ.Meçnikovun «Sivilizasiya və böyük tarixi çaylar» əsəri məhz belə dəyişikliklərin təsiri ilə yaranmışdı. Müəllifə görə, sivilizasiyaları da, dövlətləri də «çay-su» yaratmışdır və bu baxımdan dünya tarixinin üç epoxaya bölmək olar:

- Qədim sivilizasiyalar dövrü;
- Aralıq dənizi dövrü;
- Okeanlar dövrü.

Dərindən diqqət yetirildikdə Böyük coğrafı kəşflərdən başlayan okean dövrü müasir geosiyasi nəzəriyyələrin çıxış nöqtəsini təşkil edir. Okean dövlətləri kimi əvvəlcə Bizans imperiyası və Osmanlı Türkiyəsi, sonralar İspaniya, Portuqaliya, Fransa və Ingiltərə dünyanın siyasi xəritəsini tamamlayırlar. Avropa dövlətlərinin cəbhələşib bir-birinə qarşı vuruşduğu Otuzillik müharibə isə yeni qlobal dünya qaydasının - Vestfaliya sisteminin formalaşması ilə başa çatdı ki, bu beynəlxalq münasibətlərin sistem dəyişikliyi idi. Sistem - beynəlxalq münasibətlərin konkret zaman və məkan hüdudlarında olan elə qaydasıdır ki, universallıq xüsusiyyətləri ilə səciyyələnir, varisliyi saxlayır, təkamül və radikal dəyişikliklər prosesini yaşayır, dünya qaydasını müəyyənləşdirir və adaptasiya olunur. Beynəlxalq qaydanın başlıca xüsusiyyətlərindən biri isə dövlətlərarası qüvvələr müvazinətinin mövcudluğu və qarşılıqlı münasibətlərin daimi xarakter daşımasıdır.

---

[1] Lenin V.İ. Dövlət haqqında. Əsərəri, 29-cu cild, s.484

Vestfaliya sisteminin yaranması ilə başlanan yeni dövr dövlətlərarası münasibətlərə də bir sıra dəyişikliklər gətirdi. Tədricən əvvəlcə Avropanın, daha sonralar dünyanın siyasi xəritəsi formalaşmağa başladı, yeni yaranmaqda olan dövlətlərlə tamamlandı. Vestfaliya sisteminin sabitliyi qüvvələr balansına əsaslanırdı ki, on beş ilə yaxın davam edən Napoleon müharibələri dövründə bu balans pozuldu və Vyana sisteminin formalaşması ilə dünya qaydasının yeni nizamı – «pentarxiya» formalaşmasıdı, «Avropa konserti»nin iştirakçıları qısa zaman kəsiyində olsa da, legitimliyi əsas götürməklə dövlət maraqlarının pozulmamasına riayət etdilər.

Vyana sistemi varisliyi saxladı, Avropanın yeni sərhədləri tədricən hamılıqla etiraf olundu. Bununla belə, dünya nizamı təkmilləşdirməkdə davam edirdi. Yeni tarixin I dövrünün (1640-1870) əlamətdar hadisələri içərisində Amerika Birləşmiş Ştatlarının, vahid alman və italyan dövlətlərinin yaranması beynəlxalq münasibətlər sisteminin tamamlanması baxımından əhəmiyyətlidir.

Beynəlxalq münasibətlər tarixinin ən qədim zamanlardan XIX yüzilliyin 70-ci illərinin əvvəllərinə qədər olan dövrünü əhatə edən bu dərslik müəllifin uzun illər Bakı Dövlət Universitetinin «Beynəlxalq münasibətlər və beynəlxalq» fakültəsində «Beynəlxalq münaibətlər» ixtisası üzrə oxuduğu mühazirələrə əsasən hazırlanmaqla, elmi auditoriyanı və oxucuları beynəlxalq münasibətlər tarixinin ayrı-ayrı mərhələləri və epizodları ilə tanış etmək məqsədi daşıyır.